H.M.TAHİROVA



# NAXÇIVAN MUXTAR RESPUBLİKASINDA MİQRASİYANIN DEMOQRAFİK PROSESLƏRƏ TƏSİRİNİN İQTİSADİ – COĞRAFİ PROBLEMLƏRİ

Hörmətli Elbrus müəllimə ən xoş arzularla müəllifdən 05.09.2016

**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**

**akad. H.Ə.ƏLİYEV adına COĞRAFİYA İNSTİTUTU**

**H.M. TAHİROVA**

105694

# NAXÇIVAN MUXTAR RESPUBLİKASINDA MİQRASİYANIN DEMOQRAFİK PROSESLƏRƏ TƏSİRİNİN İQTİSADİ – COĞRAFİ PROBLEMLƏRİ

Azərbaycan Milli Kitabxanası

"Avropa"

**Bakı – 2016**

(2A-5Ha)-25

*AMEA akademik H.Ə.Əliyev adına Coğrafiya İnstitutu Elmi Şurasının 02mart 2016-ci il tarixli (03 saylı protokol) qərarı ilə nəşr olunur*

***Elmi redaktor:*** **c.e.d. prof. V.Ə. Əfəndiyev**

***Rəyçilər:*** **c.e.d. prof. T.G. Həsənov**

**c.e.d. Z.N. Eminov**

**T-28. H.M.Tahirova** Naxçıvan Muxtar Respublikasında miqrasiyanın demoqrafik proseslərə təsirinin iqtisadi-coğrafi problemləri. Bakı, 2016, 206 səh.

*Naxçıvan Muxtar Respublikasında demoqrafik proseslərin inkişaf xüsusiyyətləri və bu prosesə təsir edən miqrasiyanın iqtisadi-coğrafi aspektlərini araşdırmaqla, daxili və xarici miqrasiya proseslərinin istiqamətləri və səbəbləri müəyyənləşdirilmiş, bu sahədə yaranan problemlərin aradan qaldırılması və nizamlanması məqsədilə müvafiq təklif və tövsiyələr hazırlanmışdır.*

*Monoqrafiya bu sahədə tədqiqat işləri aparan elmi işçilər, bakalavr və magistr pilləsində təhsil alanlar və geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.*

**T** $\frac{4702060104-18}{8032-2016}$ *Qrifli nəşr*

ARXİV

*© «AVROPA»nəşriyyatı-2016*
*©H.M.Tahirova, 2016*

## İXTİSARLARIN SİYAHISI

**AB**-Avropa Birliyi
**Aİ**-Avropa İttifaqı
**AŞ**-Avropa Şurası
**ABŞ**-Amerika Birləşmiş Ştatları
**AR**-Azərbaycan Respublikası
**BMT**-Birləşmiş Millətlər Təşkilatı
**BMqT**-Beynəlxalq Miqrasiya Təşkilatı
**QHT**-Qadın Hüquqları Təşkilatı
**DMX**-Dövlət Miqrasiya Xidməti
**KİV**-Kütləvi İnformasiya Vasitələri
**MDB**-Müstəqil Dövlətlər Birliyi
**MƏR**-Misir Ərəb Respublikası
**NMR**-Naxçıvan Muxtar Respublikası
**İEÖ**-İnkişaf Etmiş Ölkələr
**İEOÖ**-İnkişaf Etməkdə Olan Ölkələr
**İİR**-İran İslam Respublikası
**ÜDM**-Ümumi Daxili Məhsul
**ÇXR**-Çin Xalq Respublikası
**PİR**-Pakistan İslam Respublikası
**RF**-Rusiya Federasiyası
**SSRİ**-Sovet Sosialist Respublikaları İttifaqı

# GİRİŞ

Bəşər tarixinin inkişafında çox mühüm rol oynayan miqrasiya proseslərinin elmi-metodiki, elmi-təcrübi, iqtisadi-coğrafi aspektlərinin öyrənilməsi mühüm vəzifə kimi qarşıda durur. Bu zaman problemlərin nəzəri-metodoloji təhlilinə, anlayışların və kateqoriyaların dəqiqləşdirilməsinə ehtiyac yaranır.

Miqrasiyanın nizamlanması bütün ölkələrdə daxili siyasətin əsas istiqamətlərindən biridir. Müasir dövrdə heç bir ölkə düşünülmüş miqrasiya siyasətini formalaşdırmadan öz milli təhlükəsizliyini, insan və əmək ehtiyatlarının optimal balansını, davamlı sosial–iqtisadi yüksəlişini təmin edə bilməz. Bütün bunlar isə öz növbəsində obyektiv, nəzəri və təcrübi cəhətdən mükəmməl işlənmiş miqrasiya konsepsiyası və dövlət proqramlarının yerinə yetirilməsinə əsaslanır.

Əhalinin miqrasiyası məhsuldar qüvvələrin inkişaf prosesinin ünsürlərindən biri olub, sosial–iqtisadi amillərlə əlaqədar baş verir. Hazırda iqtisadiyyatın inkişafına əsaslanan əhalinin miqrasiyasının bütün prosesləri geniş vüsət almış və təkcə bir ölkə hüdudları daxilində deyil, daha qlobal miqyasda baş verir. Azərbaycanın tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında əhalinin başqa regionlara miqrasiyasının səbəbi həm sosial şəraitin çətinliyi, həm də qazanc üçün iş yerləri ilə təmin olunma tələbatıdır. Yaranmış vəziyyət demoqrafik proseslərə ciddi təsir göstərir. Bunları nəzərə alaraq tədqiqat işinin sosial-iqtisadi cəhətdən aktual olduğunu hesab edirik.

Hər il respublikada miqrasiya prosesində on minlərlə əhali iştirak edir. Respublikamızın müasir sosial–iqtisadi və demoqrafik inkişaf xüsusiyyətləri əhalinin miqrasiya



prosesinin elmi cəhətdən tədqiq edilməsini mühüm vəzifəyə çevirmişdir.

Problemin aktuallığını və onun öyrənilməsinin vacibliyini göstərən mühüm amillərdən biri 1990-cı ildən başlayaraq Naxçıvan Muxtar Respublikasında yaranmış sosial-iqtisadi vəziyyətlə əlaqədar əhalinin bir qisminin xarici ölkələrə getməsi, kənd yerlərindən əhalinin şəhərlərə köçməsi və s.-dir. Bu prosesin mənfi təsirlərinin qarşısının alınması üçün bir çox tədbirlər həyata keçirilmiş, mövcud müəssisələrin əksəriyyətinin fəaliyyəti bərpa edilmiş, yeni müəssisələr tikilib istifadəyə verilmiş, yeni iş yerləri açılmış, əhalinin əmək haqları və təqaüdləri artırılmış, kənd yerlərinin sosial bazası yaxşılaşdırılmış, nəticədə kortəbii miqrasiya halları xeyli azalmışdır. Mövzunun tədqiqini aktuallaşdıran amillər arasında miqrasiya proseslərinin demoqrafik vəziyyətə təsiri (əhalinin cins, yaş tərkibinin dəyişilməsi və s.), regionun iqtisadi-coğrafi, geosiyasi mövqeyi də xüsusi qeyd olunmuşdur.

İlk dəfə olaraq Naxçıvan Muxtar Respublikasında əhalinin miqrasiyası və onun demoqrafik proseslərə təsirinin iqtisadi-coğrafi problemləri tədqiqat obyekti kimi öyrənilmiş, "kəfkirvarı miqrasiya" tərəfimizdən kompleks şəkildə tədqiq olunmuş, regionda daxili və xarici miqrasiyanın istiqamətləri və səbəbləri iqtisadi-coğrafi aspektdə tədqiq edilmişdir.

Kitab Naxçıvan Muxtar Respublikasında miqrasiya proseslərinin tənzimlənməsində, bununla əlaqədar demoqrafik problemlərin həll edilməsində və məskunlaşmanın nizamlanmasında metodik əsas kimi istifadə edilə bilər.

# I FƏSİL
# ƏHALİ MİQRASİYASININ ÖYRƏNİLMƏSİNİN ƏHƏMİYYƏTİ VƏ NƏZƏRİ METODOLOJİ ƏSASLARI

## 1.1. Müasir dövrdə əhali miqrasiyasının öyrənilməsinin iqtisadi-coğrafi metodologiyası

Qloballaşma dövründə ölkələrin inkişafında çox mühüm rol oynayan miqrasiya prosesləri hər bir regionun üzləşdiyi çoxşaxəli mürəkkəb hadisə kimi olduqca müxtəlif elmi aspektlərə malikdir. Məhz buna görə də, problemin nəzəri metodoloji təhlili, anlayışların və kateqoriyaların dəqiqləşdirilməsi ilk məsələlərdən biridir. Müasir inkişaf üçün bütün səviyyələrdə reallığın dəyişməsi səciyyəvidir. Bu baxımdan cəmiyyətin inkişafı ilə əlaqədar olaraq miqrasiya prosesləri çevik transformasiyaya uğrayan sahə olduğu üçün onun tədqiqində istifadə olunan anlayışların məzmunu da yeniləşir və dəqiq ifadəsini tələb edir.

Miqrasiyanın elmi izahı ilk dəfə XIX əsrdə E. Ravenşteyn tərəfindən verilmişdir və onu "insanın öz yaşayış yerini daimi yaxud müvəqqəti dəyişməsi" kimi şərh etmişdir .

Ümumilikdə götürdükdə, keçmiş ittifaqda, o cümlədən də respublikamızda miqrasiya proseslərinin əsaslı sürətdə tədqiq edilməsinə 60-70-ci illərdən başlanılmışdır. Çünki 30-cu illərdə demoqrafik və miqrasiya proseslərinin öyrənilməsi qadağan edilmişdir. 1954–cü ilin Sovet Ensklopediyasında "miqrasiya" anlayışının mahiyyəti kölgədə qalmışdır. Yalnız 1959–cu ildə onun ensiklopedik şərhi bərpa edilmişdir.

1960-cı ildən sonra elmi ədəbiyyatda miqrasiyanın məzmun və mahiyyəti ilə bağlı bir sıra təşəbbüslər ortaya



atıldı. Bu sahədə B.S. Xorev, V.İ. Perevedentsev, A.U. Xomra, M.M. Allahverdiyev və b. xüsusi xidmətləri vardı.

BMT tərəfindən 1958–ci ildə nəşr edilmiş lüğətdə miqrasiya "əhalinin demoqrafik planda hərəkəti və yerdəyişməsinin ən mühüm istiqaməti kimi" izah edilir. 1989–cu ildə Miqrasiya üzrə Beynəlxalq Təşkilatın 59–cu sessiyasında "miqrasiya" və "miqrant" anlayışlarına belə şərh verildi. "Miqrasiya hər bir dövlətin inkişafının ayrılmaz hissəsidir. İstər əhalinin tərk etdiyi, istərsə də yaşamaq üçün seçdikləri dövlətlər, yerdəyişmənin səbəbindən asılı olmayaraq bu proseslərlə üzləşirlər. Miqrant bir regiondan digərinə hərəkət edən Beynəlxalq Təşkilatların həyata keçirdiyi, beynəlxalq miqrasiya xidmətinə ehtiyacı olan şəxsdir.

Miqrasiyanın növləri-daxili miqrasiyalar, xarici miqrasiyalar, bir istiqamətli (geri dönməyi nəzərdə tutmayan), daimi yaşayış yerinə emiqrasiya, müvəqqəti (qayıdışı nəzərdə tutulan), uzun müddətli (6 aydan çox müddətə davam edən), mövsümi, köçərilik və ziyarət məqsədli, rəqqasvari (daimi gediş və qayıdış), epizodik, tranzit (sərhədyanı), əks istiqamətli, dönüş məqsədli miqrasiya (məs: İsrail dövlətinin repatriasiya proqramı) və s-dir.

Miqrasiya prosesində insanın öz yaşayış yerini şəxsi, azad seçimi ilə və ya məcburi zorakılıq səbəbindən dəyişməsini səciyyələndirmək üçün könüllü və məcburi miqrasiya növləri fərqləndirilir.

Məcburi miqrasiya prosesi (qaçqın və məcburi köçkünlərin sayının artması) müasir dövrün ən mürəkkəb qlobal problemlərindən birinə çevrilmişdir. Məcburi miqrasiya problemi bütün dünyada olduğu kimi Azərbaycanda da, xüsusilə də son iyirmi ildə ən böyük narahatlıq və gərginlik yaradan hadisələrdən biridir.

1951-ci ildə qaçqınların əsas hissəsi avropalılar idisə, bu gün afrika və asiyalılar üstünlük təşkil edir. Son dövrlərdə hadisələrin gedişatı göstərir ki, qaçqınların yerdəyişməsi fərdi yox daha çox kütləvi xarakter daşıyır və bu kütlənin də 80%-ni qadın və uşaqlar təşkil edir.

Miqrasiyanın təsnifat sistemlərinə gəldikdə onun forma, səbəb, mənbə, mərhələ və s. üzrə uyğunlaşdırılması, miqrasiya hərəkətinin təsnifi sahəsindəki mövqeləri də müxtəlifdir. Formasına görə miqrasiyanın ictimai baxımdan təşkil olunmuş və təşkil olunmamış, səbəblərinə görə-iqtisadi, sosial, mədəni, siyasi, hərbi və s. ayrılır.

Mərhələlərinə görə-qərarın qəbul edilməsi (getmək və gəlmək barədə), məkanda yerdəyişmə, adaptasiya və inteqrasiya kimi növlərə qruplaşdırılmışdır.

Təsnifat üçün hansı meyarların seçilməsindən asılı olaraq miqrasiyanın təsnif sistemləri çoxşaxəlidir. Məs; Müxtəlif regionlar arasında miqrasiya prosesi "üfüqi" və "şaquli" proseslər kimi qruplaşdırılır. Yaşayış məntəqələri müxtəlif statusa və miqyasa malikdir. İri, mərkəz hesab olunan paytaxtlar, azsaylı əhali yaşayan şəhərlər mövcuddur. Bu baxımdan eyni statuslu ərazilərarası miqrasiya "üfüqi", insanların maddi həyat səviyyəsinin daha yüksək olduğu regionlara, şəhərlərə axını isə "şaquli" miqrasiya adlandırılır.

Azərbaycan tədqiqatçıları miqrasiyanın növləri üzrə bölgüsünü belə fərqləndirirlər; xarici (ölkəyə getmək və ya ölkəyə gəlmək), ölkədaxili, daimi, dövrü və ya vaxtaşırı (bir yaşayış yerindən digərinə işə və təhsilə müntəzəm (gündəlik) yerdəyişmə), epizodik (müxtəlif istiqamətlərdə müntəzəm işgüzar və ya digər səfərlər və nikah mühacirəti (ailə qurmaqla əlaqədar yaşayış yerinin dəyişməsi)).



Həmçinin miqrasiya proseslərinin iqtisadi-coğrafi və sosial aspektdən öyrənilməsində Ə. M. Hacızadə [43], A. A. Nadirov [62], Ş. M. Muradov [56], V. Ə. Əfəndiyev [38], N. H. Əyyubov [37], S. S. Mehbalıyev [50], E. Q. Mehrəliyev [53], P. K. İskəndərov [50], S. Q. Nağıyev [107], Z. N. Eminov [35] və b. tədqiqatçıların müxtəlif fikir və mülahizələri mövcuddur.

Miqrasiyanın daxili və xarici növlər üzrə bölgüsü şərti xarakter daşıyır. Rəsmi statistikada ölkədaxilində yaşayış yerinin dəyişilməsi adətən "daxili miqrasiya" adlanır. Bu halda əhalinin ümumi say tərkibi dəyişilmir.

Lakin bölgü o mənada şərtidir ki, miqrasiyanın region hüdudunda, hər hansı xalqın məskunlaşdığı ərazi çərçivəsindən kənara getməsi kimi faktorlar təmin edilirsə, bu da xarici miqrasiya kimi çıxış edir.

Tarixi-bioloji (genetik) yanaşma miqrasiya proseslərinin təhlilində diqqəti cəlb edir. Bu mövqe əsasən rus alimi L. Qumilyov tərəfindən inkişaf etdirilmişdir. Onun fikrinə görə "passionarlıq" fenomeni insanların irsən əks etdikləri xüsusiyyət kimi hədsiz miqrasiya fəallığın şərtləndirir. Bu mövqeni etnik bioloji kimi də adlandırmaq olar. Çünki etnosun inkişaf və dinamikasını L. Qumiliyov onun tərkibində olan possionar subyektlərin faizi ilə, fenomenol miqrasiya aktivliyi ilə əlaqələndirir [95].

Tarixi – bioloji terminin mənası isə müəllifin etnik miqrasiyanı millətin, xalqın passionar enerjisinin ən yüksək olduğu epoxalarla əlaqəli olduğunu irəli sürməsidir.

Miqrasiya proseslərinin politoloji aspektdən tədqiqi nisbətən ən son dövrə təsadüf edir. Politoloji aspekt miqrasiyanın siyasi səbəbləri, təzahürləri, milli regional və qlobal siyasi reallığa onun təsiri məsələlərinə önəm verir.

Miqrasiya axınlarının iqtisadi konteksti nisbətən daha unversal yanaşma hesab olunur. Təsadüfi deyil ki, miqrasiya uzun illər məhz iqtisadi – sosial mahiyyətli fenomen kimi təhlil edilmişdir. İnsanların axını daha çox iqtisadi faktorlarla şərtləndirilmişdir.

II dünya müharibəsindən sonra işçi qüvvəsinin immiqrasiyası kütləvi şəkildə artmışdır. Belə ki, Qərbi Avropada onların sayı 8 milyona çatır.

Xarici miqrasiya hər hansı bir ölkədən xaricə getməyi ifadə etməklə bərabər həm də, kontinentlərarası (XIX–XX əsrlərdə avropalıların kütləvi köçü) və kontinentdaxili (müasir Avropa daxili miqrasiya) növlərə bölünür.

Miqrasiya prosesləri zaman müddətinə görə də təsnif olunur. Bu təsnifata daimi (dönməz), müvəqqəti, mövsümi və mütərəddid (rəqqasvari) növlər daxildir.

Tarixi baxımdan urbanizasiyanın (şəhərləşmənin) üç inkişaf mərhələsi vardır; I mərhələ XVIII əsrə qədər olan dövrü əhatə edir. Bu mərhələdə ilk şəhər–polislər yaranmışdır və şəhər əhalisinin sayı təqribən 100 minə çatırdı. II mərhələdə şəhərlərin ərazisi və əhalinin sayı sürətlə inkişaf etmişdir. Bu mərhələ həm də sənayeləşmə mərhələsi adlandırılır. III müasir mərhələ "metropolizasiya" kimi səciyyələndirilir. Bu mərhələdə aqlomerasiyalar, meqapolislər və s. "milyonçu" (əhali sayına görə) şəhərlərin formalaşması prosesi gedir. Hazırkı dövrdə dünyada əhalisi milyon nəfərdən çox olan 150 – dən çox meqapolis vardır.

Miqrasiya prosesini bütün aspektlərdə, o cümlədən də iqtisadi coğrafi baxımdan təhlili onun tərkibi və hüdudlarını müəyyənləşdirmək üçün mümkün qədər optimal təsnifat meyarlarının aşkara çıxarılmasını tələb edir. Miqrasiya sona çatmış fenomen, yaxut da nəticə deyil məhz, "proses" olduğu üçün bu məsələ dəyişən reallığa uyğun



olaraq miqrasiya təsnifatı problemi sahəsində yeni mövqe və təsniflər ortaya çıxır.

Belə ki, qloballaşma dövründə dövlətlərarası sərhədlərin şəffavlığı (yəni, gediş-gəlişin asan olması), bəzi tədqiqatçıların fikirinə görə "ərazi" əlamətinin meyar kimi müəyyənləşməsinə düzəlişlər edir. Buna görə də milli, mədəni, etnik indentiklik amilini nəzərə alaraq miqrasiyanın tipoloji xüsusiyyətlərinin dəqiqləşməsini tövsiyyə edən tədqiqatçılar da vardır. Onların fikirinə görə miqrasiya dünyada və cəmiyyətdə gedən proseslərlə genetik bağlıdır. Miqrasiyanın təsnifləşdirilməsini günün reallığına uyğunlaşdırmaq üçün nisbətən kiçik, həssas məqamlara da diqqət yetirərək tipoloji manevr əldə etmək mümkündür.

İnsanlar miqrasiya etmək üçün qərar verəndə öz milli etnik indentiklik faktorunu da nəzərə alır və özünə yaxın, oxşar miqrant qruplarına birləşməyi və dayaq nöqtələrini axtarmağı götür–qoy edir. Buna görə də "millətdaxili və millətlərarası müxtəlif etnosların öz sayından asılı olmayaraq milli dövlət ərazisində həyata keçirdiyi miqrasiyanı həmin ərazinin hüdüdları kənarında müxtəlif etnos nümayəndələrinin yaşadığı məkana miqrasiya kimi təsnifləşdirmək məqsədə uyğun ola bilər".

Miqrasiyanın tipoloji təsnifatı beynəlxalq birliyi narahat edən çoxlu problemlər yaratmaqdadır. Hazırda Avropa Birliyi dövlət qrumlarında, bütövlükdə cəmiyyətdə immiqrasiya axınlarının epizodik formadan daimi formaya çevrilməsi içərisində onun nizamlanması problemi ilə üzləşir və mükəmməl təsnifat sisteminin mövcudluğundan asılı olduğu vurğulanır.

Miqrasiya proseslərinin mərhələlər üzrə də təsnifləşdirilməsi mövcuddur. Miqrasiyanın mərhələsi konsepsiya-

sı barədə ilk fikirlər XIX əsrdə yaransa da, onun əhatəli təsviri XX əsrin sonlarında verilmişdir.

Ümumilikdə insanların fəaliyyəti ilə əlaqədar bir yerdən başqa yerə hərəkəti, mobilliyi müəyyən formalardan təzahür edir. Buraya sosial, təbii və mexaniki hərəkət növləri daxildir. Təbii hərəkət dedikdə əhalinin doğum, ölüm və təbii artımı nəzərdə tutulur. Sosial hərəkət isə insanların daxil olduğu iqtisadi münasibətlərin bütün dairəsini əhatə edir. Dar mənada baxıldıqda hərəkət formaları istisna edilməklə sosial sferada insanların hərəkəti (sosial inkişaf, sosial status, məşğulluq növlərinin dəyişilməsi və s.) başa düşülür. Miqrasiya prosesi həm təbii, həm də sosial hərəkətlə əlaqədardır. Yaş artdıqca insanın təcrübəsi, ixtisası, təhsili dəyişikliyə uğrayır. Miqrasiya proseslərinin sosial amilləri çox güclü səbəb kimi çıxış edir. Miqrasiyanın-ərazi, məkan, coğrafi amillə bağlılığı onun hərəkət, yerdəyişmə, köçmə, axın kimi sözlərlə eyniləşdirmək cəhdlərini də yaradır. Digər hallarda miqrasiya "mobillik" anlayışının xüsusi forması kimi səciyələndirilir. Mobillik anlayışı ilə yerdəyişmə anlayışı eyni mənanı daşıyır.

Mürəkkəb, sosial, siyasi, iqtisadi, qlobal anlayışlar kimi miqrasiya da bir çox göstəricilərin köməyi ilə təsdiq edilə bilər. Bu qrup göstəricilər sisteminə nümunə kimi miqrasiya edən əhalinin yaş və cins qrupunu, habelə milli tərkibini, sosial tərkibini aid etmək olar.

Miqrasiya cəmiyyətə özünün funksiyaları vasitəsi ilə təsir göstərir. Funksiya dedikdə-əhali miqrasiyasının insan həyatında oynadığı rolu başa düşülür. Miqrasiyanın funksiyaları çox müxtəlif məzmuna malikdir. Bu baxımdan miqrasiyanın ən ümumi və spesifik funksiyaları aşağıdakılardır:



İntensivlik-sürətləndirici funksiya, Selektiv funksiya, Bölüşdürücü funksiya.

Miqrasiya prosesinin funksiyaları müəyyən müstəqilliyə malik olmaqla bərabər, eyni zamanda üzvi vəhdət təşkil edir. Miqrasiyanın idarə olunması sahəsində dövlət siyasətinin formalaşmasında müxtəlif funksiyaların ahənginə, balanslaşdırılmasına və s. xüsusi diqqət yetirilməlidir. Beləliklə, ilk növbədə çox tərəfli, ziddiyyətli, səbəb, mənbə, forma və məqsədlərinə görə qarışıq təsir bağışlayan miqrant axınları əslində hər bir ölkədə və ümumilikdə dünyada iqtisadi, sosial, demoqrafik inkişafın üzvü vəhdət təşkil etdiyini, ərazi (coğrafi məkan), insan potensialı və işçi qüvvəsinin qeyri-bərabər imkanlarının tarazlaşdırılmasına xidmət etdiyini görmək olar.

Yuxarıda qeyd etdiklərimizdən aşağıdakı nəticələrə gəlmək olur.

Miqrasiyanın təsnifat əlaməti və meyarı kimi götürülən amillərə münasibət müxtəlifdir. Belə ki, daxili və xarici miqrasiyanın təsnifində insanın sərhəddi keçib-keçməməsi ərazi amili əsas götürülür.

Miqrasiya idarə edilməli, tənzimlənməli olan prosesdir. Hər bir miqrant müəyyən statusa, rola və potensiala malikdir. Bunlar isə öz növbəsində miqrasiya tarixinin çətin təkamülündə addım-addım toplaşan sosial-iqtisadi təcrübə və öhdəliklərin məcmusu ilə müəyyən edilir. İstənilən miqrant kateqoriyası, statusu sosial-iqtisadi və siyasi-hüquqi məzmuna malikdir. Buna görə də miqrasiya proseslərinin mahiyyəti, təsnifatı və tipologiyası meyarları çox gərəkli olduğu qədər, bu günümüzdə də təkmilləşmə prosesindədir.

Hər bir miqrant kateqoriyasının probleminin özünəməxsus həlli üsulları vardır. Könüllü və məcburi, müvəq-

qəti və daimi, leqal və qeyri-leqal, kriminal miqrantlara münasibətdə dövlət siyasəti hərtərəfli yanaşmaya əsaslanır. Bu prosesə miqrantların statusu, peşəsi, ixtisası və gender fərqləri, demoqrafik, ailə və nikah münasibətləri, etnik mənsubiyyəti və s. öz dərin təsirini göstərir.

Dövlətin miqrasiya siyasətində stimullaşdırıcı-liberal, yoxsa konservativ-məhdudlaşdırıcı, sərt qadağalar qoyması məhz miqrantların kateqoriyalı təsnifat və meyarlarının dəqiq ümumiləşdirilməsi, kompleks-inteqral miqrasiya tipologiyasının işlənib hazırlanması ilə bağlıdır.

Yuxarida qeyd etdiklərimizdə məqsəd miqrasiya anlayışının nəzəri təhlilinin sistemli metodoloji prinsiplərinə diqqəti cəlb etmək və müzakirə məkanını formalaşdırmaq idi.

## 1.2. Əhali miqrasiyasının öyrənilməsinin demoqrafik əsasları

Dünyanın sosial-iqtisadi sisteminin qloballaşması, transmilliləşməsi, inteqrasiya prosesləri insan potensialına, əmək resurslarına, işçi qüvvəsinə tələbatı artırır. Sərhədlərin qloballaşması ən müxtəlif məzmunlu əlaqə və münasibətlərin informasiya - kominikasiya texnologiyalarının yaratdığı imkan nəticəsində intensivləşməsi və sıxlaşması miqrasiya prosesinin görünməmiş sürətli dinamikasını şərtləndirir. Hazırda olan "miqrasiya dalğası" bütün tarixi dövrlər ərzində müşahidə olunmamışdır.

Bütün bu proseslər içərisində miqrasiya ən mühüm yer tutur. Bəzi tədqiqatçıların fikrinə görə müasir qloballaşma prosesi miqrasiya axınlarının hədsiz intensivləşməsinə səbəb olur. Regional iqtisadi, əmək, etnik məzmunlu



miqrasiya proseslərinin sürətli ritmi qloballaşmanın müasir mərhələsini səciyyələndirən əsas əlamətlərdəndir.

Hər bir ölkənin daimi əhalisinin tərkibində miqrantların sayının dinamikası həmin dövlətin qloballaşma prosesində iştirak dərəcəsinin göstəricisi kimi çıxış edir.

Tarix boyu miqrasiya proseslərinin izlənilməsi maraqlı qanunauyğunluqların ortaya çıxmasının, dünyanın siyasi xəritəsinin, iqtisadi inkişafının, coğrafi məkan amillərinin mürəkkəbləşməsinin, qarşılıqlı asıllığını bir daha subut edir. Tarixin müxtəlif dövrlərində miqrasiya axınlarının istiqaməti coğrafi məzmun baxımından da fərqli olmuşdur. Məsələn, XIX əsrin müstəmləkəçilik dövründə miqrasiya axınlarının istiqaməti Afrikadan Amerikaya olmuşdur. 1850-ci ilə qədər 30 milyondan çox insan Amerikaya gəlmiş və ya gətirilmişdir. Bundan fərqli olaraq, 1846-1939-cu illər arasında miqrasiya dalğasının mənbəyi Avropa olmuşdur. Bu dövr ərzində Avropanı 59 milyon insan tərk etmiş və Amerikada, Avstraliyada, Yeni Zelandiyada, Cənubi Afrikada məskunlaşmışdır.

XX əsrin ikinci yarısı və XXI əsrin əvvəllərində isə miqrasiya axınının istiqaməti tamamilə dəyişilmişdir. Belə ki, Avropa miqrant göndərən regiondan miqrantları qəbul edən məkana çevrilmişdir. Dünyada ən çox miqrantların üz tutduğu ölkələr isə ABŞ, Kanada və Avstraliya olmuşdur.

Keçən əsrin ikinci yarısından immiqrasiya Avropa ölkələrinin demoqrafik vəziyyətinin balanslaşmasında və əhalisinin sayının artmasında əsas amillərdən biri olmuşdur. 1990-1995-ci illər arasında immiqrasiya Avropa regionunun əhalisinin ümumi artımının 88%-ni təşkil etmişdir.

Qloballaşma keçmiş SSR-i dövlətlərində gedən transformasiya prosesləri, Avropada sosialist düşərgəsinin çökməsi və s. amillər müasir dövrün miqrasiya axınlarının hədsiz intensivləşməsini şərtləndirmişdir. XXI əsrin əvvəllərində dünyada beynəlxalq miqrantların sayı XX əsrin sonundakı statistikaya görə 75 milyon nəfərdən artaraq 300 milyon nəfərə çatmışdır. Keçən əsrin sonunda İEÖ-də miqrantların sayı əhalinin 5,5%-ni, İEOÖ-də isə 2%-ni təşkil etmişdir.

Avropada əhalinin ümumi tərkibində miqrantların ən yüksək səviyyəsi 90-cı illərdə müşahidə olunmuşdur. Miqrasiya məsələləri üzrə beynəlxalq büronun verdiyi məlumata görə Avropada rəsmi qeydiyyatdan keçmiş 11 milyon immiqrant məskunlaşmışdır. Bununla yanaşı 3-5 milyon qeyri-leqal miqrantların da məskunlaşması realdır. Rəsmi miqrantların 5 milyonu Almaniyada, 2 milyonu Fransada, 1 milyonu isə Böyük Britaniyada məskunlaşmışdır. Başqa sözlə isə Almaniya əhalisinin 9%-ni, Avstriyanın isə 7%-ni miqrantlar təşkil edir .

Müasir dövrdə miqrasiya proseslərinin hədsiz intensiv dinamikasını səciyyələndirən amillər çoxdur. Onları aşağıdakı kimi qruplaşdırmaq olar.

Əhali artımının demoqrafik tənzimlənməsində mövcud olan tarixi-təbii fərqlər, dünyanın əsasən geridə qalmış və İEOÖ-də əhalinin yüksək artım tempinin davamlılığı, əmək qabiliyyətli əhalinin məşğulluğu ilə işsizlik səviyyəsi arasında disbalans, əmək miqrasiyasının güclənməsi, müxtəlif ölkələrdə əhalinin həyat səviyyəsində mövcud olan imkan fərqləri, sosial qütbləşmə və qlobal yoxsulluq probleminin doğurduğu miqrasiya axını, "qlobal qocalma" adlanan effektin yaranması, İEÖ-in əhalinin sayı baxımından "Qoca ölkələr" sırasına daxil olması ailə institutunun



böhranı və ölkə iqtisadiyyatının ən ciddi "yeni böhran"ı ilə üz-üzə durması (Avropa, Şimali Amerika, Yaponiya və s. ölkələr) gənclərlə nisbətdə yaşlı əhalinin sayının çoxalması və s-dir.

Bu gün dünyada immiqrasiya prosesləri üçün "mütləq bağlı" olan yalnız bir ölkə-ÇXR vardır. Çin özünün nəhəng demoqrafik potensialı ilə ölkəni işçi qüvvəsi ilə təmin edən yeganə ölkədir. Lakin Çin də başqa ölkələrin, xüsusilə Amerikadakı çox milyonlu, son dərəcə fəal çin miqrantları sayəsində miqrasiya proseslərinə böyük təsir göstərir.

Demoqrafik problemlər, insan kapitalı kontekstində dünyəvi miqrasiya axınları tədqiqatçıların diqqətini cəlb edən geniş təhlil olunan mövzulardandır.

105694

Bununla belə beynəlxalq miqrasiya proseslərinin gələcək üçün mümkün sosial-iqtisadi nəticələri hələlik nisbətən az təhlil olunmuş problemlərdəndir. İlk olaraq qabaqcıl ölkələrdə müxtəlif alimlər "Şərqdən-Qərbə", "Cənubdan-Şimala" miqrasiya axınının güclənməsinə dair "həyacan təbili"ni çalmağın vaxtı olduğunu qeyd etmişlər. Belə ki, "Tarixin sonu və sonuncu insan" əsərinin müəllifi F. Fukuyama qabaqcıl ölkələrə kütləvi immiqrasiya axınını və dövlətləri daxili və xarici gərginliyin ən çox ehtimal olunan mənbəyi hesab edir [128].

Kanadalı demoqraf-alimlər A. Romanyük və M. Termota görə isə ən dinamik və mürəkkəb idarə olunan proseslərdən biri kimi müasir miqrasiya dalğası əhali artımının durğunluq vəziyyətində olan ölkələrdə gələcək taleyin miqrantlar tərəfindən həll ediləcəyini proqnozlaşdırırlar [111, 214].

Tarixən müşahidə olunmuşdur ki, miqrasiya prosesləri iqtisadi böhranların, etnik münaqişələrin, sosial

gərginlik və partlayışların yalnız nəticəsi deyil, səbəbləri kimi də çıxış edə bilər.

Müasir dünya təcrübəsi sübut edir ki, tənzimlənməyən miqrasiya prosesləri ölkənin qlobal rəqabətə davamlılığının əsaslarını sarsıda, kütləvi işsizliyin, sosial gərginliyin, kriminogen vəziyyətin pisləşməsinin şərtlərindən birinə çevrilə bilər. İEÖ-də immiqrasiya axınları yerli əhalinin ümumi faiz nisbətində çəkisinin azalmasına səbəb olur. Artıq Avropanın bir sıra ölkələrində, məs: Fransanın "ərəbləşməsindən", Almaniya və Hollandiyanın "türkləşməsindən", Böyük Britaniyanın "hindləşməsindən və pakistanlılaşmasından" və qeyri-leqal miqrasiya proseslərinin hədsiz intensivləşməsindən söhbət gedir. Proqnozlara görə 2014-cü ilin sonunda Amerikada və dünyada texnoloji inkişafın aparıcı məkanı olan Kaliforniya əhalisinin 70%-ni etnik qruplar təşkil edəcəkdir [111].

XXI əsrdə əmək miqrasiyası xeyli dərəcədə artmşdır. Əmək qabiliyyətli miqrantlar dövlətlər arası hərəkət edir və əksər hallarda vətənə qayıtmaq məqsədilə bu proseslərə qoşulurlar. XX əsrin sonlarından işçi miqrantlar ölkə sərhədlərini aşaraq qlobal iqtisadi sistemin ən mühüm əlamətinə çevrilir. Hazırda əksər ölkələrin miqrasiya siyasətinin əsas diqqəti məhz bu növ miqrasiyanın tənzimlənməsinə yönəldilmişdir. Dünyanın əksər ölkələri əmək ehtiyatları bölgüsündə bu və ya digər dərəcədə təmsil olunurlar.

Miqrasiya prosesləri bir tərəfdən Qərbin hegemonları hesab olunan ölkələr üçün iqtisadi, hərbi, texnoloji baxımdan müsbət mövqelər əldə edilməsi ilə səciyyələnir. Digər tərəfdən, həmin ölkələrin demoqrafik asimmetriyanın reallıqları ilə hesablaşmalı, iqtisadi rifahın qayğısına qalmalıdırlar. Xüsusilə danılmaz fakdır ki, XX əsrin ikinci yarısından başlayaraq Avropanın və Kanadanın əhalisinin artım perspektivləri müstəsna olaraq immiqrasiya faktoru ilə əlaqədardır. Bu ölkələrdə artımın çox aşağı səviyyəsi, durğunluğu yaxın gələcəkdə əhalinin təbii artımı yolu ilə tənzimlənəcəyinə heç bir ümüd yeri qoymur.



XXI əsrdə dünya ölkələrinin üzləşdiyi miqrasiyanın sürəti və miqyası bütün qitələri, ölkələri, bölgələri əhatə etmiş hər bir ölkənin həyatının tərkib hissəsinə çevrilmişdir. Miqrasiya axınlarında ən müxtəlif məqsədli və müxtəlif təbəqələrin nümayəndələri-başqa ölkəyə daimi yaşayış üçün gedənlər, müvəqqəti əmək miqrantları, mütəxəssislər, alimlər, tələbələr, qaçqınlar və s. ilə ölkədaxilində miqrasiya proseslərinin arzu olunmaz sosial-iqtisadi nəticələrini önləmək üçün bir çox qərarların qəbul olunmasını gündəmə gətirmişdir.

Avropa Birliyinin 5 milyon vətəndaşı daim başqa ölkənin ərazisində yaşayır. Birliyin ərazisinə hər il 2 milyon leqal immiqrant gəlir. Yalnız əmək miqrasiyası məqsədi ilə gələn insanların əhatəsini, qohumlarını, ölkələrinin sayını da nəzərə alsaq deyə bilərik: bu gün miqrasiya hər bir insanın həyatına daxil olan, hər bir vətəndaş marağını əhatə edən bir fenomendir.

Müasir dövrdə miqrasiya "zəncirvari xarakter" daşıyır. Qərb ölkələrində miqrantların artıq üçüncü, dördüncü nəsli yaşayır. Onlar öz əcdadları kimi özlərini "gəlmə" hesab etmirlər və yerli əhali ilə bərabər hüquq və azadlıqlara malik olmağı tələb edirlər. Xüsusilə də İEÖ-də bu problem daha qabarıq özünü biruzə verir. Bu da öz növbəsində dünya birliyinin miqrasiya sahəsində beynəlxalq kordinasiyaya əsaslanan kollektiv miqrasiya siyasətinin müəyyənləşməsi, milli, regional və qlobal səviyyələrdə balanslaşdırılmış siyasət həyata keçirməsini zərurətə çevirir.

Yuxarıda qeyd etdiklərimiz öz növbəsində bütün dünya ölkələrində tamamilə yeni məzmun, prinsip və funksiyalara əsaslanan miqrasiya siyasətinin formalaşmasını zərurətə çevirmişdir. XXI əsrdə miqrasiya proseslərinin aparıcı meyl və xüsusiyyətlərinin təhlili və sistemləşdirilməsi yeni siyasətin parametrlərini müəyyən etməklə bilavasitə bağlıdır.

Bu gün dünyada sayı 200 milyona çatan miqrantların 60%-i İEOÖ-də, 40%-i isə İEÖ-də məskunlaşmışdır. Avropada 60 milyon, Asiyada 51 milyon, Şimali Amerikada 41 milyon miqrant yaşayır. Miqrantların qəbuluna görə dünyada birinci yeri tutan ABŞ-da əhalinin 37 milyondan çoxunu miqrantlar təşkil edir. Sonrakı yerləri Rusiya və Almaniya tutur. Əgər son 20 ilin miqrantlarından ibarət yeni bir ölkə təşkil olunsa idi, onda həmin ölkə əhalisinin sayına görə Çin, Hindistan, ABŞ və İndoneziya kimi ölkələrdən sonra beşinci yeri tutmuş olardı.

BMT - nin əhali fondunun hesablamalarına görə miqrantların əksəriyyətini 15-30 yaşlarında olan gənclər təşkil edir. Rəsmilər bunu "həyacanın doğurduğu fakt" kimi qiymətləndirmişlər. Bəzi ölkələrin əhalisinin yalnız miqrantların hesabına artması (ABŞ) məlumdur. "Almaniyada dünyanın 200-ə yaxın ölkəsindən gələn 15 milyon miqrant əhali artımının təməl faktorlarındandır.

Miqrasiyanın statistik göstəricilərinin dinamikası göstərir ki, qloballaşma mərhələsində miqrasiyanın nəticələri və təsiri bir mənalı deyildir. İqtisadi baxımdan inkişaf etmiş qərb ölkələri üçün çox sərfəli olan qloballaşma prosesləri "Şimali və Cənubi", "Qızıl milyard və yerdə qalan əhali" arasında demoqrafik qütbləşmənin, miqrasiya təzyiqi, leqal və qeyri-leqal, kriminal miqrasiyanın hədsiz dəyişməsi ilə müşaiyyət olunur. Üstəlik ABŞ, Avropa və



Kanada əhali artımının müstəsna dərəcədə immiqrasiya axınından asılı olduğunu da nəzərə alsaq, vəziyyətin ciddiliyi və yaxın perspektivlər bu ölkələri dərindən düşünməyə vadar edir. Təkcə onu qeyd etmək kifayətdir ki, XX əsrin II yarısında immiqrasiya Avropada əhali artımının təməl faktoru kimi çıxış edir: 1990-1995-ci illər arasında bu regionda əhali artımının 88%-i miqrantlar hesabına olmuşdur [104].

Qərb ölkələrində demoqrafik disbalansı şərtləndirən ən mühüm problemlərdən biri burada əhalinin davamlı qocalması prosesidir. Bu özünü elmi dövrüyəyə gələn "qlobal qocalma" fenomenində biruzə verir. Qlobal qocalma bəşər tarixi üçün prinsipial olaraq yeni olan hadisədir. Buna görə də onun təhlili və ilkin proqnozları ciddi narahatçılıq üçün əsas yaradır. Çünki tədqiqatçıların əksəriyyəti hesab edir ki, bu proseslər qlobal həyatın bütün sahələrinə (xüsusilə də sosial-iqtisadi sahələrə) öz təsirini göstərəcəkdir.

Belə vəziyyətdə bu problemlə ya əhalinin sosial təminatını tam ödəmək, ya da bu sahədə xərclərin kəskin şəkildə aşağı salınmasına məcbur ola bilər. "Qlobal qocalma" fenomeni miqrasiya siyasətində radikal dəyişikliklərə səbəb ola bilər. Miqrantların cəlb edilməsi, stimullaşdırılması siyasəti həyata keçirilərək, vəziyyətdən çıxış yolu tapmağa səy göstəriləcək. Hətta bəzi tədqiqatçılar XXI əsrdə əsas ziddiyyətin "miqrantlar uğrunda müharibə" olacağını da irəli sürürlər.

Miqrasiya proseslərinin qloballaşması, onun keyfiyyət məzmununun dəyişikliklərə uğraması, "miqrasion intervensiya" (işğalı), "demoqrafik ekspensiya" kimi tətbiqlərin meydana gəlməsi, məcburi miqrasiyanın digər mövqelərlə müqaisədə həcminin artması, qeyri-leqal, kriminal miqra-

siyanın hədsiz genişlənməsi və dünya dövlətlərinin "ikili miqrasiya siyasətini" həyata keçirməsi bu baxımdan xüsusi diqqət cəlb edir.

Bütün istiqamətlərdə yüksələn xətt üzrə gedən sosial-iqtasadi miqrant axınları qəbul edən ölkə üçün sosial və iqtisadi sabitliyin qorunmasında əngəllər törədir. İmmiqrasiya rejiminin daha da sərtləndirilməsi, xüsusi kvotaların tətbiqi, konservativ miqrasiya siyasəti AB-ə üzv olan ölkələrdə vəziyyətdən çıxış yolunu bir dəfəlik müəyyən etməsidir. Çünki, demoqrafik və işçi qüvvəsi problemləri bu məsələdə balanslaşdırılmış siyasət yeritməyi zəruri edir. Bu baxımdan miqrasiyanın müasir dövrdə hədsiz intensivləşməsi Qərb ölkələrini də seçim qarşısında qoymuşdur. İnsan ehtiyatlarının tələb və təklif sahəsində miqrant əməyindən istifadə gəlirli biznes növünə çevrilmişdir. Transmilli insan alveri kriminal biznesin ən dözülməz formalarındandır.

Miqrasiya proseslərinin tarixən təbii sayıldığı, sosial-iqtisadi inkişafın təməl faktoru olduğu ölkələrdə belə müasir miqrant dalğası, onun mirası fərqli reaksiya doğurmaqdadır. Bu cür davam edərsə XXI yüzillikdə, hətta qloballaşma dövrünün liderləri sayılan Qərb ölkələrində dövlət və milli-mədəni indentikliyin məhv ola biləcəyinə dair fikirlərin irəli sürüldüyü çox saylı tədqiqatlar işıq üzü görməkdədir.

Müxtəlif dövlətlərdə "miqrantofobiya" hadisəsi kimi səciyyələndirilən bu mövqe təbii ki, problemin həllinə yalnız mane olur.

AB-nin miqrasiyanın vəziyyətinə dair hazırladığı "Qitədə proseslərin inkişafı və nəticələrinə dair proqnozlar"da qeyd olunur ki, artıq XXI əsrin ilk yarısında gözlənilən böyük miqrasiya dalğası bu məkanda ictimai siyasi



sabitlik və qazanılmış maddi firavanlıq üçün çox böyük təhlükə törədəcəkdir. Ötən əsrin 90-cı illərində beynəlxalq miqrasiya keyfiyyət və kəmiyyət baxımından yeni fazaya qədəm qoymuşdur. Qloballaşma dövründə beynəlxalq miqrasiyanın epizodik, mütərədid formalar arxasına keçməsi, daimi, məqsədli və çox çalarlı formalarının təşəkkülü ilə səciyyələnir.

Nikahla bağlı emiqrasiya, millətlərarası nikahların və yeni evlənənlərin başqa ölkəyə yaşayış üçün getməsi prosesləri kifayyət qədər intensiv şəkil almalıdır.

Beləliklə də, yuxarıda qeyd olunanlara əsaslanaraq aşağıdakı nəticələri əldə etmiş oluruq:

Müasir dövrdə miqrasiyanın miqyası, dinamikası və intensivliyi müqaisə edilməz dərəcədə artmışdır, miqrantların yaş-cins, ixtisas və təsnifat strukturu dəyişikliyə uğramışdır, immiqrantlar arasında məcburi miqrantların, qaçqınların sayı hədsiz çoxalmışdır.

Miqrasiyanın istiqaməti və coğrafiyası dəyişmişdir, Belə ki, əgər əvvəlki illərdə axının əsas istiqaməti "Cənubdan-Şimala" (Avropanın cənub regionlarından, Afrikadan Şimala) olmuşdursa, son illər miqrasiyada aparıcı istiqamət, "Şərqdən Qərbə" (MDB ölkələrindən, Şərqi Avropadan, Yunanıstandan və s. Qərbə) doğru yönəlmişdir.

Miqrantların ixtisas, yaş-cins, peşə təsnifatı sturukturuna nəzər saldıq da isə ötən əsrin 80-ci illərinə qədər əmək miqrantları, əsasən aşağı təhsil və ixtisas qrupuna aid idisə, hazırda əsas miqrant kütləsi yüksək təhsil və ixtisaslı olması ilə seçilir.

Yeni-cins indiqatoruna görə miqrasiyanın "feminizasiya" aspekti də son illər nəzərə çarpır. Qadın miqrantlar bütün növ və tiplərdən olan miqrasiya axınlarında kəmiyyət baxımından əvvəlki illərə nisbətən xeyli artmışdır.

Xüsusilə də, qeyri-leqal, kriminal insan alveri beynəlxalq birliyin həll etməli olduğu ən böyük məsələlərdən biridir.

İntellektual miqrasiya istiqamətində isə "tələbə-abituriyent" axınının xüsusi çəkisi artmışdır. Qlobal təhsil məkanına inteqrasiya bu prosesi daha da sürətləndirmişdir.

XXI əsrdə miqrasiya fenomeninin ən mühüm yeni, prioritet istiqamətlərindən biri də "miqrasiya-inteqrasiya və adabtasiya" problemidir, bu son dərəcə vacib məsələ hesab olunur. Belə ki, Avropa və Qərb ölkələrinin ən yaxın perspektiv sivilzasiyalararası münasibətlərin ahəngi, qlobal təklükəsizlik onun ən qısa müddətdə tənzimlənməsindən asılıdır. Miqrantların yaşayış üçün seçdikləri ölkənin cəmiyyətinə, iqtisadi, sosial-mədəni həyatına inteqrasiyası bu gün Avropada və dünyada demoqrafiyanın taleyini həll edir. Artıq miqrantların ikinci-üçüncü nəslinin yaşadığı cəmiyyətlərdə onlara münasibətin 100 il əvvəlki kimi qalması çoxsaylı problemlər doğurur. Başqa sözlə deyilsə miqrasiyanın müasir dünya üçün əmək ehtiyatı və yaxud qlobal və milli sabitlik üçün ən böyük təhlükə olması "miqrasiya və inteqrasiya" probleminin sosial-iqtisadi, siyasi tənzimləmə mexanizmlərinin formalaşmasından asılı olacaqdır.

### 1.3. Regional miqrasiya siyasətinin iqtisadi-coğrafi aspektləri

Müasir dövrdə heç bir ölkə düşünülmüş miqrasiya siyasətini formalaşdırmadan öz milli təhlükəsizliyini, insan və əmək ehtiyatlarının optimal balansını, davamlı sosial-iqtisadi yüksəlişini təmin edə bilməz. Uğurlu miqrasiya siyasəti aydın məqsədlərinə, vəzifələrinə və funk-



siyalarına əsaslanır. Burada qabaqcıl ölkələrin miqrasiya sahəsində təcrübəsinə, bir qədər sistemləşdirərək 4 coğrafi məkan aspektində: ABŞ, Avropa ölkələri, Asiya və Şərq ölkələri timsalında nəzər salınacaqdır.

Mövcud beynəlxalq təcrübəni təhlil edərkən ilk baxışdan Amerikanın ən böyük tarixi təcrübəyə malik olmasına baxmayaraq, məsələn, Azərbaycan kimi həm immiqrasiya, emiqrasiya istiqamətlərində, həm də tranzit məkan kimi "üç qat miqrasiya zənciri"nə malik olmayan, bu ölkədə (ABŞ) ümumiyyətlə emiqrasiya probleminin olmadığı aşkara çıxır.

Qərb ölkələrinin ABŞ və Avropa kimi bölünməsi "klassik, ənənəvi" və nisbətən yeni miqrasiya təcrübəsinin öyrənilməsinə xidmət edir. Klassik immiqrasiya ölkələri ABŞ, Avstraliya, Kanada və Yeni Zelandiyadır.

Ötən əsrin ortalarından ABŞ-ın immiqrasiya siyasətinin 4 əsas tərkib hissəsini təşkil edən istiqamətlər bu gün də başlıca prioritetlər olaraq qalır.

Bunlar yüksək ixtisaslı əmək miqrasiyası, humanitar miqrasiya, ailələrin birləşməsi və etnomədəni müxtəlifliyin təmin olunmasına cavab verən miqrant axınlarıdır.

İntellektual əmək miqrasiyasının stumullaşdırılması müasir dövrdə bütün cəmiyyətlər üçün səciyyəvidir.

İmmiqrasiya siyasətinin prioriteti sayılan digər miqrant qrupu-humanitar miqrantlardır. Buraya ABŞ-ın qaçqın və köçkünlər, eləcə də sığınacaq axtaran digər şəxslər üçün nəzərdə tutduğu proqram və qanunvericiliklər daxildir.

Qaçqınlar üçün nəzərdə tutulan proqramda ixtisarlar edildiyinə görə ABŞ, Sovet İttifaqı dağılandan sonra soyuq müharibə dövründə prioritet hesab etdiyi bəzi əsas proqramların maliyyələşməsini dayandırmışdır. Leqal

miqrasiya siyasətinin 4-cü istiqaməti demək olar ki, unikallığı ilə yalnız ABŞ dövlətində həyata keçirilən sahədir. "Dünyanın yekcins tərkibli, mono millətdən ibarət əhaliyə malik olan ölkələrindən fərqli olaraq Amerika dövləti əhalinin tərkibinin etnik, milli, konfesional, linqivist baxımdan müxtəlif olmasını dəstəkləyir. Buna görə də əvvəllər heç vaxt ABŞ-la miqrasiya münasibətlərində olmayan ölkələr üçün xüsusi "yaşıl kart" immiqrasiya lotereyaları keçirilir və bu kontingentdən olanlara viza almaqda üstünlük verilir.

ABŞ - da miqrasiyanın tənzimlənməsinə dair 200 ildən çox olan təcrübə ilə tanışlıq, miqrasiya siyasətini həyata keçirən dövlət orqanları subyektlərin də təşəkkülü və təkamülü dinamikasını izləməyi zəruri edir. Bu baxımdan ilk növbədə Amerikada miqrasiya xidmətinin yarandığı vaxtdan bu günə keçdiyi yola və struktur islahatlarına bələd olmaq maraqlıdır. Çünki miqrasiya siyasətində baş verən dəyişikliklər təbii olaraq bu qrumların da strukturunu dəyişməsini şərtləndirmişdir.

Bu və ya digər strategiyanın elmi əsas və perspektivlərini, mümkün nəticələrinin optimal reallaşdırılmasını müəyyən edərək sosial-iqtisadi və siyasi idarəetmə proseslərini optimallıq və səmərəliliyinin artmasına dəstək göstərir.

Bu baxımdan ABŞ-ın intellektual korporasiyalarının tədqiqatlarında immiqrasiya strategiyasının dağılması çox məqamlara aydınlıq gətirir. Avropanın qabaqcıl ölkələri artıq yarım əsrdən çoxdur ki, miqrasiya siyasətinin həyata keçirilməsində birgə mövqedən çıxış edirlər. Bununla yanaşı müxtəlif ölkələrin miqrasiya təcrübəsi də mövcuddur. Bunlar Mərkəzi Avropa İttifaqı hesab olunan ölkələrin (Avropa) və Asiya bölgəsinin-keçmiş SSRİ məkanını əhatə



edən ölkələrin sistemləridir. II dünya müharibəsindən sonra Qərbi və Şimali Avropa ölkələrində işçi qüvvəsinə böyük ehtiyac yaranmışdır. Bunun səbəbi həm yeni başlayan iqtisadi artım, həm də, müharibədən əvvəl və müharibə illərində əhali artımının səviyyəsinin çox aşağı düşməsidir. İlk gələn miqrantlar əsasən Cənubi Avropa, Şimali Afrika, Yaxın Şərq, Yuqoslaviya və Türkiyədən idi.

Artıq ötən əsrin 80-ci illərindən sənayenin sürətli inkişafı səngidi və aşağı ixtisas səviyyəli miqrantların əməyinə tələb azaldı. İşsizliyin səviyyəsinin artması, siyasi qüvvələrin antimiqrant şüarları və s. miqrasiyanı Avropa məkanında gərgin problemə çevirdi. 1970-1980-ci illərdə bütün Qərbi Avropa ölkələrində miqrasiyaya bir mənalı məhdudiyyət qoyuldu. Yalnız İsveçrə istisna təşkil edirdi.

Avropa dövlətləri miqrasiyaya nəzarəti gücləndirmək, qeyri-qanuni axınla mübarizə aparmaqla yanaşı, miqrantların öz vətənlərinə repertasiyasını da stimullaşdırmağa cəhd edirdilər.

Gələcəkdə miqrasiyanın həm iqtisadi amillər, həm də siyasi qərarlarla tənzimlənməsi vacibliyini dərk edən qüvvələrin sayı çoxalır. Miqrasiya siyasəti turizm aktı deyil, humanitar yardım çərçivəsində sığınacaq verilməsi də demək deyil. Sırf praqmatik, bu günə hesablanan miqrasiya siyasəti nə Almaniyanın, nə Qərbi Avropanın problemlərini, nə də yoxsul ölkələrin üzləşdiyi ziddiyyətləri həll etmək iqtidarında deyil, miqrasiya siyasəti ilk növbədə qəbul edən ölkənin indiki və gələcək maraqlarına, davamlı inkişafa xidmət edir.

Avropanın miqrasiya problemi ilə bağlı ən çox gərginlik yaşanan ölkəsi-Fransadır. Son 20 ildə immiqrasiya Fransada sözün əsl mənasında iqtisadi-siyasi məsələyə, ölkənin sabitliyi və gələcəyini müəyyən edən faktora çev-

rilmişdir. "Statistikaya görə 2000-ci ildə Fransada 60 milyon əhali və o cümlədən 4 milyon leqal miqrant yaşayır. Fransa dövlətinin tarixi ilə burada yaşayan əcnəbi icmaların arasında çox sıx bağlılıq mövcuddur. Onların əksəriyyəti Əlcəzair və Mərakeşdəndir. Fransa dövləti əcnəbilər üçün hər il 100 min viza ayırır.

Bütövlükdə Fransa dövlətində miqrasiya siyasətində XXI əsrin əvvəllərindən etibarən liberallaşma meylləri müşahidə olunur. Beləliklə də indiyə qədər mövcud olan miqrasiya tənzimlənməsində özünü doğrultmayan natamam, qeyri səmərəli metodlar yenidən nəzərdən keçirilir. Xüsusilə də, bütün dünyanın diqqətini cəlb edən və Fransanı bürüyən miqrant etiraz nümayişləri, dövlətin miqrantlara daha həssas yanaşmasına səbəb oldu.

İsveç ölkəsi tarixən dünyaya açıqlığı, əcnəbilərə dözümlüyü və düşünülmüş miqrasiya siyasəti ilə seçilmişdir. Hazırda 8,8 milyon əhalisi olan İsveçdə 1,7 milyon "əcnəbi keçmişi olan" insan yaşayır. İsveç qanunvericiliyində "miqrant deyil", məhz bu söz tətbiq olunur. Lakin XX əsrin sonu XXI əsrin əvvələrində bu ölkədə sanki miqrantlara münasibət ənənəsində dəyişiklik baş verir.

Avropa məkanında İtaliya öz yeni tarixi boyu əsasən emiqrant ölkəsi olmuşdur və yalnız XX əsrin 70-ci illərindən miqrantları qəbul edən ölkəyə çevrilmişdir. İtaliya dövlətinin miqrasiya siyasəti bir qədər spesifik cəhdlərə malikdir. Burada iki aspekti ayırd etmək olar. Əvvəla immiqrasiya ölkədə əhəmiyyətli dərəcədə sezilən dərəcəyə çatanda rəsmi işsizlik səviyyəsi çox yüksək idi. İkincisi, İtaliya immiqrasiya ölkəsi kimi öz siyasətini müəyyənləşdirəndə artıq "Avropa qalası" kimi məlum olan birlikdə daxili dövlətlərin birgə miqrasiya əməkdaşlığı həyata keçirilirdi. Buna görə də İtaliya bu prosesə gec qoşulsa da



onun miqrasiya siyasətinə həm ölkələrin artıq mövcud təcrübəsi, həm də tərəfdaşların tələb və öhdəlikləri öz təsirini göstərmişdir. Əsas amillərdən biri də, İtaliyanın, həm də Avropanın sərhəd ölkələrindən biri kimi, Şimali Avropaya keçmək istəyən immiqrantlar üçün potensial tranzitar məkan rolunu oynaması olmuşdur.

Onu da qeyd etmək lazımdır ki, miqrant sayının artmasının bir səbəbi də 1968-ci ildə İtaliya, Belçika, Almaniya və Fransa, Niderland və Lüksenburq arasında işçi qüvvəsinin sərbəst hərəkətinə dair bağlanmış sazişin şərtləri idi.

Qərbi Avropa ölkələrində miqrasiya siyasəti sahəsində yeni islahatlar dövrü bu məkanda gedən digər obyektiv siyasi tarixi proses iqtisadi və siyasi inteqrasiya prosesləri ilə parodoksal olaraq eyni vaxta təsadüf etdi. Bu o demək idi ki, artıq miqrasiya strategiyası AB ölkələrinin kompleks yanaşmasının və müxtəlif milli təcrübələrin, istiqamətlərin ən sıx şəkildə kordinasiya edilməsini tələb edirdi. Digər tərəfdən, birlik ölkələri Avropa məkanı çərçivəsində insanların sərbəst hərəkət etməsinə qoyulan bütün ticarət məhdudiyyətlərinin aradan qaldırılması öhdəliyini götürmüşdür.

AB-nin miqrasiya siyasəti sahəsində təcrübəsinin öyrənilməsi son dərəcə vacibdir. Əvvəla, ona görə ki, bu məkanda miqrasiya probleminin dövlətlər arası əməkdaşlıq sayəsində tənzimlənməsinin ilk optimal modeli mövcuddur. İkincisi, qloballaşma dövründə miqrasiya sahəsində beynəlxalq əməkdaşlıq, bunun səmərəli forma, məqsəd və istiqamətləri olduqca vacib məsələdir və bu baxımdan da Avropa təcrübəsi əvəzsizdir. Üçüncüsü Azərbaycan 2001-ci ildən Avropa Şurasının üzvü kimi bu məkanın bir hissəsidir. Həm Avropa, həm də Avrasiyanın

qovşağında yerləşən Azərbaycan bu iki fərqli miqrasiya sistemlərinin mərkəzindədir.

Miqrasiyanın tənzimlənməsi və qaçqınlara sığınacaq verilməsi məsələsində ümumi beynəlxalq siyasətin həyata keçirilməsi, qanunvericilik sistemlərinin razılaşdırılmış mövqedən çıxış etməsi; qeyri-qanuni miqrasiyanı nəzərə alaraq, onun səngidilməsi və nəzarət altına alınması üçün birgə səciyyələrin təşkil edilməsi, həm qəbul edən, həm də həmişə ölkələrlə qarşılıqlı münasibətlərin səmərəli nəticə verməsinə nail olunması; vahid Avropa bazarının azad işçi qüvvəsi dövranına ehtiyyacı olduğu üçün, dövlətlər arası kadr mübadiləsi məsələlərində qanunverici əsasların işlənilməsini sürətləndirmək.

Təbii ki, bunlar müasir Avropanın miqrasiya siyasəti sahəsində ən mühüm amillərdir. Miqrasiyanın nə qədər mürəkkəb fenomen olduğu onun sosial-mədəni, demoqrafik-iqtisadi və hətta kriminal nəticələrin tənzimlənməsi üçün çox geniş fəaliyyət meydanında üzə çıxır. Yalnız Avropanın deyil, bütün dünya regionlarının üzləşdiyi bu məsələlərin həlli üçün, dəyişən miqrasiya reallığına uyğun yeni idarəetmə üsullarının intensiv axtarışı gedir.

XXI əsrin əvvəlində Avropa öz miqrasiya tarixinin dönüş mərhələsini yaşayır. Məntiqi olaraq Avropanın miqrasiya məkanı da dəyişir. Əvvəllər daxili-regional, nisbətən açıq sərhədlərə malik AB MDB ərazisindəki dövlətlərin qonşusuna çevrilir. Sərhədləri isə şəffavlığı ilə seçilir

AB vahid inteqrasiya məkanı çərçivəsində də, Birliyə daxil olan ayrı-ayrı dövlətlərin siyasətinin təhlilini yekunlaşdıraraq onu demək olar ki, hər iki səviyyədə münasibətin sərtləşdirilməsi, məhdudiyyət pirinsipi üstünlük təşkil edir.



Asiya miqrasiya sisteminin həm sturuktur xarakteristikası, həm də miqrasiyanın istiqaməti, intensivliyi, miqyası və növləri, təsnifatı baxımından müəyyən özəlliklərə malikdir. Azərbaycan dövlətinin də məkan amili baxımından bu bölgədə olması Asiya regionu dövlətlərinin miqrasiya siyasəti ilə tanışlıq mühüm elmi-təcrübi əhəmiyyətə malikdir. XX əsrin sonu, XXI əsrin əvvəllərində "Asiya möcüzəsi" kimi səciyyələndirilən, bu region ölkələrinin sürətli iqtisadi inkişafı və bununla əlaqədar miqrasiya fenomeninin nə kimi statusa malik olması, onun həlli istiqamətləri baxımından da bu məsələyə nəzər salmaq vacibdir.

Adətən dünyada beynəlxalq miqrasiyanın dörd əsas sistemi fərqləndirilir: Şimali Amerika, Avropa, Fars hövzəsi ölkələri və Asiya-Sakit okean miqrasiya sistemləri.

Burada immiqrasiya üçün tarixən mütləq bağlı olan ölkə ÇXR-dır. Eyni zamanda bütün dünyada Çin miqrantlarının axınının tənzimlənməsi də birinci sırada duran məsələlərdəndir. Çində miqrasiya sırf emiqrasiya istiqamətlidir. Dövlətin miqrasiya siyasətində də bu aspekt mühüm yer tutur.

"2000-ci ildə CXR qlobal xarici iqtisadi strategiyasını bəyan etmişdir. "Dünyaya getmək" şüarı ilə adlanan bu strategiyanın əsas məqsədi dünya əmək bazarının 10%-ni əldə etməkdir. Hazırda bu göstərici 2-3% təşkil edir." [102].

"Asiyanın İEÖ olan Yaponiya da ada dövləti olmasına baxmayaraq miqrasiya siyasətini özünün əhali probleminə müvafiq olaraq həll etməyə çalışır. Yaponiya müasir inkişafın liderlərindən sayılır. Lakin bu ölkə "demoqrafik böhran" adlanan hadisə ilə lap çoxdan üzləşmişdir. Müqaisə üçün demək olar ki, Yaponiyanın iqtisadiyyatı

Rusiyanınkından 3 dəfə böyük, əhalisi isə 16 milyon azdır və yaş tərkibində qocalar çoxdur. Tədqiqatlara görə ölkədə işçi qüvvəsinin həllində Yaponiyanın özünəməxsus "qocalıq fəlsəfəsi" siyasətinin olması mühüm rol oynayır.

Asiya Sakit Okean bölgəsi miqrasiya sistemi kimi dünya əhalisinin əksər hissəsinin yaşadığı regiondur. Burada klassik immiqrasiya ölkəsi Avstraliya hesab olunur. Bunun tam əksi olaraq Yaponiya emiqrasiya ölkəsi kimi formalaşmışdır.

Şərq ölkələrində miqrasiyanın tənzimlənməsi təcrübəsi ilə tanışlıq paradoksal məqamları aşkara çıxarır. Hətta hesab olunur ki, müasir dünyada ən optimal miqrasiya siyasətinin modeli Yaxın Şərq və Fars hövzəsi ölkələrində həyata keçirilir. Bu regionda unikal vəziyyət yaranmışdır–immiqrantlar böyük əksəriyyət təşkil edir. BƏƏ-də immiqrant fəhlələr 90% təşkil edir, Səudiyyə Ərəbistanı və Bəhreyndə-34%, Qətərdə isə fəhlələrin demək olar hamısı immiqrantlardır.

Fars hövzəsi ölkələrində miqrantlar əhalinin əksəriyyətini, yaxud onda üç hissəsini təşkil etsələr də, burada heç vaxt milli zəmində münasibətlərə rast gəlinmir. Miqrantofobiya və miqrantlara dözümsüzlük problemi yoxdur. Çünki bu ölkələrdə miqrasiya siyasəti Qərbi Avropada və Rusiyada olduğundan daha yaxşı təşkil olunmuşdur.

Hazırda dünyada ən çox miqrantın gəldiyi 30 ölkə mövcuddur. MDB məkanında Rusiya ən çox miqrant qəbul edən ölkədir. Son illərdə isə dinamik iqtisadi artım göstəriciləri ilə regionda liderlik edən Azərbaycanda miqrasiya prosesləri nəzərə çarpacaq dərəcədə intensivləşmişdir. Rusiya MDB miqrasiya sistemində həm miqrant qəbul edən, həm göndərən, həm də tranzit ölkə kimi mövcuddur. BMT-nin qəbul etdiyi təsnifat sisteminə görə



1990-cı illərdə Rusiya, dünyada miqrant qəbul edən ölkələrin iyerarxiyasında 12,5 milyon miqrant sayı ilə ABŞ-dan sonra ikinci yeri tutmuşdur.

XX əsrin sonu XXI əsrin əvvəllərində isə miqrasiyanın strukturu və motivləri dəyişməyə meyllləndi. İqtisadi faktorlar, etnomilli, siyasi-ideoloji amillərlə müqayisədə önə çıxdı. MDB məkanında miqrasiya siyasətinin təşəkkülünün əsas fərqi onda idi ki, burada klassik immiqrasiya ölkələrindən fərqli olaraq problem 90-cı illərdə formalaşmış, getdikcə kəskinləşən səviyyəyə çatmışdır. Digər məsələ, miqrasiyanın mahiyyəti və məzmun baxımından fərqli olması idi. Nəhayət, miqrasiya fenomeni ilk dəfə SSRİ daxili prosesdən xarici yönümlü axına çevrildiyi üçün onun tənzimlənməsinin konsepsiyası və siyasəti mövcud deyildir.

Rusiyanın iqtisadi və demoqrafik gələcəyi üçün başlıca təhlükə mənbəyi olan Çin miqrasiya axını çərçivəsindən kənarda qalmışdır. Bu axının Rusiyaya faydası və yaxud ziyanı barədə nə müsbət, nə də mənfi arqumentlər yox dərəcəsindədir. Əslində bu elmi tədqiqatların, KİV-lərin dözülməz biganəliyi hadisəsindən daha çox, miqrasiyanın idarə edilməsində kollaps-iflic zərurətinin mövcudluğu deməkdir. Çinlə həmsərhəd rayonlarda, sərhəd keçid məntəqələrində "fövqəlada miqrasiya vəziyyətini" elan etməyin vaxtı çoxdan gəlib çatmışdır.

Postsovet məkanı çox qısa tarixi müddətdə beynəlxalq miqrasiyanın görünməmiş çeşidli axınının (daimi, məcburi köçkün və qaçqın kütləsi, müvəqqəti, əmək, tranzit və qeyri-qanuni miqrasiya və s.) güclü təsirinə məruz qalmışdır.

Son bir əsr ərzində Azərbaycan Respublikasında miqrasiya prosesləri I və II dünya müharibələrinin, xarici mü-

daxilə, Ermənistanın xalqımıza qarşı dövlət siyasəti çərçivəsində həyata keçirdiyi soyqırım, etnik təmizləmə və zorakı miqrasiya proseslərinin təsiri altında formalaşmışdır. Hələ 1913-1920-ci illər arasında Azərbaycan əhalisinin sayı müharibə və soyqırım fəlakəti nəticəsində 2 milyon 339 min nəfərdən 16,6% azalmış və 1milyon 952 min nəfər olmuşdur. 1948-1953-cü illər arasında Ermənistan ərazisindən 150 min nəfərdən çox azərbaycanlı deportasiya olunmuşdur .

XX əsrin 90-cı illərindən SSRİ-nin süqutu ilə Azərbaycanda bütün sahələrdə olduğu kimi miqrasiya sahəsində də ən mürəkkəb xaos, hərc-mərclik vəziyyəti mövcud idi. 1988-ci ildən başlayaraq erməni təcavüzü nəticəsində torpaqlarımızın 20%-nin işğal edilməsi, 1 milyondan çox qaçqın, o cümlədən Ermənistandan qovulmuş 250 min nəfərdən çox azərbaycanlının humanitar fəlakətlə müşayiət olunan deportasiyası ölkədə iflic vəziyyəti yaratmışdır. İşğal olunmuş ərazilərdə sərhədlər, ölkəyə gəlmə və getmə prosesləri tam nəzarətsiz qalmışdır. MDB məkanında qaçqın problemi ilə üzləşən ilk ölkə kimi Azərbaycana Ermənistandan qaçqınların axını hələ 1988-ci ilin sonundan başlamışdır. "1990-cı ilin əvvəlində artıq Ermənistandan 250 min nəfər soydaşımız zorla qovulub çıxarılmış, Azərbaycana pənah gətirmişdir. Bunların 186 min nəfərini azərbaycanlılar, 11 min nəfərini kürdlər və 3,5 min nəfərini ruslar təşkil etmişdir. Ermənistandan qaçqın düşmüş rusların və kürdlərin əsas hissəsi sonradan Rusiyaya və digər MDB dövlətlərinə getməsi nəticəsində 1992-ci ildə Azərbaycanda 196,8 min nəfər qaçqın qeydə alınmışdır.

Ötən əsrin 90-cı illərində Azərbaycan dövlətçiliyi tarixində ilk dəfə milli, müstəqil miqrasiya siyasəti həyata keçirilməyə başlandı.



Azərbaycanda miqrasiya proseslərinin tarixi dinamikası və özünə-məxsusluğunu şərtləndirən amillər barədə tədqiqatçıların müxtəlif fikirləri mövcuddur. Məsələn, bəzi tədqiqatçılara görə "Azərbaycan əhalisi öz milli xüsusiyyətlərinə görə miqrasiyaya az meylli, torpağa, vətənə bağlıdırlar. Lakin, torpaqların işğalı və Ermənistan ərazisindən məcburi deportasiya nəticəsində baş vermiş miqrasiya istisna təşkil edir. Torpaqların işğalı səbəbindən daimi yaşayış yerlərini tərk etmiş azərbaycanlılar da ölkədaxili miqrasiya ilə kifayətlənmişlər. Müstəqilliyin bərpasının ilk illərində sosial-iqtisadi vəziyyətin kəskin pisləşməsi nəticəsində əhalinin xarici dövlətlərə miqrasiya prosesi sürətləndi.

Azərbaycanda demoqrafiya və insan resursları sahəsində digər tədqiqatçının fikrinə görə isə "Respublikamızda sosial-iqtisadi və demoqrafik cəhətdən əhali miqrasiyası prosesinin üç istiqaməti özünü qabarıq biruzə verir: 1) erməni faşistlərinin respublikamıza təcavüzü ilə əlaqədar işğal olunmuş torpaqlardan əhalinin mərkəzi şəhərlərə və bir sıra başqa rayonlara zorla köçürülməsi; 2) ardıcıl olaraq əhalinin kənd yerlərindən şəhər yerlərinə axıb getməsi; 3) urbanizasiya prosesinin sürətlənməsi və iri şəhərlərin yaranması ilə əlaqədar olaraq şəhər əhalisinin artması"[56].

Müstəqillik dövründə miqrasiyanın xüsusiyyətlərinə münasibətdə digər tədqiqatçının fikrinə görə SSRİ-nin dağılması digər respublikalarda olduğu kimi Azərbaycanda da miqrasiya proseslərinin güclənməsinə səbəb oldu. Minlərlə azərbaycanlının doğma vətəninə qayıtması ilə bərabər, ölkə vətəndaşlarının müəyyən hissəsinin digər ölkələrə miqrasiya etməsinə və məskunlaşmasına şərait yaratdı [73].

Məcburi miqrasiya proseslərinin öyrənilməsinə dair Azərbaycan alimləri R.Ə. Mehdiyev [51], H.M. Rəcəbli [72], M.Ə. Sərdarov [73], F.N. Abdullayev [33] və başqaları sanballı tədqiqat işləri aparmışlar.

Hazırda Azərbaycan Respublikasında məcburi köçkünlərlə bərabər 3 min nəfərdən çox "qaçqın" statusu almaq niyyətində olan şəxs mövcuddur. Onların əksəriyyətini çeçen mənşəli Rusiya vətəndaşları, Əfqanıstan, İran, İraq və Fələstindən olan şəxslər təşkil edir. Beləliklə, Azərbaycanda 1 milyonadək qaçqın, məcburi köçkün və "qaçqın" statusu almaq niyətində olan şəxs vardır.

Zorakı miqrasiyanın tənzimlənməsində həyata keçirilən siyasətin əsas istiqamətlərindən biri müvafiq hüquqi-qanunvericilik bazasının yaradılması idi. Buraya qaçqın və məcburi köçkünlərin statusu, onların məskunlaşdırılması, sosial müdafiəsi və s. məsələlərin qanunla müəyyən edilmiş əsaslarının işlənməsi idi. Digər mühüm məsələ, beynəlxalq əməkdaşlığın inkişaf etdirilməsi, Azərbaycan Dövlətinin miqrasiya siyasəti sahəsində beynəlxalq konvensiyalara qoşulması və iştirakı idi.

Miqrasiyanın məcburi kateqoriyasından fərqli olan digər müxtəlif növlərinin tənzimlənməsinə dair müvafiq qanunvericiliyin zəruri olması dövlət siyasətinin əsasını təşkil edir. Bu baxımdan 1996-cı ildə "Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin hüquqi vəziyyəti haqqında" Azərbaycan Respublikasının qanunu, 1998-ci ildə "İmmiqrasiya haqqında Qanun", 2000-ci ildə isə "Əmək miqrasiyası haqqında Azərbaycan Respubliksının qanunu"qəbul edildi.

Müasir dövrdə miqrasiyanın qlobal problemə çevrilməsi bu sahədə dövlət siyasətini milli təhlükəsizliyin təmin olunmasının bir nömrəli faktoruna çevirir. Azərbaycan



Respublikasının 2007-ci ildə qəbul olunmuş "Milli Təhlükəsizlik Konsepsiyası"nda dövlətin miqrasiya siyasəti "Azərbaycan Respublikasının milli təhlükəsizlik siyasətininin əsas istiqamətləri" sırasına daxil edilmişdir.

Azərbaycanda miqrasiya sahəsində dövlət siyasətinin həyata keçirilməsi, məqsədi ilə 2006-2008-ci illər üçün Dövlət Miqrasiya Proqramı qəbul olunmuşdur.

Miqrasiya sahəsində olan problemləri nəzərə alaraq dövlətin bu sahədə yeni siyasətinin əsas məqsədi-miqrasiya axınının mənfi nəticələrinin aradan qaldırılması, qeyri-qanuni miqrasiyaya nəzarət edilməsi, qanuni miqrantların hüquqlarının müdafiəsi, yüksək ixtisaslı intelektual miqrantların Azərbaycana cəlb edilməsidir. 2004-cü ildə miqrasiya siyasəti sahəsində "Dövlət Miqrasiya Siyasəti konsepsiyası"qəbul edilmişdir. 2006-cı ildə isə təsdiq edilmiş "Azərbaycan Respublikasının Dövlət Miqrasiya Proqramı (2006-2008-ci illər)" 2004-cü ildə qəbul olunmuş "Azərbaycan Respublikasında demoqrafiya və əhali sakinliyinin inkişafı sahəsində Dövlət Proqramı"na uyğun olaraq hazırlanmışdır.

İnkişafın yeni mərhələsində miqrasiya siyasətinin təkmilləşdirilməsi sahəsində daha bir fundamental xarakterli sənəd qəbul edildi. Azərbaycan Respublikasında Vahid Miqrasiya İdarəetmə Proqramının işlənib hazırlanması üzrə 1998-ci ildə yaradılmış Hökumət Komissiyası "Dövlət Miqrasiya Siyasəti Konsepsiyası"nı işləyib hazırlamış və 2004-cü ildə Nazirlər Kabineti tərəfindən təsdiq edilmişdir.

Konsepsiyanın xarici siyasət sahəsində müəyyən etdiyi prinsiplər çox önəmli məsələləri əhatə edir. Burada qanunsuz miqrasiyanın bütün formaları, beynəlxalq sazişlərin bağlanmasında, Azərbaycan Respublikasının milli

maraqlarının qorunması, xaricdə yaşayan azərbaycanlıların hüquq və azadlıqlarının müdafiə edilməsi, Azərbaycan Respublikası ərazisində qaçqınlara, "qaçqın" statusu almaq niyyətində olan şəxslərə köməyin göstərilməsi üçün müvafiq mexanizmlərin yaradılması və həyata keçirilməsi və s. məsələlər öz ifadəsini tapmışdır [3].

Miqrasiya proseslərinin və miqrantların cəmiyyətdə artan rolunu nəzərə alaraq, bu sahədə müvafiq dövlət orqanlarının fəaliyyətinin əlaqələndirilməsi məqsədi ilə 19 mart 2007-ci ildə DMX-i yaradılmışdır.

Miqrasiya proseslərinin idarə olunmasında "bir pəncərə" prinsipinin tətbiqi haqqında fərmanda qeyd olunduğu kimi, bu sahədə aparılan uğurlu siyasi və iqtisadi islahatlar nəticəsində yaşayış səviyyəsinin yüksəlməsi və bütün sahələrdə müşahidə olunan sürətli inkişaf ölkəmizə gələn əcnəbilərin sayının ildən-ilə əhəmiyyətli dərəcədə artmasına səbəb olmaqla miqrasiya proseslərinin intensivləşməsini şərtləndirmişdir. 2009-cu il iyulun 1-dən miqrasiya proseslərinin idarə olunmasında "bir pəncərə" prinsipi üzrə vahid dövlət orqanının səlahiyyətlərinin həyata keçirilməsi Azərbaycan Respublikasının DMX-ə həvalə olunmuşdur.

Miqrasiya sahəsində beynəlxalq təcrübənin öyrənilməsi məqsədilə DMX-i BMqT, BMT-nin Qaçqınlar üzrə Ali Komisarlığı, Aİ, AŞ, MDB kimi beynəlxalq qurumlarla, Almaniya, Avstriya, İsveçrə, Rusiya və b. dövlətlərlə sıx əməkdaşlıq edir. Bu günədək Azərbaycan miqrasiya sahəsində 15 beynəlxalq hüquqi akta qoşulub.

Qeyri-qanuni miqrasiya bütün dünya dövlətləri, xüsusilə də müstəqillik əldə edən və bu miqrasiya növü ilə mübarizədə kifayət qədər tarixi təcrübəyə malik olmayan bir sıra ölkələr üçün çox böyük təhlükə yaradır. Azərbaycan da işğal altında olan torpaqlara nəzarət edə bilmədiyi üçün bu məsələni dəfələrlə beynəlxalq tədbirlərdə vurğulamışdır. 2004-cü il 6 may tarixində qəbul olunmuş "Azərbaycan Respublikasında İnsan Alverinə Qarşı Mübarizə üzrə Milli Fəaliyyət Planı"nı da miqrasiya siyasətinin inkişaf etdirilməsi, müxtəlif növdən və kateqoriyalardan ibarət miqrasiya proseslərinin tənzimlənməsi baxımından son dərəcə mühüm əhəmiyyətə malikdir. Azərbaycan Respublikasına əsasən İrandan, Çeçenistandan, Hindistandan, Pakistandan, Banqladeşdən, İraqdan, Nigeriyadan, Özbəkistandan, Tunisdən, Vyetnamdan, Gürcüstandan qeyri-leqal miqrantlar gəlir. Gürcüstanda yaşayan soydaşlarımızın da bir qismi Azərbaycanda iş axtarmaq məcburiyyətindədir. Hər bir ölkədə iqtisadi inkişaf səviyyəsinin artması miqrant axınının intensivləşməsinə səbəb olur. Bir sıra qeyri-leqal miqrasiya kanalları Azərbaycanın tranzit ölkə kimi əlverişli mövqeyindən istifadə etməyə cəhd edirlər.

Azərbaycan özü də başqa ölkələrin vətəndaşlarına sığınacaq verən dövlətdir. Amma dövlət rəsmiləri bildirirlər ki, ölkənin özünün ərazisi işğal olunan rayonlardan çox sayda məcburi köçkünü olduğuna görə başqa ölkələrdən sığınacaq üçün müraciət edənlərə müsbət cavab vermək həmişə mümkün olmur. Azərbaycan Respublikasında qaçqın statusu almaq istəyənlərin vəsatətlərinə baxılması 2008-ci ildən DMX-nin Qaçqın Statusunun Müəyyənləşdirilməsi Departamenti tərəfindən həyata keçirilir.

Əmək miqrasiyası sahəsində dövlət siyasətinin təkmilləşməsi, bu sahədə beynəlxalq əməkdaşlığın genişləndirilməsi də müasir dövrdə ən mühüm məsələlərdəndir.

Azərbaycan Respublikasının əmək miqrasiyası sahəsində ikitərəfli əməkdaşlığını qeyd edərkən, ilk növbədə 8

fevral 2000-ci il tarixli AR Qanunu ilə təsdiq edilmiş AR Hökuməti ilə BMqT arasında Əməkdaşlıq Sazişini qeyd etmək lazımdır. Sazişlə BMqT-nin Azərbaycanda potensiallarının yaradılması, miqrasiya məsələləri üzrə məsləhət xidmətləri, miqrasiya haqqında informasiya, vətəndaşların və əcnəbilərin miqrasiyası, həmçinin əmək miqrasiyası, qaçqınlara, ölkə daxilində və onun xaricindən gəlmiş məcburi köçkünlərə miqrasiya yardımları, yüksək ixtisaslı kadrların qayıtması və s. miqrasiya proqramlarını həyata keçirəcəyi razılaşdırılmışdır.

Miqrasiya siyasətinin ən mühüm istiqamətlərindən biri ölkəmizdən əmək miqrasiyası məqsədi ilə xaricə gedənlərin hüquqlarının müdafiəsi və vətənə qayıdan miqrantların problemlərinin tənzimlənməsidir. Məlumdur ki, Azərbaycandan xarici əmək miqrasiyası məqsədilə ən çox Rusiya və Ukrayna dövlətlərinə üz tuturlar. Rusiya hökumətinin miqrasiya rejiminin sərtləşdirilməsinə dair 2006-cı il noyabrın 22-də qəbul etdiyi qərarla əlaqədar 2006-cı il noyabrın 22-də Azərbaycan hökuməti tərəfindən "Rusiya iqtisadiyyatının ticarət sektorunda çalışan Azərbaycan vətəndaşlarının problemlərinin həlli haqqında" qərar qəbul olundu.

Ölkəyə yüksək ixtisas və təhsilli, intellektual miqrantların cəlb edilməsi müasir dövrdə miqrasiya siyasətinin başlıca istiqamətləridir.

Respublikada ölkədaxili miqrasiya kateqoriyalarından biri də ekoloji miqrasiyadır. Ölkəmizdə ekoloji miqrasiyanın meydana çıxması səbəblərinə əsasən Xəzər dənizi səviyyəsinin dəyişməsi, dağətəyi bölgələrdə meşə və kolluqların qırılması nəticəsində baş verən torpaq sürüşmələri, aran bölgələrdə meliorasiya işlərinin vəsait və texnika qıtlığı üzündən ciddi şəkildə ixtisara salınması ilə



əlaqədar torpaqların şoranlaşması, sellər, radioaktiv şuallanmalar və s. kimi amillər aid edilir.

Miqrasiyanın respublikamızın gələcək Avrasiya nəqliyyat dəhlizində həlledici regiona çevriləcəyi halda mühüm rol oynayacaq kateqoriyalarından biri də tranzit miqrasiyadır.

Azərbaycan Respublikasının tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasının iqtisadi-coğrafi və geosiyasi mövqeyi, strateji əhəmiyyəti, siyasi, iqtisadi, mədəni və s. əlaqələr üçün optimal tranzit məkan olması burada özünəməxsus miqrasiya proseslərini formalaşdırır.

Sovetlər dönəmində Respublikaların miqrasiya spesifikası nəzərə alınmırdı. Həmin illərdə Azərbaycanda həmçinin də NMR-də xarici ölkələrə yaşamağa, təhsil almağa, işləməyə və s. getmək asan deyildi və demək olar ki, İttifaq miqyasında həll edilməsi tələb olunan bir məsələ idi. Həm də SSRİ dövründə xaricə getməyin xeyli məhdud xarakter daşıması, xüsusi qadağalar qoyulması və bu qadağaların daha çox müsəlman xalqlarına tətbiq edilməsi insanların müstəqil hərəkət etməsinə imkan vermirdi. Ümumi SSRİ-də aparılan qapalı miqrasiya siyasəti bütün ittifaq respublikaları kimi Azərbaycana o cümlədən də NMR-ə şamil olunurdu.

Müstəqillik qazandıqdan sonra əldə etdiyimiz nailiyyətlərdən biri də miqrasiya sahəsindəki dəyişiklik və sərbəstlik oldu. NMR-in İİR və Türkiyə ilə sərhədlərinin açıq olması və bu ölkələrə bilavasitə çıxışının olması burada yeni miqrasiya proseslərinin formalaşmasına şərait yaratdı. Bu proseslərin tənzimlənməsi sahəsində yeni miqrasiya siyasətinin həyata keçirilməsini zəruriləşdirdi.

Müstəqillik dövründə NMR-də qəbul edilən miqrasiya siyasəti Azərbaycan respublikası Dövlət Miqrasiya Siya-

sətinin tərkib hissəsi olub, burada həm daxili, həm də xarici miqrasiya proseslərinin təkmilləşməsinə və bu istiqamətdə nəzərdə tutulan tədbirlərin həyata keçirilməsinə yönəldilmişdir. NMR-də miqrasiya sahəsində baş verən dəyişikliklər və bu sahədə həyata keçirilən yeni miqrasiya siyasəti bu problemin öyrənilməsinin aktual olduğunu göstərir.

Azərbaycan tədqiqatçılarından A.A. Nadirov [62], E.E. Qasımov [46], Ş.M. Muradov [57], M.M. Mehdizadə [52], Z.N. Eminov [35] və b. öz əsərlərində NMR-də miqrasiya və demoqrafik proseslər haqqında məlumat vermişlər.

Yuxarıda qeyd etdiklərimizi nəzərə alaraq regionlarda miqrasiya siyasətinin əsas istiqamətlərini aşağıdakı kimi qruplaşdırmaq olar:

ABŞ - da miqrasiyanın tənzimlənməsi ilə tanışlıq göstərir ki, burada miqrasiya siyasətinin istiqamətlərində əsas mövqelər bunlardır: immiqrasiya rejiminin liberallaşması; qeyri - qanuni miqrasiyanın leqallaşması və onun tamamilə qadağan edilməsi; intellektual miqrantların cəlb edilməsi və onlara üstünlük verilməsi; miqrantlara ölkə vətəndaşları kimi eyni hüquqların verilməsi və s.

Klassik immiqrasiya ölkələrindən fərqli olaraq Qərbi Avropada miqrasiya siyasəti əsasən müvəqqəti yerdəyişmə məzmunlu proses kimi qəbul edilir və son 30 il ərzində əsas məhdudlaşdırıcı xarakter daşımışdır. Avropa ölkələri immiqrasiya ölkələri hesab olunmur, çünki burada əhalinin köçürülməsi və s. tədbirlər həyata keçirilməmişdir.

Beləliklə, Avropada miqrasiya siyasətinə dair əsas nəticələri belə qruplaşdırmaq olar: Avropada bu günki miqrasiya probleminin fundamenti II dünya müharibəsindən sonra bir-neçə on il əvvəl qoyulmuşdur; miqrantlar Avropaya sənayenin sürətli inkişafı dövründə işçi qüvvəsinin qıtlığı səbəbindən cəlb edilmişdir; miqrasiya problemini gərginləşdirən əsas kontingent keçən miqrant nəsillərinin cəmiyyətə hələ də inteqrasiya oluna bilməməsidir. Onlar Avropa vətəndaşları olsalar da, özlərini tam hüquqlu hesab edə bilmirlər; XX əsrin II yarısından bütün Qərbi Avropa ölkələrində immiqrasiya siyasətinin bir başlıca məqsədi müəyyən edilmişdir; əcnəbi əhalinin axınının "0"- sıfır həddində saxlanılmasına səy göstərmək və s.-dir.

MDB məkanının ən mühüm miqrasiya bölgəsi kimi siyasətin təhlilini yekunlaşdıraraq deyə bilərik ki, burada miqrasiyanın struktur dinamikası 90-cı illərdəki, məcburi formadan 2000-ci ildə iqtisadi formaya, daimi miqrasiyadan-müvəqqəti miqrasiyaya, rus dilli əhalinin axınından-xarici dillərin axınına doğru qanunauyğun təkamül etmişdir. Miqrasiyanın tənzimlənməsində bütövlükdə məhdudlaşdırıcı metodlar və prinsiplər tədbiq edilsə də, son illər liberal siyasətin üstünlüyünü tələb edən çağırışlar səslənməkdədir.

Miqrasiyanın tənzimlənməsi sahəsində dünya təcrübəsi, klassik və yeni miqrasiya konsepsiyaları ilə tanışlıqdan belə nəticəyə gəlmək olur ki, vahid miqrasiya siyasəti bu gün də mövcud deyil. Hətta, nəzər saldığımız Avropa məkanında inteqrasiya proseslərinin sürətli templərinə baxmayaraq, miqrasiya siyasətinin burada da müstəsna dərəcədə milli dövlət maraqlarına tabe olan sahə kimi çxış etdiyini görürük. Bununla yanaşı, hər bir dövlət miqrasiyanın tənzimlənməsində beynəlxalq və milli təcrübəsini təhlil edərək optimal variant seçimini etməyə çalışır. Bir məsələdə bütün dünya dövlətlərini getdikcə daha çox yekdilliyə gəlməsinə ümid var: miqrasiya siyasətinin mərkəzində işçi qüvvəsi, muzdlu əmək deyil, insan durmalıdır.

# II FƏSİL
# NAXÇIVAN MUXTAR RESPUBLİKASININ DEMOQRAFİK POTENSİALI VƏ ONUN ƏSAS İNKİŞAF MEYLLƏRİ

## 2.1. Əhali sayının dinamikası

Naxçıvan Muxtar Respublikası Azərbaycan Respublikasının cənub-qərbində yerləşir, sahəsi 5,5 min km²-dir (respublika ərazisinin 6,3%), inzibati mərkəzi isə Naxçıvan şəhəridir. Tərkibinə 7 inzibati rayon, 5 şəhər, 8 qəsəbə və 208 kənd daxildir. Bu region geosiyasi mövqeyinə görə Azərbaycan Respublikasının sərhədlərindən kənarda yerləşir, hər tərəfdən xarici ölkələr ilə əhatələnmişdir. O, qərbdən Türkiyə ilə 15 km, cənubdan və cənub-qərbdən İran ilə 204 km, şimaldan və şərqdən Ermənistan ilə 246 km həmsərhəddir. Naxçıvan Muxtar Respublikası Azərbaycanın qədim elm və mədəniyyət mərkəzlərindən biri olmaqla yanaşı, həm də qədim insanların məskunlaşdığı özünəməxsus demoqrafik inkişaf xüsusiyyyətlərinə malik olan regiondur. 2009-cu ilin aprel ayında keçirilmiş əhalinin siyahıyaalınması məlumatlarına əsasən burada yaşayan əhalinin sayı 397,4 min nəfər olmuşdur. Əhalinin 115,5 min nəfəri (29,1 %-i) şəhər yerlərində, 281,9 min nəfəri (70,9 %-i) isə kənd yerlərində yaşayır. Onların 197,9 min nəfərini, yəni 49,8 %- ni kişilər, 199,5 min nəfərini, yəni 50,2%-ni isə qadınlar təşkil edir.

Dünyanın bütün ölkə və ərazilərində olduğu kimi Naxçıvan Muxtar Respublikasında da əhalinin məskunlaşması və onun demoqrafik vəziyyəti tarixin müxtəlif mərhələlərində eyni olmayıb, həmin dövrlərin malik olduğu ictimai - iqtisadi və siyasi şəraitdən asılı olaraq



daimi inkişaf edib dəyişmişdir. Rusiya ilə İran arasındakı müharibələrdən sonra bağlanılmış Gülüstan (1813-cü il) və Türkmənçay (1828-ci il) müqavilələri nəticəsində Rusiyaya qatılmış, 1921-ci ilin oktyabr ayında Rusiya, Azərbaycan, Ermənistan və Türkiyə arasında imzalanmış Qars müqaviləsi əsasında Naxçıvan Muxtar ərazi statusunda Azərbaycan SSR-nin ayrılmaz tərkib hissəsi elan edilmiş, 1924-cü ilin 9 fevralından bu tərkibdə MSSR-na çevrilmişdir. 1991-ci ilədək SSRİ-nin tərkibində olmuş Naxçıvan MSSR əhalisinin dinamikası və quruluşunda baş verən dəyişikliklər keçmiş SSRİ-nin və Azərbaycan SSR-nin ictimai-iqtisadi, sosial-iqtisadi həyatında baş verən hadisə və proseslərlə bilavasitə bağlı olmuşdur. Son bir əsr ərzində Naxçıvan Muxtar Respublikasının əhalisinin sayı haqqında az-çox düzgün məlumatlar məhz həmin dövrdə daxil olduğu keçmiş Çar Rusiyasında və SSRİ-də keçirilmiş əhalinin ümumi siyahıyaalınması məlumatlarına əsasən hesablanmışdır. Çar Rusiyasının tərkibinə qatılmış qədim Azərbaycan torpaqları olan İrəvan quberniyasının, indiki NMR ərazisinin əksəriyyətini təşkil etmiş Naxçıvan, Şərur və Dərələyəz qəzaları da birlikdə götürüldükdə 177,3 min nəfər, o cümlədən Naxçıvan qəzasında 76,5 min nəfər əhali yaşamışdır [57]. Hər iki qəzada birlikdə götürüldükdə yaşamış bütün əhalinin 115,7 min nəfəri (65,3%) azərbaycanlılar (o cümlədən, Naxçıvan qəzasında 51,6 min nəfər (67,4%), Naxçıvan şəhərində 6,2 min nəfər (70,0%), Ordubad şəhərində 4,1 min nəfər (88,6%), Baş Noraşendə 0,6 min nəfər (68,8%)), 55,4 min nəfər (31,2%) gəlmə ermənilər (o cümlədən, Naxçıvan qəzasında 34,7 min nəfər (34,4%), Şərur-Dərələyəz qəzasında 20,7 min nəfər (27,1%), Naxçıvan şəhərində 2,2 min nəfər (25,7%)), 4,4 min nəfəri (24,8%) kürdlər, 1,1 min nəfəri (0,64%) ruslar,

0,7 min nəfərini (0,37%) isə başqa xalqların nümayəndələri təşkil etmişdir.

Rəsmi statistik məlumatlara əsasən NMR-in yarandığı 1924-cü ildə isə burada cəmi 90,0 min nəfər əhali olmuşdur. Onların 11,0 min nəfəri şəhər yerlərində, 79,0 min nəfəri isə kənd yerlərində yaşamışlar. 1926-cı ildə keçirilmiş ilk Ümumittifaq əhalinin siyahıyaalınması məlumatlarına əsasən MR əhalisinin sayı artaraq 104,9 min nəfərə, o cümlədən şəhər yerlərində 14,7 min nəfər, kənd yerlərində 90,2 min nəfərə çatmışdır. 1939-cu ildə keçirilmiş əhalinin siyahıyaalınması məlumatlarına əsasən isə burada əhalinin sayı müvafiq olaraq 126,6 min, 22,5 min və 104,1 min nəfər olmuşdur (cədvəl 2.1).

Cədvəl 2.1

Naxçıvan Muxtar Respublikası üzrə əhalinin sayının illər üzrə dəyişilməsi (min nəfər)

| İllər | Şəhər və kənd yerləri cəmi | İl ərzində ümumi artım | | Şəhər əhalisi | Kənd əhalisi | Bütün əhaliyə nisbətən faizlə | |
|---|---|---|---|---|---|---|---|
| | | min nəfər | faizlə | | | Şəhər | Kənd |
| 1924 | 90,0 | - | - | 11,0 | 79,0 | 12,2 | 87,8 |
| 1926 | 104,9 | - | - | 14,7 | 90,2 | 14,0 | 86,0 |
| 1939 | 126,7 | - | - | 22,5 | 104,2 | 17,8 | 82,2 |
| 1959 | 141,4 | - | - | 38,3 | 103,1 | 27,1 | 72,9 |
| 1969 | 202,2 | 3,5 | 1,7 | 49,5 | 152,7 | 24,5 | 75,5 |
| 1979 | 238,8 | 4,8 | 2,0 | 62,5 | 176,3 | 26,2 | 73,8 |
| 1989 | 293,9 | 6,6 | 2,2 | 87,7 | 206,2 | 29,8 | 70,2 |
| 1999 | 354,1 | 4,7 | 1,5 | 95,1 | 259,0 | 26,9 | 73,1 |
| 2009 | 397,4 | 5,1 | 1,3 | 115,5 | 281,9 | 29,1 | 70,9 |
| 2010 | 402,4 | 7,7 | 1,9 | 116,7 | 285,7 | 29,0 | 71,0 |
| 2011 | 410,1 | 8,4 | 2,1 | 119,5 | 290,6 | 29,1 | 70,9 |
| 2012 | 418,5 | 8,7 | 2,1 | 121,7 | 296,8 | 29,1 | 70,9 |
| 2013 | 427,2 | 8,1 | 1,9 | 124,0 | 303,2 | 29,0 | 71,0 |

**Mənbə**: Azərbaycanın demoqrafik göstəriciləri–2013. Bakı, DSK 2014, s-43.



1939–1959-cu illərdə isə ümumi əhalinin sayı artaraq Muxtar Respublika üzrə 141,4 min nəfər, o cümlədən şəhər yerlərində artaraq 38,3 min nəfər, kənd yerlərində isə azalaraq 103,1 min nəfər təşkil etmişdir. 1959-cu ildən keçən 50 il ərzində isə MR əhalisinin sayı dinamik olaraq artmışdır. Öyrənilən dövrdə bütünlükdə Azərbaycanda olduğu kimi, Naxçıvan Muxtar Respublikasında da əhalinin artıb azalması prosesinə bir çox kompleks ictimai-iqtisadi, sosial-iqtisadi, siyasi, milli, etnik demoqrafik, hərbi və s. amillər təsir göstərmiş və onların təsir dairəsi müxtəlif tarixi inkişaf mərhələlərində eyni olmamışdır.

Tədqiq edilən ilk dövrdə, yəni 1897–1924-cü illərdə bu ərazinin əhalisinin, xüsusilə azərbaycanlıların və ermənilərin sayca azalmasına öncə burada 1905–1906-cı və 1915–1918-ci illərdəki erməni-müsəlman qırğınları, bu qanlı hadisələrin nəticəsində əhalinin kütləvi sürətdə başqa yerlərə, xüsusilə İrana qaçması aclıq nəticəsində əhalinin böyük tələfata uğraması, Naxçıvan ərazisinin bir hissəsinin Ermənistana qatılması, əhalinin miqrasiyası, təbii hərəkət göstəricilərinin nisbətən aşağı düşməsi və s. amillər təsir göstərmişdir.

1939–1950-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin sayının 11,5% azalaraq 126,6 min nəfərdən 112,0 min nəfərə düşməsinə səbəb isə vətən müharibəsinin törətdiyi mənfi təsirlərlə bağlı olmuşdur. Onu da qeyd etmək lazımdır ki, NMR-də əhalinin ən sürətli orta illik artımı 60–70-ci illərə təsadüf etmişdir. Bu illər Azərbaycanda əhalinin demoqrafik inkişaf səviyyəsinin ən yüksək göstəriciliyə malik olduğu dövr kimi səciyyələnir.

Bu dövrdə, daha doğrusu 1959–1970-ci illərdə əhalinin siyahıyaalınmasında Naxçıvan Muxtar Respublikasında əhalinin sayı 45,9% (Azərbaycan SSR-də 38,4%,

keçmiş SSRİ-də 26,8%), o cümlədən şəhər yerlərində 34,2% (Azərbaycanda 45,1%, keçmiş SSRİ-də 22,0%), kənd yerlərində 48,6% (Azərbaycanda 23,2% artmış, SSRİ-də 18,2% azalmışdır) artmışdır. Başqa sözlə desək, həmin dövrdə bütünlükdə keçmiş SSRİ-də əhalinin orta illik artım sürəti 2,4%, Azərbaycanda 3,5% olduğu halda, NMR-də 4,1% təşkil etmişdir. Bu hər şeydən əvvəl həmin dövrdə NMR-də əhalinin hər min nəfərinə düşən doğum və təbii artım göstəricilərinin keçmiş SSRİ-də və Azərbaycandan xeyli yüksək olması ilə bağlı idi. Belə ki, əgər 1960-cı ildə əhalinin hər min nəfərinə düşən doğum və təbii artım səviyyəsi müvafiq olaraq SSRİ-də 24,9 və 17,8 nəfər, Azərbaycanda isə 42,6 və 35,9 nəfər təşkil etmişdirsə, NMR-də 54,0 və 44,6 nəfər və ya orta ittifaq səviyyəsindəkindən 2,2 və 3,5 dəfə, Azərbaycandan isə 28,2 və 24,2% yüksək olmuşdur. NMSSR-in SSRİ-nin tərkibində olduğu sonuncu iki on illik ərzində isə (1970-1990-ci illərdə) burada əhalinin sayı 49,3% artaraq 205,4 min nəfərdən 307,2 min nəfərə, o cümlədən şəhər yerlərində 78% artaraq 51,0 min nəfərdən 90,8 min nəfərə, kənd yerlərində isə 39,9% artaraq 154,7 min nəfərdən 216,4 min nəfərə çatmışdır.

1989-1999-cu illərin sosial-iqtisadi çətinliklərinə baxmayaraq bu dövrdə də burada əhalinin sayı 17,2% artaraq 293,0 min nəfərdən 354,1 min nəfərə, o cümlədən şəhər yerlərində 7,8% artaraq 87,7 min nəfərdən 95,1 min nəfərə, kənd yerlərində isə 20,4% artaraq 206,2 min nəfərdən 259,0 min nəfərə gəlib çatmışdır. Fikrimizcə bu vəziyyət mövcud sosial-demoqrafik amillərlə yanaşı, bir tərəfdən də NMR-in Ermənistan tərəfindən blokadaya alınması ilə əlaqədar əhalinin miqrasiyası amili ilə də bağlıdır. Ümumiyyətlə NMR-in əhalisi Azərbaycan Respublikasının



digər regionlarının əhalisi ilə müqaisədə az mobilliyi ilə seçilir. Buna baxmayaraq tədqiq olunan dövrdə (1999-2013-cü illər) sosial-iqtisadi vəziyyətin çətinliyi, həyat səviyyəsinin aşağı olması, işsizlik səviyyəsinin yüksək olması əhalinin xarici ölkələrə miqrasiyasını sürətləndirmişdir. NMR əhalisinin sayını (427,2 min nəfər) nəzərə alsaq, hər il tək Türkiyə Respublikasına gedən (orta hesabla 7 min) əmək qabiliyyətli kişilərin əhalinin demoqrafik proseslərinə mənfi təsirini görərik.

Əhalinin xarici ölkələrə miqrasiyası (xüsusilə əmək qabiliyyətli kişilərin) demoqrafik proseslərin, o cümlədən cins, yaş strukturunun pozulmasına, nikahların azalmasına (xüsusilə kənd yerlərində gənc kişilərin miqrasiyası nəticəsində ailə qurmamış qadınların sayı artır), bu da öz növbəsində doğum və təbii artım göstəricilərinin azalmasına gətirib çıxarır. Bu prosesi cədvəlin məlumatından da müşahidə etmək olar (cədvəl 2.2).

Cədvəl 2.2

Naxçıvan Muxtar Respublikasında təbii artım, miqrasiya saldosu və ümumi artımın illər üzrə göstəriciləri (min nəfər)

| İllər / Göstəricilər | 1999 | 2000 | 2001 | 2002 | 2003 | 2004 | 2005 | 2006 | 2007 | 2008 | 2009 | 2010 | 2011 | 2012 | 2013 |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Təbii artım | 3,4 | 3,9 | 3,5 | 3,3 | 3,3 | 3,8 | 4,2 | 3,8 | 5,6 | 5,6 | 5,7 | 6,2 | 8,4 | 8,5 | 7,8 |
| Miqrasiya saldosu | -9,5 | -11, | -10,1 | -9,8 | -8,0 | -6,6 | -6,7 | -6,5 | -6,4 | -5,6 | -5,3 | -5,1 | -4,0 | -3,1 | -3,1 |
| Ümumi artım | -6,1 | -7,2 | -6,6 | -6,5 | -4,7 | -2,8 | -2,5 | -2,7 | -0,8 | 0 | 0,4 | 1,1 | 4,4 | 5,4 | 4,8 |

**Mənbə**: NMR-in Statistika Komitəsinin və MXŞ-nin məlumatları əsasında hesablanmışdır.

Statistik məlumatların təhlilindən göründüyü kimi NMR-də miqrasiya saldosunun ən yüksək həddi 2000-ci ildə müşahidə olunmuşdur. Bu ildə təbii artım 3,9 min

nəfər, ümumi artım isə -7,2 min nəfər olmuşdur. 1999-cu ilə nisbətən miqrasiya saldosu 2013-cü ildə 6,5 min nəfər azalmış, müvafiq olaraq təbii artım 4,4 min nəfər və ümumi artım 10,9 min nəfər artmışdır.

1999-2013-cü illərdə Muxtar Respublikaya gələnlərin sayı 3,5 min nəfər, gedənlərin sayı 104,7 min nəfər, uyğun olaraq miqrasiya saldosu -101,1 min nəfər olmuşdur.

Bundan başqa Naxçıvan Muxtar Respublikasında əhalinin sürətli artımını təmin edən amillər arasında burada ailələrdə çoxuşaqlılıq ənənəsinin qorunub saxlanılması və bununla əlaqədar olaraq burada əhalinin doğum səviyyəsinin xeyli yüksək olmasıdır. Lakin NMR-də 1960-cı illərdən başlayaraq əhalinin hər min nəfərinə düşən doğum səviyyəsi sürətlə azalaraq 1960-cı ildəki 54 nəfərdən 1999-cu ildə 29,5 nəfərə düşmüş və ya 45,4% azalmışdır. Bu proses NMR-in şəhər və kənd yerlərində özünü göstərmiş və indi də davam etməkdədir. Bunu 1965-1999-cu və 1965-2009-cu illərdə Muxtar Respublikanın ayrı-ayrı inzibati rayonlarında əhalinin hər min nəfərinə düşən doğum səviyyəsinin dəyişilməsi dinamikasından aydın görmək olar. Statistik rəqəmlərdən göründüyü kimi yuxarıda qeyd edilən prosesin nəticəsində NMR-də əhalinin hər min nəfərinə düşən doğum göstəricisi 39,3% azalaraq 1965-ci ildəki 48,6 nəfərdən 1999-cu ildə 29,5 nəfərə, 2009-cu ildə isə 59,7% azalaraq 19,6 nəfərə çatmışdır. NMR-də əhalinin doğum səviyyəsinin azalmasına bir sıra sosial, iqtisadi, demoqrafik, milli-etnik xarakterli amillər, o cümlədən şəhər və kənd əhalisinin sayı arasındakı nisbətin birincinin xeyrinə dəyişməsi, əhalinin tərkibində fertil yaşlı qadınların xüsusi çəkisinin azalması, əhalinin maddi və mədəni həyat səviyyəsinin dəyişilməsi, ailədə uşaqların sayının nizamlanması prose-



sinin güclənməsi, nikahların və boşanmaların sayındakı dəyişikliklər və s. təsir göstərmişdir. Deyilənləri ondan görmək olar ki, 1970-1999-cu illərdə NMR-də şəhər əhalisinin xüsusi çəkisi 24,8%-dən 28,1%-ə, iqtisadiyyatda çalışan qadınların sayı 2,6 dəfə artaraq 14,6 min nəfərdən 37,3 min nəfərə, iqtisadiyyatda işləyənlər arasında qadınların xüsusi çəkisi 33,3%-dən 47,7%-ə qalxmışdır. 2009-cu ildə isə şəhər əhalisinin xüsusi çəkisi 29,0%, iqtisadiyyatda çalışan qadınların sayı 98,8 min nəfər, iqtisadiyyatda işləyənlər arasında onların xüsusi çəkisi 47,9% təşkil etmişdir.

1980-1999-cu illərdə əhalinin hər min nəfərinə düşən nikahların sayı 1,5 dəfə azalaraq 10,5-dən 7-ə düşmüş, boşanmaların sayı isə bu illərdə artaraq 0,6-dan 1,6-a çatmışdır. 1999-cu ildən sonra isə azalaraq 2005-ci ildə əhalinin hər min nəfərinə 0,5, 2009-cu ildə isə bu göstərici 0,8-ə çatmışdır. Nikahların sayı isə 2005-ci ildə 1999-cu ildəki göstəricidən 1,4 dəfə artaraq 7-dən 9,9-a qalxmışdır. Bu göstərici 2009-cu ildə 8,6 olmuşdur.

Naxçıvan Muxtar Respublikasında əhali sayının dəyişməsinə təsir edən əsas amillərdən biri də əhalinin ölüm göstəricisidir. Burada əhalinin hər min nəfərinə düşən ölüm göstəricisi 1999-cu ildə 1940-cı ilə nisbətən 1,9 dəfə, 1970-ci ilə nisbətən isə 37,5% azalaraq, müvafiq olaraq 10,6 və 7,7 nəfərdən 5,6 nəfərə, 1 yaşınadək uşaqlar arasındakı ölüm səviyyəsi isə müvafiq olaraq 3,1 və 1,8 dəfə azalaraq 56,0 və 33,3 nəfərdən 18,1 nəfərə düşmüşdür. 2005-2009-cu illərdə isə əhalinin hər min nəfərinə düşən ölüm göstəricisi müvafiq olaraq 5,3 və 5,0, 1 yaşınadək uşaqlar arasındakı ölüm səviyyəsi isə müvafiq olaraq 4,7 və 1,4 təşkil etmişdir. Statistik göstəricilərdən də göründüyü kimi ölümün səviyyəsi, o cümlədən də bir

yaşınadək uşaqlar arasındakı ölüm göstəricisi aşağı düşmüşdür. Bu işdə heç şübhəsiz ki, NMR-də səhiyyə sisteminin inkişafı və əhaliyə səhiyyə xidmətinin də az təsiri olmamışdır. Belə ki, Naxçıvan Muxtar Respublikasının yaranmasından keçən 85-il ərzində burada bütün ixtisaslardan olan həkimlərin sayı 44,8 dəfə artaraq 19 nəfərdən 851 nəfərə, xəstəxana çarpayılarının sayı 31,8 dəfə artaraq 95-dən 3024-ə, əhalinin hər min nəfərinə düşən bütün ixtisaslardan tibb işçilərinin sayı 31,5 dəfə artaraq 2,1 nəfərdən 66,1 nəfərə, xəstəxana çarpayılarının sayı isə 7 dəfə artaraq 10,6-dan 75,1-ə gəlib çatmışdır. 2009-cu ildə NMR-də 45 xəstəxana fəaliyyət göstərirdi ki, onlarda da bütün ixtisaslardan olan 851 nəfər həkim və 2659 nəfər orta tibb işçisi çalışırdı. Hazırda MR-də əhaliyə ambulator-polikilinika yardımı göstərən müalicə müəssisələri də fəaliyyət göstərir.

NMR-də baş verən demoqrafik dəyişikliklərə təsir göstərən amillərdən biri də əhalinin milli tərkib hissəsidir. Müxtəlif adət-ənənəyə, nikah, boşanma, təhsil, mədə-niyyət və s. xüsusiyyətlərə malik millətlərdən olan əhali doğum səviyyəsinə görə də bir-birindən fərqlənir. Bu və başqa səbəblərdən hər bir ərazidə məskunlaşan əhalinin milli tərkibinin öyrənilməsi xüsusi maraq doğurur. NMR də Azərbaycan Respublikasının müxtəlif etnik qruplarının yaşadığı ərazilərindəndir. Bu isə öz növbəsində uzun illər burada əhalinin say dinamikasına öz təsirini göstərmişdir. 1897-2009-cu illərin əhali siyahıyaalınması məlumatlarına əsasən son 112 il ərzində NMR-də yaşayan əhalinin sayı 2,2 dəfə artaraq 177,3 min nəfərdən 397,4 min nəfərə, o cümlədən azərbaycanlıların sayı 3,2 dəfə artaraq 115,7 min nəfərdən 373,1 min nəfərə, bütünlükdə əhali arasında



onların xüsusi çəkisi isə 30,6% yüksələrək 65,3% dən 99,1%- ə gəlib çatmışdır [65].

Azərbaycanda Sovet hakimiyyətinin qurulmasından 6 il sonra, yəni 1926-cı ildə aparılmış Ümumittifaq əhali siyahıyaalınması dövründən tutmuş SSRİ-nin süqutu ərəfəsində (1989-cu il) keçirilmiş sonuncu əhali siyahıyaalınması dövrünədək olan 63 il ərzində Muxtar Respublikada yaşayan təkcə azərbaycanlılar deyil, həm də burada yaşayan bütün başqa millətlərdən, o cümlədən erməni və rus millətlərindən olan əhalinin sayı daim artmışdır, lakin 1989-cu ildən sonra ölkədə baş vermiş bir sıra məlum hadisələrlə əlaqədar olaraq onların sayı tədricən azalmağa başlamış və hazırkı dövrdə NMR-in əhalisi arasında önəmli yer tutmur.

1989-cu ilin əhali siyahıyaalınmasına əsasən burada yaşayan əhalinin 95,1%-ni azərbaycanlılar, 3,8%-ni ruslar, 0,6%-ni ermənilər, 2,2%-ni isə başqa millətlərin nümayəndələri təşkil etmişdir. Tarixən ən qədim zamanlardan burada məskunlaşmış azərbaycanlıların sayı 1897-ci ilin əhali siyahıyaalınması məlumatlarına əsasən 115,7 min nəfər olduğu halda, yuxarıda qeyd edilən səbəblər üzündən onların sayı xeyli azalaraq 1926 - cı ilin əhali siyahıyaalınması dövründə 88,4 min nəfərə düşmüş, sonrakı illərdə isə daim artaraq 1989-cu ilin əhali siyahıyaalınması dövründə 281,9 min nəfərə, 1999-cu ilin siyahıyaalınmasında 354,1 min nəfərə, 2009-cu ilin siyahıyaalınmasında isə 397,4 min nəfərə gəlib çatmışdır. Bütünlükdə əhali arasında azərbaycanlıların xüsusi çəkisi daim artaraq 1897-ci ildəki 65,3%-dən, 1926-cı ildə 84,3%-ə, 1939-cu ildə 85,6%-ə, 1959-cu ildə 90,2%-ə, 1979-cu ildə 95,7%-ə, 1989-cu ildə 95,9%-ə, 1999-cu ildə 97,3%-ə,

2009-cu ildə isə 99,1%-ə çatmışdır. Əhalinin 0,9%-ni isə gürcü, rus və kürd millətlərindən olan əhali təşkil edir.

1926-1939-cu illərdə NMR əhalisinin sayının 13 il ərzində cəmi 21,8 min nəfər artması isə başqa amillərlə yanaşı, 1929-cu ildə Zaqafqaziya Mərkəzi İnqlab Komitəsinin qərarı ilə 657 km$^2$ ərazinin–Şərur qəzasının Qurtqulaq, Xaçın, Horadiz; Naxçıvan qəzasının Şahbuz nahiyəsinin Oğbin, Ağxaç, Almalı, İtqıran, Sultanbəy kəndlərinin; Ordubad qəzasının Qorçevan kəndinin, habelə Kilid kəndi torpaqlarının bir hissəsinin; 1930-cu ildə isə Əldərə, Lehvaz, Avtazur, Nüvədi və s. yaşayış məntəqələrinin Ermənistana verilməsi ilə bağlıdır. Əlbətdə bütün bu deyilənlər NMR-in əhalisinin demoqrafik inkişaf göstəricilərinin onun sayının, yaş-cins quruluşunun milli tərkibinin və s. dəyişilməsinə öz təsirini göstərməmiş deyildir. 1926-1989-cu illərdə əhalinin sayının və onun milli tərkibinin dəyişilməsi sürətinə təsir edən amillərə gəldikdə isə onlara 1941-1945-ci illərin Böyük Vətən Müharibəsinin nəticələri ilə yanaşı, bir çox başqa iqtisadi, sosial, etno-demoqrafik, mədəni, milli-münaqişə, psixoloji ərazi və s. Xarakterli amillər təsir etmişdir [58].

Bütövlükdə götürdükdə (1897-1989-cu illər) Naxçıvan Muxtar Respublikasında erməni millətindən olanların sayının azərbaycanlılara nisbətən zəif artması və əhalinin tərkibində onların xüsusi çəkisinin azalması təbii hal olub, bir tərəfdən keçmiş SSRİ-də Azərbaycan SSR-nin və Ermənistan SSR-də əhalinin miqrasiyası prosesində baş verən dəyişikliklərlə, əhalinin daha fəal hissəsinin Naxçıvandan Azərbaycanın və Ermənistanın iri şəhər və regionlarına işləməyə, təhsil almağa və yaşamağa getməsi, bir qisminin Ermənistana qayıtması, erməni millətindən olan gənclərin bir hissəsinin SSRİ-nin başqa ərazilərində ordu-



da qulluq etdikdən sonra geri dönməməsi, bəzilərinin xarici ölkələrə, o cümlədən də Rusiyaya getməyə daha çox meylli olmaları, digər tərəfdən isə ermənilər və başqa millətlər arasında əhalinin doğum səviyyəsinin və təbii artımın azərbaycanlılara nisbətən xeyli aşağı olması, 1948-1953-cü və 1988-1989-cu illərdə Ermənistandan 10 minlərlə azərbaycanlıların deportasiya edilməsi ilə əlaqədar olaraq, yaranmış ictimai-siyasi şəraitlə və s. Amillərlə izah olunur.

Naxçıvan Muxtar Respublikası özünün demoqrafik göstəricilərinin artıq olması ilə respublikanın regionları arasında həmişə seçilir. Muxtar Respublikada 1999-2013-cü illər ərzində əhalinin say dinamikasında baş verən dəyişikliklər aşağıdakı cədvəldə (2.3) aydın göstərilmişdir.

Cədvəl 2.3

Naxçıvan Muxtar Respublikası üzrə əhalinin sayının dəyişilməsi (min nəfər)

| İllər | Bütün əhali | O cümlədən | | Bütün əhaliyə görə faizlə | |
|---|---|---|---|---|---|
| | | Şəhər əhalisi | Kənd əhalisi | Şəhər əhalisi | Kənd əhalisi |
| 1999 | 354,1 | 95,1 | 259,0 | 26,9 | 73,1 |
| 2000 | 358,0 | 96,0 | 262,0 | 26,8 | 73,2 |
| 2001 | 361,5 | 96,6 | 264,9 | 26,7 | 73,3 |
| 2002 | 364,5 | 97,1 | 267,4 | 26,6 | 73,4 |
| 2003 | 367,1 | 97,3 | 269,8 | 26,5 | 73,5 |
| 2004 | 369,8 | 105,5 | 264,2 | 28,6 | 71,4 |
| 2005 | 372,9 | 110,3 | 262,8 | 29,6 | 70,4 |
| 2006 | 376,4 | 110,6 | 265,8 | 29,4 | 70,6 |
| 2007 | 379,5 | 110,8 | 268,6 | 29,2 | 70,8 |
| 2008 | 384,5 | 112,3 | 272,1 | 29,2 | 71,1 |
| 2009 | 397,4 | 115,5 | 281,9 | 29,1 | 70,9 |
| 2010 | 402,4 | 116,7 | 285,7 | 29,0 | 71,0 |
| 2011 | 410,1 | 119,5 | 290,6 | 29,1 | 70,9 |
| 2012 | 418,5 | 121,7 | 296,8 | 29,1 | 70,9 |
| 2013 | 427,2 | 124,0 | 303,2 | 29,0 | 71,0 |

**Mənbə**: Azərbaycanın demoqrafik göstəriciləri 2013. Bakı, DSK, 2014, s-43.

1999-cu ildə keçirilmiş əhali siyahıyaalınması məlumatlarına əsasən NMR-də əhalinin sayı artaraq 354,1 min nəfər, şəhər əhalisi 95,1 min nəfər, kənd əhalisi 259,0 min nəfər təşkil etmişdir. 2002-ci ildə bu göstərici müvafiq olaraq 364,5 min nəfər, 97,1 min nəfər, 267,4 min nəfər olmuşdur. 1999-cu ilə nisbətən 2009-cu ildə əhalinin ümumi sayı 9%, o cümlədən şəhər əhalisinin sayı 15,8%, kənd əhalisinin sayı isə 6,2% artmışdır. 2006, 2008 və 2013-cü illərdə isə NMR üzrə əhalinin sayı müvafiq olaraq 5,9% artaraq 376,4 min nəfər, 7,9% artaraq 384,5 min nəfər və 20,6% artaraq 427,2 min nəfər, şəhər əhalisinin sayı 95,1 min nəfərdən 14,0% artaraq 110,6 min nəfər, 15,3% artaraq 112,3 min nəfər və 30,4% artaraq 124,0 min nəfər, kənd əhalisi isə 259,0 min nəfərdən 2,6% artaraq 265,8 min nəfər, 4,8% artaraq 272,1 min nəfər və 17,1% artaraq 303,2 min nəfər təşkil etmişdir (cədvəl 2.3).

Xəritədən göründüyü kimi NMR-də əhalinin ən sıx məskunlaşdığı ərazilər Şərur və Babək rayonları, ən seyrək məskunlaşma isə Şahbuz rayonundadır. Bütün inzibati rayonlarda kənd əhalisinin sayı üstünlük təşkil edir. Demək olar ki, NMR-də əhalinin üçdə iki hissəsi kənd əhalisinin payına düşür. Belə ki, Şərur rayonu əhalisinin 94%-ni, Babək rayonunun 95%-ni, Sədərək rayonunun 86%-ni, Şahbuz rayonunun 79%-ni, Kəngərli rayonunun 81%-ni, Culfa rayonunun 71%-ni və Ordubad rayonunun 77%-ni kənd əhalisi təşkil edir (bax. şəkil 2.1).





Şəkil 2.1 Naxçıvan Muxtar Respublikasının əhali məskunlaşması xəritəsi (2013-cü il)

Əhalisinin sayına görə ən böyük inzibati rayon Şərur rayonudur. Şərur rayonu Muxtar Respublikanın qərbində Arazboyu düzənliklərdə yerləşir. Ərazisi 811,14 km²-dir, rayonda 1 şəhər 65 kənd yaşayış məntəqəsi vardır. İnzibati mərkəzi Şərur şəhəridir. Rayon ərazisində qədim zamanlardan azərbaycanlılar yaşamışdır. Yalnız Dərəkənd kəndində kurdlər məskunlaşmışdır

Muxtar Respublika əhalisinin 26,1%-i, o cümlədən şəhər əhalisinin 5,6%-i, kənd əhalisinin isə 33,7%-i bu rayonun payına düşür. Bu rayonun ərazisində 1970-ci ildə əhalinin sayı 67,1 min nəfər (Naxçıvan Muxtar Respublikasının əhalisinin 33,2%-ni), şəhər əhalisi 2,6 min nəfər, kənd əhalisi 64,5 min nəfər təşkil etmişdir. 1980, 1990-cı illərdə müvafiq olaraq rayon əhalisinin sayı 81,9 min nəfər, 92,1 min nəfər, şəhər əhalisinin sayı 3,2 min nəfər, 6,1 min nəfər, kənd əhalisi isə 78,7 min nəfər və 86,0 min nəfər olmuşdur. 1995-ci ildə əhalinin sayı 1970-ci ilə nisbətən 1,6 dəfə artaraq 67,1 min nəfərdən 104,8 min nəfərə, şəhər əhalisi 2,5 dəfə artaraq 2,6 min nəfərdən 6,4 min nəfərə, kənd əhalisi isə 1,5 dəfə artaraq 64,5 min nəfərdən 97,4 min nəfərə gəlib çatmışdır [65, 58-93]. Şərur rayonu əhalisinin sıxlığına görə Naxçıvan Muxtar Respublikasında birinci yeri tutur (128 nəfər). Buna səbəb isə Şərur rayonunun ərazisinin əksəriyyət hissəsinin düzənliklərdən ibarət olmasıdır.

Burada əhalinin sayının digər inzibati rayonlara nisbətən çox olması demoqrafik göstəricilərin (doğum, təbii artım) yüksək olması ilə əlaqədardır.

Müasir dövrdə (1999-2013-cü illər ərzində) Şərur rayonunun, o cümlədən şəhər və kənd əhalisinin sayında baş verən dəyişikliklər cədvəl 2.4-də göstərilmişdir.



Cədvəl 2.4

Şərur rayonu üzrə əhali sayının dəyişilməsi (min nəfər)

| İllər | Bütün əhali | O cümlədən | | Bütün əhaliyə görə faizlə | |
|---|---|---|---|---|---|
| | | Şəhər əhalisi | Kənd əhalisi | Şəhər əhalisi | Kənd əhalisi |
| 1999 | 110,7 | 6,4 | 104,3 | 5,8 | 94,2 |
| 2000 | 112,1 | 6,7 | 105,4 | 6,0 | 94,0 |
| 2001 | 113,1 | 6,8 | 106,3 | 6,0 | 94,0 |
| 2002 | 113,9 | 6,8 | 107,1 | 6,0 | 94,0 |
| 2003 | 115,5 | 6,5 | 109,0 | 5,7 | 94,3 |
| 2004 | 96,0 | 6,7 | 89,3 | 7,0 | 93,0 |
| 2005 | 97,2 | 6,9 | 90,3 | 7,1 | 92,9 |
| 2006 | 97,9 | 6,5 | 91,4 | 6,6 | 93,4 |
| 2007 | 99,0 | 6,7 | 92,3 | 6,8 | 93,2 |
| 2008 | 102,1 | 6,7 | 95,4 | 6,6 | 93,4 |
| 2009 | 102,3 | 6,7 | 95,6 | 6,5 | 93,5 |
| 2010 | 103,3 | 6,7 | 96,6 | 6,5 | 93,5 |
| 2011 | 105,4 | 6,7 | 98,7 | 6,4 | 93,6 |
| 2012 | 107,4 | 6,9 | 100,5 | 6,4 | 93,6 |
| 2013 | 111,2 | 7,1 | 104,1 | 6,4 | 93,6 |

**Mənbə**: Azərbaycanın demoqrafik göstəriciləri 2009. Bakı, DSK, 2010, s-217. Azərbaycanın demoqrafik göstəriciləri 2013. Bakı, DSK, 2014, s-80.

Statistik məlumatlardan göründüyü kimi Şərur rayonunun əhalisinin sayında 1999-cu ildən 2004-cü ilə qədər artmalar müşahidə olunur, 2004-cü ildən 2013-cü ilə qədər isə əhalinin sayı azalmışdır. Buna səbəb isə Şərur rayonu ərazisinin bir hissəsinin 19 mart 2004-cü ildə təşkil olunan Kəngərli rayonu ərazisinə qatılmasıdır. 2009-cu ildə bu rayonun ümumi əhalisinin və kənd əhalisinin sayı 1999-cu ilə nisbətən 1,1 dəfə azalmış, şəhər əhalisi 1,0 dəfə artmışdır ( cədvəl 2.4).

NMR-də əhalinin sayına görə fərqlənən ikinci böyük rayon Babək rayonudur.

NMR-in ümumi əhalisinin 16,5%-i, şəhər əhalisinin 3%-i, kənd əhalisinin isə 21,6%-i bu rayonun ərazisində cəmlənmişdir.

Cədvəl 2.5

Babək rayonu üzrə əhali sayının dəyişilməsi (min nəfər)

| İllər | Bütün əhali | O cümlədən | | Bütün əhaliyə görə faizlə | |
|---|---|---|---|---|---|
| | | Şəhər əhalisi | Kənd əhalisi | Şəhər əhalisi | Kənd əhalisi |
| 1999 | 68,6 | 2,7 | 65,9 | 4,0 | 96,0 |
| 2000 | 72,5 | 2,9 | 69,6 | 4,0 | 96,0 |
| 2001 | 73,2 | 3,0 | 70,2 | 4,1 | 95,9 |
| 2002 | 73,9 | 3,0 | 70,9 | 4,1 | 95,9 |
| 2003 | 70,0 | 3,0 | 67,0 | 4,3 | 95,7 |
| 2004 | 66,0 | 3,1 | 62,9 | 4,7 | 95,3 |
| 2005 | 66,9 | 3,2 | 63,7 | 4,9 | 95,1 |
| 2006 | 67,7 | 3,2 | 64,5 | 4,7 | 95,3 |
| 2007 | 68,8 | 3,3 | 65,5 | 4,8 | 95,2 |
| 2008 | 71,4 | 3,4 | 68,0 | 4,8 | 95,2 |
| 2009 | 71,6 | 3,6 | 68,0 | 5,0 | 95,0 |
| 2010 | 63,7 | 3,3 | 60,4 | 5,2 | 94,8 |
| 2011 | 65,1 | 3,4 | 61,7 | 5,2 | 94,8 |
| 2012 | 66,9 | 3,6 | 63,3 | 5,4 | 94,6 |
| 2013 | 70,4 | 3,8 | 66,6 | 5,4 | 94,6 |

**Mənbə**: Azərbaycanın demoqrafik göstəriciləri 2009. Bakı, DSK, 2010, s-218. Azərbaycanın demoqrafik göstəriciləri 2013. Bakı, DSK, 2014, s-80.

1970-ci ildə bu rayonun əhalisinin sayı 45,6 min nəfər (NMR əhalisinin 22,2%), şəhər əhalisinin sayı 1,8 min nəfər, kənd əhalisinin sayı 43,8 min nəfər təşkil etmişdir. 1970-ci ildən sonra keçən hər iki 10 il müddətində yəni, 1980-ci ildə əhalinin sayı 13,1 min nəfər artaraq 45,6 min nəfərdən 58,7 min nəfər, şəhər əhalisi 0,7 min nəfər artaraq 1,8 min nəfərdən 2,5 min nəfər, kənd əhalisi isə 12,4 min nəfər artaraq 43,8 min nəfərdən 56,2 min nəfərə, 1990 - cı ildə isə bu göstəricilər müvafiq ola-



raq 18 min nəfər artaraq 45,6 min nəfərdən 63,6 min nəfərə; 0,6 min nəfər artaraq 1,8 min nəfərdən 2,4 min nəfərə; 17,4 min nəfər artaraq 43,8 min nəfərdən 61,2 min nəfərə gəlib çatmışdır [66].

Babək rayonu üzrə əhali sayının dəyişilməsinin son on beş illik məlumatları cədvəl 2.5 - də göstərilmişdir.

Cədvəldən də göründüyü kimi Babək rayonunun əhalisi 2009-cu ildə 1999-cu ilə nisbətən 4,2%, öz növbəsində bu müddət ərzində şəhər əhalisi 25%, kənd əhalisi isə 3,1% artmışdır. 2013-cü ildə isə əhalinin sayı 1,6% azalmışdır.

Demoqrafik göstəricilərin çoxluğuna görə üçüncü yeri Ordubad rayonu tutur.

Cədvəl 2.6

Ordubad rayonu üzrə əhali sayının dəyişilməsi (min nəfər)

| İllər | Bütün əhali | O cümlədən | | Bütün əhaliyə görə faizlə | |
|---|---|---|---|---|---|
| | | Şəhər əhalisi | Kənd əhalisi | Şəhər əhalisi | Kənd əhalisi |
| 1999 | 30,7 | 10,9 | 19,8 | 35,5 | 64,5 |
| 2000 | 41,2 | 10,0 | 31,2 | 24,3 | 75,7 |
| 2001 | 41,7 | 9,8 | 31,9 | 23,5 | 76,5 |
| 2002 | 41,8 | 9,8 | 32,0 | 23,5 | 76,5 |
| 2003 | 42,4 | 10,2 | 32,2 | 24,1 | 75,9 |
| 2004 | 42,7 | 10,3 | 32,4 | 24,1 | 75,9 |
| 2005 | 43,3 | 10,4 | 32,9 | 24,0 | 76,0 |
| 2006 | 43,2 | 10,1 | 33,1 | 23,4 | 76,6 |
| 2007 | 43,6 | 10,2 | 33,4 | 23,4 | 76,6 |
| 2008 | 44,9 | 10,5 | 33,5 | 25,4 | 74,6 |
| 2009 | 45,0 | 10,5 | 34,5 | 23,3 | 76,7 |
| 2010 | 45,5 | 10,5 | 35,0 | 23,1 | 76,9 |
| 2011 | 46,1 | 10,6 | 35,5 | 23,0 | 77,0 |
| 2012 | 46,9 | 10,7 | 36,2 | 22,8 | 77,2 |
| 2013 | 48,4 | 11,0 | 37,4 | 22,7 | 77,3 |

**Mənbə**: Azərbaycanın demoqrafik göstəriciləri 2009. Bakı, DSK, 2010, s-219. Azərbaycanın demoqrafik göstəriciləri 2013. Bakı, DSK, 2014, s-80.

NMR əhalisinin 11,3%-i, şəhər əhalisinin 8,6%-i, kənd əhalisinin isə 12,1%-i bu rayonun payına düşür (cədvəl 2.6).

Ordubad rayonunun əhalisinin sayı 1970-ci ildə 28,5 min nəfər, şəhər əhalisi 7,1 min nəfər, kənd əhalisi 21,4 min nəfər olmuşdur. 1980-ci ildə bu göstəricilər müvafiq olaraq 31,2 min nəfər; 8,2 min nəfər; 23,0 min nəfər təşkil etmişdir. 1970-ci ilə nisbətən 1990-cı ildə əhalinin sayı 19,7% artaraq 35,5 min nəfər, şəhər və kənd əhalisinin sayı isə müvafiq olaraq 26,0% artaraq 9,6 min nəfər və 17,4% artaraq 25,9 min nəfərə gəlib çatmışdır [65, 58-93]. Ordubad rayonu əhalisinin say dinamikasının illər üzrə vəziyyəti cədvəl 2.6-da verilmişdir.

Ordubad rayonunun ümumi və kənd əhalisi 2009-cu ildə 1999-cu ilə nisbətən müvafiq olaraq 31,7% və 42,6% artmış, öz növbəsində şəhər əhalisi 3,7% azalmışdır.

NMR əhalisinin 10,7%, şəhər əhalisinin 10,2%, kənd əhalisinin isə 10,6%-i Culfa rayonunun payına düşür (əhalinin sıxlığı 42 nəfər). 1970-ci ildə NMR-in ümümi əhalisinin 10,6%-i, şəhər əhalisinin 10,5%-i, kənd əhalisinin 10,4%-i Culfa rayonunun payına düşmüşdür.

1970-1980-ci illər arasında keçən 10 il ərzində bu rayonun ümumi əhalisi 13,9% artaraq 21,6 min nəfərdən 25,1 min nəfərə, şəhər əhalisi 21,7% artaraq 5,4 min nəfərdən 6,9 min nəfərə, kənd əhalisi 11,0% artaraq 16,2 min nəfərdən 18,2 min nəfərə gəlib çatmışdır.

1980-1990-cı illər ərzində isə Culfa rayonunun əhalisi 16,6% artaraq 30,1 min nəfər, şəhər və kənd əhalisi isə müvafiq olaraq 18,8% artaraq 8,5 min nəfər və 25% artaraq 21,6 min nəfər olmuşdur. 1995-ci ildə bu rayonun əhalisi MR əhalisinin 33,8 min nəfərini, şəhər əhalisinin 9,6 min nəfərini, kənd əhalisinin 24,2 min nəfərini və ya [33,



65]. Cədvəldə son 15 ildə Culfa rayonu üzrə əhalinin say dinamikası verilmişdir ( 2.7).

Cədvəl 2.7

Culfa rayonu üzrə əhali sayının dəyişilməsi (min nəfər)

| İllər | Bütün əhali | O cümlədən | | Bütün əhaliyə görə faizlə | |
|---|---|---|---|---|---|
| | | Şəhər əhalisi | Kənd əhalisi | Şəhər əhalisi | Kənd əhalisi |
| 1999 | 35,9 | 10,2 | 25,7 | 28,3 | 71,7 |
| 2000 | 37,0 | 10,5 | 26,5 | 28,4 | 71,6 |
| 2001 | 36,9 | 10,4 | 26,5 | 28,2 | 71,8 |
| 2002 | 37,3 | 10,5 | 26,8 | 28,2 | 71,8 |
| 2003 | 37,9 | 10,5 | 26,8 | 28,2 | 71,8 |
| 2004 | 38,3 | 10,8 | 27,5 | 28,2 | 71,8 |
| 2005 | 39,3 | 11,4 | 27,9 | 29,0 | 71,0 |
| 2006 | 39,0 | 11,0 | 28,1 | 27,9 | 72,1 |
| 2007 | 39,6 | 11,0 | 28,7 | 27,5 | 72,5 |
| 2008 | 41,0 | 11,9 | 29,1 | 29,0 | 71,0 |
| 2009 | 41,0 | 11,9 | 29,1 | 29,0 | 71,0 |
| 2010 | 41,6 | 11,9 | 29,7 | 28,6 | 71,4 |
| 2011 | 42,6 | 12,3 | 30,3 | 28,9 | 71,1 |
| 2012 | 43,5 | 12,5 | 31,0 | 28,7 | 71,3 |
| 2013 | 45,5 | 12,9 | 32,6 | 28,4 | 71,6 |

**Mənbə**: Azərbaycanın demoqrafik göstəriciləri 2009. Bakı, DSK, 2010, s-219. Azərbaycanın demoqrafik göstəriciləri 2013. Bakı, DSK, 2014, s-80.

Culfa rayonunun əhalisi tədqiq olunan dövr ərzində 26,7%, o cümlədən, şəhər əhalisi 26,5%, kənd əhalisi isə 26,8% artmışdır. Cədvəlin məlumatlarından göründüyü kimi burada son on beş il müddətində kənd əhalisinin xüsusi çəkisi (bütün əhaliyə nisbətən) 0,4% azalmışdır.

Naxçıvan Muxtar Respublikası əhalisinin 7,1%-i, o cümlədən şəhər əhalisinin 4,5%-i, kənd əhalisinin 8,1%-i Kəngərli rayonunun payına düşür. 2004-cü ildə yarandığına görə bu rayonun əhalisinin say dinamikasına aid statistik göstəricilər həmin ildən sonrakı dövrü əhatə edir. Kəngərli rayonunun əhalisinin sayının illər üzrə necə dəyi-

şildiyini cədvəlin məlumatlarından görmək olar (cədvəl 2.8).

Kəngərli rayonunun ümumi əhalisi yarandığı son 9 il ərzində 17,7%, öz növbəsində bu müddət ərzində şəhər əhalisi 26,6%, kənd əhalisi isə 15,8% artmışdır. Həmçinin kənd əhalisinin xüsusi çəkisi (bütün əhaliyə nisbətən) 1,3% azalmışdır.

Cədvəl 2.8

Kəngərli rayonu üzrə əhali sayının dəyişilməsi (min nəfər)

| İllər | Bütün əhali | O cümlədən | | Bütün əhaliyə görə faizlə | |
|---|---|---|---|---|---|
| | | Şəhər əhalisi | Kənd əhalisi | Şəhər əhalisi | Kənd əhalisi |
| 2005 | 26,0 | 4,5 | 21,5 | 17,3 | 82,7 |
| 2006 | 26,1 | 4,3 | 22,8 | 12,3 | 87,7 |
| 2007 | 26,5 | 4,5 | 22,1 | 16,6 | 83,4 |
| 2008 | 27,5 | 5,1 | 22,4 | 18,5 | 81,5 |
| 2009 | 27,6 | 5,1 | 22,5 | 18,5 | 81,5 |
| 2010 | 27,9 | 5,1 | 22,8 | 18,3 | 81,7 |
| 2011 | 28,6 | 5,3 | 23,3 | 18,6 | 81,4 |
| 2012 | 29,2 | 5,4 | 23,8 | 18,5 | 81,5 |
| 2013 | 30,6 | 5,7 | 24,9 | 18,6 | 81,4 |

**Mənbə**: Azərbaycanın demoqrafik göstəriciləri 2009. Bakı, DSK, 2010, s-219. Azərbaycanın demoqrafik göstəriciləri 2013. Bakı, DSK, 2014, s-80.

Şahbuz rayonu NMR-in əsas dağlıq rayonu olmaqla, yanaşı Muxtar Respublika əhalisinin 22,8 min nəfəri, o cümlədən şəhər əhalisinin 3,7 min nəfəri, kənd əhalisinin isə 19,1 min nəfəri bu rayonun payına düşür. Şahbuz rayonu əhalisinin sayı 1980-ci ildə 1970-ci ilə nisbətən 10,1%, şəhər əhalisi 5,3%, kənd əhalisi isə 9,5% artmışdır. Bu göstəricilər müvafiq olaraq 1990-cı ildə 19,3% artaraq 18,7 min nəfər, 25% artaraq 2,4 min nəfər və 18,4% artaraq 16,3 min nəfər olmuşdur. 1995-ci ildə rayon əhalisinin ümumi sayı 19,6 min nəfər, o cümlədən şəhər əha-



lisi 2,5 min, kənd əhalisi isə 17,1 min nəfər təşkil etmişdir [65]. Şahbuz rayonunun əhalisinin sayının 1999-2013-cü illər üzrə vəziyyəti haqqında cədvəl 2.9 - da məlumat verilmişdir.

Cədvəl 2.9

Şahbuz rayonu üzrə əhali sayının dəyişilməsi (min nəfər)

| İllər | Bütün əhali | O cümlədən | | Bütün əhaliyə görə faizlə | |
|---|---|---|---|---|---|
| | | Şəhər əhalisi | Kənd əhalisi | Şəhər əhalisi | Kənd əhalisi |
| 1999 | 21,3 | 2,5 | 17,8 | 12,5 | 87,5 |
| 2000 | 20,5 | 2,6 | 17,9 | 12,7 | 87,3 |
| 2001 | 20,7 | 2,6 | 18,1 | 12,6 | 87,4 |
| 2002 | 20,8 | 2,6 | 18,2 | 12,5 | 87,5 |
| 2003 | 21,3 | 3,3 | 18,0 | 15,4 | 84,6 |
| 2004 | 21,5 | 3,4 | 18,1 | 15,8 | 84,2 |
| 2005 | 21,8 | 3,5 | 18,3 | 16,1 | 83,9 |
| 2006 | 21,8 | 3,4 | 18,4 | 15,6 | 84,4 |
| 2007 | 22,0 | 3,4 | 18,6 | 15,5 | 84,5 |
| 2008 | 22,7 | 3,7 | 19,0 | 16,3 | 83,7 |
| 2009 | 22,8 | 3,7 | 19,1 | 16,2 | 83,8 |
| 2010 | 22,9 | 3,7 | 19,2 | 16,2 | 83,8 |
| 2011 | 23,2 | 3,8 | 19,4 | 16,4 | 83,6 |
| 2012 | 23,6 | 3,8 | 19,8 | 16,1 | 83,9 |
| 2013 | 24,1 | 5,1 | 19,3 | 21,1 | 78,9 |

**Mənbə**: Azərbaycanın demoqrafik göstəriciləri 2009. Bakı, DSK, 2010, s-218. Azərbaycanın demoqrafik göstəriciləri 2013. Bakı, DSK, 2014, s-80.

Şahbuz rayonunun əhalisi 2013-cü ildə 1999-cu ilə nisbətən 13,1%, öz növbəsində bu müddət ərzində şəhər əhalisi 104%, kənd əhalisi isə 8,4% artmışdır. Statistik materialların təhlilindən göründüyü kimi rayonda son on beş il müddətində şəhər əhalisinin xüsusi çəkisi 8,6% artmışdır (cədvəl 2.9).

NMR-də əhalisinin sayına görə axırıncı yeri Sədərək rayonu tutur. Bu rayon 1990-cı ildə sərhəd bölgəsinin so-

sial-iqtisadi inkişafını gücləndirmək məqsədi ilə yaradılmışdır. Rayon əhalisi 14,1 min nəfər (MR əhalisinin 3,5%-ni), şəhər əhalisi 0,5 min nəfər, kənd əhalisi isə 13,5 min nəfər təşkil edir. Rayon əhalisinin əsas hissəsi kənd əhalisindən (95,7%) ibarətdir. 1993-cü ildə rayon əhalisinin sayı 11,5 min nəfər, o cümlədən 1995-ci ildə isə 11,7 min nəfər olmuşdur. Sədərək rayonu əhalisinin say dinamikasının illər üzrə necə dəyişildiyini aşağıdakı cədvəldən (2.10) müşahidə etmək olar.

Cədvəl 2.10

Sədərək rayonu üzrə əhali sayının dəyişilməsi (min nəfər)

| İllər | Bütün əhali | O cümlədən | | Bütün əhaliyə görə faizlə | |
|---|---|---|---|---|---|
| | | Şəhər əhalisi | Kənd əhalisi | Şəhər əhalisi | Kənd əhalisi |
| 1999 | 12,0 | - | 12,0 | - | 100 |
| 2000 | 12,1 | - | 12,1 | - | 100 |
| 2001 | 12,3 | - | 12,3 | - | 100 |
| 2002 | 12,4 | - | 12,4 | - | 100 |
| 2003 | 12,8 | - | 12,8 | - | 100 |
| 2004 | 12,9 | - | 12,9 | - | 100 |
| 2005 | 13,1 | 0,5 | 13,5 | 3,8 | 96,2 |
| 2006 | 13,3 | 1,9 | 11,2 | 15,8 | 84,2 |
| 2007 | 13,6 | 1,9 | 11,4 | 16,2 | 83,8 |
| 2008 | 14,0 | 0,5 | 13,5 | 3,6 | 96,4 |
| 2009 | 14,1 | 0,5 | 13,5 | 4,3 | 95,7 |
| 2010 | 14,1 | 1,7 | 12,4 | 12,1 | 87,9 |
| 2011 | 14,4 | 2,0 | 12,4 | 13,9 | 86,1 |
| 2012 | 14,6 | 2,0 | 12,6 | 13,7 | 86,3 |
| 2013 | 15,3 | 2,1 | 13,2 | 13,7 | 86,3 |

**Mənbə**: Azərbaycanın demoqrafik göstəriciləri 2009. Bakı, DSK, 2010, s-217. Azərbaycanın demoqrafik göstəriciləri 2013. Bakı, DSK, 2014, s-80.

Sədərək rayonunun əhalisi tədqiq olunan dövr ərzində 27,7%, kənd əhalisi isə 10% artmışdır. Cədvəldən də



göründüyü kimi burada 2005-ci ilə qədər (0,5 min nəfər) şəhər əhalisi qeydə alınmayıb. 2013-cü ildə isə 75,0% artaraq 2,1 min nəfər olmuşdur. Bu ildə kənd əhalisinin xüsusi çəkisi (bütün əhaliyə nisbətən) 13,7% azalmışdır.

NMR-in və onun ayrı-ayrı inzibati rayonları əhalisinin say dinamikasının təhlilindən də göründüyü kimi, sosial iqtisadi vəziyyətin çətinliyinə baxmayaraq burada əhalinin sayı daim artmaqda davam etmişdir.

Öyrənilən dövrdə NMR-in inzibati rayonları üzrə şəhər əhalisinin sayının kənd əhalisinə nisbətdə artması, həyat səviyyəsinin yüksəlməsi, qadınların ictimai istehsala cəlb edilməsi, təhsil səviyyəsinin yüksəlməsi, ailədə uşaqların sayının nizamlanması və s. amillər əhalinin doğum səviyyəsinin azalmasına təsir göstərmişdir.

Əhalinin artımına təsir edən ölüm səviyyəsinin, o cümlədən də bir yaşınadək uşaqlar arasındakı ölüm göstəricisi son illərdə səhiyyə sisteminin inkişafı və əhaliyə səhiyyə xidmətinin yüksək səviyyədə olması ilə əlaqədar aşağı düşmüşdür.

Əhalinin doğum və təbii artımına təsir edən amillərdən biri də nikah və boşanma prosesləridir. NMR Azərbaycan Respublikasının digər regionları ilə müqaisədə nikah göstəricisinin yüksək olması, boşanma hallarının isə ümumrespublika göstəricisindən aşağı olması ilə fərqlənmişdir.

NMR-in uzun müddət blokada şəraitində yerləşməsi burada əhalinin cins-yaş strukturunun respublikamızın digər rayonlarına nisbətən az dəyişilməsinə öz təsirini göstərmişdir. Lakin son illər miqrasiya proseslərinin intensivləşməsi əhalinin cins tərkibinin pozulmasına bu da, öz növbəsində nikahların azalmasına gətirib çıxarır. Nikahların azalmasının başlıca səbəbləri ailə gəlirinin azal-

ması, işsizlik, sosial təminatın aşağı olması, mənzil təminatının olmaması və əhalinin gənc yaş qruplarında kişi və qadın nisbətinin pozulmasıdır. Bununla yanaşı ailə qurmamış qadınların sayının yüksək olması da müşahidə olunur.

Son illər MR-də sosial-iqtisadi şəraitin yaxşılaşdırılması və bu istiqamətdə həyata keçirilən mühüm tədbirlər gələcəkdə bu regionun əhalisinin rifah halının yaxşılaşdırılmasına və əhalinin sürətli artımına öz müsbət təsirini göstərəcəkdir.

## 2.2. Əhalinin təbii hərəkəti

Bütünlükdə Azərbaycan Respublikasında olduğu kimi Naxçıvan Muxtar Respublikasında da 90-cı illərdə əhalinin təbii artımında əvvəlki illərlə müqaisədə azalmalar müşahidə olunurdu. Bu proses bazar münasibətlərinə keçid dövrünün ziddiyyətləri ilə əlaqədar bütün dünya ölkərində olduğu kimi respublikamızda da, o cümlədən də Naxçıvan Muxtar Respublikasında və onun ayrı-ayrı rayonlarında, şəhər və kənd yerlərində də müşahidə olunurdu. NMR-də uzun illik demoqrafik materialların təhlili göstərir ki, əhalinin təbii artımı respublika göstəricilərinə nisbətən ən az burada aşağı düşmüşdür.

1990-1999-cu illərdə Naxçıvan Muxtar Respublikasının əhalisinin həyat səviyyəsinin aşağı düşməsi, sosial-iqtisadi vəziyyətin pisləşməsi, o cümlədən də keçmiş istehsal münasibətlərinin dağılması, işsizlik və iş yerlərinin çatışmaması, səhiyyə sahəsində yaranmış çətinliklər, az təminatlı əhali qruplarının, xüsusilə gənclərin sosial



vəziyyətlərində yaranmış gərginliklə bağlı olaraq ailə quranların sayının azalması, əhalinin qocalması prosesinin artması və s. bu kimi amillər burada əhalinin təbii hərəkətinə öz mənfi təsirini göstərmişdir. NMR əhalisinin həyatında baş verən bu dəyişikliklər əhalinin təbii artım dinamikasında da öz əksini tapmışdır.

Statistik materialların təhlili göstərir ki, son on beş il (1999–2013-cü illər) müddətində MR əhalisinin təbii artımında əvvəlki illərlə müqaisədə artım müşahidə olunmuşdur. İstər əhalinin məşğulluğu, adamların maddi-rifah halının yaxşılaşması, istərsə də yaşayış üçün sağlam mühitin formalaşması, səhiyyə işinin təşkili sahəsində görülən tədbirlər sosial-iqtisadi inkişafın ən mühüm göstəricilərindən biri kimi əhalinin artımına, demoqrafik vəziyyətinə təsir göstərərək Muxtar Respublika əhalisinin artımının 74 min nəfəri ötməsinə şərait yaratmışdır.

Əgər 2000-ci ildə əhalinin mütləq təbii artımı 3,9 min nəfər idisə, 2013-ci ildə 100% artaraq 7,8 min nəfərə çatmışdır. Həm də ümumi təbii artım əmsalı 10,7 nəfərdən 18,0 min nəfərə qədər artmışdır. Azərbaycanda, o cümlədən də onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında müstəqilliyimiz dövründə əhalinin təbii hərəkət prosesində olan dəyişiklikləri müqaisə edək. Belə ki, həmin dövrdə Azərbaycanda əhalinin miqdarı (7021,2 min nəfərdən 9356,5 min nəfərə) 1,3 dəfə artdığı halda, Naxçıvan Muxtar Respublikasında (293,9 min nəfərdən 427,2 min nəfərə) 1,5 dəfə artmışdır.

NMR-də əhalinin nisbətən çox artmasının başlıca səbəbi burada əhalinin cins tərkibinin çox dəyişməməsidir. Belə ki, hələ 30 il əvvəldən (qadınlar 50,8%) indiyə qədər (qadınlar 50,2%) əhalinin cins tərkibində nəzərə çarpan dəyişiklik müşahidə olunmamışdır. Buna səbəb isə Muxtar

Respublikanın anklav şəraitdə yerləşməsi və bununla əlaqədar olaraq əhali miqrasiyasının az olmasıdır. Ona görə də burada hər min qadına düşən kişinin miqdarı respublikadan (15 nəfər) çoxdur. Yuxarıda qeyd edilənləri cədvəl 2.11-in məlumatlarından aydın görmək olar.

Cədvəl 2.11

Naxçıvan Muxtar Respublikası əhalisinin cins tərkibi (min nəfər)

| İllər | Cəmi əhali | | Şəhər | | Kənd | | Min nəfər qadına düşən kişilərin sayı | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | kişi | qadın | kişi | qadın | kişi | qadın | cəmi əhali | şəhər | kənd |
| 1999 | 174,5 | 179,6 | 46,4 | 48,7 | 128,1 | 130,9 | 971 | 952 | 978 |
| 2000 | 176,6 | 180,4 | 46,9 | 49,1 | 129,7 | 132,3 | 973 | 954 | 980 |
| 2001 | 178,4 | 183,1 | 47,2 | 49,4 | 131,2 | 133,6 | 974 | 954 | 982 |
| 2002 | 180,2 | 184,3 | 47,5 | 49,5 | 132,7 | 134,7 | 978 | 958 | 985 |
| 2003 | 181,6 | 185,5 | 47,7 | 49,6 | 134,0 | 135,9 | 979 | 961 | 986 |
| 2004 | 183,2 | 186,6 | 51,8 | 53,7 | 131,4 | 132,8 | 982 | 964 | 990 |
| 2005 | 184,9 | 188,0 | 54,1 | 56,2 | 130,8 | 131,8 | 984 | 962 | 993 |
| 2006 | 186,8 | 189,6 | 54,2 | 56,3 | 132,6 | 133,2 | 986 | 962 | 996 |
| 2007 | 188,4 | 191,1 | 54,3 | 56,5 | 134,1 | 134,5 | 986 | 960 | 998 |
| 2008 | 191,1 | 193,4 | 55,0 | 57,3 | 136,1 | 136,1 | 988 | 959 | 1000 |
| 2009 | 193,6 | 195,5 | 55,4 | 57,6 | 138,2 | 137,9 | 991 | 961 | 990 |
| 2010 | 200,2 | 202,1 | 58,8 | 59,1 | 141,5 | 143,0 | 990 | 994 | 989 |
| 2011 | 208,2 | 210,3 | 60,5 | 61,2 | 147,7 | 149,1 | 990 | 988 | 990 |
| 2012 | 212,4 | 214,8 | 61,7 | 62,3 | 150,7 | 152,5 | 988 | 990 | 988 |
| 2013 | 214,6 | 216,7 | 62,7 | 63,4 | 151,9 | 153,3 | 990 | 988 | 990 |

**Mənbə:** Azərbaycanın demoqrafik göstəriciləri (2009, 2010, 2011, 2013). Bakı, DSK, 2009, 2011, 2012, 2014.



Statistik materiallardan da göründüyü kimi MR-də 2000-ci ildə hər min nəfər qadına 973 nəfər, şəhər yerlərində 954 nəfər, kənd yerlərində isə 980 nəfər kişi düşür. 2009-cu ildə bu göstəricilər arasındakı fərq həm ümumi əhali arasında, həm də şəhər, və kənd yerlərində azalmışdır. 2008-ci ildə MR-in kənd yerlərində kişilərlə qadınların sayı bərabərləşmiş, şəhər yerlərində isə (41 kişi az) bu fərq artmışdır (cədvəl 2.11).

NMR ayrı-ayrı inzibati rayonları əhalisinin cins tərkibində fərqlər mövcuddur. 2009-cu ilin məlumatına əsasən cins tərkibi ən çox Naxçıvan şəhərində (58 kişi az) və Şərur rayonunda (43 kişi az) pozulmuşdur. Culfa, Ordubad, Sədərək rayonlarında bu göstərici nisbətən daha yaxşı, hətta Ordubad rayonunun Parağaçay qəsəbəsində 192 kişi artıq olmuşdur .

NMR-in inzibati rayonları üzrə əhalinin cins tərkibi aşağıdakı cədvəldə (2.12) verilmişdir (2013-cü ilin statistik məlumatları əsasında hesablanmışdır).

Cədvəl 2.12

Naxçıvan Muxtar Respublikasının inzibati rayonları üzrə əhalinin cins tərkibi (min nəfər)

| Ərazi | Cəmi | | Kişi | | Qadın | | Hər min nəfər qadına düşən kişi |
|---|---|---|---|---|---|---|---|
| | nəfər | faiz | nəfər | faiz | nəfər | faiz | |
| NMR | 427,2 | 100,0 | 216,7 | 100,0 | 218,6 | 100,0 | 990 |
| Naxçıvan şəhəri | 89,5 | 20,9 | 44,6 | 20,6 | 44,9 | 20,5 | 993 |
| Babək | 70,4 | 16,5 | 35,1 | 16,2 | 35,3 | 16,1 | 994 |
| Culfa | 45,5 | 10,7 | 22,8 | 10,5 | 22,7 | 10,4 | 1004 |
| Kəngərli | 30,6 | 7,2 | 15,1 | 7,0 | 15,5 | 7,1 | 974 |
| Ordubad | 48,4 | 11,3 | 24,1 | 11,1 | 24,3 | 11,1 | 991 |
| Sədərək | 15,3 | 3,6 | 7,7 | 3,5 | 7,6 | 3,5 | 1013 |
| Şahbuz | 24,4 | 5,7 | 12,3 | 5,7 | 12,1 | 5,5 | 1016 |
| Şərur | 111,2 | 26,1 | 55,0 | 25,4 | 56,2 | 25,7 | 978 |

**Mənbə**: Azərbaycanın demoqrafik göstəriciləri 2013. Bakı, DSK, 2014.

Cədvəldən göründüyü kimi Muxtar Respublika əhalisinin cins tərkibi inzibati rayonlar üzrə müxtəlifdir. Belə ki, MR üzrə hər min qadına düşən kişinin sayı 10 kişi az təşkil etdiyi halda, bu göstərici Naxçıvan şəhərində 7 kişi az, Sədərək rayonunda 13 kişi çox, Şahbuz rayonunda 16 kişi çox, Şərur rayonunda isə 22 kişi az olmuşdur.

Hər min nəfər qadına düşən kişi sayına görə ən çox fərq Kəngərli rayonunda (26 kişi az) müşahidə olunmuşdur.

Müxtəlif yaş qrupları üzrə əhalinin cins tərkibinin təhlili də maraqlı nəticələr əldə etməyə imkan verir. Bu ona görə vacibdir ki, yaş qrupları üzrə qadın və kişilərin nisbəti müxtəlifdir. Belə ki, 1999-cu ilə görə 25-45 yaşda olanlar içərisində qadınlar (57,8 min nəfər) üstünlük təşkil edirdilərsə, 2009-cu ildə 45 yaşdan yuxarı olanlar içərisində qadınlar (32,8 min nəfər) üstünlük təşkil edirlər.

Bu prosesə əhalinin miqrasiyası güclü təsir göstərir. Miqrasiya edən əhali arasında 80% kişilər, 20% isə qadınlar təşkil edir. Əgər bu proses uzun müddət davam edərsə arzuolunmaz demoqrafik, sosial və iqtisadi nəticələrə gətirib çıxara bilər. Buna görə də Naxçıvan Muxtar Respublikasında (əsasən də kənd yerlərində) qadın və kişilərin nisbətinin saxlanılması vacib məsələlərdən biridir.

Yaş doğum və ölüm prosesinə təsir göstərməklə özü bu proseslərin nəticəsi kimi formalaşır. Əhalinin yaş tərkibi əsasən üç yaş qrupunun nisbəti ilə müəyyən olunur; əmək qabiliyyətli yaşına qədər (0–15 yaş), əmək qabiliyyətli (15–62 kişilər, 15-57 qadınlar), təqaüdçülər (62 yaşdan yuxarı kişilər, 57 yaşdan yuxarı qadınlar).

1999–2009-cu illərin məlumatlarının təhlili göstərir ki, yaş qruplarının nisbətində dəyişikliklər yaranmışdır. Belə ki, 0–14 yaşda olanların MR-in ümumi əhalisində



xüsusi çəkisi 33,9% və 22,4%, 15–49 yaşda olanlar 48,0% və 59,6%, 50 yaşdan yuxarı olanlar isə 7,2% və 17,9% arasında dəyişilmişdir [19].

NMR-də əhalinin təbii hərəkətinə təsir edən demoqrafik amillərdən biri də nikah və boşanma prosesləridir. Buna görə də əhalinin artımından danışarkən nikah və boşanma prosesinə toxunmamaq olmaz. Çünki hazırda nikahların artması və boşanmaların azalması mühüm demoqrafik hadisə olub, respublikada olduğu kimi NMR-də da əhalinin doğum səviyyəsinə və təbii artımına təsir edən ən mühüm amillərdən sayılır. 2013-cü ildə MR-də cəmi 3512 nikah bağlanmış və 314 nikah pozulmuşdur. Burada hər min nəfərə düşən nikah əmsalı 8,1, boşanma əmsalı 0,7 olmuşdur. Şəhər yerlərində hər min nəfərə 8,7 nikah, 1,0 boşanma, kənd yerlərində isə 7,9 nikah və 0,6 boşanma əmsalı qeydə alınmışdır. Bu göstəricilərin vəziyyəti son on dörd il müddətində inzibati rayonlar üzrə də müxtəlif olmuşdur. Məsələn, ən böyük sıxlıq Şərur rayonunda olmaqla bərabər ən az nikahlı qadınların sayı burada MR səviyyəsindən aşağıdır. 2013-cü ildə Şərur rayonunda 916 nikah və 60 boşanma halı qeydə alınmışdır. MR-in ayrı-ayrı inzibati rayonlarında, o cümlədən şəhər və kənd yerlərində nikah prosesinin illər üzrə təhlili cədvəl 2.13-də verilmişdir.

Statistik məlumatlardan göründüyü kimi Naxçıvan Muxtar Respublikasında hər min nəfərə düşən nikah əmsalı ayrı-ayrı illərdə müxtəlif olmuşdur.

Belə ki, 1995-ci ildə nikah əmsalı 8,0, 2002-ci ildə 25% azalaraq 6,0, 2005-ci ildə 19% artaraq 9,9, 2013-cü ildə isə 1,3% artaraq 8,1 olmuşdur ( cədvəl 2.13).

Cədvəl 2.13

Naxçıvan Muxtar Respublikasının inzibati rayonları əhalisinin nikah prosesində iştirakı (əhalinin hər min nəfərinə düşən nikah əmsalı)

| İllər / Rayonlar | 1995 | 2000 | 2001 | 2002 | 2003 | 2004 | 2005 | 2006 | 2007 | 2008 | 2009 | 2011 | 2012 | 2013 |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| NMR | 8,0 | 5,8 | 5,9 | 6,0 | 8,3 | 8,8 | 9,9 | 9,7 | 9,7 | 9,8 | 8,6 | 8,3 | 8,2 | 8,1 |
| Naxçıvan ş. | 5,4 | 5,0 | 5,7 | 6,6 | 6,2 | 6,8 | 7,3 | 8,3 | 8,5 | 8,0 | 7,2 | 8,1 | 11,4 | 9,2 |
| Sədərək | 6,3 | 8,9 | 6,7 | 8,1 | 10,0 | 7,1 | 9,3 | 10,4 | 8,7 | 9,7 | 8,0 | 7,0 | 4,3 | 4,4 |
| Şərur | 8,7 | 4,7 | 4,5 | 5,7 | 10,8 | 9,6 | 10,8 | 9,1 | 9,1 | 9,1 | 8,0 | 7,2 | 7,6 | 8,3 |
| Babək | 10,4 | 6,7 | 6,5 | 5,8 | 9,3 | 9,5 | 12,8 | 11,2 | 10,4 | 10,5 | 10,0 | 9,5 | 8,4 | 8,0 |
| Şahbuz | 9,6 | 8,6 | 9,1 | 6,6 | 10,9 | 9,0 | 9,8 | 11,0 | 11,0 | 10,4 | 9,8 | 10,0 | 7,5 | 7,2 |
| Culfa | 6,5 | 6,1 | 6,5 | 6,1 | 7,4 | 9,0 | 9,0 | 9,8 | 10,7 | 12,2 | 10,2 | 8,8 | 8,0 | 8,4 |
| Ordubad | 7,8 | 5,8 | 6,6 | 5,7 | 8,8 | 8,0 | 7,6 | 9,3 | 9,7 | 9,5 | 8,0 | 8,1 | 6,0 | 6,4 |
| Kəngərli | - | - | - | - | - | 11,5 | 12,6 | 11,2 | 11,6 | 12,4 | 9,8 | 9,0 | 6,2 | 9,9 |

Şəhər əhalisi

| İllər / Rayonlar | 1995 | 2000 | 2001 | 2002 | 2003 | 2004 | 2005 | 2006 | 2007 | 2008 | 2009 | 2011 | 2012 | 2013 |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| NMR | 8,4 | 5,8 | 6,1 | 6,4 | 6,6 | 7,5 | 7,9 | 8,8 | 8,7 | 8,5 | 7,9 | 7,9 | 9,8 | 8,7 |
| Naxçıvan ş. | 5,4 | 5,0 | 5,7 | 6,6 | 6,2 | 6,8 | 7,3 | 8,3 | 8,5 | 8,0 | 7.4 | 8,1 | 11,8 | 9,6 |
| Sədərək | 6,6 | - | - | 3,3 | 15,1 | 10,5 | 5,4 | 5,4 | 5,8 | 7,5 | 6,8 | 6,1 | 4,0 | 3,4 |
| Şərur | 16,6 | 4,7 | 4,7 | 5,7 | 8,8 | 8,0 | 7,0 | 6,7 | 6,7 | 6,2 | 5,7 | 6,6 | 5,6 | 8,9 |
| Babək | 59,2 | 21,7 | 7,7 | 7,7 | 11,9 | 10,3 | 19,4 | 16,1 | 8,4 | 9,8 | 9,3 | 8,5 | 5,8 | 7,8 |
| Şahbuz | 12,5 | 11,6 | 7,7 | 4,6 | 11,1 | 6,4 | 7,4 | 11,2 | 10,6 | 10,2 | 11,4 | 8,6 | 5,9 | 6,6 |
| Culfa | 105 | 6,4 | 8,6 | 7,1 | 6,4 | 8,9 | 7,0 | 8,,8 | 8,8 | 10,8 | 9,9 | 8,3 | 7,2 | 7,0 |
| Ordubad | 7,9 | 5,5 | 6,3 | 5,4 | 6,5 | 6,2 | 7,3 | 9,2 | 9,1 | 7,6 | 6,8 | 6,4 | 6,5 | 6,7 |
| Kəngərli | - | - | - | - | - | 13,2 | 15,0 | 14,4 | 14,3 | 14,5 | 11,6 | 9,1 | 6,6 | 8,8 |



Kənd əhalisi

| İllər / Rayonlar | 1995 | 2000 | 2001 | 2002 | 2003 | 2004 | 2005 | 2006 | 2007 | 2008 | 2009 | 2011 | 2012 | 2013 |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| NMR | 7,8 | 5,8 | 5,9 | 5,9 | 9,1 | 9,4 | 10,8 | 10,1 | 10,1 | 10,4 | 8,9 | 8,4 | 7,5 | 7,9 |
| Naxçıvan ş. | - | - | - | - | - | - | - | - | - | - | 5,7 | 8,0 | 8,8 | 6,3 |
| Sədərək | 5,9 | 8,9 | 6,7 | 8,9 | 9,2 | 6,6 | 9,9 | 11,2 | 9,2 | 10,1 | 8,2 | 7,1 | 4,4 | 4,5 |
| Şərur | 8,0 | 4,7 | 4,5 | 5,7 | 11,0 | 9,7 | 11,0 | 9,2 | 9,2 | 9,3 | 8,2 | 7,2 | 7,8 | 8,3 |
| Babək | 8,4 | 6,1 | 6,5 | 5,7 | 9,2 | 9,4 | 12,4 | 10,9 | 10,5 | 10,5 | 10,1 | 9,6 | 8,6 | 8,4 |
| Şahbuz | 9,2 | 8,2 | 9,3 | 6,9 | 10,8 | 9,5 | 10,2 | 11,0 | 11,2 | 10,4 | 9,5 | 10,3 | 7,8 | 7,3 |
| Culfa | 5,2 | 6,0 | 5,7 | 3,7 | 7,8 | 9,0 | 9,7 | 10,2 | 11,5 | 12,7 | 10,7 | 9,0 | 8,4 | 8,9 |
| Ordubad | 7,8 | 5,9 | 6,7 | 5,9 | 9,5 | 8,5 | 7,7 | 9,3 | 9,8 | 10,1 | 8,4 | 8,6 | 5,8 | 6,3 |
| Kəngərli | - | - | - | - | - | 11,1 | 12 | 10,6 | 11,1 | 11,9 | 9,4 | 8,9 | 6,0 | 10,2 |

**Mənbə**: Azərbaycanın demoqrafik göstəriciləri 2013. Bakı, DSK, 2014, s-368, 398, 328.

Naxçıvan Muxtar Respublikasının ayrı-ayrı inzibati rayonlarında nikah əmsalının göstəricisi illər üzrə dəyişmişdir. Belə ki, Sədərək və Şahbuz rayonlarında nikah əmsalının ən yüksək göstəricisi 2006-cı ildə, Şərur, Babək və Kəngərli rayonlarında 2005-ci ildə, Ordubad rayonunda 2007-ci ildə, Naxçıvan şəhərində 2012 - ci ildə, Culfa rayonunda isə 2008-ci ildə qeydə alınmışdır. Nikah əmsalının ən aşağı göstəricisi isə Naxçıvan şəhərində 2000-ci ildə; Sədərək və Şərur rayolarında 2001-ci ildə; Babək, Culfa, Şahbuz və Ordubad rayonlarında 2002-ci ildə; Kəngərli rayonunda 2009-cu ildə qeydə alınmışdır.

NMR-də şəhər əhalisi arasında nikah əmsalının ən yüksək göstəricisi 2012-ci ildə, ən aşağı göstəricisi isə 2000-ci ildə müşahidə olunmuşdur. 2009-cu ildə şəhər əhalisi arasında nikah əmsalının ən yüksək göstəricisi Kəngərli və Şahbuz rayonlarında, ən aşağı göstərici isə

Sədərək, Şərur və Ordubad rayonlarında olduğu halda, Naxçıvan şəhərində 2007-ci ildə 8,5, Kəngərli rayonunda 2005-ci ildə 15,0; Culfa rayonunda 2008-ci ildə 10,8; Şərur və Sədərək rayonlarında müvafiq olaraq 2003-cü ildə 8,8 və 15,1; Babək və Şahbuz rayonlarında isə 2000-ci ildə 21,7 və 11,6 olmuşdur.

Naxçıvan Muxtar Respublikasında kənd əhalisi arasında 2009-cu ildə nikah əmsalının inzibati rayonlar arasında ən yüksək göstəricisi Babək rayonunda olmaqla, digər rayonlar arasında o qədər də böyük fərq qeydə alınmamışdır. Naxçıvan Muxtar Respublikasında ümumi kənd əhalisi arasında nikah əmsalının illər üzrə təhlilindən göründüyü kimi son on ildə burada ən yüksək nikah əmsalı 2005-ci ildə, ən aşağı nikah əmsalı isə 2000-ci ildə qeydə alınmışdır. İnzibati rayonların kənd əhalisi arasında təhlil olunan dövr ərzində ən yüksək nikah əmsalı Sədərək 2006-cı ildə; Şahbuz 2007-ci ildə; Şərur və Babək rayonlarında 2005-ci ildə; Culfa və Ordubad rayonlarında isə 2008-ci ildə qeydə alınmışdır.

Azərbaycan Respublikasının digər rayonlarına nisbətən Naxçıvan Muxtar Respublikasının əhalisi üçün boşanma hallarının ən aşağı səviyyədə olması səciyyəvidir. Naxçıvan Muxtar Respublikasının ümumi, şəhər və kənd əhalisi arasında boşanma hallarının son on beş il müddətində necə dəyişdiyini cədvəl 2.14-dən aydın görmək olar.

Uzun illik statistik materialların təhlili göstərir ki, NMR-də boşanma əmsalı Azərbaycan Respublikasına nisbətən həmişə aşağı olmuşdur.

2013-cü ildə NMR-də orta göstərici (0,8) respublika səviyyəsindən 0,1% aşağı olmuşdur. Bu həm də MR-də son on beş ildə boşanma əmsalının ən yüksək göstəricisidir.



Cədvəl 2.14.

Naxçıvan Muxtar Respublikasının inzibati rayonları əhalisinin boşanma prosesində iştirakı (əhalinin hər min nəfərinə düşən boşanma əmsalı)

| İllər / Rayonlar | 1995 | 2000 | 2001 | 2002 | 2003 | 2004 | 2005 | 2006 | 2007 | 2008 | 2009 | 2011 | 2012 | 2013 |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| NMR | 0,6 | 0,5 | 0,4 | 0,4 | 0,6 | 0,5 | 0,6 | 0,7 | 0,8 | 0,7 | 0,8 | 0,8 | 0,8 | 0,7 |
| Naxçıvan ş. | 0,9 | 0,9 | 0,7 | 1,0 | 1,0 | 0,8 | 1,0 | 1,2 | 1,3 | 1,0 | 1,1 | 1,2 | 1,3 | 0,9 |
| Sədərək | 0,2 | 0,3 | 0,2 | 0,1 | 0,3 | 0,2 | 0,6 | 0,2 | 0,6 | 0,3 | 0,2 | 0,8 | 0,3 | 0,4 |
| Şərur | 0,3 | 0,3 | 0,2 | 0,2 | 0,4 | 0,3 | 0,4 | 0,5 | 0,6 | 0.5 | 0,6 | 0,6 | 0,7 | 0,5 |
| Babək | 0,6 | 0,4 | 0,5 | 0,4 | 0,7 | 0,7 | 0,8 | 0,6 | 0,7 | 0,9 | 0,9 | 0,9 | 0,6 | 0,8 |
| Şahbuz | 0,5 | 0,5 | 0,5 | 0,4 | 0,7 | 0,7 | 0,6 | 1,0 | 0,8 | 1,0 | 1,2 | 0,8 | 0,9 | 1,0 |
| Culfa | 0,7 | 0,5 | 0,4 | 0,4 | 0,7 | 0,6 | 0,5 | 0,8 | 0,7 | 0,4 | 0,7 | 0,7 | 0,5 | 1,0 |
| Ordubad | 0,3 | 0,3 | 0,2 | 0,4 | 0,5 | 0,4 | 0,6 | 0,7 | 1,0 | 0,5 | 0,5 | 0,4 | 0,5 | 0,5 |
| Kəngərli | - | - | - | - | - | 0,3 | 0,5 | 0,8 | 0,8 | 0,4 | 0,7 | 0,9 | 0,9 | 0,7 |

Şəhər əhalisi

| İllər / Rayonlar | 1995 | 2000 | 2001 | 2002 | 2003 | 2004 | 2005 | 2006 | 2007 | 2008 | 2009 | 2011 | 2012 | 2013 |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| NMR | 1,1 | 1,0 | 0,7 | 0,9 | 1,0 | 0,8 | 1,0 | 1,1 | 1,2 | 0,9 | 1,2 | 1,1 | 1,1 | 1,0 |
| Naxçıvan ş. | 0,9 | 0,9 | 0,7 | 1,0 | 1,0 | 0,8 | 1,0 | 1,2 | 1,3 | 1,0 | 1,1 | 1,2 | 1,3 | 0,9 |
| Sədərək | - | - | - | 0,6 | - | 0,6 | 2,2 | 0,5 | - | 1,1 | 0,0 | 1,0 | - | - |
| Şərur | 1,0 | 1,0 | 0,3 | 0,3 | 1,5 | 1,5 | 1,0 | 0,8 | 0,9 | 1,5 | 1,2 | 1,0 | 1,2 | 0,4 |
| Babək | 1,8 | 1,7 | 2,0 | 3,0 | 4,3 | 2,1 | 1,3 | 1,6 | 1,9 | 1,2 | 2,1 | 0,3 | 0,6 | 1,1 |
| Şahbuz | 2,5 | 2,4 | 1,2 | 0,4 | 0,9 | 1,3 | 0,6 | 1,5 | 1,2 | 0,3 | 3,8 | 1,6 | 0,8 | 1,0 |
| Culfa | 0,7 | 0,8 | 1,0 | 0,7 | 1,1 | 0,8 | 0,8 | 0,6 | 1,1 | 0,4 | 1,2 | 1,1 | 0,4 | 1,9 |
| Ordubad | 1,1 | 1,1 | 0,5 | 0,3 | 0,6 | 0,4 | 0,9 | 1,2 | 1,3 | 0,9 | 1,0 | 0,7 | 0,6 | 0,8 |
| Kəngərli | - | - | - | - | - | 0.5 | 1,2 | 1,4 | 1,1 | 0,4 | 0,8 | 0,6 | 1,3 | 0,7 |

Kənd əhalisi

| İllər / Rayonlar | 1995 | 2000 | 2001 | 2002 | 2003 | 2004 | 2005 | 2006 | 2007 | 2008 | 2009 | 2011 | 2012 | 2013 |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| NMR | 0,3 | 0,3 | 0,3 | 0,3 | 0,4 | 0,4 | 0,5 | 0,5 | 0,6 | 0,6 | 0,6 | 0,7 | 0,6 | 0,6 |
| Naxçıvan ş. | - | - | - | - | - | - | - | - | - | - | 0,7 | 1,2 | 0,9 | 0,6 |
| Sədərək | 0,3 | 0,3 | 0,2 | - | 0,4 | 0,2 | 0,4 | 0,1 | 0,7 | 0,2 | 0,2 | 0,7 | 0,3 | 0,5 |
| Şərur | 0,2 | 0,3 | 0,2 | 0,2 | 0,3 | 0,2 | 0,4 | 0,4 | 0,6 | 0,5 | 0,5 | 0,5 | 0,7 | 0,5 |
| Babək | 0,3 | 0,4 | 0,4 | 0,3 | 0,5 | 0,6 | 0,7 | 0,5 | 0,6 | 0,9 | 0,9 | 0,9 | 0,7 | 0,6 |
| Şahbuz | 0,2 | 0,2 | 0,4 | 0,4 | 0,7 | 0,5 | 0,6 | 0,9 | 0,8 | 1,1 | 0,7 | 0,7 | 0,9 | 0,9 |
| Culfa | 0,3 | 0,3 | 0,2 | 0,3 | 0,6 | 0,5 | 0,3 | 0,9 | 0,5 | 0,5 | 0,4 | 0,5 | 0,5 | 0,7 |
| Ordubad | 0,1 | 0,1 | 0,2 | 0,4 | 0,4 | 0,3 | 0,5 | 0,5 | 1,0 | 0,3 | 0,4 | 0,4 | 0,4 | 0,4 |
| Kəngərli | - | - | - | - | - | 0,3 | 0,4 | 0,7 | 0,7 | 0,4 | 0,6 | 1,0 | 0,9 | 0,7 |

**Mənbə**: Azərbaycanın demoqrafik göstəriciləri 2013. Bakı, DSK, 2014, s. 415, 447, 452.

Muxtar Respublikanın ayrı ayrı inzibati rayonlarına gəldikdə isə boşanma hallarının ən yüksək göstəricisi Naxçıvan şəhərində 2006-cı ildə, Şahbuz 2009-cu ildə və Ordubad 2007-ci ildə qeydə alınmışdır. Digər rayonlarda isə boşanma əmsalı 0,1 və 0,9 arasında olmuşdur. Təhlil olunan dövr ərzində Naxçıvan Muxtar Respublikasının şəhər əhalisi arasında boşanma əmsalı kənd əhalisi arasındakı boşanma əmsalından yüksək olmuşdur. 2009-cu ildə MR-in şəhər və kənd əhalisi arasında boşanma əmsalı müvafiq olaraq 1,2 və 0,6 olmuşdur. Şəhər əhalisi arasında boşanma əmsalının ən yüksək olduğu inzibati rayonlar Babək və Şahbuz, ən aşağı isə Sədərək və Kəngərli rayonlarıdır. Kənd əhalisi arasında isə boşanma əmsalının artıqlığına görə Babək rayonu, azlığına görə isə Sədərək rayonu fərqlənir. Buna səbəb isə Babək rayonunun şəhər əhalisinin payının çox (3,6 min nəfər), Sədərək rayonunda isə az (0,5 min nəfər) olmasıdır.



Əhalinin təbii hərəkətinin əsas göstəricilərindən biri də doğumdur. NMR-də təsərrüfat sturukturları ilə bərabər yanacağın və elektrik işığının normadan aşağı təminatı (son illər bərpa olunmuşdur) əhalinin durumunda olmaqla, təkrar istehsalına da öz təsirini göstərmişdir. Bütün bunlar əhalinin təbii hərəkət göstəricilərinin, o cümlədən doğum və təbii artımın azalması ilə nəticələnmişdir. Müharibə şəraiti də əhalinin demoqrafik proseslərinə öz mənfi təsirini göstərmişdir. Əhalinin yer dəyişməsi bir tərəfdən ailə yaratmaq imkanını pozursa, digər tərəfdən mövcud ailələrin demoqrafik durumunda çətinliklər yaradır. 2000-ci ilin məlumatına görə NMR-in təbii göstəriciləri içərisində doğum (16,1 nəfər) və təbbi artım (10,7 nəfər) əmsalları ölkədən (müvafiq olaraq 14,8 və 8,9) çox olmuşdur.

NMR adətən yüksək doğum göstəriciləri ilə seçilir. Burada 2012-ci ildə 10525 nəfər uşaq doğulmuşdur. Bu, respublikada doğulan uşaqların 6,0%-ni təşkil edir. Doğum hər min nəfərə 24,9 nəfər, təbii artım əmsalı isə 20,2 min nəfər olmuşdur. 1999-cu ilinən müqaisədə bu göstəricilər 35,3% və 47,0% artmışdır.

NMR-in daxili inzibati rayonları doğulan uşaqların sayına görə bir-birindən kəskin fərqlənir. Bu göstəriciyə görə ən çox Şərur və Babək rayonları, onlardan xeyli geri qalan Ordubad, Culfa və Kəngərli rayonları seçilir. Ən az doğulan uşaqlar Sədərək və Şahbuz rayonlarındadır. MR-in inzibatı rayonlarında doğum göstəricisinin illər üzrə dinamikası aşağıdakı cədvəldə (2.15) göstərilmişdir.

MR-də 1990-cı ilinən müqaisədə 2013-cü ildə doğulanların sayı 11,4% artmış, doğum əmsalı isə 21,7% azalmışdır. Son on beş ildə MR-də ən yüksək doğum əmsalı

2011-ci ildə, ən aşağı isə 2002-ci ildə müşahidə olunmuşdur (cədvəl 2.15).

Cədvəl 2.15

Naxçıvan Muxtar Respublikasında əhalinin hər min nəfərinə düşən doğum əmsalı

| İllər / Rayonlar | 1990 | 1995 | 2000 | 2001 | 2002 | 2003 | 2004 | 2005 | 2006 | 2007 | 2008 | 2009 | 2011 | 2012 | 2013 |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| NMR | 28,9 | 25,1 | 16,1 | 15,1 | 14,5 | 14,7 | 15,7 | 16,9 | 15,4 | 19,9 | 19,9 | 19,6 | 25,1 | 24,9 | 22,6 |
| Naxçıvan ş | 23,2 | 18,3 | 12,2 | 12,5 | 12,4 | 10,9 | 11,0 | 11,3 | 12,0 | 21,8 | 16,4 | 16,3 | 22,5 | 21,9 | 19,3 |
| Sədərək | 6,7 | 11,9 | 22,2 | 20,1 | 19,6 | 22,1 | 18,0 | 20,5 | 21,0 | 21,6 | 19,8 | 19,7 | 23,9 | 27,7 | 24,8 |
| Şərur | 35,9 | 30,2 | 16,1 | 13,3 | 13,7 | 14,7 | 15,9 | 18,9 | 15,3 | 17,5 | 18,6 | 19,5 | 23,2 | 22,3 | 20,3 |
| Babək | 30,3 | 28,1 | 17,0 | 16,3 | 14,9 | 15,8 | 17,2 | 19,6 | 17,7 | 21,5 | 22,0 | 22,7 | 31,1 | 30,1 | 27,6 |
| Şahbuz | 27,8 | 28,2 | 16,5 | 16,7 | 15,6 | 18,4 | 17,7 | 16.8 | 16,5 | 19,4 | 19,6 | 17,8 | 23,0 | 23,9 | 23,7 |
| Culfa | 34,5 | 25,5 | 19,4 | 18,2 | 17,4 | 14,8 | 17,4 | 16,9 | 15,9 | 20,2 | 26,3 | 21,3 | 26,4 | 28,1 | 25,0 |
| Ordubad | 28,2 | 24,1 | 15,9 | 16,1 | 14,5 | 14,7 | 16,3 | 14,6 | 14,5 | 19,1 | 18,6 | 19,3 | 23,2 | 23,3 | 21,2 |
| Kəngərli | - | - | - | - | - | - | 11,1 | 20,5 | 16,5 | 22,6 | 21,6 | 22,6 | 29,4 | 28,3 | 26,2 |

**Mənbə**: Azərbaycanın demoqrafik göstəriciləri 2013. Bakı,DSK, 2014,s.144.

MR-in inzibati rayonlarında da doğum göstəriciləri ayrı-ayrı illərdə müxtəlif olmuşdur. Belə ki, 1990-cı ildə Şərur rayonunda doğum əmsalı 35,9 nəfər (MR səviyyəsindən 19,5% çox) olduğu halda, Sədərək rayonunda 6,7 nəfər (MR səviyyəsindən 76,8% az) olmuşdur. Digər rayonlarda isə Culfa-34,5, Babək-30,3, Ordubad-28,2 və Şahbuz-27,8 nəfər olmuşdur. Sonrakı illərdə bu göstəricilərin kəmiyyəti həm MR səviyyəsində, həm də inzibati rayonlarda aşağı düşmüşdür. Son on beş il müddətində doğum əmsalının ən yüksək göstəricisi Naxçıvan şəhər ə/d, Babək və Kəngərlidə 2011-ci ildə, Sədərək, Ordubad,



Şahbuz, Şərur və Culfa rayonlarında 2012-ci ildə müşahidə olunmuşdur.

Azərbaycan Respublikasının digər regionlarında olduğu kimi NMR-də də demoqrafik proseslərin inkişafında yaranmış problemlər əsaslı narahatlıq doğurur və yaranmış vəziyyətin dərindən araşdırılmasını və yığılmış problemlərin səmərəli həlli yollarının axtarılıb tapılmasını tələb edir. MR əhalisinin həyat səviyyəsinin aşağı düşməsi, sosial-iqtisadi vəziyyətin pisləşməsi Ermənistanın hərbi təcavüzü, keçmiş istehsal münasibətlərinin dağılması, real və nominal əmək haqqının aşağı (orta aylıq nominal əmək haqqı 233,4 manatdır) düşməsi və bir çox digər amillər nəticə etibarı ilə doğumun və nikahın aşağı düşməsinə, ixtisaslı işçi qüvvəsinin MR-dən miqrasiyasına, ölümün artmasına və s. səbəb olur. Lakin son illər Dövlət proqramlarına (2004-2008 və 2009-2013 -cü illər) uyğun olaraq görülən tədbirlər sosial-iqtisadi inkişafın yüksəlməsinə və əhalinin həyat səviyyəsinin yaxşılaşmasına zəmin yaratmışdır. Bütün bunların nəticəsidir ki, MR-də doğulan uşaqların say dinamikasında 1990-cı ildən (8759 nəfər) 2003-cü ilə qədər (5404 nəfər) azalma, 2004-cü ildən (5815 nəfər) başlayaraq 2013-ci ilə qədər isə (9763 nəfər) artma müşahidə edilmişdir.

Bundan başqa doğum səviyyəsinin aşağı düşməsi hər şeydən əvvəl, onun nəticəsidir ki, maddi sıxıntı keçirən əksər ailələr ikinci, üçüncü hətta bəzən ilk övladlarının dünyaya gəlməsini təxirə salmağa məcbur olurlar. MR-in geniş təkrar istehsalını təmin edən orta uşaqlılığa yönəlmə (üçüncü uşağın doğulması) 2009-cu ildə 1999-cu illə (16,6 min) müqaisədə 86,7% (2,2 min) aşağı düşmüşdür.

NMR əhalisinin təbii hərəkətinin əsas amillərindən biri də ölüm səviyyəsidir. Ölüm doğumdan sonra ikinci ən

mühüm demoqrafik prosesdir. İnsanların sağlamlığı və onların ölüm səviyyəsi əhalinin və həm də əmək qabiliyyətli əhalinin artıb azalmasında əsas amillərdən biri hesab olunur. Belə ki, ölüm səviyyəsi bu və ya digər regionun sosial-iqtisadi inkişafını və onun əhalisinin həyat səviyyəsini səciyyələndirən əsas göstərici hesab olunur. Regionda sosial-iqtisadi inkişafın sürətlənməsi, tibbi biliklərin dərinləşməsi və səhiyyə sahəsində əldə olunan nailiyyətlər əhali arasında ölüm səviyyəsinin azalmasında mühüm rol oynayır.

Burada əhalinin ölüm dinamikasının təhlili göstərir ki, nəzərdən keçirilən dövrdə mütləq və əhalinin min nəfərinə görə ölüm halları arasında fərq cüzi olmuşdur. Ümumi ölüm əmsalı 5,0%-lə 6,1% arasında dəyişmişdir. Erməni təcavüzkarlarının ölkəmizə qarşı apardığı müharibə nəticəsində insan itkiləri ilə bağlı 1990–1999-cu illərdə Respublikamızda ölüm kəskin sürətdə artdığı halda, MR-də ölüm bu illər ərzində nisbətən azalmışdır ki, bu da regionun müharibə zonasından kənarda olması ilə əlaqədardır. Belə ki, ölənlərin sayı 1990-cı ildə 1518 nəfər, 1991-ci ildə 1566 nəfər, 1992-ci ildə 1702 nəfər, 1993-cü ildə 2053 nəfər, 1994-cü ildə isə 1956 nəfər olmuşdur. MR-də ölüm göstəricisi 0,5% respublika ilə (0,6%) o qədər də fərqlənmir. Muxtar Respublikada və onun ayrı-ayrı inzibati rayonlarında əhalinin hər min nəfərinə düşən ölüm əmsalı dinamikasının illər üzrə təhlili cədvəldə (2.16) verilmişdir.

Təhlil olunan son on beş il ərzində Naxçıvan Muxtar Respublikasında ölüm halının ən yüksək səviyyəsi 2008-ci ildə 2147 nəfər (ümumi əhalinin 0,6%-ni) təşkil etmişdir. Son 40 il müddətində MR-də ölüm göstəricisi 26,2% artmışdır.



Cədvəl 2.16

Naxçıvan Muxtar Respublikasında əhalinin hər min nəfərinə düşən ölüm əmsalı

| İllər / Rayonlar | 1990 | 1995 | 2000 | 2001 | 2002 | 2003 | 2004 | 2005 | 2006 | 2007 | 2008 | 2009 | 2011 | 2012 | 2013 |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| NMR | 5,0 | 6,1 | 5,4 | 5,4 | 5,6 | 5,8 | 5.4 | 5,6 | 5,4 | 5,3 | 5,6 | 5,3 | 4,9 | 4,7 | 4,6 |
| Naxçıvan ş. | 3,7 | 5,0 | 5,0 | 5,6 | 6,1 | 5,0 | 5,4 | 5,6 | 5,5 | 5,2 | 5,3 | 4,9 | 4,5 | 4,6 | 4,3 |
| Sədərək | 4,4 | 2,2 | 5,7 | 7,6 | 6,7 | 7,0 | 4,8 | 5,0 | 5,5 | 4,8 | 5,1 | 3,7 | 5,0 | 4,8 | 4,7 |
| Şərur | 5,9 | 6,8 | 5,0 | 5,0 | 5,2 | 5,7 | 4,8 | 5,6 | 4,8 | 5,0 | 5,7 | 5,4 | 4,7 | 4,5 | 4,4 |
| Babək | 5,4 | 6,5 | 5,7 | 5,7 | 4,9 | 5,6 | 5,3 | 5,5 | 5,3 | 5,0 | 4,7 | 5,2 | 4,4 | 4,6 | 4,5 |
| Şahbuz | 6,6 | 7,2 | 6,1 | 6,7 | 6,5 | 6,8 | 7,8 | 7,0 | 7,8 | 7,1 | 6,3 | 6,6 | 6,4 | 5,6 | 6,0 |
| Culfa | 4,9 | 6,0 | 5,3 | 4,9 | 5,5 | 5,5 | 5,7 | 5,0 | 4,7 | 5,4 | 5,9 | 4,6 | 4,9 | 4,0 | 4,6 |
| Ordubad | 5,8 | 7,6 | 6,1 | 5,0 | 6,5 | 6,8 | 5,8 | 6,4 | 6,4 | 6,3 | 5,9 | 5,6 | 5,4 | 5,9 | 5,2 |
| Kəngərli | - | - | - | - | - | - | 5,7 | 5,3 | 5,2 | 5,1 | 6,2 | 6,2 | 5,8 | 4,9 | 4,7 |

**Mənbə**: Azərbaycanın demoqrafik göstəriciləri 2013. Bakı,DSK, 2014, s-134

Muxtar Respublikanın inzibati rayonları içərisində ölüm əmsalının ən yüksək olduğu yer Şahbuz rayonudur. Bu göstərici MR səviyyəsindən 19,7% yüksəkdir. Sədərək (2001-ci ildə 7,6) və Şahbuz (2006-cı ildə 7,8) rayonları istisna olmaqla digər rayonlarda bu göstərici təhlil olunan dövrdə MR səviyyəsindən bir o qədər də fərqlənməyərək 4,7 ilə 5,8 arasında dəyişir (cədvəl 2.16).

Naxçıvan Muxtar Respublikasında bir yaşa qədər körpə ölümündə də son illər səhiyyə sahəsində əldə olunmuş nailiyyətlər əsasında azalmalar müşahidə olunur. Səhiyyənin inkişafına göstərilən qayğı təkcə yeni tibb ocaqlarının inkişafı ilə məhdudlaşmayıb, bu sahədə dövlət siyasətinin mühüm bir istiqamətinə yüksək ixtisaslı həkimlərin MR-ə gətirilməsi, tibb müəssisələrinin ən müasir maşın və avadanlıqlarla təminatına da (təkcə 2009-cu ildə

Səhiyyə Nazirliyi sisteminə 10 ədəd "Mersedes" markalı tibbi yardım maşını verilmişdir) xüsusi diqqət yetirilmişdir.

2008-ci ildə MR-də 7702 uşaq doğulmuşdur, 15 uşaq isə ölmüşdür ki, bu da 2007-ci ilinən müqaisədə müvafiq olaraq 1,5% çox və 26,7% az olmuşdur. 2013-cü ildə MR-də doğulmuş 9763 uşaqdan 9-u ölmüşdür ki, bununda 7-i oğlan, 2-i isə qız olmuşdur. Rəqəmlərdən göründüyü kimi 1 yaşadək ölən körpələr arasında oğlan uşaqları üstünlük təşkil edir. MR-in inzibati rayonlarında 2009-cu ildə 1 yaşa qədər ölən körpələrin sayı haqqında cədvəl 2.17-də məlumat verilmişdir.

Cədvəl 2.17

Naxçıvan Muxtar Respublikasında 2009 - cu ildə inzibati rayonlar üzrə körpə ölümü

| Rayonlar | Cəmi ölənlər | | Kişilər | | Qadınlar | |
|---|---|---|---|---|---|---|
| | nəfər | hər min nəfərə | nəfər | hər min nəfərə | nəfər | hər min nəfərə |
| NMR | 15 | 2,1 | 10 | 2,6 | 5 | 1,7 |
| Naxçıvan şəhəri | 5 | 4,4 | 3 | 4,7 | 2 | 4,0 |
| Sədərək | 1 | 1,8 | 1 | 3,4 | - | 0,0 |
| Şərur | 1 | 0,8 | 1 | 1,0 | - | 0,5 |
| Babək | 4 | 2,7 | 2 | 3,4 | 2 | 2,0 |
| Şahbuz | 1 | 2,4 | 1 | 4,7 | - | 0,0 |
| Culfa | 1 | 1,0 | 1 | 1,0 | - | 1,0 |
| Ordubad | 1 | 1,8 | 1 | 2,4 | - | 1,2 |
| Kəngərli | 1 | 2,5 | - | 1,6 | 1 | 3,5 |

**Mənbə**: NMR Statistika Komitəsinin məlumatı 2010.

Cədvəldən də göründüyü kimi MR-in inzibati rayonları arasında körpə ölümü əmsalının yüksək göstəricisinə görə Naxçıvan şəhər ə/d (4,4) və Babək rayonu (2,7) fərqlənir. Digər rayonlarda isə 1 yaşadək körpə ölümünün sayı demək olar ki, eyni olmuşdur. MR-də ümumiyyətlə doğulan uşaqların qorunması yaxşı



səviyyədədir, orta ölüm göstəricisi ölkədən 1,6 uşaq azdır (cədvəl 2.17).

MR-də əhali arasında ölümün səbəblərinə gəldikdə isə ölənlərin demək olar ki, yarısı (1247 nəfər) qan dövranı sisteminin xəstəliklərindən, digərləri isə müxtəlif səbəblərdən dünyasını dəyişmişdir. MR-də ölüm səbəbləri üzrə ölənlərin 1995-2013-cü illərdə ölüm dinamikası aşağıdakı cədvəldə (2.18) təsvir edilmişdir.

Cədvəl 2.18

Naxçıvan Muxtar Respublikasında əhalinin ölüm səbəblər üzrə dinamikası

| İllər | Bütün səbəblərdən ölənlər | Qan dövranı xəstəliklərindən ölənlər | Yeni törəmələrdən ölənlər | Tənəffüs orqanının xəstəliklərindən ölənlər | Həzm sistemi xəstəliklərindən ölənlər | Bəzi infeksion və parazitlərdən ölənlər |
|---|---|---|---|---|---|---|
| 1995 | 2010 | 874 | 193 | 266 | 176 | 108 |
| 2000 | 1936 | 929 | 197 | 228 | 191 | 74 |
| 2001 | 1967 | 946 | 251 | 168 | 202 | 82 |
| 2002 | 2045 | 1041 | 267 | 162 | 212 | 73 |
| 2003 | 2128 | 1151 | 275 | 144 | 206 | 60 |
| 2004 | 2018 | 1024 | 308 | 143 | 224 | 49 |
| 2005 | 2111 | 1155 | 262 | 124 | 222 | 48 |
| 2006 | 2150 | 133 | 283 | 152 | 239 | 25 |
| 2007 | 2033 | 1087 | 269 | 167 | 225 | 32 |
| 2008 | 2147 | 1167 | 296 | 151 | 210 | 29 |
| 2009 | 2109 | 1124 | 308 | 145 | 215 | 31 |
| 2010 | 2044 | 1084 | 311 | 140 | 202 | 28 |
| 2011 | 2025 | 1136 | 268 | 105 | 210 | 23 |
| 2012 | 2006 | 1247 | 258 | 56 | 180 | 12 |
| 2013 | 2001 | 1134 | 284 | 43 | 180 | 18 |

**Mənbə**: Azərbaycanın demoqrafik göstəriciləri 2013. Bakı, DSK, 2014, s-307.

Məlumatlardan göründüyü kimi NMR-də ölüm göstəricisi 1995, 2003, 2005-ci illərdə 0,6%, qalan illərdə isə 0,5% çoxalmışdır. Ölüm səbəblərinin əsas sinifləri üzrə ölənlərin sayına görə son 15 ilin orta illik göstəricisi Qan

dövranı sistemi xəstəliklərindən 1,1 min nəfər, Yeni törəmələrdən 0,3 min nəfər, Tənəfüs orqanları xəstəliklərindən 0,2 min nəfərə və s. bərabərdir (cədvəl 2.18) .

MR-də "Azərbaycan Respublikası Regionlarının 2009-2013-cü illərdə sosial və iqtisadi inkişafı Dövlət Proqramı"na əsasən səhiyyə sahəsində həyata keçirilmiş tədbirlər əhalinin sağlamlığının qorunmasına, tibbi xidmətlərin keyfiyyətinin daha da yüksəldilməsinə, müasir standartlara cavab verən səhiyyənin qurulmasına təminat verməlidir. Səhiyyə sahəsində dövlət siyasətinin başlıca məqsədi əhalinin sağlamlığının yaxşılaşdırılmasından, orta ömür müddətinin uzadılmasından və əhalinin bütün təbəqələrinin keyfiyyətli tibbi xidmətlə təmin edilməsindən ibarətdir. Qarşıya qoyulan məqsədlərə nail olmaq üçün səhiyyə sahəsində dövlət siyasətinin əsas istiqamətlər: dövlət maliyyə imkanları çərçivəsində pulsuz səhiyyə xidmətlərinin genişləndirilməsi və keyfiyyətinin artırılması; əhalinin sosial cəhətdən az təminatlı təbəqələrinə tibbi yardımın göstərilməsi ilə bağlı tədbirlər sisteminin hazırlanması və həyata keçirilməsi; analar və uşaqlar arasında qidalanmanın və mikronutrientlərlə təminatın yaxşılaşması; tibbi - profilaktika tədbirlərinin əhatəliyinin və keyfiyyətinin yüksəldilməsi; səhiyyə sektorunun tələblərinə uyğun olaraq tibbi kadr hazırlığının planlaşdırılması və ailə həkimlərinin hazırlanması; inzibati rayonlarda yeni səhiyyə sahələrinin inşasıdır.

Bütün bu görülən tədbirlər yaşayış üçün sağlam mühitin formalaşdırılması ilə yanaşı, həm də demoqrafik proseslərə də öz təsirini göstərir.

MR əhalisinin doğum və ölümündəki yuxarıda qeyd olunan dəyişikliklər əhalinin təbii artım dinamikasında öz əksini tapmışdır. Burada əhalinin mexaniki artımı müşahidə olunmadığı üçün təbii artım onun əsas inkişaf amilidir. Sosial səviyyə artdıqca əhalinin təbii hərəkəti daha çox ictimai hadisəyə çevrilərək özünü şüurlu idarə edən faktor olur. Əhalinin təbii artımı adamların özünü şüurlandırmasının inkişafı ilə tənzimlənən bir çox demoqrafik, o cümlədən nikah, boşanma və ailələrdə uşaqların sayının azaldılması faktorundan asılıdır. AR-da baş vermiş sosial-iqtisadi proseslərin nəticəsində nikahlanma prosesində kəskin tərəddüd yaranmışdır. Adətən nikaha daxil olanların 78%-ni 20-29 yaşlı əhali arasındakılar təşkil etdiyi halda, son illərdə oğlanların nikaha daxil olmasının 28 - 32 yaşa qədər gecikməsi müşahidə olunur. Respublikada yüksək nikaha daxil olma və az boşanma uzun müdət xarakterik proses olubdur. Lakin 1991-2002-ci illərdə ümumiyyətlə respublikanın demoqrafik inkişaf vəziyyətini səciyyələndirən ən mühüm göstəricilərdən biri nikah və boşanma səviyyəsində gedən dəyişikliklərdən ibarətdir. Respublikadan fərqli olaraq MR-də nikaha daxil olma yaşında (20-29) gecikmə müşahidə olunmamış və boşanmanın səviyyəsi respublika göstəricisindən aşağı olmuşdur. Nikahların miqdarı isə son on il müddətində 39,4% artmışdır. Son illər demoqrafik proseslərdə baş verən mənfi meyllərdən bir də boşanma hallarının artmasıdır. Axırıncı 10 il ərzində (1999-2009-cu illər) boşanma hallarının 37,5% artması mənfi hal kimi qiymətləndirilməlidir.

Cədvəl 2.19

Naxçıvan Muxtar Respublikasında əhalinin hər min nəfərinə düşən təbii artım əmsalı

| İllər / Rayonlar | 1990 | 1995 | 2000 | 2001 | 2002 | 2003 | 2004 | 2005 | 2006 | 2007 | 2008 | 2009 | 2010 | 2011 | 2012 | 2013 |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| NMR | 23,9 | 19,0 | 10,7 | 9,6 | 8,9 | 8,9 | 10,3 | 11,3 | 10,0 | 14,6 | 14,3 | 14,3 | 19,9 | 20,2 | 20,2 | 18,0 |
| Naxçıvan ş. | 19,5 | 13,3 | 7,2 | 6,9 | 6,3 | 5,9 | 5,6 | 5,7 | 6,5 | 15,6 | 11,1 | 11,4 | 16,4 | 18,0 | 17,3 | 15,0 |
| Sədərək | 5,3 | 9,7 | 16,5 | 12,5 | 12,9 | 15,1 | 13,2 | 15,5 | 14,5 | 15,8 | 14,7 | 16,0 | 19,6 | 18,9 | 22,9 | 20,1 |
| Şərur | 30,0 | 23,4 | 11,1 | 8,3 | 8,5 | 9,0 | 11,1 | 13,3 | 10,5 | 12,5 | 12,9 | 14,1 | 20,3 | 18,5 | 17,8 | 15,0 |
| Babək | 24,9 | 21,6 | 11,3 | 10,6 | 10,0 | 10,2 | 11,9 | 14,1 | 12,4 | 16,5 | 17,3 | 17,5 | 22,7 | 26,7 | 25,5 | 23,1 |
| Şahbuz | 21,1 | 21,0 | 10,4 | 10,0 | 9,1 | 11,6 | 9,9 | 9,8 | 8,7 | 12,3 | 13,3 | 11,2 | 17,3 | 16,6 | 18,3 | 17,7 |
| Culfa | 29,6 | 19,5 | 14,1 | 13,3 | 11,9 | 9,3 | 11,7 | 11,9 | 11,2 | 14,8 | 20,4 | 16,7 | 24,3 | 21,5 | 24,1 | 20,4 |
| Ordubad | 22,4 | 16,5 | 9,8 | 11,1 | 8,0 | 7,9 | 10,5 | 8,2 | 8,1 | 12,8 | 12,7 | 13,7 | 17,0 | 17,8 | 17,4 | 16,0 |
| Kəngərli | - | - | - | - | - | - | 11,2 | 15,2 | 11,3 | 17,5 | 15,4 | 16,4 | 22,4 | 23,6 | 23,4 | 21,5 |

**Mənbə:** Azərbaycanın demoqrafik göstəriciləri 2013. Bakı,DSK, 2014, s-134



Bu dəyişikliklərin nəticəsidir ki, MR-də orta illik artım sayı əvvəlki on illiklərlə müqaisədə 5,7% azalmışdır.

Qeyd etmək lazımdır ki, təhlil olunan dövr müddətində MR-də təbii artımın (3255 nəfər) və təbii artım əmsalının (8,9) ən aşağı göstəricisi 2002-ci ildə olmuşdur. Burada təbii artım göstəricisi (20,2) ölkə səviyyəsindən 35,6% yüksəkdir. Təbii artım göstəricisinə görə MR-in inzibati rayonları arasında da kəskin fərqlər müşahidə olunur. Bu prosesi cədvəl 2.19-un məlumatlarından da izləmək olar.

1990-cı ildə əhalinin hər min nəfərinə düşən təbii artım 23,9 nəfər idisə, 2009-cu ildə bu göstərici 14,3 nəfər olmuş, yəni 40,2% azalmışdır. NMR-in inzibati rayonları arasında Babək, Culfa, Kəngərli və Sədərək əhalinin hər min nəfərinə düşən təbii artım əmsalının yüksəkliyi ilə, Naxçıvan şəhəri ə/d, Şahbuz və Ordubad rayonları isə aşağı olması ilə fərqlənirlər. Naxçıvan şəhərində təbii göstəricilərin hamısının MR səviyyəsindən aşağı olması onun urbanizasiya mühiti ilə əlaqədardır. Həm də bu fərqlər doğum (16,8% az) və təbii artım (20,2% az) göstəricilərində daha çoxdur. İnzibati rayonların illər üzrə təbii artım dinamikasında müxtəlifliklər nəzərə çarpır. Təhlil olunan dövrdə əhalinin hər min nəfərinə düşən təbii artım əmsalının ən yüksək səviyyəsi Naxçıvan şəhər ə/d-də, Kəngərli, Babək və Ordubad rayonlarında 2011-ci ildə; Şərur və Culfa rayonlarında 2010-cu ildə; Sədərək və Şahbuz rayonlarında 2012-ci ildə, ən aşağı səviyyə isə Naxçıvan şəhər ə/d-də 2004-cü ildə, Sədərək və Şərur rayonlarında 2001-ci ildə; Culfa və Şahbuz rayonlarında 2003-cü ildə, Babək rayonunda isə 2002-ci ildə; Şahbuz, Ordubad və Kəngərli rayonlarında 2006-cı ildə müşahidə olunmuşdur.

Bu demoqrafik prosesləri ümumiləşdirərək aşağıdakı fikirləri söyləyə bilərik:

Naxçıvan Muxtar Respublikasında son on beş ildə (1999-2013-cü illər) 1990-cı illərə nisbətən əhalinin təbii artımı yüksəlmişdir. Bütün dövrlərdə MR-də əhalinin təbii artımı respublikaya nisbətən çox olmuş, əhalinin cins tərkibi isə az pozulmuş və sabitlik müşahidə olunmuşdur.

Naxçıvan Muxtar Respublikasının inzibati rayonlarında Şərur və Naxçıvan şəhərində əhalinin cins tərkibi digər inzibati rayonlara nisbətən daha çox pozulmuşdur. Buna səbəb isə Naxçıvan şəhərində əhali miqrasiyasının çox olması və Şərur rayonunun Türkiyə sərhəddinə yaxın olması ilə əlaqədar əmək qabiliyyətli kişilərin bu respublikaya miqrasiya etməsidir.

Tədqiq olunan dövrdə NMR-də nikahlanmanın göstəricisi AR-ın digər regionları ilə müqaisədə çox, boşanma isə az olmuşdur. Lakin MR daxilində də bu göstəricilərə görə inzibati rayonlar arasında fərqlər mövcuddur. Həm ümumi MR, həm də kənd əhalisi üzrə nikahların sayının çoxluğuna görə Culfa və Babək, şəhər əhalisi üzrə isə Şahbuz və Kəngərli rayonları fərqlənirlər.

Ümumi əhali üzrə boşanmaların çoxluğuna görə Naxçıvan şəhəri və Şahbuz rayonu, şəhər əhalisi üzrə Şahbuz, Babək, kənd əhalisi üzrə isə bütün inzibati rayonlar eyni göstəriciyə malikdir (son on beş il ərzində orta göstərici 0,5 nəfər).

MR doğum göstəricisinin yüksəkliyinə görə Azərbaycan Respublikasının bütün regionlarından fərqlənir. Respublikada doğulan uşaqların 5,2%-i bu regionun payına düşür. Ən çox uşaq Şərur və Babək, ən az uşaq isə Şahbuz və Sədərək rayonlarında doğulmuşdur. Uzun illik materialların təhlilindən belə nəticəyə gəlmək olur ki,



NMR-də əhalinin təbii artımı onun maddi və sosial vəziyyətindən çox asılıdır. Son 20 ildə əhalinin doğum səviyyəsi 32,2% aşağı düşmüşdür.

Ölüm dinamikasının təhlili göstərir ki, tədqiq olunan dövrdə ölüm göstəricisi 5,0% ilə 6,1% arasında dəyişmişdir. Naxçıvan Muxtar Respublikasının inzibati rayonları üzrə ölüm əmsalının ən yüksək olduğu rayon Şahbuz rayonudur. MR-də əhali arasında ölümün səbəblərinə gəldikdə isə birinci yeri qan dövranı sisteminin xəstəlikləri tutur.

Bir yaşa qədər körpə ölümündə əvvəlki illərlə müqaisədə azalmalar müşahidə olunmuşdur ki, bu da son illərdə səhiyyə sahəsinin mütərəqqi inkişafı ilə əlaqədardır. Muxtar Respublikanın inzibati rayonları arasında körpə ölümünün göstəricisinin yüksəkliyinə görə Naxçıvan şəhər və Babək rayonu fərqlənir.

Yuxarıda qeyd olunan bütün fikirləri nəzərə alaraq belə nəticəyə gəlirik ki, NMR-də iqtisadi və sosial strukturların bərpası və inkişafı istiqamətində görülən tədbirlər əhalinin sabit həyat şəraitinə keçməsinə imkan yaratmaqla bərabər, demoqrafik proseslərin aktivləşməsinə də öz təsirini göstərəcəkdir.

## 2.3. Şəhər və kəndlərdə təbii artımın ərazi fərqləri

Azərbaycan Respublikasının (o cümlədən Naxçıvan Muxtar Respublikasının da) demoqrafik inkişafında kənd yerləri özünəməxsus yer tutur. Çünki kənd yerlərində əhalinin doğum səviyyəsi şəhər yerlərindən xeyli yüksək olduğundan burada əhalinin təbii artım səviyyəsi və sürəti bütünlükdə əhalinin və əmək ehtiyatlarının sayının dəyişil-

məsinə əhəmiyyətli təsir göstərir. Əhalinin təbii artım prosesinə təsir edən amillərin mürəkkəb mexanizmini açmaq üçün kənd yerlərində əhalinin təbii artım göstəricilərinin şəhər yerləri ilə müqaisəli şəkildə tədqiq edilməsi məqsədəuyğundur. Öyrənilən dövrdə bütünlükdə Azərbaycan Respublikasında və onun tərkib hissəsi olan NMR-də şəhər yerlərinə nisbətən kənd yerlərində əhalinin doğum səviyyəsi xeyli yüksək olmuş və bütünlükdə əhali arasında olduğu kimi, burada da onun səviyyəsi daim azalmağa doğru meyl etmişdir.

Bu proses 1960-cı ildən başlayaraq Azərbaycan Respublikasında sürətlə davam etmişdir. Ancaq burada belə bir hal da diqqəti cəlb edir ki, respublikamızın bəzi iqtisadi rayonlarında əhalinin doğum səviyyəsi kənd yerlərində olduğuna nisbətən xeyli aşağı olmuşdur. Bu hal həmin ərazilərin şəhər və kənd yerlərində yaşayan əhalinin yaş-cins quruluşundakı fərqlərlə, urbanizasiya prosesinin güclənməsi və rayon mərkəzlərinin sosial-iqtisadi inkişaf səviyyəsi ilə bağlı olub, gənc oğlan və qızların həmin mərkəzlərə axıb getməsi və burada ailə qurması, oğlanların nisbətən daha çox şəhər yerlərinə getməsi nəticəsində kənd yerlərində gənc qızların ailə qurmasının çətinləşməsi, habelə öyrənilən ərazilərdə kənd və şəhər yerlərində həyat tərzinin nisbətən bir-birinə yaxınlaşması və sairlə izah edilir.

Burada belə bir cəhəti də qeyd etmək lazımdır ki, Azərbaycan Respublikasında olduğu kimi NMR-də də əhalinin daha çox hissəsi tədricən özünün təbii təkrar istehsalı prosesinin nisbətən az geniş təkrar istehsal tipinə keçməyə başlamış və burada tamamilə qanunauyğun hal olaraq, əhalinin doğum səviyyəsi kənd yerlərində şəhər yerlərində olduğuna nisbətən daha sürətlə azalmağa doğru



meyl etməkdədir. Bunu ondan görmək olar ki, əgər 1960-2009-cu illəri əhatə edən 49 il ərzində Azərbaycan Respublikasında əhalinin hər min nəfərinə düşən ümumi doğum əmsalı 59,6% azalmışdırsa, şəhər yerlərində bu göstərici 55,3%, kənd yerlərində isə 61,6% təşkil etmişdir. Həmin dövr ərzində Naxçıvan Muxtar Respublikasında əhalinin hər min nəfərinə düşən ümumi doğum əmsalı 63,7%, şəhər yerlərində bu göstərici 64,8%, kənd yerlərində isə 65,3% azalmışdır. Bütün bunlar istər bütünlükdə Azərbaycan Respublikasında, istərsə də onun ayrı-ayrı iqtisadi rayonlarında şəhər və kənd yerlərində əhalinin doğum səviyyəsinin daha çox bir-birinə yaxınlaşmasına və onlar arasında mövcud olan fərqlərin tədricən silinməsinə doğru aparır.

Maraqlı haldır ki, respublikada doğumun nisbi sürətdə azalması (hər min nəfərə) onun sayının mütləq qaydada azalması prosesindən bir qədər sonra başlamışdır. Əhalinin hər min nəfərinə doğulan uşaqların sayı nisbi sürətdə 1960-cı ildən azalmağa başlamışdırsa, doğulan uşaqların mütləq sayının azalması prosesi 1965-ci ildən başlamışdır. Bu proses yuxarıda göstərildiyi kimi, özünü nəinki bütünlükdə respublikada, onun şəhər və kənd yerlərində, habelə ayrı-ayrı iqtisadi rayonlarda da (o cümlədən NMR-də) biruzə vermişdir.

Qeyd etmək lazımdır ki, respublikanın bəzi iqtisadi rayonlarının şəhər və kəndlərində doğum səviyyəsi üzrə mövcud olan fərqə təsir edən amillərdən biri də kiçik şəhərlərin və qəsəbələrin ümumi inkişaf səviyyəsinin iri şəhərlərlə müqaisədə kənd yerlərindən o qədər də fərqlənməməsidir. Bu da öz növbəsində həmin iqtisadi rayonların şəhərlərində doğum səviyyəsinin kəndlərdən az fərqlənməsinə səbəb olmuşdur. Ancaq istər bütünlükdə res-

publikada, istərsə də onun əksər iqtisadi rayonlarında (xüsusilə NMR-də) bütün dövrlərdə doğum səviyyəsi kənd yerlərində şəhər yerlərinə nisbətən yüksək olaraq qalmışdır.

Tədqiq edilən dövrdə (1999-2013-cü illər) əhalinin doğum səviyyəsinin azalması respublikamızın şəhər və kənd yerlərində də baş vermiş, ancaq kənd yerlərində şəhər yerlərinə nisbətən azalma sürəti daha yüksək olmuşdur. Belə ki, 1989-cu ildə respublikanın kənd yerlərində əhalinin hər min nəfərinə düşən doğum səviyyəsi şəhər yerlərindəkinə nisbətən 1,3 dəfə yüksək olmuşdursa, 1999-cu ildə bu göstərici 1,4 dəfə, 2009-cu ildə 1,2 dəfə təşkil etmişdir. Bu göstərici Naxçıvan Muxtar Respublikasında müvafiq olaraq 1,3 dəfə, 1,2 dəfə və 1,2 dəfə olmuşdur. Şəhər və kənd yerlərində doğum səviyyəsi üzrə mövcud olan bu fərqlər respublikamızın demək olar ki, bütün iqtisadi rayonlarında qeydə alınmış və bu proses ardıcıl xarakter daşımışdır.

Yuxarıda qeyd olunanlardan aydın olur ki, AR-nın ayrı-ayrı iqtisadi rayonlarında, şəhər və kənd yerlərində mövcud olan doğum əmsalı arasındakı tərəddüdün miqyası get-gedə azalır ki, bu da həmin ərazilərin sosial-iqtisadi, əhalinin yaş-cins quruluşu, məşğulluq səviyyəsi və quruluşu, maddi və mədəni həyat səviyyəsi və s. mövcud olan fərqlərin azalması ilə əlaqədardır.

Lakın bütün bunlara baxmayaraq, Naxçıvan Muxtar Respublikasında məskunlaşmanın vəziyyəti Azərbaycan Respublikasının orta göstəricisinə nəsbətən sabit olması ilə fərqlənir. Sabitliyin göstəricisi həm şəhər (16,2 nəfər), həm də kənd (18,7 nəfər) yerlərində əhalinin daha yüksək artımının nəticəsidir. Burada şəhər və kənd əhalisinin üstün artması Azərbaycanın ümumi orta vəziyyətindən yaxşı



olmasını göstərsə də vəziyyət əsl həqiqətdə belə deyil. NMR-in anklav vəziyyətdə olması burada əhalinin miqrasiyasını məhdudlaşdırdığı üçün yerlərdə (şəhər və kənd) artım nisbətən üstün getmişdir. Bu həm də MR-də doğumun və təbii artımın yüksəkliyi ilə əlaqədardır.

2013-cü ildə Muxtar Respublikada doğulanların 26,4%-i, ölənlərin 27,3%-i və təbii artımın 26,3%-i şəhər yerlərinin, göstəricilərə uyğun olaraq 73,5%-i, 72,7% və 73,7% i kənd yerlərinin payına düşür [11].

NMR-in inzibati rayonlarında əhalinin təbii artımı və demoqrafik gostəriciləri məskunlaşmanın vəziyyətindən asılı olaraq kəskin sürətdə fərqlənir. Belə ki, torpaqların kənd əhalisinə verilməsi yerlərdə məskunlaşma üçün özünəməxsus imkanlar yaratmışdır ki, bu da öz növbəsində kənd əhalisinin təbii hərəkətinə öz təsirini göstərmişdir. Bu cəhətdən ən yaxşı imkanı olan Babək və Kəngərli rayonlarında kənd əhalisinin artımı NMR-in orta göstəricisindən müvafiq olaraq 9,4% və 6,1% yüksəkdir. MR-də şəhər əhalisinin xüsusi çəkisi 29,1%, kənd əhalisi isə 70,9% təşkil edir. Şəhər yerlərində əhalinin doğum, ölüm və təbii artım göstəricilərinin kənd yerlərinə nisbətən aşağı olmasına urbanizasiya əhəmiyyətli təsir göstərir. Cədvəldə NMR-in inzibati rayonları üzrə şəhər yerlərində doğum göstəricisində olan fərqlər illər üzrə təhlil edilmişdir.

2007-ci ildə şəhər yerlərində doğum əmsalının ən yüksək həddi Naxçıvan Muxtar Respublikası üzrə 22,7 nəfər, o cümlədən Şərur şəhərində 46,1 nəfər, Ordubad şəhərində isə 23,7 nəfər olmuşdur [10]. Digər şəhər yerlərində isə bu göstərici Kəngərli (Qıvraq qəsəbəsi) rayonunda 2013-cü ildə, Babək (eyni adlı qəsəbə) rayonunda 2011-ci ildə; Naxçıvan şəhərində 2012-ci ildə;

Cədvəl 2.20

Naxçıvan Muxtar Respublikasının şəhər yerlərində əhalinin hər min nəfərinə düşən doğum əmsalı

| İllər / Rayonlar | 1990 | 1995 | 2000 | 2001 | 2002 | 2003 | 2004 | 2005 | 2006 | 2007 | 2008 | 2009 | 2010 | 2011 | 2012 | 2013 |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| NMR | 23,8 | 19,5 | 14,2 | 13,5 | 13,3 | 12,8 | 12,6 | 12,6 | 12,5 | 22,7 | 17,1 | 16,9 | 21,5 | 22,2 | 22,6 | 20,5 |
| Naxçıvan ş. | 23,2 | 18,3 | 12,2 | 12,5 | 12,4 | 10,9 | 11,0 | 11,3 | 12,0 | 20,8 | 16,4 | 16,3 | 20,8 | 21,7 | 22,1 | 18,6 |
| Sədərək | 10,9 | 12,1 | - | - | 11,7 | 42,2 | 6,4 | 12,0 | 11,8 | 17,5 | 14,4 | 22,5 | 23,9 | 20,9 | 29,8 | 22,7 |
| Şərur | 18,9 | 21,6 | 25,0 | 14,1 | 10,6 | 15,5 | 11,4 | 10,8 | 9,4 | 46,1 | 12,7 | 12,2 | 20,0 | 25,5 | 21,1 | 20,1 |
| Babək | 32,9 | 40,4 | 25,3 | 18,0 | 17,3 | 19,0 | 19,6 | 28,4 | 20,5 | 26,9 | 22,4 | 27,5 | 25,3 | 37,6 | 30,4 | 29,1 |
| Şahbuz | 30,4 | 34,6 | 16,0 | 13,8 | 16,2 | 23,6 | 19,7 | 16,3 | 14,8 | 21,4 | 22,4 | 17,6 | 32,4 | 22,4 | 23,1 | 21,2 |
| Culfa | 36,9 | 25,2 | 18,9 | 18,8 | 18,3 | 14,5 | 17,4 | 16,5 | 13,7 | 18,7 | 20,7 | 17,8 | 23,7 | 19,3 | 20,9 | 21,7 |
| Ordubad | 24,0 | 22,0 | 10,8 | 12,9 | 13,3 | 12,2 | 12,8 | 11,0 | 10,7 | 23,7 | 15,3 | 14,9 | 16,5 | 18,6 | 21,3 | 17,3 |
| Kəngərli | - | - | - | - | - | - | 18,2 | 17,1 | 18,8 | 26,2 | 24,5 | 23,4 | 27,5 | 30,2 | 29,7 | 43,8 |

Mənbə:Azərbaycanın demoqrafik göstəriciləri 2013. Bakı,DSK,2014, s-171-175.



Sədərəkdə (Heydərabad qəsəbəsi) 2003-cü ildə; Şahbuz və Culfa şəhərində 2010-cu ildə müşahidə olunmuşdur. Şəhər yerlərində doğulanların sayının çoxluğuna görə (2013-cü il) Naxçıvan şəhəri 1470 uşaq (MR göstəricisi üzrə şəhər yerlərində doğulanların 56,8%-i), Culfa 278 uşaq (10,7%-i), Kəngərli 245 uşaq (9,5%-i) inzibati rayonları fərqlənir. Şəhər yerlərində ən az uşaq Sədərək (47) rayonunda doğulmuşdur (cədvəl 2.20).

1990–1995–ci illərdə NMR-də sosial-iqtisadi vəziyyətin gərginliyinə baxmayaraq ayrı-ayrı inzibati rayonların şəhər yerlərində doğum əmsalında o qədər də azalma müşahidə olunmamışdır. Belə ki, 1990–cı ildə doğum əmsalının ən yüksək həddi Culfa rayonunda, ən aşağı həddi isə Sədərək rayonunda olmuşdur. 1995-ci ildə isə rayonlar üzrə dəyişərək ən yüksək hədd Babək rayonunda, ən aşağı hədd isə yenə də Sədərək rayonunda müşahidə olunmuşdur [13]. Statistik məlumatlardan da göründüyü kimi Muxtar Respublikada və onun ayrı-ayrı inzibati rayonlarında hər min nəfərə düşən doğum əmsalı respublika göstəricilərindən həmişə yüksək olmuşdur.

Ölüm doğumdan sonra ikinci mühüm demoqrafik hadisədir. Ölüm demoqrafik statistika sisteminin onun üçün topladığı və qruplaşdırdığı məlumatlardan ibarət olan ilkin həyati hadisədir. Ölüm statistikası və onun təhlil edilməsi həm demoqrafik tədqiqatlar, həm də təcrübə üçün, xüsusilə də səhiyyə orqanları və sosial siyasət üçün zəruridir. Çünki ölüm səviyyəsi, xüsusilə də uşaq ölümünün vəziyyəti bu və ya digər regionun, o cümlədən şəhər və kənd yerlərinin sosial-iqtisadi inkişafını və onun əhalisinin həyat səviyyəsini səciyyələndirən göstəricilərdən biri hesab edilir.

Azərbaycan Respublikasının, o cümlədən də NMR-in şəhər və kənd yerlərində əhalinin ölüm göstəricisi arasında fərqlər mövcuddur. Son yarım əsr ərzində respublikada əhalinin hər min nəfərinə düşən ölüm səviyyəsi 39,4%, o cümlədən şəhər yerlərində 42,6%, kənd yerlərində 37,0% azalmışdır. 2009-cu ilin statistik məlumatlarına əsasən respublikamızda hər min nəfər diri doğulan uşaqdan bir yaşınadək ölənlərin sayı 11,3 nəfər, o cümlədən şəhər yerlərində 14,4 nəfər, kənd yerlərində 8,4 nəfər olmuşdur.

NMR-in şəhər yerlərində ölüm əmsalının ən yüksək həddi 2002-ci ildə 6,1 nəfər olmuşdur [6]. Muxtar Respublikada ölüm göstəricisinə görə inzibati rayonların şəhər yerləri arasında kəskin fərqlər mövcuddur. Bu fərq yuxarıdakı cədvəldə təhlil olunan statistik məlumatlardan da aydın görünür. MR-in şəhər yerlərində ölüm əmsalının orta göstəricisi 5,6 nəfərdir (cədvəl 2.21).

Cədvəl 2.21

Naxçıvan Muxtar Respublikasının şəhər yerlərində əhalinin hər min nəfərinə düşən ölüm əmsalı

| İllər / Rayonlar | 1990 | 1995 | 2000 | 2001 | 2002 | 2003 | 2004 | 2005 | 2006 | 2007 | 2008 | 2009 | 2010 | 2011 | 2012 | 2013 |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| NMR | 3,7 | 5,1 | 5,3 | 5,6 | 6,1 | 5,8 | 5,6 | 5,6 | 5,5 | 5,4 | 5,6 | 5,2 | 4,8 | 4,7 | 4,8 | 4,3 |
| Naxçıvan ş. | 3,7 | 5,0 | 5,0 | 5,6 | 6,1 | 5,0 | 5,4 | 5,6 | 5,5 | 5,2 | 5,3 | 5,0 | 4,9 | 4,5 | 4,6 | 4,2 |
| Sədərək | 1,8 | 2,2 | - | - | 2,2 | 16,1 | 2,9 | - | 3,2 | 2,1 | 1,6 | 2,6 | 1,7 | 3,6 | - | 2,4 |
| Şərur | 2,9 | 3,4 | 3,1 | 3,7 | 2,9 | 7,2 | 3,7 | 5,1 | 4,1 | 5,6 | 5,2 | 6,3 | 3,6 | 4,4 | 5,2 | 3,1 |
| Babək | 3,3 | 6,9 | 8,7 | 8,3 | 6,0 | 5,7 | 10,0 | 8,0 | 6,0 | 2,8 | 3,7 | 4,5 | 4,7 | 4,0 | 5,3 | 3,5 |
| Şahbuz | 7,0 | 6,7 | 5,6 | 5,8 | 5,8 | 7,0 | 7,7 | 7,1 | 7,7 | 8,2 | 7,5 | 6,0 | 5,3 | 5,5 | 4,6 | 5,4 |
| Culfa | 4,2 | 5,8 | 5,3 | 5,3 | 4,8 | 4,7 | 4,4 | 4,9 | 4,0 | 5,0 | 6,3 | 4,1 | 3,6 | 2,9 | 4,0 | 3,9 |
| Ordubad | 4,7 | 9,2 | 7,3 | 6,2 | 9,6 | 8,8 | 7,0 | 6,6 | 8,8 | 7,8 | 6,7 | 6,4 | 5,6 | 7,5 | 6,7 | 6,6 |
| Kəngərli | - | - | - | - | - | - | 6,2 | 6,8 | 3,2 | 5,0 | 6,7 | 7,5 | 5,7 | 7,4 | 6,5 | 4,8 |

**Mənbə**: Azərbaycanın demoqrafik göstəriciləri 2013. Bakı, DSK, 2014, s-171-175.



NMR-in şəhər yerlərində ölüm əmsalının orta göstəricisinin yüksək olduğu rayon Odubad və Şahbuz rayonlarıdır. Bu göstəricilər müvafiq olaraq MR göstəricisindən 25,3% və 17,6% çoxdur. Ölüm əmsalının orta göstəricisinin ən az olduğu rayonlar isə Sədərək rayonudur (3,5 nəfər).

1990-cı ilinən müqaisədə 2009-cu ildə şəhər yerlərində ölüm əmsalı 28,8% artmışdır. Bu dəyişilmə Naxçıvan şəhərində 26,0%, Sədərəkdə 30,8%, Şərurda 54%, Babəkdə 26,7%, Ordubadda 26,6% artmış, Şahbuzda 14,3% və Culfada isə 2,4% azalmışdır. Sədərək rayonunda ölüm əmsalı bütün illər boyu 2-3 nəfər arasında dəyişildiyi halda, 2003-cü ildə 16,1 nəfər, yəni, bütün inzibati rayonlar arasında ən yüksək göstəricidən 45,3% çox olmuşdur (cədvəl 2.21). 2013-cü ildə isə MR üzrə ölüm əmsalı 1999-cu illə müqaisədə 18,9% azalmışdır.

2007-ci ildə şəhər yerlərində 1 yaşa qədər uşaq ölümü Naxçıvan şəhərində 7,1 nəfər və Sədərək rayonunda 45,5 nəfər olmuşdur. 2007-ci illə müqaisədə 2013-cü ildə Muxtar Respublika üzrə şəhər yerlərində bir yaşa qədər uşaq ölümü 8 nəfər olmuşdur ki, bununda 3 nəfəri Naxçıvan şəhərinin payına düşür. Digər şəhər yerlərinin isə hər birində 1 nəfər olmuşdur [11].

2009-cu ildə şəhər yerlərində təbii artımın ən yüksək səviyyəsi (əhalinin hər min nəfərinə görə) Babək, Sədərək və Kəngərli rayonlarında qeydə alınmışdır. İnzibati rayonların şəhər yerlərində təbii artım əmsalı illər üzrə dəyişmişdir. Bu prosesi aşağıdakı cədvəldən izləmək olar (cədvəl 2.22).

Cədvəl 2.22

Naxçıvan Muxtar Respublikasının şəhər yerlərində əhalinin hər min nəfərinə düşən təbii artım əmsalı

| İllər / Rayonlar | 1990 | 1995 | 2000 | 2001 | 2002 | 2003 | 2004 | 2005 | 2006 | 2007 | 2008 | 2009 | 2010 | 2011 | 2012 | 2013 |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| NMR | 20,1 | 14,4 | 8,9 | 7,9 | 7,2 | 7,0 | 7,0 | 7,0 | 7,0 | 17,3 | 11,5 | 11,7 | 16,7 | 17,5 | 17,8 | 16,2 |
| Naxçıvan ş | 19,5 | 13,3 | 7,2 | 6,9 | 6,3 | 5,9 | 5,6 | 5,7 | 6,5 | 15,6 | 11,1 | 11,3 | 15,9 | 17,2 | 17,5 | 14,4 |
| Sədərək | 9,1 | 9,9 | - | - | 9,5 | 26,1 | 3,5 | 12,0 | 8,6 | 15,4 | 12,8 | 19,9 | 22,2 | 17,3 | 29,8 | 20,3 |
| Şərur | 16,0 | 18,2 | 21,9 | 10,4 | 7,7 | 8,3 | 7,7 | 5,7 | 5,3 | 40,5 | 7,5 | 5,9 | 16,4 | 21,1 | 15,9 | 17,0 |
| Babək | 24,6 | 33,5 | 16,6 | 9,7 | 11,3 | 13,3 | 9,6 | 20,4 | 14,2 | 24,1 | 18,7 | 23,0 | 20,6 | 33,6 | 25,1 | 25,6 |
| Şahbuz | 23,4 | 27,9 | 10,4 | 8,1 | 10,4 | 16,6 | 12,0 | 9,2 | 7,1 | 13,2 | 14,9 | 11,6 | 27,1 | 16,9 | 18,5 | 15,8 |
| Culfa | 32,7 | 19,4 | 13,6 | 13,5 | 13,5 | 9,8 | 13,0 | 11,6 | 9,7 | 13,2 | 14,4 | 13,7 | 20,1 | 16,4 | 16,9 | 17,8 |
| Ordubad | 19,3 | 12,8 | 3,5 | 6,7 | 3,7 | 3,4 | 5,8 | 4,4 | 1,9 | 15,9 | 8,6 | 8,5 | 10,9 | 11,1 | 14,6 | 10,7 |
| Kəngərli | - | - | - | - | - | - | 12,0 | 10,3 | 15,6 | 21,2 | 17,8 | 15,9 | 21,8 | 22,8 | 23,2 | 39,0 |

**Mənbə:** Azərbaycanın demoqrafik göstəriciləri 2013. Bakı, DSK, 2014, s-171-175.



Statistik rəqəmlərdən göründüyü kimi Naxçıvan Muxtar Respublikasında şəhər əhalisinin ümumi təbii artım əmsalı 2000-ci ildən 2006-cı ilə kimi azalmış, 2007-ci ildən 2013-cüilədək artmışdır. Bu proses MR-də xüsusilə şəhər yerlərində son illərdə sosial-iqtisadi gərginliyin aradan qaldırılması və əhalinin həyat səviyyəsinin yüksəlməsi ilə bağlı olmuşdur. Bununla belə təbii artım əmsalına görə inzibati rayonların şəhər yerləri arasında kəskin fərqlər müşahidə olunur.

Belə ki, Naxçıvan şəhərində, Şərur, Ordubad və Babək rayonlarında da 2000-2006-cı illər arasında təbii artım əmsalı azalmışdır. Culfa və Şahbuz rayonlarında 2010-cu ildə son on beş il ərzində ən yüksək təbii artım əmsalı qeydə alınmışdır.

2011-ci ildə Babək rayonunda təbii artım əmsalı 33,6 nəfər olmuş və 1999-cu ilə nisbətən 50,6% artmışdır. 2007-ci illə müqaisədə 2009-cu ildə inzibati rayonların şəhər yerlərində təbii artım əmsalı Naxçıvan şəhərində 27,5%, Şərur rayonunda 85,4%, Babək rayonunda 4,6%, Şahbuzda 12,1%, Ordubadda 46,5% və Kəngərlidə 25% azalmış, Culfa 3,6%, və Sədərək 22,6% rayonlarında isə artmışdır (cədvəl 2.22).

Naxçıvan Muxtar Respublikasının kənd əhalisi ümumi respublikaya və əksər iqtisadi rayonlara nisbətən daha aktiv demoqrafik xarakterə malikdir. Burada dağlıq və düzənlik kənd yerlərində əhalinin demoqrafik göstəriciləri arasında fərqlər mövcuddur. Belə ki, doğum əmsalı düzənlik (Babək, Sədərək, Şərur və Kəngərli) rayonların kənd yerlərində dağlıq rayonların (Şahbuz, Culfa, Ordubad) kənd yerlərindən 27,9% artıqdır. Ən az uşağın Şahbuz (4,3%) və Sədərək (2,9%) rayonlarında

Cədvəl 2.23

Naxçıvan Muxtar Respublikasının kənd yerlərində əhalinin hər min nəfərinə düşən doğum əmsalı

| İllər / Rayonlar | 1990 | 1995 | 2000 | 2001 | 2002 | 2003 | 2004 | 2005 | 2006 | 2007 | 2008 | 2009 | 2010 | 2011 | 2012 | 2013 |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| NMR | 31,2 | 27,7 | 16,8 | 15,6 | 14,9 | 15,4 | 16,9 | 18,7 | 16,6 | 18,7 | 21,0 | 20,8 | 26,3 | 26,3 | 25,8 | 23,5 |
| Naxçıvan ş. | - | - | - | - | - | - | - | - | - | - | - | 16,2 | 26,0 | 29,7 | 20,6 | 24,6 |
| Sədərək | 5,0 | 11,6 | 22,2 | 20,1 | 19,6 | 18,7 | 19,7 | 21,9 | 21,3 | 21,1 | 20,6 | 19,3 | 25,0 | 24,4 | 27,4 | 25,1 |
| Şərur | 37,3 | 30,9 | 15,5 | 13,3 | 13,9 | 14,7 | 16,2 | 19,5 | 15,7 | 15,5 | 19,1 | 20,0 | 25,6 | 23,1 | 22,3 | 20,4 |
| Babək | 30,2 | 27,6 | 16,7 | 16,2 | 14,8 | 15,7 | 17,0 | 19,2 | 17,5 | 21,2 | 22,0 | 22,4 | 27,5 | 30,8 | 30,1 | 27,5 |
| Şahbuz | 27,5 | 27,3 | 16,5 | 17,1 | 15,5 | 17,4 | 17,3 | 16,9 | 16,8 | 19,1 | 19,1 | 17,9 | 21,6 | 23,1 | 24,0 | 24,3 |
| Culfa | 33,5 | 25,7 | 19,5 | 18,0 | 17,0 | 14,9 | 17,3 | 17,1 | 16,8 | 21,0 | 28,4 | 22,8 | 30,6 | 29,2 | 31,0 | 26,3 |
| Ordubad | 30,2 | 25,0 | 17,5 | 17,1 | 14,8 | 15,5 | 17,3 | 15,7 | 15,6 | 17,7 | 19,6 | 20,6 | 24,6 | 24,6 | 23,9 | 22,4 |
| Kəngərli | - | - | - | - | - | - | 16,9 | 21,1 | 16,0 | 21,9 | 21,1 | 22,4 | 28,1 | 29,2 | 27,9 | 22,2 |

**Mənbə:** Azərbaycanın demoqrafik göstəriciləri 2013. Bakı, DSK, 2014, s-190-193.



doğulması burada kənd yerlərində sosial-iqtisadi infrastrukturun lazımi səviyyədə olmamasını göstərir.

Muxtar Respublikanın kənd yerlərində əhalinin hər min nəfərinə düşən doğum əmsalının illər üzrə statistik təhlilini 2.23-cü cədvəldən aydın görmək olar.

Cədvəldən göründüyü kimi Naxçıvan Muxtar Respublikasının ümumi kənd əhalisi arasında doğum əmsalı 1990-cı ildən 2002-ci ilə qədər azalmış, sonrakı illərdə isə artmışdır. Bununla belə kənd yerlərində doğum əmsalı 1990-cı ildə Şərur rayonunda (MR səviyyəsindən 16,4% çox) 37,3 nəfər olduğu halda, Sədərək rayonunda bu göstərici 5,0 nəfər (MR səviyyəsindən 84% az) təşkil etmişdir. Son 15 il ərzində MR-in inzibati rayonlarının kənd yerləri üzrə doğum əmsalında ərazi fərqləri müşahidə olunur. Belə ki, 2013-cü ildə doğum əmsalının ən yüksək həddi Babək rayonunda, ondan nisbətən geri qalan Culfa və Sədərək rayonlarında, ən aşağı göstəricisi isə Şərrur rayonunda müşahidə olunmuşdur (cədvəl 2.23).

Təhlil olunan dövrdə kənd yerlərində inzibati rayonlar üzrə ən aşağı doğum əmsalı Sədərək və Culfa rayonlarında 2003-cü ildə, Şərur rayonunda 2001-ci ildə, Kəngərli rayonunda 2006-cı ildə, Babək, Şahbuz və Ordubad rayonlarında isə 2002-ci ildə müşahidə olunmuşdur.

Kənd yerlərində doğum əmsalının ən yüksək həddi isə Sədərək, Babək, Şahbuz və Culfa rayonlarında 2012-ci ildə, Şərur, Ordubad rayonlarında 2010-cu ildə, Kəngərli rayonunda 2011-ci ildə müşahidə olunmuşdur.

NMR-in kənd əhalisi üzrə ölüm əmsalı bütün illərdə 5-6 nəfər arası dəyişmiş və ən yüksək həddə 1995-ci ildə (6,6 nəfər) çatmışdır. Ölüm əmsalının ən aşağı həddi isə 2013-cü ildə müşahidə olunmuşdur.

Cədvəl 2.24

Naxçıvan Muxtar Respublikasının kənd yerlərində əhalinin hər min nəfərinə düşən ölüm əmsalı

| İllər / Rayonlar | 1990 | 1995 | 2000 | 2001 | 2002 | 2003 | 2004 | 2005 | 2006 | 2007 | 2008 | 2009 | 2010 | 2011 | 2012 | 2013 |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| NMR | 5,6 | 6,6 | 5,4 | 5,4 | 5,4 | 5,8 | 5,4 | 5,6 | 5,4 | 5,3 | 5,5 | 5,3 | 5,1 | 5,0 | 4,7 | 4,8 |
| Naxçıvan ş. | - | - | - | - | - | - | - | - | - | - | - | 3,9 | 4,3 | 5,1 | 4,7 | 5,2 |
| Sədərək | 1,2 | 2,3 | 5,7 | 7,6 | 6,7 | 5,5 | 5,1 | 5,8 | 5,9 | 5,2 | 5,7 | 3,9 | 5,8 | 5,2 | 5,5 | 5,1 |
| Şərur | 6,2 | 7,0 | 5,1 | 5,1 | 5,3 | 5,6 | 4,8 | 5,6 | 4,9 | 4,9 | 5,7 | 5,4 | 5,1 | 4,7 | 4,4 | 4,5 |
| Babək | 5,4 | 6,5 | 5,6 | 5,5 | 4,9 | 5,4 | 5,0 | 5,4 | 5,3 | 5,1 | 4,8 | 5,3 | 4,6 | 4,4 | 4,6 | 4,6 |
| Şahbuz | 6,6 | 7,3 | 6,2 | 6,9 | 6,6 | 6,7 | 7,8 | 6,9 | 7,8 | 6,9 | 6,1 | 6,7 | 6,1 | 6,6 | 5,8 | 6,1 |
| Culfa | 5,3 | 6,1 | 5,3 | 4,8 | 5,8 | 5,9 | 6,2 | 5,1 | 4,9 | 5,6 | 5,7 | 4,9 | 4,6 | 5,7 | 4,0 | 4,9 |
| Ordubad | 6,2 | 7,2 | 5,7 | 4,7 | 5,5 | 6,2 | 5,4 | 6,3 | 5,7 | 5,8 | 5,7 | 5,3 | 5,9 | 4,8 | 5,7 | 4,8 |
| Kəngərli | - | - | - | - | - | - | 5,6 | 5,0 | 5,5 | 5,1 | 6,1 | 5,9 | 5,5 | 5,4 | 4,6 | 4,6 |

**Mənbə**: Azərbaycanın demoqrafik göstəriciləri 2013. Bakı, DSK, 2014, s-201-205.



Kənd yerlərində əhalinin hər min nəfərinə düşən ölüm əmsalı inzibati rayonlar üzrə aşağıdakı cədvəldə (2.24) verilmişdir.

Statistik məlumatlardan göründüyü kimi ayrı-ayrı inzibati rayonlar üzrə kənd əhalisinin ölüm əmsalı Muxtar Respublika göstəricisindən çox fərqlənir. İnzibati rayonlar arasında ölüm əmsalının ən yüksək göstəricisi Şahbuz rayonunda (MR səviyyəsindən 20,9% çox), ən aşağı göstəricisi isə Naxçıvan şəhəri ə/d və Sədərək rayonunda (MR səviyyəsindən 26,4% az) qeydə alınmışdır. Digər rayonlarda isə bu göstərici MR səviyyəsindən o qədər də fərqlənməyərək 4,7–5,8 nəfər arasında dəyişmişdir.

Son on beş il müddətində inzibati rayonların kənd yerləri üzrə ölüm əmsalının maksimum həddə çatdığı illər fəqli olmuşdur. Belə ki, Sədərək (MR səviyyəsindən 28,9% çox) və Babək (təqribən respublika səviyyəsinə bərabər) rayonlarında 2001-ci ildə, Şərur rayonunda (MR səviyyəsindən 3,5% çox) 2008-ci ildə, Şahbuz (MR səviyyəsindən 30,8% çox) və Culfa (MR səviyyəsindən 12,9% çox) rayonlarında 2004-cü ildə, Ordubad rayonunda (MR səviyyəsindən 6,5% çox) 2003-cü ildə, Kəngərli rayonunda isə (MR səviyyəsindən 16,2% çox) 2008-ci ildə müşahidə olunmuşdur.

İnzibati rayonların kənd yerləri üzrə ölüm əmsalının ən az olduğu illər Sədərək rayonunda 2009-cu il; Şərur, Şahbuz, Kəngərli və Culfa rayonlarında 2012-ci il; Babək rayonunda 2011-ci il; və Ordubad rayonunda 2001-ci ildir.

2013-cü ildə Naxçıvan Muxtar Respublikasında 1 yaşa qədər ölən uşaqların sayı 10 nəfər olmuşdur ki, bunun da 1 nəfəri kənd yerlərinin payına düşmüşdür.

Naxçıvan Muxtar Respublikasının kənd yerlərində təbii artım əmsalı bütün illərdə MR səviyyəsindən çox olmuşdur. 2009-cu ildə kənd yerlərində təbii artım əmsalı 15,5 nəfər (MR səviyyəsindən 77,0% çox) olduğu halda, bu göstərici MR üzrə 14,3 nəfər olmuşdur. NMR-in kənd yerlərində hər min nəfərə düşən təbii artım əmsalı 1990-cı ildəki 25,6 nəfərdən 39,4% azalaraq 2009-cu ildə 15,5 nəfərə, 2012- ci ildə isə yenidən artaraq 18,7 nəfər olmuşdur. Bu prosesi Sədərək rayonu istisna olmaqla, digər inzibati rayonlara da aid etmək olar (cədvəl 2.25).

Kənd yerlərində təbii artım göstəricisinin çoxluğuna görə birinci yeri Culfa rayonu (MR səviyyəsindən 21,8% çox) tutur. Bu göstəricinin ən az olduğu rayon isə Şərur rayonudur (MR səviyyəsindən 15,2% az). Cədvəldən də göründüyü kimi əvvəlki, illərə nisbətən 2002-ci ildə həm MR üzrə, həm də ayrı-ayrı inzibati rayonlar üzrə kənd yerlərində təbii artım əmsalı aşağı düşmüşdür. Lakin sonrakı illərdə (2004-2013-cü illər) bu göstərici yenidən yüksəlməyə başlamışdır (cədvəl 2.25).

Xəritədən göründüyü kimi NMR-də əhalinin nisbətən çox artmasının başlıca səbəbi burada əhalinin cins tərkibinin çox dəyişməməsidir (bax. şəkil 2.2).

2013-cü ildə NMR-in şəhər və rayonlar üzrə doğulanların sayı 9763 nəfər, ölənlərin sayı 2001 nəfər və uyğun olaraq təbii artım göstəricisi 7762 nəfər olmuşdur.

Şəhər və kənd yerlərinin demoqrafik proseslərinin təhlilindən əldə olunan nəticələrdən məlum olur ki, rayonlarda əhalinin demoqrafik gostəriciləri məskunlaşmanın vəziyyətindən asılı olaraq kəskin sürətdə fərqlənir. Kənd təsərrüfatına yararlı torpaq sahələri ilə yaxşı təmin olunmuş kənd yerlərində əhalinin artımı NMR-in orta göstəricisindən 9,4% yüksəkdir.



Cədvəl 2.25

Naxçıvan Muxtar Respublikasının kənd yerlərində əhalinin hər min nəfərinə düşən təbii artım əmsalı

| İllər / Rayonlar | NMR | Naxçıvan ş | Sədərək | Şərur | Babək | Şahbuz | Culfa | Ordubad | Kəngərli |
|---|---|---|---|---|---|---|---|---|---|
| 1990 | 25,6 | - | 3,8 | 31,1 | 24,8 | 20,9 | 28,2 | 24,0 | - |
| 1995 | 21,1 | - | 9,3 | 23,9 | 21,1 | 20,0 | 19,6 | 17,0 | - |
| 2000 | 11,4 | - | 16,5 | 10,4 | 11,1 | 10,3 | 14,2 | 18,0 | - |
| 2001 | 10,2 | - | 12,5 | 8,2 | 10,7 | 10,3 | 13,2 | 12,4 | - |
| 2002 | 9,5 | - | 12,9 | 8,6 | 9,9 | 8,9 | 11,2 | 9,3 | - |
| 2003 | 9,6 | - | 12,2 | 9,1 | 10,1 | 10,7 | 9,0 | 9,3 | - |
| 2004 | 11,5 | - | 14,6 | 11,4 | 12,0 | 9,5 | 11,1 | 11,9 | 11,3 |
| 2005 | 13,1 | - | 16,1 | 13,9 | 13,8 | 10,0 | 12,0 | 9,4 | 16,1 |
| 2006 | 11,2 | - | 15,4 | 10,8 | 12,2 | 9,0 | 11,9 | 9,9 | 10,5 |
| 2007 | 13,4 | - | 15,9 | 10,6 | 16,1 | 12,2 | 15,4 | 11,9 | 16,8 |
| 2008 | 15,5 | - | 14,9 | 13,4 | 17,2 | 13,0 | 22,7 | 13,9 | 15,0 |
| 2009 | 15,5 | 12,3 | 15,4 | 14,6 | 17,1 | 11,2 | 17,9 | 15,3 | 16,5 |
| 2010 | 21,2 | 21,7 | 19,2 | 20,5 | 22,9 | 15,5 | 26,0 | 18,7 | 22,6 |
| 2011 | 21,3 | 24,6 | 19,2 | 18,4 | 26,4 | 16,5 | 23,5 | 19,8 | 23,8 |
| 2012 | 21,1 | 15,9 | 21,9 | 17,9 | 25,5 | 18,2 | 27,0 | 18,2 | 23,3 |
| 2013 | 18,7 | 19,4 | 20,0 | 15,9 | 22,9 | 18,2 | 21,4 | 17,6 | 17,6 |

**Mənbə:** Azərbaycanın demoqrafik göstəriciləri 2013. Bakı, DSK, 2014, s-201-205.




Şəkil 2.2 Naxçıvan Muxtar Respublikasının əhali xəritəsi (2013 - cü il)



Şəhər yerlərində əhalinin doğum, ölüm və təbii artım göstəricilərinin kənd yerlərinə nisbətən aşağı olması urbanizasiya prosesi ilə əlaqədardır.

Statistik məlumatlardan da göründüyü kimi Muxtar Respublikanın həm şəhər, həm də kənd yerlərində hər min nəfərə düşən doğum əmsalı respublika göstəricilərindən həmişə yüksək olmuşdur.

Şəhər yerlərində doğulanların sayının çoxluğuna görə Naxçıvan, Culfa və Ordubad şəhəri, azlığına görə isə Şahbuz şəhəri və Sədərək rayonu fərqlənir.

Muxtar Respublikanın şəhər yerlərində ölüm əmsalının orta göstəricisinin yüksək olduğu rayon Ordubad və Şahbuz rayonlarıdır. Ölüm əmsalının orta göstəricisinin ən az olduğu rayonlar isə Sədərək və Kəngərlidir.

NMR-in kənd əhalisi ümumi respublikaya və əksər iqtisadi rayonlara nisbətən daha aktiv demoqrafik xarakterə malikdir. Burada kənd yerlərinin dağlıq və düzənlik ərazilərində əhalinin demoqrafik göstəriciləri arasında fərqlər mövcuddur. Belə ki, doğum əmsalı düzənlik rayonların kənd yerlərində dağlıq rayonların kənd yerlərindən artıqdır. Ən az uşağın Şahbuz və Sədərək rayonlarında doğulması burada kənd yerlərində sosial-iqtisadi infrastrukturun lazımi səviyyədə olmamasının nəticəsidir.

NMR-in kənd əhalisi üzrə ölüm əmsalı bütün illərdə 5-6 nəfər arasında dəyişmişdir və 1 yaşa qədər ölən uşaqların əksəriyyəti şəhər yerlərinin payına düşür.

Naxçıvan Muxtar Respublikasının kənd yerlərində təbii artım əmsalı bütün dövrlərdə yüksək səviyyədə olmuş və bu göstəricinin çoxluğuna görə birinci yeri Culfa rayonu, azlığına görə isə Şərur rayonu tutur.

# III FƏSİL

# NAXÇIVAN MUXTAR RESPUBLİKASINDA MÜASİR MİQRASİYA PROSESLƏRİNİN ƏRAZİ FƏRQLƏRİ

## 3.1. Regionun xarici miqrasiya proseslərində iştirakı

Müxtəlif ictimai-iqtisadi quruluşa malik olan ölkələrdə və onların ayrı-ayrı tarixi inkişaf mərhələlərində bu ölkələrin malik olduğu sosial-iqtisadi inkişafından, coğrafi şəraitindən, məhsuldar qüvvələrin inkişaf səviyyəsi və ərazilər üzrə yerləşməsi vəziyyətindən, əhalisinin quruluşu və tərkibindən asılı olaraq əhali miqrasiyasının intensivliyi, istiqamətləri və tərkibi bir-birindən fərqlənir.

Sovet hakimiyyəti illərində, bütünlükdə, keçmiş ittifaq respublikalarında olduğu kimi, Azərbaycanda da miqrasiya əsas etibarı ilə təsərrüfatın planauyğun inkişaf qanununun tələblərinə müvafiq olaraq işçi qüvvəsinə tələbatı ödəmək məqsədi ilə həyata keçirilməyə başlamışdır. Sovet hakimiyyətinin qurulması illərində respublikada istər əhalinin ümumi sayı, istərsə də əmək qabiliyyətli əhalinin sayı azalmışdır. Bu azalma əhalinin ümumi sayı üzrə 401,5 min nəfər, əmək qabiliyyətli əhali üzrə isə 110 min nəfər təşkil etmişdir. Bir tərəfdən bu vəziyyət digər tərəfdən isə təsərrüfatın bərpası və inkişafı ilə əlaqədar olaraq işçi qüvvəsinə tələbatın ciddi surətdə artması bu dövrdə respublikamıza kənardan çoxlu miqdarda işçi qüvvəsi gətirilməsini tələb edirdi. Buna görə də İkinci dünya müharibəsi ərəfəsinə qədər burada əhalinin ümumi artımının 50%-dən çoxunu başqa respublikalardan gələnlər təşkil edirdi [58].



Bu dövrdə Azərbaycan Respublikasına əhalinin miqrasiyası burada sənayenin inkişafı ilə əlaqədar mütəxəssis kadrlara ehtiyacın artması nəticəsində baş vermişdir.

Azərbaycanda əhalinin miqrasiyasında müxtəlif illərdə dəyişikliklər baş vermişdir. Belə ki, əvvəlki əhali siyahıyaalınması illərində (1920-1926, 1926 və 1939-cu illərdə) başqa respublikalardan gələnlərin sayı gedənlərin sayından çox olduğu halda, 1939, 1959, 1970, 1989, 1999 və 2009-cu illərdə isə əksinə, gedənlər gələnlərdən çox olmuşdur.

Azərbaycan Respublikasının müstəqillik qazandığı son 20 il ərzində isə miqrasiya proseslərində (miqrasiya sahəsində sərbəstliyə nail olunması, miqrasiyanın yeni növlərinin yaranması, miqrasiya edən əhalinin yaş və cins tərkibində və istiqamətlərində olan dəyişikliklər və s.) əsaslı dəyişikliklər yaranmışdır.

Azərbaycan Dövlət Statistika Komitəsinin məlumatlarına əsasən son 10 il ərzində (1999-2009) Azərbaycana gəlmiş (daimi yaşamağa) əhalinin əksəriyyəti MDB və Baltikyanı ölkələrin payına düşmüşdür. 1999-2009-cu illərdə xarici ölkələrdən Azərbaycana daimi yaşamaq üçün gəlmiş 34,4 min nəfər əhalinin 30,0 min nəfəri MDB və Baltikyanı ölkələrdən, cəmi 4,4 min nəfərini isə digər xarici ölkələrdən gələnlər təşkil edir. MDB və Baltikyanı ölkələrdən respublikamıza ən çox gələnlər (18,7 min nəfər) RF-dan olmuşdur. Digər MDB ölkələrindən isə 3,3 min nəfər Gürcüstan Respublikasından, 1,3 min nəfər Özbəkistan Respublikasından, 1,9 min nəfər Ukrayna Respublikasından, 1,7 min nəfər Türkmənistan Respublikasından, 1,5 min nəfər Qazaxıstan Respublikasın- dan, 0,2 min nəfər Qırğızıstan Respublikasından və s. gəlmişdir. Digər xarici

ölkələrdən gələnlərin isə 0,4 min nəfərini Türkiyə Respublikasından, 0,2 min nəfərini İİR-
dan, 0,06 min nəfərini İsrail Respublikasından və s. təşkil edir [31].

Tədqiq edilən dövrdə Azərbaycan Respublikasından xarici ölkələrə gedənlərin (daimi miqrasiya edənlərin) ümumi sayı 56,7 min nəfər olmuşdur ki, onların da 45,3 min nəfəri RF-nın payına düşür. Digər ölkələrə isə gedənlərin 2,8 min nəfəri Ukrayna Respublikasının, 1,8 min nəfəri Qazaxıstan Respublikasının, 0,3 min nəfəri Özbəkistan Respublikasının, 0,1 min nəfəri Moldova və Baltikyanı ölkələrin payına düşür.

Bu dövrdə (1999-2009) digər xarici ölkələrə gedənlərin sayı 4,5 min nəfər və ya bütünlükdə ölkədən gedənlərin 7,9%-ni təşkil etmişdir. Bu ölkələr sırasına Almaniya (0,4 min nəfər), İsrail (2,1 min nəfər), ABŞ (0,8 min nəfər) və s. daxildir.

Azərbaycan Respublikasının miqrasiya proseslərinin ümumi mənzərəsinə nəzər saldıqdan sonra respublikanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında miqrasiya proseslərinin oxşar və fərqli xüsusiyyətlərini təhlil edək. Azərbaycan Respublikasından fərqli olaraq Naxçıvan Muxtar Respublikasında miqrasiya proseslərinin özünəməxsus xüsusiyyətləri vardır. Naxçıvan Muxtar Respublikasının əhalisinin xarici ölkələrə miqrasiyası əsasən 1992-ci ildən intensivləşmişdir. MR-in əhalisinin əksəriyyəti MDB ölkələrinə, Türkiyəyə və İran İslam Respublikasına miqrasiya edirlər. 1990-cı illərdə əhali miqrasiyasının özünəməxsus xüsusiyyətlər kəsb etməsi və MDB dövlətləri arasında iqtisadiyyatda aparılan islahatların xarakteri və sürətindəki, əhalinin həyat səviyyəsi və etnik tərkibindəki fərqli cəhətlərlə əlaqədar olmuşdur. Bu



dövrdə əhalinin bir hissəsi daha tez bazar münasibətlərinə uyğunlaşdığı halda, digərləri buna nail olmadı. Ancaq əhalinin əksər çoxluğu bu illər ərzində miqrasiya əhval ruhiyyəsindəki köhnə oriyentlərini itirmiş, yeniləri isə onlar tərəfindən tam dərk edilməmişdir. Bütün bunlar əhalinin ərazi yerdəyişməsinin mobilliyini kəskin sürətdə azaltmışdır. Həmin illərdə əhalinin yerdəyişməsinin ümumi həcmi xeyli azalmışdır. Bu illərdə əhali miqrasiyası axınının azalması bütün MDB ölkələri üçün səciyyəvi olmuşdur.

Əhalinin miqrasiyası fəallığının artmasına bir sıra amillər mənfi təsir edir. Bunlara əmək və mənzil bazarının zəif inkişaf etməsi, pasport məhdudiyyətinin və qeydiyyat institutunun saxlanılması, başqa regionlarda olan boş iş yerlərinə dair informasiyaların olmaması, vətəndaşlığın rəsmiləşdirilməsi qaydasının mövcud olması, yol pulu xərclərinin çoxluğu və s daxildir.

Təsadüfi deyildir ki, 1990-cı illərdə MDB ölkələri arasında əhali miqrasiyası mübadiləsinin həcmi 3,0 dəfə azalaraq, 1991-ci ildəki 2,93 milyon nəfərdən 1999-cu ildə 997 min nəfər, 2009-cu ildə isə 830 min nəfər olmuşdur. MDB ölkələri arasında ən sıx miqrasiya əlaqələri qonşu dövlətlərlə, habelə Rusiya ilə başqa MDB ölkələri arasında müşahidə olunur .

Tədqiq olunan dövr ərzində MDB ölkələrini burada baş vermiş əhali miqrasiyası mübadiləsinin yekununa görə iki yerə ayırmaq olar. Birinci qrup ölkələrə Belarusya və Rusya daxildir. Bu ölkələrdə miqrasiya qalığı müsbət olmuşdur. İkinci qrupa bütün MDB ölkələri, o cümlədən də Azərbaycan Respublikası və onun tərkib hissəsi olan NMR daxildir. Bu respublikalarda miqrasiya balansı mənfi olmuşdur (cədvəl 3.1).

Cədvəl 3.1

2009-cu ildə MDB ölkələrində respublikalararası əhali miqrasiyasının vəziyyəti (min nəfər)

| MDB ölkələri | gələnlər | gedənlər | miqrasiya saldosu |
|---|---|---|---|
| Azərbaycan, | 107,0 | 185,6 | -78,6 |
| o cümlədən NMR | 1,3 | 7,2 | -5,3 |
| Ermənistan | 7,0 | 18,2 | -11,2 |
| Belarusuya | 238,3 | 225,3 | +13 |
| Qazaxıstan | 350,8 | 373,4 | -22,6 |
| Qırğızıstan | 41,9 | 69,0 | -27,1 |
| Moldova | 1,7 | 7,2 | -5,5 |
| Rusiya | 2088,6 | 1981,2 | +107,4 |
| Tacikistan | 18,0 | 27,3 | -9,3 |
| Türkmənistan | - | - | - |
| Özbəkistan | - | - | - |
| Ukrayna | 763,2 | 758,6 | -4,6 |

**Mənbə**: Содружество независимых государств в 2009 году статистический ежегодник. М., 2009.

Cədvəlin məlumatlarından görünür ki, hazırkı dövrdə MDB ölkələrində əhali miqrasiyasının əsas istiqaməti Rusiyaya tərəfdir. Statistik məlumatların təhlilindən aydın olur ki, 2009-cu ildə Rusiyanın yaxın xarici ölkələrlə əhali miqrasiyası mübadiləsinin qalığı 107,4 min nəfər, Belarusda isə cəmi 13 min nəfər təşkil etmişdir. Rusiyada yaranmış bu müsbət miqrasiya qalığı başlıca olaraq Mərkəzi Asiya və Zaqafqaziya regionlarının hesabına olmuşdur.

Həmin dövrdə (2009-cu ildə) MDB ölkələri arasında ən yüksək mənfi miqrasiya saldosu, Qırğızıstanda (27,1 min nəfər), Qazaxıstanda (22,6 min nəfər) və Ermənistanda (11,2 min nəfər) qeydə alınmışdır. Bu göstərici Taciqistanda -9,3 min nəfər, Ukraynada -4,6 min nəfər, Moldovada -5,5 min nəfər, olmuşdur. Miqrasiya saldosu Azərbaycan Respublikasında -78,6 min nəfər, o cümlədən NMR-də -5,3 min nəfər olmuşdur.



1999-2009 illərdə AR-dan Rusiya ərazisinə gedən əmək miqrantlarının sayı 17736 nəfər olmuşdur ki, bulardan 3380 nəfəri NMR-in vətəndaşıdır. NMR-dən Rusiyanın əmək bazarına ixrac edilən işçi qüvvəsinin sayı 2009-cu ildə 1999-cu ilə nisbətən 1,7 dəfə azalmışdır. Azərbaycanlıların, o cümlədən də NMR vətəndaşlarının Rusiyadakı fəaliyyət dairəsi genişdir. Vaxtı ilə Sovet hakimiyyəti illərində Rusiyaya təhsil almağa və işləməyə gedib orada qalanlar, orada doğulub boya-başa çatmış və Rusiyanın vətəndaşlığını qəbul etmiş azərbaycanlılar, indi Rusiyada elm, incəsənət sahəsində çalışır, iri bizneslə məşğul olur və bir qayda olaraq azərbaycanlı icmalarına başçılıq edirlər. Müstəqilliyimiz dövründə isə Rusiyaya getmiş həmvətənlərimizin çoxu xırda, orta və iri biznesdən tutmuş, tikinti, sənaye və nəqliyyat sahələrində mövsümi işlərdə çalışırlar. Son illər NMR-dən Rusiyanın əmək bazarlarında işləməyə gedənlərin çoxu kənd yerlərindən gedənlər olmuşdur ki, bu da həmin ərazilərdə işsizlik səviyyəsinin yüksəkliyi ilə bağlıdır.

Rəsmi statistik məlumatlara əsasən, 1999-cu ildən sonra respublikada, o cümlədən Naxçıvan Muxtar Respublikasında əhalinin respublikalararası miqrasiyası, özünəməxsus xüsusiyyətlər kəsb etməklə, bütünlükdə respublikada və onun ayrı-ayrı regionlarında əhalinin və onun mühüm tərkib hissəsi olan əmək ehtiyatlarının formalaşmasına müxtəlif istiqamətlərdə təsir etmişdir. Belə ki, 1999-cu ildə MR-ə gələnlərlə gedənlər arasındakı fərq (saldo) mənfi 9,5 min nəfər təşkil etmişdirsə, bu göstərici xeyli azalaraq 2009-cu ildə mənfi 5,3 min nəfərə, 2013 - cü ildə isə -3,1 min nəfərə çatmışdır. Qalan illərdə isə bu göstərici müxtəlif olub, hər il bir-birindən fərqlənmişdir.

Bu vəziyyəti aşağıdakı cədvəlin məlumatından daha aydın görmək olar (cədvəl 3.2).

Cədvəl 3.2

Naxçıvan Muxtar Respublikasında respublikalararası miqrasiya qalığının (saldonun) dəyişilməsi (min nəfər)

| İllər | 1999 | 2000 | 2001 | 2002 | 2003 | 2004 | 2005 | 2006 | 2007 | 2008 | 2009 | 2010 | 2011 | 2012 | 2013 |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Miqrasiya saldosu | -9,5 | -11,1 | -10,1 | -9,8 | -8,0 | -6,6 | -6,7 | -6,5 | -6,4 | -5,6 | -5,3 | -5,1 | -4,0 | -3,1 | -3,1 |

Mənbə: NMR Mıqrasiya Xidməti Şöbəsinin məlumatları əsasında hesablanmışdır.

Cədvəlin məlumatlarının təhlilindən aydın olur ki, 1992-ci ildən sonra Naxçıvan Muxtar Respublikasında əhalinin xarici ölkələrə miqrasiyasının sayı çoxalmışdır ki, onların da əksəriyyətini gənc azərbaycanlı kişilər təşkil etmişdir.

Bunun başlıca səbəbi 1990-cı illərdə MR-də mövcud olan sosial-iqtisadi inkişaf səviyyəsinin aşağı və burada əhalinin məşğulluq probleminin olmasından ibarət olmuşdur (xüsusilə kənd yerlərində). Bu hal istər-istəməz respublikada mövcud olan həm bütünlüklə əhalinin, həm də, əmək ehtiyatlarının artım sürətinin azalmasına gətirib çıxarmışdır. Hesablamalar göstərir ki, miqrasiya edən əhalinin əksəriyyəti əmək qabiliyyətli yaşda olanlardır. Lakin son illərdə miqrasiya edən əhalinin yaş və cins üzrə uçotunda mövcud olan çatışmamazlıqlar bu sahədə dəqiq məlumat əldə etməyə imkan vermir. Halbuki, miqrasiya edən əhalinin yaş və cins tərkibinin öyrənilməsinin mühüm təsərrüfat əhəmiyyəti vardır. Çünki miqrasiya edən əhalinin yaş və cins tərkibində baş verən dəyişikliklər təkcə demoqrafik vəziyyətin xüsusiyyətlərini aşkara çıxarmaqla kifayyətlənmir, habelə cəmiyyətin bütün başqa icti-



mai – iqtisadi həyatında baş verən bir sıra başqa hadisələrin öyrənilməsi üçün də əhəmiyyətlidir. Əhali miqrasiyasının cins üzrə dəyişməsi dinamikası bir tərəfdən, məhsuldar qüvvələrin, digər tərəfdən isə qadın və kişi əməyinin tətbiq edildiyi sahələrin düzgün inkişaf etdirilib yerləşdirilməsi üçün zəruridir. Çünki ərazilər üzrə məhsuldar qüvvələrin düzgün inkişaf etdirilib yerləşdirilməsi istər Muxtar Respublika, istərsə də onun ayrı-ayrı inzibati rayonlarında kişi və qadın əməyinin daha səmərəli istismarının təmin edilməsinə imkan verən mühüm amillərdən biridir. Aparılan tədqiqatlara əsasən müəyyən edilmişdir ki, 1999-2009-cu illərdə MR-ə gələn miqrantların 64-65%-ni kişilər, 35-36%-ni isə qadınlar təşkil etmişlər. Gedənlər üzrə də kişilərin sayı qadınların sayından çoxdur. Bu səbəbdən də əhalinin miqrasiyası qalığında da kişilərin sayı qadınların sayından həmişə çox olmuşdur.

Maraqlı haldır ki, Naxçıvan Muxtar Respublikasından gedənlərlə buraya gələnlər arasında həm əmək qabiliyyətli yaşından aşağı həm də, bu yaşdan yuxarı olanların xüsusi çəkisi xeyli yüksəkdir. Bu isə onu göstərir ki, Muxtar Respublikanı tərk edənlərin xeyli bir qismini ailəvi sürətdə köçüb gedənlər təşkil edir (Məsələn Şərur rayonu ərazisindən əhalinin əksəriyyəti Türkiyə Respublikasına ailəvi sürətdə köçürlər, hətta orada Şərur yaşayış məntəqəsi adlanan yer yaratmışlar).

Naxçıvan Muxtar Respublikasını tərk edənlərin arasında qadınların xüsusi çəkisinin həm əmək qabiliyyətli yaşında, həm də bu yaşdan yuxarı olanlar arasında kişilərə nisbətən əhəmiyyətli dərəcədə yer tutması isə bir sıra obyektiv və subyektiv səbəblərlə, o cümlədən ölkə ərazisində qadın əməyinin tətbiqi üçün müvafiq iş yerlərinin çatışmaması, mövcud iş yerlərində isə lazımi əmək haqqının aşağı

olması, vaxtı ilə azərbaycanlılarla ailə qurmuş başqa millətlərdən olan qadınların həyat yoldaşları dünyasını dəyişdikdən sonra əvvəlki yaşayış yerlərinə köçüb getməsi, başqa ölkələrdə işləməklə, təhsil almaqla və bəzi neqativ hallarla əlaqədar ölkəni müvəqqəti və daimi tərk etməklə və s. bağlıdır.

Onu da qeyd etmək lazımdır ki, Azərbaycandan, o cümlədən də NMR-dən xarici ölkələrə gedənlərin bir qismi ölkəmizin başqa dövlətlərdə yaratdığı müvafiq dövlət orqanları və təşkilatlarında, səfirliklərində, diplomatik işlərdə çalışmağa, təcrübə keçməyə, başqa bir qismi isə müqavilə üzrə işləməyə gedənlərdən ibarətdir. Ona görə də bütün başqa hallarda xaricə getmək prosesinə mənfi hal kimi yanaşmaq olmaz. Onu da nəzərə almaq lazımdır ki, Sovet hakimiyyəti illərində Azərbaycan müstəqil dövlət olmadığından buradan xarici ölkələrə yaşamağa, təhsil almağa və işləməyə getmək asan deyildi. Müstəqillik qazandıqdan sonra əhalinin miqrasiyası sahəsində sərbəstlik yarandı. İndi hər bir vətəndaşın mövcud qaydalara uyğun olaraq dünyanın hər bir ölkəsində yaşamaq, işləmək və təhsil almaq hüququ olduğundan əhalinin bir qisminin başqa ölkələrə getməsi müsbət hal kimi qiymətləndirilməlidir. Ancaq burada ona cəhd göstərilməlidir ki, ölkədən "beyin axını" baş verməsin və onu doğuran səbəblər aradan qaldırılsın. Bu, mənəvi-əxlaqi sahədə baş verən neqativ halların törəməsinə səbəb olan şəraitin aradan qaldırılmasına da aiddir. Beləliklə elə etmək lazımdır ki, ölkəni tərk etməyin səbəbləri əhalinin həyat şəraitinin çətinliyi ilə bağlı olmasın.

NMR Miqrasiya Xidməti Şöbəsinin məlumatına əsasən tədqiq olunan dövr ərzində MR-ə gəlmiş əhalinin əksəriyyəti MDB ölkələrinin payına düşür.



Cədvəl 3.3

Xarici ölkələrdən Naxçıvan Muxtar Respublikasına gələnlərin illər üzrə say dinamikası (nəfərlə)

| İllər / Ölkələr | 1999 | 2000 | 2001 | 2002 | 2003 | 2004 | 2005 | 2006 | 2007 | 2008 | 2009 | 2010 | 2011 | 2012 | 2013 |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| NMR - na gələnlər | 64 | 30 | 74 | 83 | 123 | 163 | 218 | 155 | 306 | 440 | 486 | 288 | 383 | 423 | 307 |
| O cümlədən MDB ölkələrindən | 39 | 24 | 48 | 62 | 74 | 106 | 122 | 115 | 186 | 267 | 336 | 204 | 223 | 299 | 164 |
| Rusiya | 22 | 10 | 17 | 22 | 31 | 63 | 57 | 61 | 150 | 220 | 174 | 110 | 124 | 190 | 98 |
| Ukrayna | 3 | 7 | 17 | 21 | 11 | 6 | 17 | 9 | - | 12 | 39 | 20 | 28 | 19 | 21 |
| Belarusiya | 1 | 4 | 6 | 3 | 9 | 4 | 9 | 7 | 5 | 4 | 5 | 6 | - | 3 | 5 |
| Qazaxıstan | 5 | 3 | 2 | 7 | 11 | 13 | 21 | 32 | 19 | 15 | 60 | 35 | 48 | 55 | 23 |
| Qırğızıstan | 2 | - | - | - | 2 | 1 | 5 | - | 2 | 3 | 3 | 8 | 3 | - | - |
| Özbəkistan | - | - | 1 | 3 | - | 3 | 4 | - | - | 5 | 18 | 7 | 7 | 12 | - |
| Türkmənistan | - | - | - | 1 | - | 4 | 1 | 4 | 5 | - | 15 | 7 | 5 | 7 | - |
| Gürcüstan | 2 | - | 5 | 5 | 7 | 9 | 4 | 2 | 5 | 4 | 16 | 6 | 8 | 12 | 17 |
| Moldova | 4 | - | - | - | 3 | 3 | 4 | - | - | 4 | 6 | 5 | - | 1 | - |
| Xarici ölkələrdən | 25 | 6 | 26 | 21 | 49 | 57 | 96 | 40 | 120 | 173 | 150 | 84 | 160 | 124 | 143 |
| Türkiyə | 17 | - | 23 | 19 | 42 | 47 | 73 | 29 | 102 | 150 | 107 | 26 | 128 | 102 | 95 |
| İİR | 7 | 6 | 3 | 2 | 4 | 5 | 3 | 6 | 5 | 6 | 6 | 13 | 7 | 11 | 14 |
| PİR | - | - | - | - | - | - | 3 | 3 | - | 4 | 6 | 7 | - | - | 1 |
| MƏR | 1 | - | - | - | - | - | 3 | - | - | 3 | 2 | 5 | - | 2 | - |
| Nigeriya | - | - | - | - | - | 3 | 2 | - | 2 | - | 4 | 9 | 7 | - | 9 |
| Koreya | - | - | - | - | 3 | 2 | 4 | - | 3 | - | 6 | 11 | 13 | 8 | 11 |
| ABŞ | - | - | - | - | - | - | 1 | 2 | 2 | 2 | 9 | 1 | - | 1 | - |
| Almaniya | - | - | - | - | - | - | 7 | - | 6 | 8 | 10 | 12 | 5 | - | 13 |

**Mənbə:**NMR Miqrasiya Xidməti Şöbəsinin məlumatları əsasında hesablanmışdır.

Cədvəlin məlumatından aydın olur ki, 1999-2013-cü illərdə xarici ölkələrdən NMR-ə gəlmiş 3543 nəfər əhalinin 2269 nəfərini (64,0%) MDB ölkələrindən, cəmi 1274 nəfərini (36,0%) isə Türkiyə, İİR və digər xarici ölkələrdən gələnlər təşkil etmişlər. MDB ölkələrindən NMR-ə gələnlərin 1349 nəfəri (59,4%) RF-dan, 223 nəfəri (15,4%)

Qazaxıstan Respublikasından, 162 nəfəri (10,1%) Ukrayna Respublikasından, 63 nəfəri (3,1%) Belarusiya Respublikasından, 65 nəfəri (4,1%) Gürcüstan Respublikasından, 26 nəfəri (1,2%) Qırğızıstan Respublikasından, 37 nəfəri (2,2%) Türkmənistan Respublikasından, 29 nəfəri (1,3%) Moldova Respublikasından, 41 nəfəri (2,6%) Özbəkistan Respublikasından və s. gələnlər olmuşdur (cədvəl 3.3). Digər xarici ölkələrdən gələnlərin 960 nəfəri və ya 75,4%-i Türkiyə Respublikasının payına düşür. Qalan 24,6%-ni isə İİR-dən (97 nəfər), PİR-dən (24 nəfər), ABŞ-dən (18 nəfər), Nigeriyadan (36 nəfər), Koreyadan (84 nəfər) və MƏR-dən (16 nəfər) gələnlər təşkil edir.

1999–2013-cü illərdə Naxçıvan Muxtar Respublikadan gedən əhalinin hansı ölkələrə getməsinin vəziyyəti isə cədvəl 3.4-ün məlumatları ilə səciyyələnir. Həmin cədvəlin məlumatlarından aydın olur ki, bu dövrü əhatə edən 15 il ərzində Muxtar Respublikadan MDB və xarici ölkələrə 104669 nəfər əhali getmişdir (cədvəl 3.4).

Qeyd edilən dövrdə Naxçıvan Muxtar Respublikasından xarici ölkələrə gedənlərin sayı isə 96372 nəfər və ya bütünlüklə Muxtar Respublikadan gedənlərin 92,1%-ni təşkil etmişdir. Onların 917 nəfəri (0,9%) Almaniya Federativ Respublikasına, 95050 nəfəri (98,6%) Türkiyə Respublikasına, 210 nəfəri (0,3%) İran İslam Respublikasına, 102 nəfəri (0,2%) isə digər ölkələrə getmişlər.

1999-2013-cü illər ərzində Naxçıvan Muxtar Respublikasından MDB ölkələrinə gedən əhalinin ümumi sayı 8297 nəfər olmuşdur. 2005-ci ildə Muxtar Respublikadan MDB ölkələrinə 825 nəfər əhali miqrasiya etmişdir.



Cədvəl 3.4

Naxçıvan Muxtar Respublikasından xarici ölkələrə gedənlərin illər üzrə say dinamikası (nəfərlə)

| İllər / Ölkələr | 1999 | 2000 | 2001 | 2002 | 2003 | 2004 | 2005 | 2006 | 2007 | 2008 | 2009 | 2010 | 2011 | 2012 | 2013 |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| NMR - dan gedənlər | 9575 | 11146 | 10163 | 9905 | 8139 | 6821 | 6911 | 6692 | 6740 | 6060 | 5770 | 5380 | 4449 | 3540 | 3378 |
| O cümlədən MDB ölkələrinə | 538 | 583 | 597 | 627 | 746 | 818 | 825 | 781 | 720 | 532 | 459 | 380 | 269 | 206 | 216 |
| Rusiya | 370 | 387 | 354 | 309 | 489 | 504 | 516 | 432 | 403 | 343 | 278 | 213 | 138 | 123 | 97 |
| Ukrayna | 101 | 112 | 158 | 208 | 146 | 224 | 238 | 302 | 257 | 110 | 112 | 98 | 71 | 68 | 63 |
| Belarusiya | 67 | 72 | 54 | 73 | 81 | 47 | 39 | 24 | 22 | 27 | 20 | 17 | 21 | 9 | 13 |
| Qazaxıstan | | 12 | 25 | 27 | 23 | 28 | 21 | 17 | 28 | 32 | 31 | 27 | 24 | 28 | 31 |
| Qırğızıstan | - | - | - | - | - | - | - | 2 | - | - | 7 | 5 | - | 3 | - |
| Özbəkistan | - | - | - | - | - | 3 | - | - | 5 | 4 | 4 | 6 | 5 | - | - |
| Türkmənistan | - | - | - | - | - | - | - | - | - | 7 | - | 5 | 3 | - | - |
| Gürcüstan | - | - | 6 | 8 | 7 | 12 | 8 | 4 | 3 | 5 | 7 | 9 | 7 | 3 | 11 |
| Moldova | - | - | - | 2 | - | - | 3 | - | 2 | 4 | - | - | - | - | 1 |
| Xarici ölkələrə | 9037 | 10563 | 9566 | 9278 | 7393 | 6003 | 6086 | 5911 | 6020 | 5528 | 5311 | 5000 | 4180 | 3334 | 3162 |
| Türkiyə | 9000 | 10500 | 9500 | 9200 | 7300 | 5900 | 6000 | 5800 | 5900 | 5400 | 5200 | 4900 | 4100 | 3250 | 3100 |
| Almaniya | 21 | 39 | 48 | 55 | 73 | 86 | 57 | 85 | 92 | 83 | 76 | 69 | 44 | 52 | 37 |
| İİR | 16 | 24 | 18 | 23 | 20 | 17 | 14 | 12 | 7 | 28 | 19 | 12 | 18 | 11 | 8 |
| Digər ölklər | - | - | - | - | - | - | 15 | 14 | 21 | 17 | 16 | 19 | 18 | 21 | 17 |

**Mənbə**:NMR Miqrasiya Xidməti Şöbəsinin məlumatları əsasında hesablanmışdır.

Bu son 15 il ərzində müşahidə olunan ən yüksək göstəricidir. Sonrakı illərdə isə bu göstərici azalmış və 2013-cü ildə 216 nəfərə çatmışdır.

NMR Miqrasiya Xidməti Şöbəsinin məlumatlarının təhlilindən aydın olur ki, Naxçıvan Muxtar Respublikasından yuxarıda adlarını çəkdiyimiz xarici ölkələrə əhali miqrasiyasının başlıca səbəbləri əhalinin özü üçün daha yaxşı yaşayış yeri, iş yeri, təhsil almaq, daimi və müvəqqəti yaşayış yeri tapmaq səbəbləri ilə bağlıdır.

Yuxarıda qeyd olunanları ümumiləşdirərək belə nəticəyə gəlirik ki, Naxçıvan Muxtar Respublikasında miqrasiya prosesləri əsasən 90-cı illərdə daha da intensivləşməyə başlamışdır. Həmin dövrdə bu proses milli, etnik və siyasi amillərlə bağlı olsa da, sonralar tamamilə sosial-iqtisadi amillərlə şərtlənmişdir.

Xəritədən də göründüyü kimi Naxçıvan Muxtar Respublikasında miqrasiyanın əsas istiqamətləri (emiqrantlar və immiqrantlar) Türkiyə Respublikasına, İİ Respublikasına, MDB ölkələrinə və digər ölkələrə olmuşdur. 2013-cü ildə buradan gedənlərin 3100 nəfəri Türkiyə Respublikasına, 97 nəfəri Rusiya Federasiyasına, 118 nəfəri Ukrayna Respublikasına və digər ölkələrə olmuşdur. Həmin ildə gələnlərin 98 nəfəri RF-nın, 23 nəfəri Qazaxıstan Respublikasının, 95 nəfəri Türkiyə Respublikasının payına düşür (bax.şəkil 3.1).

Son bir neçə ildə əhalinin xarici ölkələrə (xüsusilə də Türkiyə Respublikasına bu azalma həm həyat səviyyəsinin son illər də nisbətən yüksəlməsi, həm də viza rejiminin dəyişilməsi ilə əlaqədardır) miqrasiyası azalmış və əvvəlki illərdən fərqli olaraq xarici ölkələrdən də buraya miqrantlar gəlirlər. Gələnlərin 64,0%-i MDB ölkələrindəndir (xüsusilə də Rusiyadan).






Şəkil 3.1 Naxçıvan Muxtar Respublikasının xarici miqrasiya xəritəsi (2013-cü il)

Bu miqrantların əksəriyyəti milliyətcə azərbaycanlı olub Rusiyada yaşayanlardır.Regiona gələnlərin sayı çoxalmasa da, gedənlərin sayının azalması nəticəsində əvəlki illərə nisbətən miqrasiya saldosu 2 dəfə azalmışdır. Bu da Naxçıvan Muxtar Respublikasında son illərdə sosial-iqtisadi (regionun enerji və istiliklə tam təmin olunması, yeni iş yerlərinin açılması və s.) vəziyyətin yaxşılaşması ilə əlaqədardır. Naxçıvan Muxtar Respublikasından xarici ölkələrə miqrasiya edənlərin əksəriyyəti işləmək məqsədi ilə gedən əməkçi miqrantlardır.

Bu miqrasiyada iştirak edənlərin 70%-nin əmək qabiliyyətli kişilər olması ilə yanaşı, onların içərisində uşaqların qocaların və qadınların da mühüm yer tutması əhalinin ailəli şəkildə xarici ölkələrə (xüsusilə Türkiyə Respublikasına və nisbətən Rusiya Federasiyasına köçüb gedirlər) getməsini göstərir.

Onu da qeyd etmək lazımdır ki, Muxtar Respublikadan miqrasiya edən əhalinin yaş və cins tərkibinin öyrənilməsində çatışmamazlıqlar mövcuddur. Miqrasiya edən əhalinin yaş və cins tərkibinin öyrənilməsinin mühüm təsərrüfat əhəmiyyətinin, demoqrafik vəziyyətin xüsusiyyətlərinin, ictimai-iqtisadi həyatda baş verən bir sıra başqa hadisələrin öyrənilməsi üçün də əhəmiyyətli olduğunu nəzərə alsaq, gələcəkdə bu sahəyə diqqət yetirilməsini tövsiyə edirik.

Naxçıvan Muxtar Respublikasının inzibati rayonlarının əhalisinin xarici miqrasiyada iştirak dərəcəsinə və istiqamətinə görə fərqlər mövcuddur. Belə ki, Türkiyəyə miqrasiya edənlər (işləmək üçün və ailəli gedənlər və s.) içərisində Şərur rayonun əhalisi, Rusiyaya miqrasiya edənlər içərisində isə Ordubad rayonun əhalisi fəal iştirak edir.



MDB məkanında yerləşən ölkələrin əhalisinin əksəriyyəti RF-na, Ukrayna və Belarusya Respublikalarına miqrasiya edirlər. Bu ölkələrdən fərqli olaraq Naxçıvan Muxtar Respublikasının əhalisi əsasən Türkiyə Respublikasına miqrasiya edir. Bunun səbəbi isə Türkiyə Respublikasının yaxın, qonşu mövqedə yerləşməsi və bu ölkəyə getmək şərtlərinin digər ölkələrə nisbətən asan olmasıdır. Bu şərtlərə yol xərcləri, nəqliyyat, dil bilmək, viza rejimi və s. daxildir.

### 3.2. Regionda daxili miqrasiyanın əsas istiqamətləri

Əhalinin miqrasiyası sosial-iqtisadi inkişafın mühüm amillərindən biridir. Hər il miqrasiya prosesində on min nəfərə yaxın əhali iştirak edir. Respublikamızın müasir sosial-iqtisadi və demoqrafik inkişaf xüsusiyyətləri əhalinin miqrasiyası prosesinin elmi sürətdə idarə edilməsi məsələlərinin tədqiq edilməsini mühüm vəzifəyə çevirmişdir.

Hazırda NMR-də sosial-iqtisadi və demoqrafik cəhətdən əhalinin daxili miqrasiyası iki əsas istiqamətdə özünü daha qabarıq şəkildə göstərir: ardıcıl olaraq əhalinin kənd yerlərindən şəhər yerlərinə miqrasiyası; "Kəfkirvari miqrasiya" (gündəlik miqrasiya).

Qeyd etdiyimiz bu iki qanunauyğun hal istər ikinci dünya müharibəsinədək olan dövrdə, istərsə də ondan sonrakı dövrlərdə səciyyəvi hal kimi mövcud olmuşdur. Lakin şəhər və kənd yerlərində sosial-iqtisadi inkişafda baş verən dəyişikliklərdən asılı olaraq, əhali miqrasiyasının xüsusiyyətləri, yaranma mənbələri, istiqamətləri, miqdarı və s. müxtəlif olmuşdur .

NMR-in iqtisadiyyatının və mədəniyyətinin inkişafı Azərbaycan Respublikasının digər rayonlarından da buraya əhali axınına (10097 nəfər) səbəb olmuşdur. Deyilənlərdən məlum olur ki, əvvəlki əhali siyahıyaalınması ərəfəsində kənardan gələnlərin sayı gedənlərdən çox olduğu halda, 1989, 1999 və 2009-cu illərdə isə əksinə, gedənlər gələnlərdən çox olmuşdur. Miqrantların əksəriyyəti əmək qabiliyyətli yaşda olduğundan miqrasiyanın əmək qabiliyyətli yaşda olan əhalinin ümumi əhali içərisində tutduğu xüsusi çəkiyə təsiri əvvəlki illərdə müsbət, sonrakı illərdə isə mənfi olmuşdur. Buna baxmayaraq əmək qabiliyyətli əhalinin ümumi əhali içərisindəki xüsusi çəkisi əvvəlki illərə nisbətən yüksək olmuşdur (cədvəl 3.5).

Cədvəl 3.5

Naxçıvan Muxtar Respublikasında əhalinin əmək quruluşunun dəyişilməsi

| Yaş qrupları | İllər | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | 1999 | 2002 | 2004 | 2005 | 2006 | 2007 | 2008 | 2009 | 2010 | 2011 | 2012 | 2013 |
| Əmək qabiliyyətli yaşınadək | 127,4 | 115,2 | 120,1 | 100,3 | 97,7 | 97,1 | 124,3 | 127,4 | 131,4 | 128,6 | 111,3 | 109,5 |
| Əmək qabiliyyətli yaşda olanlar | 198,2 | 199,7 | 200,0 | 222,3 | 224,5 | 228,0 | 216,4 | 198,2 | 211,8 | 216,5 | 221,0 | 265,6 |
| Əmək qabiliyyətli yaşdan yuxarı olanlar | 28,5 | 52,2 | 49,7 | 53,7 | 55,9 | 59,3 | 43,8 | 28,5 | 25,4 | 25,2 | 23,6 | 22,5 |

**Mənbə:** NMR Statistika Komitəsinin məlumatı 2014.



Son 23 il ərzində isə bu proses bir qədər başqa istiqamət almışdır. Bu dövrdə MR əhalisinin sayı cəmi 23,7%, kənd əhalisinin sayı 23,6% və şəhər əhalisinin sayı 23,7% artmışdır. Bu vəziyyət həmin dövrdə şəhər əhalisinin qeyri millətlərdən olan bir hissəsinin başqa ölkələrə köçüb getməsi ilə habelə, şəhər yerlərinə nisbətən kənd yerlərində əhalinin doğum və təbii artım göstəricisinin xeyli çox olması və s. səbəblərlə bağlıdır. Onu da qeyd etmək lazımdır ki, öyrənilən dövrdə (1999-2013) əhalinin miqrasiyasının, daha doğrusu ərazicə yerdəyişməsinin mühüm növlərindən birini respublika daxili əhali miqrasiyası təşkil etmişdir. Bu növ əhali miqrasiyası ümumi əhali miqrasiyasının tərkibində demək olar ki, ən yüksək faiz təşkil edir.

Naxçıvan Muxtar Respublikasından Bakı şəhərinə daimi yaşamağa gedənlərin sayı (nəfərlə)



Bakı şəhərindən Naxçıvan Muxtar Respublikasına daimi yaşamağa gələnlərin sayı (nəfərlə)




Tədqiq olunan dövr ərzində (1999-2013-cü illər) NMR-ə daimi yaşamağa gələn əhalinin sayı gedənlərdən az olmuşdur. MR-in daxili inzibati rayonlarının kənd yerlərindən əhalinin Naxçıvan şəhərinə daimi miqrasiyası daha da sürətlənmişdir. Bu proses əsasən MR-in kənd yerlərində işsizlik probleminin və yaşayış səviyyəsinin aşağı olması ilə əlaqədardır. Respublika daxili miqrasiya prosesində MR-in ərazisindən köçənlərin əksəriyyəti Bakı şəhərində məskunlaşmışdır. MR-dən və onun inzibati rayonlarından Bakı şəhərinə köçüb gedənlərin 1999-2013-cü illər ərzində miqdarı aşağıdakı cədvəldə verilmişdir. Tədqiq olunan dövrdə NMR-dən Bakı şəhərinə gedənlərin ümumi sayı 9981 nəfər təşkil etmişdir. MR-dən gedənlərin sayı 1999-cu illə müqaisədə 2013-cü ildə 57,1% azalmış, 2005-ci ildə isə bu göstərici 2,8% artmışdır.



Cədvəl 3.6

Naxçıvan Muxtar Respublikasından Bakı şəhərinə daimi yaşamağa gedənlərin sayı (nəfərlə)

| İllər / Rayonlar | 1999 | 2000 | 2001 | 2002 | 2003 | 2004 | 2005 | 2006 | 2007 | 2008 | 2009 | 2010 | 2011 | 2012 | 2013 |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Naxçıvan ş | 341 | 181 | 214 | 108 | 231 | 129 | 210 | 105 | 192 | 185 | 129 | 217 | 198 | 135 | 124 |
| Şərur | 98 | 107 | 177 | 156 | 101 | 205 | 148 | 194 | 201 | 188 | 99 | 50 | 57 | 44 | 38 |
| Şahbuz | 83 | 61 | 74 | 78 | 72 | 69 | 64 | 58 | 62 | 57 | 51 | 59 | 23 | 28 | 21 |
| Culfa | 29 | 32 | 61 | 76 | 38 | 49 | 71 | 68 | 56 | 64 | 60 | 35 | 39 | 28 | 23 |
| Ordubad | 103 | 73 | 81 | 76 | 98 | 144 | 121 | 109 | 104 | 96 | 90 | 75 | 78 | 81 | 65 |
| Sədərək | 75 | 57 | 79 | 97 | 104 | 118 | 121 | 104 | 92 | 88 | 75 | 47 | 54 | 43 | 41 |
| Babək | 105 | 79 | 86 | 101 | 83 | 97 | 109 | 104 | 92 | 73 | 45 | 43 | 47 | 38 | 40 |
| Kəngərli | - | - | - | - | - | - | 13 | 9 | 11 | 14 | 7 | 20 | 12 | 8 | 5 |
| NMR | 834 | 590 | 772 | 692 | 727 | 811 | 857 | 751 | 810 | 765 | 556 | 546 | 508 | 405 | 357 |

**Mənbə**: NMR-in DİN-nin qeydiyyat şöbəsinin məlumatları əsasında hesablanmışdır.

Muxtar Respublikadan Bakı şəhərinə köçüb gedənlərin 27,4%-i Naxçıvan şəhərinin, 18,7%-i Şərur, 13,9%-i Ordubad, 11,9%-i Sədərək, 11,5%-i Babək, 8,6%-i Şahbuz, 7,3%-i Culfa, 0,9%-i Kəngərli rayonunun payına düşür (cədvəl 3.6).

Həmin dövrdə (1999-2013-cü illər) Bakı şəhərindən Naxçıvan Muxtar Respublikasına gələnlərin ümumi sayı 1898 nəfər olmuşdur. Ümumiyyətlə Bakı şəhərindən NMR ərazisinə miqrasiya (daimi miqrasiya) edənlərin əksəriyyəti Muxtar Respublikadan köçüb gedənlərdir ki, son zamanlar geri qayıdırlar.

Muxtar Respublika ərazisinə Bakı şəhərindən köçüb gələnlərin sayı aşağıdakı cədvəldə verilmişdir (cədvəl 3.7).

Cədvəl 3.7

Bakı şəhərindən Naxçıvan Muxtar Respublikasına daimi yaşamağa gələnlərin sayı (nəfərlə)

| İllər / Rayonlar | 1999 | 2000 | 2001 | 2002 | 2003 | 2004 | 2005 | 2006 | 2007 | 2008 | 2009 | 2010 | 2011 | 2012 | 2013 |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Naxçıvan ş | - | - | 12 | - | - | - | 28 | 31 | 52 | 30 | 32 | 151 | 148 | 105 | 97 |
| Şərur | - | - | - | 26 | 26 | 31 | - | 32 | 44 | 49 | 57 | 57 | 54 | 51 | 45 |
| Şahbuz | - | - | - | - | 2 | 4 | 7 | 9 | 12 | 14 | 22 | 11 | - | 4 | 8 |
| Culfa | - | - | - | - | - | 9 | 12 | 15 | 18 | 29 | 31 | 13 | 17 | 9 | - |
| Ordubad | 1 | 9 | 5 | 7 | 11 | 9 | 17 | 21 | 19 | 16 | 18 | 20 | 22 | 16 | 9 |
| Sədərək | - | - | - | - | - | 2 | - | - | 3 | 5 | 6 | 14 | - | - | 3 |
| Babək | 11 | 7 | 12 | 9 | 11 | 14 | 21 | 19 | 22 | 26 | 21 | 23 | 21 | 15 | 9 |
| Kəngərli | - | - | - | - | - | - | - | 3 | - | 6 | 5 | 3 | - | - | 3 |
| NMR | 12 | 16 | 29 | 42 | 50 | 69 | 85 | 130 | 170 | 175 | 192 | 292 | 262 | 200 | 174 |

**Mənbə**: NMR-in DİN-nin qeydiyyat şöbəsinin məlumatları əsasında hesablanmışdır.

Cədvəldən də göründüyü kimi 1999-cu ildə Bakı şəhərindən MR-ə gələnlərin sayı 12 nəfər olduğu halda, 2013-cü ildə bu rəqəm 14,5 dəfə artaraq 174 nəfər olmuşdur. MR-in inzibati rayonları, o cümlədən şəhər və kənd yerləri köçüb gələnlərin sayına görə bir-birindən çox fərqlənirlər. Əhalinin ən çox gəldiyi (daha doğrusu qayıtdığı, çünki gələnlərin əksəriyyəti vaxtı ilə buradan köçənlərdir) ərazilər: Naxçıvan şəhəri (MR-ə gələnlərin 36,1%-i), Şərur rayonu (24,9%-i), Babək rayonu (12,7%-i) və s.-dir. Ən az əhali isə Şahbuz (gələnlərin 4,9%-i), Sədərək (gələnlərin 1,8%-i) və Kəngərli (gələnlərin 1,1%-i) rayonlarına gəlmişdir. Culfa və Ordubad rayonlarına isə müvafiq olaraq 8,1% və 10,3% əhali gəlmişdir.

NMR-in daxili inzibati rayonları da əhalinin daimi miqrasiya prosesinə görə bir-birindən kəskin fərqlənirlər. İnzibati rayonlardan əsasən əhalinin daimi miqrasiyası Naxçıvan və Bakı şəhərlərinədir.



Təkcə 2010-cu il ərzində MR-dən Bakı şəhərinə gedənlərin sayı 546 nəfər olmuşdur. Respublikanın digər rayonlarından MR-ə gələnlərin sayı isə 292 nəfər olmuşdur. 2013-cü ildə MR-dən Bakı şəhərinə gedənlərin 211 nəfəri, gələnlərin isə 97 nəfəri Naxçıvan şəhərinin payına düşür. Son 15 il ərzində ayrı-ayrı illərdə Naxçıvan şəhərindən daimi yaşamağa gedənlərin və gələnlərin sayı aşağıdakı cədvəldə verilmişdir (cədvəl 3.8).

Cədvəl 3.8

Naxçıvan şəhəri üzrə daimi yaşamağa gələnlərin və gedənlərin sayı (nəfərlə)

| Gələnlərin sayı | | | | | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| İllər | 1999 | 2000 | 2001 | 2002 | 2003 | 2004 | 2005 | 2006 | 2007 | 2008 | 2009 | 2010 | 2011 | 2012 | 2013 |
| İnzibati rayonlar | 208 | 315 | 390 | 418 | 450 | 434 | 503 | 553 | 571 | 457 | 471 | 409 | 349 | 305 | 316 |
| Bakı şəhəri | - | - | 12 | - | - | - | 28 | 31 | 52 | 30 | 32 | 151 | 148 | 105 | 97 |
| Cəmi | 208 | 315 | 402 | 418 | 450 | 434 | 561 | 584 | 623 | 487 | 501 | 560 | 497 | 410 | 413 |
| Gedənlərin sayı | | | | | | | | | | | | | | | |
| İllər | 1999 | 2000 | 2001 | 2002 | 2003 | 2004 | 2005 | 2006 | 2007 | 2008 | 2009 | 2010 | 2011 | 2012 | 2013 |
| İnzibati rayonlar | - | 77 | 85 | 104 | 130 | 185 | 224 | 302 | 298 | 270 | 351 | 410 | 325 | 284 | 210 |
| Bakı şəhəri | 341 | 181 | 214 | 108 | 231 | 129 | 210 | 105 | 192 | 185 | 129 | 217 | 254 | 218 | 211 |
| Cəmi | 341 | 258 | 299 | 212 | 361 | 314 | 434 | 407 | 490 | 455 | 480 | 627 | 579 | 502 | 421 |

**Mənbə**: NMR-in DİN-nin qeydiyyat şöbəsinin məlumatları əsasında hesablanmışdır.

Statistik materiallardan göründüyü kimi, 1999-cu ildən 2009-cu ilə kimi inzibati rayonlardan Naxçıvan şəhərinə gələn əhali gedənlərdən çox olmuşdur. Lakin 2013-cü ildə bu proses əksinə olmuşdur, yəni Naxçıvan şəhərindən inzibati rayonlara daimi yaşamaq üçün gedən

əhalinin sayı (210 nəfər) gələnlərdən (316 nəfər) çox olmuşdur. 1999-cu ildən 2007-ci ilə qədər kənd əhalisinin Naxçıvan şəhərinə daimi miqrasiyası ilbə-il çoxalmış və 571 nəfərə çatmışdır.

Lakin sonrakı illərdə MR-in kənd yerlərində sosial-iqtisadi vəziyyətin nisbətən yaxşılaşması əhali axınının azalmasına səbəb olmuşdur. Naxçıvan şəhərindən son 15 il ərzində Bakı şəhərinə daimi miqrasiya edən əhalinin sayının maksimum həddi (341 nəfər) 1999-cu ildə müşahidə olunmuşdur. Son illərdə isə əksinə Bakıdan Naxçıvan şəhərinə əhalinin daimi miqrasiya prosesi müşahidə edilməkdədir. Belə ki, əvvəlki illərdə Bakı şəhərindən buraya daimi yaşamağa gələnlər müşahidə olunmadığı halda, 2010-cu ildə Bakı şəhərindən buraya gələnlərin sayı 151 nəfər təşkil etmişdir.

MR-in digər inzibati rayonlarından daimi miqrasiya edən əhalinin əksəriyyəti Bakı, Naxçıvan şəhərlərinə və digər rayonlara köçüb getmişlər. Şərur rayonu üzrə daimi miqrasiya edən əhali haqqında cədvəl 3.9-da məlumat verilmişdir.

2002-ci ilə nisbətən 2010-cu ildə Naxçıvan şəhərindən Şərur rayonu ərazisinə gələn əhalinin sayı 7 nəfərdən 88% artaraq 60 nəfərə çatmışdır. Bakı şəhərindən gələnlərin sayı isə 54,3% artaraq 26 nəfərdən 57 nəfərə çatmışdır. Digər inzibati rayonlardan buraya gələnlərin sayı əksinə olaraq 2002-ci ildəki 19 nəfərdən 31,5% azalaraq 13 nəfər olmuşdur.

1999-cu ildə Şərur rayonu ərazisinə gələn əhalinin ümumi sayı 3 nəfər olduğu halda, 2009-cu ildə bu rəqəm 97,1% artaraq 104 nəfərə çatmışdır.

Bu isə Şərur rayonunda son illər yeni iş yerlərinin açılması, xüsusilə kənd yerlərində əhalinin yaşayış səviyyəsinin yüksəldilməsi ilə əlaqədardır. Son 15 il müddətində Şərur rayonuna gələnlərin ümumi sayı 697 nəfər olmuşdur.



Şərur rayonu üzrə gedənlərin sayı 1999-cu ilə nisbətən 2013-cü ildə 3,7% azalmışdır. Bu müddət ərzində Şərur rayonundan Naxçıvan şəhərinə gedənlərin sayı 883 nəfər, Bakı şəhərinə gedənlərin sayı 2041 nəfər və digər inzibati rayonlara gedənlərin sayı isə 193 nəfər olmuşdur. Tədqiq olunan dövr ərzində buradan gedənlərin ümumi sayı isə 3117 nəfər olmuşdur (cədvəl 3.9).

Cədvəl 3.9

Şərur rayonu üzrə daimi yaşamağa gələnlərin və gedənlərin sayı (nəfərlə)

| Gələnlərin sayı | | | | | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| İllər | 1999 | 2000 | 2001 | 2002 | 2003 | 2004 | 2005 | 2006 | 2007 | 2008 | 2009 | 2010 | 2011 | 2012 | 2013 |
| Naxçıvan şəhəri | - | - | - | 7 | 17 | 19 | 24 | 39 | 32 | 26 | 38 | 60 | 34 | 28 | 11 |
| Bakı şəhəri | - | - | - | 26 | 26 | 31 | - | 32 | 44 | 49 | 57 | 57 | - | 17 | 21 |
| inzibati rayonlar | 3 | 8 | - | 19 | 24 | - | - | - | 16 | 21 | 9 | 13 | 9 | - | 14 |
| Cəmi | 3 | 8 | - | 52 | 67 | 50 | 24 | 71 | 92 | 96 | 104 | 130 | 43 | 45 | 46 |
| Gedənlərin sayı | | | | | | | | | | | | | | | |
| İllər | 1999 | 2000 | 2001 | 2002 | 2003 | 2004 | 2005 | 2006 | 2007 | 2008 | 2009 | 2010 | 2011 | 2012 | 2013 |
| Naxçıvan şəhəri | 61 | 65 | 68 | 74 | 51 | 53 | 71 | 56 | 49 | 51 | 63 | 55 | 57 | 61 | 48 |
| Bakı şəhəri | 98 | 107 | 177 | 156 | 101 | 205 | 148 | 194 | 201 | 188 | 99 | 50 | 104 | 116 | 97 |
| Digər inzibati rayonlar | - | - | 6 | 14 | 21 | 27 | 32 | 19 | - | 16 | 24 | 13 | - | 13 | 8 |
| Cəmi | 159 | 172 | 251 | 244 | 173 | 285 | 251 | 269 | 250 | 255 | 186 | 118 | 161 | 190 | 153 |

**Mənbə**: NMR-in DİN-nin qeydiyyat şöbəsinin məlumatları əsasında hesablanmışdır.

1999–2013-cü illərdə MR üzrə daimi miqrasiyada iştirak edən əhalinin 5599 nəfəri Babək rayonunun payına düşür. Babək rayonu üzrə daimi miqrasiya edən əhalinin müxtəlif illər üzrə miqdarı cədvəl 3.10-da tam əksini tapmışdır.

Cədvəl 3.10

Babək rayonu üzrə daimi yaşamağa gələnlərin və gedənlərin sayı (nəfərlə)

| Gələnlərin sayı | | | | | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| İllər | 1999 | 2000 | 2001 | 2002 | 2003 | 2004 | 2005 | 2006 | 2007 | 2008 | 2009 | 2010 | 2011 | 2012 | 2013 |
| Naxçıvan şəhəri | 58 | 64 | 68 | 76 | 82 | 95 | 98 | 126 | 142 | 125 | 183 | 184 | 122 | 104 | 101 |
| Bakı şəhəri | 11 | 7 | 12 | 9 | 11 | 14 | 21 | 19 | 22 | 26 | 21 | 23 | - | 12 | 9 |
| inzibati rayonlar | 9 | 16 | 21 | 25 | 22 | 19 | 13 | 9 | 24 | 31 | 29 | 30 | 28 | 21 | 17 |
| Cəmi | 78 | 87 | 101 | 110 | 115 | 128 | 132 | 154 | 188 | 182 | 233 | 237 | 150 | 137 | 127 |
| Gedənlərin sayı | | | | | | | | | | | | | | | |
| İllər | 1999 | 2000 | 2001 | 2002 | 2003 | 2004 | 2005 | 2006 | 2007 | 2008 | 2009 | 2010 | 2011 | 2012 | 2013 |
| Naxçıvan şəhəri | 99 | 107 | 169 | 194 | 201 | 176 | 184 | 257 | 265 | 244 | 157 | 65 | 57 | 41 | 34 |
| Bakı şəhəri | 105 | 79 | 86 | 101 | 83 | 97 | 109 | 104 | 92 | 73 | 45 | 43 | 48 | 51 | 47 |
| inzibati rayonlar | - | - | - | 8 | - | - | - | - | - | - | 11 | 9 | 7 | - | - |
| Cəmi | 204 | 186 | 255 | 295 | 284 | 273 | 293 | 361 | 357 | 317 | 213 | 117 | 112 | 92 | 81 |

**Mənbə**: NMR-in DİN-nin qeydiyyat şöbəsinin məlumatları əsasında hesablanmışdır.

Bu dövr ərzində (1999–2013-cü illər) Babək rayonuna gələnlərin ümumi sayı 2159 nəfər olmuşdur. Onlardan 1628 nəfəri Naxçıvan şəhərindən, 217 nəfəri Bakı şəhərindən, 314 nəfəri isə MR-nın digər inzibati rayonlarından gələnlərdir.



Cədvəldən də göründüyü kimi əvvəlki illərə nisbətən 2006-2010-cu illərdə artmış, sonrakı illərdə isə yenidən azalmışdır. Belə ki, Naxçıvan şəhərindən gələnlərin sayı 1999–cu ildəki 58 nəfərdən 68,5% artaraq 2010–cu ildə 184 nəfərə, Bakı şəhərindən gələnlər 11 nəfərdən 52,2% artaraq 23 nəfərə, digər inzibati rayonlardan gələnlərin sayı isə 9 nəfərdən 70% artaraq 30 nəfərə çatmışdır. 1999–cu ildən 2013–cü ilə qədər Babək rayonu ərazisindən köçüb gedən əhalinin ümumi sayı 3440 nəfər olmuşdur.

Bu isə buraya gələn əhalinin sayından 2 dəfə çoxdur. Rayon ərazisindən gedənlərin 2250 nəfəri Naxçıvan şəhərinə, 1163 nəfəri Bakı şəhərinə, 35 nəfəri isə digər inzibati rayonlara getmişdir (cədvəl 3.10).

1999–cu ildən 2013–cü ilə qədərki dövr ərzində Şahbuz rayonu ərazisinə 549 nəfər gəlmiş, 2247 nəfər isə getmişdir. Tədqiq olunan dövrdə Şahbuz rayonuna gələnlərin və buradan gedənlərin sayı cədvəl 3.11-də daha aydın əks olunmuşdur.

Bu 15 il ərzində Şahbuz rayonuna gələnlərin ümumi sayının 365 nəfəri Naxçıvan şəhərindən, 92 nəfəri Bakı şəhərindən və 92 nəfəri isə MR–in digər inzibati rayonlarından gələnlər təşkil etmişdir. Bütün rayonlarda olduğu kimi burada da sosial–iqtisadi vəziyyətin yaxşılaşması ilə əlaqədar son illərdə gələnlərin sayı nisbətən çoxalmışdır. Belə ki, 1999–cu ildə buraya gələnlər müşahidə olunmadığı halda 2009 – cu ildə bu rəqəm 78 nəfərə çatmışdır. Gələnlərin əksəriyyəti Naxçıvan şəhərindən olmuşdur. Şahbuz rayonuna gələnlərin sayı 2001-ci ilinən müqaisədə 2013–cü ildə 4,6 dəfə artmışdır.

Cədvəl 3.11

Şahbuz rayonu üzrə daimi yaşamağa gələnlərin və gedənlərin sayı (nəfərlə)

| Gənlərin sayı | | | | | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| İllər | 1999 | 2000 | 2001 | 2002 | 2003 | 2004 | 2005 | 2006 | 2007 | 2008 | 2009 | 2010 | 2011 | 2012 | 2013 |
| Naxçıvan şəhəri | - | - | 8 | 13 | 24 | 23 | 27 | 31 | 29 | 34 | 40 | 51 | 25 | 33 | 27 |
| Bakı şəhəri | - | - | - | - | 2 | 4 | 7 | 9 | 12 | 14 | 22 | 11 | 7 | - | 4 |
| inzibati rayonlar | - | - | - | - | - | - | 3 | 7 | 11 | 13 | `16 | 12 | 13 | 11 | 6 |
| Cəmi | - | - | 8 | 13 | 26 | 27 | 37 | 47 | 52 | 51 | 78 | 74 | 45 | 44 | 37 |
| Gedənlərin sayı | | | | | | | | | | | | | | | |
| İllər | 1999 | 2000 | 2001 | 2002 | 2003 | 2004 | 2005 | 2006 | 2007 | 2008 | 2009 | 2010 | 2011 | 2012 | 2013 |
| Naxçıvan şəhəri | 95 | 79 | 86 | 81 | 77 | 89 | 74 | 81 | 85 | 89 | 86 | 103 | 97 | 103 | 101 |
| Bakı şəhəri | 83 | 61 | 74 | 78 | 72 | 69 | 64 | 58 | 62 | 57 | 51 | 59 | 65 | 61 | 57 |
| inzibati rayonlar | 17 | 12 | 9 | 5 | 11 | 6 | 4 | - | 13 | 3 | 9 | 6 | 13 | 9 | - |
| Cəmi | 195 | 152 | 169 | 164 | 160 | 164 | 142 | 139 | 160 | 149 | 146 | 168 | 203 | 173 | 158 |

**Mənbə**: NMR-in DİN-nin qeydiyyat şöbəsinin məlumatları əsasında hesablanmışdır.

Digər rayonlarda olduğu kimi buradan da gedənlərin sayı (2442 nəfər) gələnlərin sayından (539 nəfər) 4,5 dəfə çox olmuşdur. 1999-cu ildə Naxçıvan şəhərinə gedənlərin sayı 95 nəfərdən 6,3% artaraq 2013-cü ildə 101 nəfər olduğu halda, Bakı şəhərinə gedənlərin sayı 83 nəfərdən 31,1% azalaraq 57 nəfərə, digər inzibati rayonlara gedənlərin sayı isə 17 nəfər olduğu halda 2013-cü ildə bu göstərici müşahidə olunmamışdır. 1999-cu ildə Şahbuz rayonundan gedənlərin ümumi sayı cəmi 195 nəfər olduğu halda 2009 - cu ildə bu rəqəm 25% azalaraq 146 nəfər olmuşdur. Bu da Şahbuz rayonunda əsasəndə dağ kəndlərində sosial-iqtisadi vəziyyətin əvvəlki illərə nisbətən daha yaxşı olması ilə əlaqədardır.



MR üzrə miqrasiya edən əhalinin (gələnlərin 602 nəfəri, gedənlərin isə 1951 nəfəri) 2559 nəfəri Culfa rayonunun payına düşür.

2013-cü ildə buraya gələnlərin sayı 28 nəfər, gedənlərin sayı isə 116 nəfər olmuşdur. Bu göstəricilər müvafiq olaraq 1999-cu ildəkindən 97,8% və 1,8 dəfə çox olmuşdur. Culfa rayonu üzrə gedənlərin və gələnlərin sayı ayrı-ayrı illərdə cədvəl 3.12-də ətraflı təhlil olunmuşdur.

Cədvəl 3.12

Culfa rayonu üzrə daimi yaşamağa gələnlərin və gedənlərin sayı (nəfərlə)

| Gələnlərin sayı | | | | | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| İllər | 1999 | 2000 | 2001 | 2002 | 2003 | 2004 | 2005 | 2006 | 2007 | 2008 | 2009 | 2010 | 2011 | 2012 | 2013 |
| Naxçıvan şəhəri | 4 | 3 | 6 | 3 | 7 | 32 | 43 | 67 | 61 | 56 | 51 | 69 | - | 27 | 9 |
| Bakı şəhəri | - | - | - | - | - | 9 | 12 | 15 | 18 | 29 | 31 | 13 | 14 | - | 11 |
| inzibati rayonlar | - | - | - | - | 3 | - | - | 8 | 12 | 4 | 7 | 14 | - | - | 8 |
| Cəmi | 4 | 3 | 6 | 3 | 10 | 41 | 55 | 90 | 91 | 89 | 89 | 96 | 14 | 27 | 28 |
| Gedənlərin sayı | | | | | | | | | | | | | | | |
| İllər | 1999 | 2000 | 2001 | 2002 | 2003 | 2004 | 2005 | 2006 | 2007 | 2008 | 2009 | 2010 | 2011 | 2012 | 2013 |
| Naxçıvan şəhəri | 34 | 39 | 48 | 32 | 75 | 69 | 102 | 94 | 104 | 98 | 90 | 122 | 71 | 68 | 65 |
| Bakı şəhəri | 29 | 32 | 61 | 76 | 38 | 49 | 71 | 68 | 56 | 64 | 60 | 35 | 47 | 51 | 38 |
| Digər inzibati rayonlar | - | - | - | 5 | - | - | 8 | - | 7 | 12 | 9 | 11 | - | - | 13 |
| Cəmi | 63 | 71 | 109 | 113 | 113 | 118 | 181 | 162 | 167 | 174 | 159 | 168 | 118 | 119 | 116 |

**Mənbə**: NMR-in DİN-nin qeydiyyat şöbəsinin məlumatları əsasında hesablanmışdır.

Tədqiq olunan dövrdə Culfa rayonuna gələnlərin 438 nəfəri Naxçıvan, 152 nəfəri Bakı şəhərindən 56 nəfəri isə digər inzibati rayonlardan gələnlərdir.

Culfa rayonu üzrə miqrasiya edən əhalinin 76,2%-i buradan gedənlərin payına düşür. Gedənlərin sayı 1999-cu ilinən müqaisədə 2013-cü ildə 81,1% artmışdır. Rayon ərazisi üzrə gedənlərin 1111 nəfəri və ya 56,9%-i Naxçıvan şəhərinə, 775 nəfəri və ya 39,7%-i Bakı şəhərinə 65 nəfəri və ya 3,3%- i digər inzibati rayonlara gedənlərin payına düşür (cədvəl 3.12).

NMR üzrə miqrasiya edən əhalinin 6,9%-i Ordubad rayonunun payına düşür. 2013-cü ildə Ordubad rayonuna gələnlərin sayı 15 nəfər, gedənlərin sayı 80 nəfər olmuşdur. Digər illər üzrə miqrasiya edən əhalinin sayı haqqında aşağıdakı cədvəldə (3.13) ətraflı məlumat verilmişdir.

2009-cu ildə 1999-cu ilə nisbətən gələnlərin sayı 72,7% artaraq 33 nəfərə, gedənlərin sayı isə 30,9% azalaraq 121 nəfərə çatmışdır.

Ordubad rayonu ərazisinə gələnlərin sayının (56 nəfər) ən çox olduğu il 2005-ci il, ən az olduğu il (9 nəfər) isə 1999-cu il olmuşdur.

Rayon ərazisinə gələnlərin 29,3%-i Naxçıvan şəhərindən, 50,9%-i Bakı şəhərindən, 19,7%-i digər inzibati rayonlardan gələnlərdir. Son 15 il ərzində Ordubad rayonu ərazisinə gələnlərin ümumi sayı 16,9%, gedənlərin sayı isə 83,1% təşkil edir. Gedənlərin sayı gələnlərin sayından 5 dəfə çoxdur. 2009-cu ildə 1999-cu illə müqaisədə gedənlərin sayı 30,9% azalmışdır. Gedənlərin 25,3%-i Naxçıvan şəhərinə, 73,4%-i Bakı şəhərinə, 1,3%-i digər inzibati rayonlara getmişdir.



Cədvəl 3.13

Ordubad rayonu üzrə daimi yaşamağa gələnlərin və gedənlərin sayı (nəfərlə)

| Gələnlərin sayı | | | | | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| İllər | 1999 | 2000 | 2001 | 2002 | 2003 | 2004 | 2005 | 2006 | 2007 | 2008 | 2009 | 2010 | 2011 | 2012 | 2013 |
| Naxçıvan şəhəri | 8 | 10 | 3 | 5 | - | 7 | 18 | 6 | 11 | 9 | 7 | 9 | 11 | 7 | - |
| Bakı şəhəri | 1 | 9 | 5 | 7 | 11 | 9 | 17 | 21 | 19 | 16 | 18 | 20 | 14 | 17 | 9 |
| Digər inzibati rayonlar | - | - | - | 6 | - | 13 | 21 | 4 | - | - | 8 | 17 | - | - | 6 |
| Cəmi | 9 | 19 | 8 | 18 | 11 | 29 | 56 | 31 | 30 | 25 | 33 | 46 | 25 | 24 | 15 |
| Gedənlərin sayı | | | | | | | | | | | | | | | |
| İllər | 1999 | 2000 | 2001 | 2002 | 2003 | 2004 | 2005 | 2006 | 2007 | 2008 | 2009 | 2010 | 2011 | 2012 | 2013 |
| Naxçıvan şəhəri | 72 | 81 | 19 | 18 | 21 | 24 | 35 | 30 | 27 | 25 | 31 | 20 | 32 | 27 | 21 |
| Bakı şəhəri | 103 | 73 | 81 | 76 | 98 | 144 | 121 | 109 | 104 | 96 | 90 | 75 | 71 | 66 | 58 |
| Digər inzibati rayonlar | - | - | - | - | - | - | 4 | - | - | 7 | - | 9 | - | - | 1 |
| Cəmi | 175 | 154 | 100 | 94 | 119 | 168 | 160 | 139 | 131 | 128 | 121 | 104 | 103 | 93 | 80 |

**Mənbə**: NMR-in DİN-nin qeydiyyat şöbəsinin məlumatları əsasında hesablanmışdır.

Muxtar Respublika üzrə miqrasiya edən əhalinin 1528 nəfəri Sədərək rayonunun payına düşür. Onlardan 92 nəfəri gələnlər 1452 nəfəri gedənlərdir. 2013-cü ildə Sədərək rayonuna gələnlərin sayı 1 nəfər, gedənlərin sayı isə 46 nəfər olmuşdur. Digər illərdə gələnlərin və gedənlərin sayı aşağıdakı cədvəldə (3.14) verilmişdir.

Gələnlərin sayına görə Sədərək rayonu Naxçıvan Muxtar Respublikasının inzibati rayonları arasında axırıncı yeri tutur. Bu isə Sədərək rayonunun sərhəd bölgəsində yerləşməsi ilə əlaqədardır. 1999-cu ildən 2003-cü ilə qədər bu rayon ərazisinə əhalinin axını müşahidə

olunmamışdır. 2004-cü ildə buraya gələnlərin sayı 9 nəfər olduğu halda, 2009-cu ildə 16 nəfər olmuşdur. Tədqiq olunan dövr ərzində buraya gələnlərin 35,9%-i Naxçıvan şəhərindən, 35,9%-i Bakı şəhərindən, 22,8%-i digər inzibati rayonlardan gələnlərdir. 1999-cu ilə nisbətən 2013-cü ildə buradan gedənlərin sayı 58,9% azalmışdır. Gedənlərin 12,4%-i Naxçıvan şəhərinə, 80,7%-i Bakı şəhərinə, 6,9%- i digər inzibati rayonlara gedənlərdir (cədvəl 3.14).

Cədvəl 3.14

Sədərək rayonu üzrə daimi yaşamağa gələnlərin və gedənlərin sayı (nəfərlə)

| Gələnlərin sayı | | | | | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| İllər | 1999 | 2000 | 2001 | 2002 | 2003 | 2004 | 2005 | 2006 | 2007 | 2008 | 2009 | 2010 | 2011 | 2012 | 2013 |
| Naxçıvan şəhəri | - | - | - | - | - | 7 | 3 | - | - | 2 | 10 | 10 | - | - | 1 |
| Bakı şəhəri | - | - | - | - | - | 2 | - | - | 3 | 5 | 6 | 14 | 3 | - | - |
| Digər inzibati rayonlar | - | - | - | - | 3 | - | - | - | - | 7 | - | - | - | - | - |
| Cəmi | - | - | - | - | 3 | 9 | 3 | - | 3 | 14 | 16 | 24 | 3 | - | 1 |
| Gedənlərin sayı | | | | | | | | | | | | | | | |
| İllər | 1999 | 2000 | 2001 | 2002 | 2003 | 2004 | 2005 | 2006 | 2007 | 2008 | 2009 | 2010 | 2011 | 2012 | 2013 |
| Naxçıvan şəhəri | 25 | 14 | - | 19 | 25 | 23 | 18 | 12 | 14 | 9 | 7 | 1 | 6 | 3 | 4 |
| Bakı şəhəri | 75 | 57 | 79 | 97 | 104 | 118 | 121 | 104 | 92 | 88 | 75 | 47 | 39 | 41 | 35 |
| Digər inzibati rayonlar | 12 | 6 | 9 | - | - | 11 | - | - | - | 23 | 14 | 7 | 11 | - | 7 |
| Cəmi | 112 | 77 | 88 | 116 | 129 | 152 | 139 | 116 | 106 | 120 | 96 | 55 | 56 | 44 | 46 |

**Mənbə**: NMR-in DİN-nin qeydiyyat şöbəsinin məlumatları əsasında hesablanmışdır.



NMR-də miqrasiya edən əhalinin ən azı Kəngərli rayonunun payına düşür. Rayon ərazisində miqrasiya edənlərin sayı 616 nəfər olmuşdur. Buraya gələnlərin sayı 239 nəfər, gedənlərin sayı isə 377 nəfər olmuşdur Digər illərdə Kəngərli rayonu ərazisindən gələnlərin və gedənlərin sayı aşağıdakı cədvəldə (3.15) verilmişdir.

Cədvəl 3.15

Kəngərli rayonu üzrə daimi yaşamağa gələnlərin və gedənlərin sayı (nəfərlə)

| Gələnlərin sayı | | | | | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| İllər | 1999 | 2000 | 2001 | 2002 | 2003 | 2004 | 2005 | 2006 | 2007 | 2008 | 2009 | 2010 | 2011 | 2012 | 2013 |
| Naxçıvan şəhəri | - | - | - | - | - | 2 | 11 | 17 | 23 | 18 | 22 | 27 | 29 | 31 | 14 |
| Bakı şəhəri | - | - | - | - | - | - | - | 3 | - | 6 | 5 | 3 | - | - | 3 |
| Digər inzibati rayonlar | - | - | - | - | - | - | - | - | 1 | 4 | 2 | - | - | 7 | 11 |
| Cəmi | - | - | - | - | - | 2 | 11 | 20 | 24 | 28 | 29 | 30 | 29 | 38 | 28 |
| Gedənlərin sayı | | | | | | | | | | | | | | | |
| İllər | 1999 | 2000 | 2001 | 2002 | 2003 | 2004 | 2005 | 2006 | 2007 | 2008 | 2009 | 2010 | 2011 | 2012 | 2013 |
| Naxçıvan şəhəri | - | - | - | - | - | - | 19 | 23 | 27 | 28 | 37 | 35 | 22 | 13 | 9 |
| Bakı şəhəri | - | - | - | - | - | - | 13 | 9 | 11 | 14 | 7 | 20 | 28 | 19 | 21 |
| Digər inzibati rayonlar | - | - | - | - | - | - | - | - | 3 | - | 7 | 11 | - | - | 1 |
| Cəmi | | - | - | - | - | - | 32 | 32 | 41 | 42 | 51 | 66 | 50 | 32 | 31 |

**Mənbə**: NMR-in DİN-nin qeydiyyat şöbəsinin məlumatları əsasında hesablanmışdır.

Kəngərli rayonu üzrə miqrasiya edən əhalinin qeydiyyatı son 10 ili əhatə edir. Rayonun ilk təşkil olunduğu ildə, yəni 2004-cü ildə buraya gələnlərin ümumi

sayı 2 nəfər olduğu halda, 2013-cü ildə bu göstərici 14 nəfərə çatmışdır.

Buraya gələnlərin 194 nəfəri Naxçıvan şəhərindən, 20 nəfəri Bakı şəhərindən, 25 nəfəri (10,5%-i) isə digər inzibati rayonların payına düşür. Rayon ərazisindən gedənlərin əksəriyyəti (213 nəfəri) Naxçıvan şəhərinə getmişdir. Qalan 142 nəfəri və ya 37,6%-i Bakı şəhərinin, 5,8%-i digər inzibati rayonların payına düşür.

Son 15 ildə NMR üzrə daimi miqrasiya saldosunun ən yüksək göstəricisi 1999-cu ildə, ən aşağı isə 2010-cu ildə olmuşdur. Cədvəldən də göründüyü kimi daimi miqrasiya saldosu bütün illərdə mənfi olmuşdur (cədvəl 3.16).

Cədvəl 3.16

NMR-də daimi miqrasiya saldosunun illər üzrə göstəricisi (nəfərlə)

| İllər / Rayonlar | 1999 | 2000 | 2001 | 2002 | 2003 | 2004 | 2005 | 2006 | 2007 | 2008 | 2009 | 2010 | 2011 | 2012 | 2013 |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Naxçıvan ş | -133 | -57 | 103 | 206 | 89 | 120 | 127 | 177 | 133 | 32 | 21 | -67 | -82 | -92 | 8 |
| Şərur | -155 | -164 | -251 | -192 | -106 | -235 | -227 | -198 | -158 | -159 | -82 | 12 | -118 | -145 | -107 |
| Şahbuz | -195 | -152 | -161 | -151 | -134 | -137 | -105 | -92 | -108 | -98 | -68 | -94 | -158 | -129 | -121 |
| Culfa | -59 | -68 | -103 | -110 | -103 | -77 | -126 | -72 | -76 | -85 | -70 | -72 | -104 | -92 | -88 |
| Ordubad | -166 | -135 | -92 | -76 | -108 | -139 | -104 | -108 | -101 | -103 | -88 | -58 | -78 | -69 | -65 |
| Sədərək | -112 | -77 | -88 | -116 | -126 | -143 | -136 | -116 | -103 | -106 | -80 | -21 | -53 | -44 | -45 |
| Babək | -126 | -99 | -154 | -185 | -169 | -145 | -161 | -207 | -169 | -135 | 20 | 120 | 38 | 45 | 46 |
| Kəngərli | - | - | - | - | - | 2 | -21 | -11 | -17 | -14 | -22 | -36 | -21 | -6 | -3 |
| NMR | -822 | -574 | -743 | -650 | -677 | -742 | -772 | -621 | -640 | -590 | -364 | -254 | -576 | -532 | -375 |

**Mənbə**: NMR-in DİN-nin qeydiyyat şöbəsinin məlumatları əsasında hesablanmışdır.



Son illər Naxçıvan Muxtar Respublikasında "kəfkirvarı miqrasiya" prosesi də intensiv şəkildə müşahidə olunur. MR-in geosiyasi mövqeyi, xarici ölkələrlə həmsərhəd olması və s. onun iqtisadiyyatının inkişafına mənfi təsir göstərir və istehsal sahələrinin qeyri-bərabər yerləşməsi gündəlik miqrasiyanın istiqamətlərinin bir tərəfli olmasını şərtləndirir.

Bütün bunları nəzərə alaraq Muxtar Respublikanın hansı yaşayış məntəqələrinə daha çox əhali axınının olmasını müəyyənləşdirmək, "kəfkirvarı miqrasiya"nın müasir vəziyyətini, bu sahədə mövcud olan problemləri və ümumilikdə bu sahənin inkişaf istiqamətləri ilə bağlı daha təcrübi və real məlumatlar əldə etmək məqsədilə tərəfimizdən 2011-ci ildə mövcud layihə çərçivəsində sosioloji sorğu aparılmışdır.

NMR-in ümumi əhalisi arasında "kəfkirvarı miqrasiyanın" real vəziyyətini müəyyən etmək üçün sorğu anketləri aşağıdakı formada hazırlanmışdır.

**1. İş yeri:**
□ dövlət □ özəl

**2. Yaşı:**
□ 15 – 25 □ 25 – 45 □ 45 – dən yuxarı

**3. Təhsili:**
□ orta □ ali

**4.Cinsi:**
□ kişi □ qadın

**5. Yaşadığı ərazi (rayon, şəhər və kəndi göstərməklə)**

**6. İş yerinin yerləşdiyi ərazi (rayon, şəhər və kəndi göstərməklə)**

Sorğu ümumi MR əhalisi üzrə hər bir inzibati rayonda 500 nəfər olmaqla 4000 nəfər arasında həyata keçirilmişdir. Buraya əsasən əmək qabiliyyətli və ondan yuxarı yaşda olan əhali daxildir. Sorğuda dəqiqliyi və metodoloji düzgünlüyü təmin etmək məqsədilə həm dövlət, həm də özəl müəssisələr sorğu obyekti kimi götürülmüş və onlar arasında tərəfimizdən hazırlanmış xüsusi anketlər vasitəsilə sorğu keçirilmişdir.

Keçirilmiş sorğunun nəticələrinə əsasən inzibati rayonlar üzrə "kəfkirvari miqrasiya"nın vəziyyəti müxtəlif olmuşdur. Bu fərqli cəhətləri müqayisə etmək və nəticələri ümumiləşdirmək məqsədilə hər bir sual üzrə təhlili belə olmuşdur.

**1. İş yeri; dövlət və ya özəl**. Bu sualın cavabından əldə olunan nəticələrə əsasən, NMR üzrə "kəfkirvarı miqrasiya"da iştirak edən əhalinin sayı 1482 nəfərdir. Onlardan 1161 nəfəri dövlət 321 nəfəri isə özəl müəssisədə çalışanlardır. Rəqəmlərdən göründüyü kimi dövlət müəssisəsində çalışanların sayı özəl müəssisədə çalışanların sayından 3,6 dəfə çoxdur. Buna səbəb isə dövlət müəssisələrinin özəl müəssisələrdən çox olmasıdır. Dövlət müəssisəsində çalışanların "kəfkirvarı miqrasiya"da iştirakına görə rayonlar arasında fərqlər vardır. Bu proses ən çox Şahbuz (216 nəfər), Kəngərli (210 nəfər) və Babək (207 nəfər), ən az isə Sədərək (41 nəfər), Culfa (74 nəfər) və Ordubad (89 nəfər) rayonlarında müşahidə olunur. Naxçıvan və Şərur şəhərində isə müvafiq olaraq 182 və 142 nəfər olmuşdur.

NMR-də özəl müəssisədə çalışanların əksəriyyəti Naxçıvan şəhərinin payına (179 nəfər) düşür. Digər şəhər və rayon mərkəzləri isə bu göstəriciyə görə bir-birindən çox da fərqlənmir. Belə ki, Babək qəsəbəsi (Babək)-48, Ordubad şəhəri- 23, Qıvraq qəsəbəsi (Kəngərli)-24, Şah-



buz şəhəri-17, Culfa şəhəri-13, Şərur şəhəri-10, Heydərabad qəsəbəsi (Sədərək) üzrə isə-7 nəfər özəl müəssisədə çalışanlardır.

**2. Yaşı; 15-25, 25-45, 45-dən yuxarı**. NMR-də "kəfkirvari miqrasiya"da iştirak edən əhali yaş qruplarına görə də bir-birindən fərqlənir. Bu sualın cavabından əldə olunan nəticələr göstərir ki, MR üzrə bu prosesdə iştirak edənlərdən 15,2%-i 15-25 yaş qrupuna, 54,9%-i 25-45 yaş qrupuna və 29,8%-i isə 45-dən yuxarı yaş qrupuna daxildir. Rəqəmlərdən göründüyü kimi bu prosesdə iştirak edənlərin yarısından çoxu 25-45 yaş qrupuna daxil olan əhalidir. NMR-in şəhər və rayonları üzrə də (Naxçıvan şəhəri istisna olmaqla) bu göstərici öz ardıcıllığını saxlayır.

NMR-in şəhər və rayonları üzrə 15-25 yaşda olanların ən çox Naxçıvan şəhəri, ən az isə Culfa şəhərinin, 25-45 yaşda olanlardan ən çox Naxçıvan şəhərinin, ən az isə Heydərabad qəsəbəsinin və 45-dən yuxarı yaşda olanlardan ən çox Babək qəsəbəsinin, ən az isə Heydərabad qəsəbəsinin payına düşür (cədvəl 3.17).

Cədvəl 3.17

2011-ci ildə Naxçıvan Muxtar Respublikasında "kəfkirvarı miqrasiya"da iştirak edənlərin yaş qrupuna görə bölgüsü

| İnzibati rayonlar | 15 - 25 | 25 - 45 | 45 - dən yuxarı |
|---|---|---|---|
| Naxçıvan şəhəri | 112 | 171 | 78 |
| Şərur şəhəri | 17 | 100 | 35 |
| Ordubad şəhəri | 7 | 79 | 26 |
| Qıvraq qəsəbəsi (Kəngərli) | 26 | 156 | 52 |
| Babək qəsəbəsi (Babək) | 21 | 126 | 108 |
| Şahbuz şəhəri | 31 | 105 | 97 |
| Culfa şəhəri | 2 | 47 | 38 |
| Heydərabad qəsəbəsi (Sədərək) | 10 | 30 | 8 |
| Cəmi | 226 | 814 | 442 |

**3. Təhsili: orta və ali.** Aparılmış sorğunun nəticələri göstərir ki, NMR-də "kəfkirvari miqrasiya"da iştirak edən əhali təhsil səviyyəsinə görə bir - birindən kəskin fərqlənir. Belə ki, bu prosesdə iştirak edənlərin 41,8%-i ali təhsilli, 58,2%-i isə orta təhsillidir. Aşağıdakı cədvəldə "kəfkirvarı miqrasiya"da iştirak edən əhalinin inzibati rayonlar üzrə təhsil səviyyəsi göstərilmişdir.

Ali təhsillilərin sayının çoxluğuna görə Naxçıvan şəhəri (24,2%), Qıvraq qəsəbəsi (17,8%), Şahbuz şəhəri (16,8%) fərqlənir (cədvəl 3.18).

Cədvəl 3.18

2011-ci ildə NMR-də "kəfkirvarı miqrasiya"da iştirak edənlərin təhsil səviyyəsinə görə bölgüsü

| İnzibati rayonlar | Ali | Orta |
|---|---|---|
| Naxçıvan şəhəri | 150 | 211 |
| Şərur şəhəri | 58 | 94 |
| Ordubad şəhəri | 19 | 93 |
| Qıvraq qəsəbəsi (Kəngərli) | 110 | 124 |
| Babək qəsəbəsi (Babək) | 100 | 155 |
| Şahbuz şəhəri | 104 | 129 |
| Culfa şəhəri | 44 | 43 |
| Heydərabad qəsəbəsi (Sədərək) | 34 | 14 |
| Cəmi | 619 | 863 |

**4. Cins tərkibi;** Bu sualın cavabının nəticələrindən aydın olur ki, NMR-də "kəfkirvari miqrasiya"da iştirak edən əhalinin 68,6%-ni kişilər, 31,4%-ni isə qadınlar təşkil edir. Bu prosesdə iştirak edən qadınlar və kişilər arasında təhsil səviyyəsinə görə də fərqlər mövcuddur. "Kəfkirvarı miqrasiya"da iştirak edən qadınların 210 nəfəri ali təhsillidir.

NMR üzrə "kəfkirvarı miqrasiya"da iştirak edən kişilərin 414 nəfəri ali təhsillidir. Ali təhsilli kişilərin sayının



çoxluğuna görə Qıvraq qəsəbəsi (Kəngərli), Şahbuz şəhəri, Babək qəsəbəsi (Babək) fərqlənir (cədvəl 3.19).

Cədvəl 3.19

2011-ci ildə Naxçıvan Muxtar Respublikasında "kəfkirvarı miqrasiya"da iştirak edənlərin cins tərkibinə görə bölgüsü

| İnzibati rayonlar | Kişi | | | Qadın | | |
|---|---|---|---|---|---|---|
| | cəmi | ali | orta | cəmi | ali | orta |
| Naxçıvan şəhəri | 243 | 58 | 185 | 118 | 94 | 24 |
| Şərur şəhəri | 119 | 44 | 75 | 33 | 17 | 16 |
| Ordubad şəhəri | 50 | 14 | 36 | 62 | 5 | 57 |
| Qıvraq qəsəbəsi (Kəngərli) | 203 | 106 | 97 | 31 | 4 | 27 |
| Babək qəsəbəsi (Babək) | 121 | 67 | 54 | 134 | 33 | 101 |
| Şahbuz şəhəri | 168 | 63 | 105 | 65 | 41 | 24 |
| Culfa şəhəri | 75 | 35 | 40 | 12 | 9 | 3 |
| Heydərabad qəsəbəsi (Sədərək) | 38 | 27 | 11 | 10 | 7 | 3 |
| Cəmi | 1017 | 414 | 603 | 465 | 210 | 255 |

**5. Yaşadığı ərazi və iş yerinin yerləşdiyi ərazi (rayon, şəhər və kəndi göstərməklə);** Burada sonuncu iki sualın nəticələrini birlikdə təhlil edəcəyik. Bu sualların cavabından bizə məlum olmuşdur ki, NMR üzrə "kəfkirvarı miqrasiya"da daha çox şəhər və rayon mərkəzlərinə yaxın yaşayış məntəqələrinin əhalisi iştirak edir. Buna səbəb isə əsas istehsal müəssisələrinin (dövlət və özəl) böyük şəhər və rayon mərkəzlərində yerləşməsidir.

Belə ki, əsas dövlət və özəl müəssisələrin Naxçıvan şəhərində yerləşməsi bütün rayon ərazilərindən (Sədərək istisna olmaqla) əhalinin buraya axını ilə nəticələnir. Sədərək rayonundan əhalinin Naxçıvan şəhərinə gündəlik miqrasiyasının (işləmək məqsədilə) minimum səviyyədə olmasının səbəbi bu inzibati rayonun digər rayonlara nisbətən uzaq məsafədə yerləşməsidir.

Cədvəl.3.20

2011-ci ildə Naxçıvan Muxtar Respublikası üzrə "kəfkirvarı miqrasiya"da iştirak edənlərin yaşayış məntəqələri üzrə bölgüsü (nəfərlə)

| Naxçıvan şəhəri | | Şərur rayonu | | Ordubad rayonu | | Şahbuz rayonu | | Babək rayonu | | Kəngərli rayonu | | Culfa rayonu | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Yaşayış məntəqələri | sayı | Yaşayış məntəqələri | sayı | Yaşayış məntəqələri | sayı | Yaşayış məntəqələri | Sayı | Yaşayış məntəqələri | sayı | Yaşayış məntəqələri | sayı | Yaşayış məntəqələri | sayı |
| Babək rayonu | 246 | Yengicə | 32 | Vənənd | 31 | Qarababa | 51 | Naxçıvan şəhəri | 80 | Qarabağlar | 117 | Camaldın | 11 |
| Şahbuz rayonu | 52 | Məmməd sabir | 10 | Əndəmic | 23 | Şahbuz kənd | 17 | Nehrəm | 35 | Xok | 55 | Yaycı | 14 |
| Şərur rayonu | 33 | Şəhriyar | 14 | Gənzə | 7 | Badamlı | 14 | Qoşadizə | 42 | Yurdçu | 14 | Gülüstan | 5 |
| Culfa rayonu | 15 | Düdəngə | 22 | Nüsnüs | 5 | Ayrınc | 19 | Kərimbəyli | 5 | Şahtaxtı | 20 | Bənəniyar | 5 |
| Kəngərli rayonu | 12 | Aralıq | 8 | Tivi | 3 | Biçənək | 16 | Cəhri | 14 | Naxçıvan şəhəri | 4 | Kırna | 4 |
| Ordubad rayonu | 3 | Maxta | 10 | Əylisli | 11 | Külüs | 17 | Hacıvar | 9 | Şərur şəhəri | 4 | Ləkətağ | 6 |
| | - | Camaxtur | 11 | Dırnıs | 6 | Kolanı | 10 | Qahab | 9 | Qabıllı | 3 | Ərəfsə | 8 |
| | - | Zeyvə | 19 | Dəstə | 5 | Daylaqlı | 11 | Kültəpə | 7 | Şərur r. Oğlanqala | 5 | | - |
| | - | Qarxun | 8 | Xanağa | 3 | Sələsüz | 14 | Vayxır | 4 | Şərur r. Çalxanqala | 6 | | - |
| | - | Aşağı yaycı | 3 | | - | Keçili | 11 | Zeynəddin | 14 | | - | | - |
| | - | Püsyan | 6 | | - | Kükü | 12 | Şəkərabad | 4 | | - | | - |
| | - | Axəmət | 5 | | - | | - | Nəzərabad | 4 | | - | | - |
| | - | | - | | - | | - | Sirab | 12 | | - | | - |
| digər yaşayış məntəqələri | - | | 4 | | 18 | | 41 | | 16 | | 6 | | 34 |
| Cəmi | 361 | | 152 | | 112 | | 233 | | 255 | | 234 | | 87 |



Naxçıvan şəhərinə bu məqsədlə gələnlərin ən çoxu Babək–246 nəfər (Nehrəm, Qoşadizə, Didivar, Çeşməbasar, Tumbul, Babək qəsəbəsi və s.) və Şahbuz rayonundan–52 nəfər (Şahbuz şəhəri, Badamlı, Şahbuz kən, Kiçik oba, Mərəlik və s.) gələnlərdir. Digər rayonlardan isə Şərur–33 nəfər (Zeyvə, Düdəngə, Püsyan və.s), Kəngərli–12 nəfər (Xok, Qarabağlar, Xincab və s.), Culfa–15 nəfər (Camaldın, Bənəniyar və s.) və Ordubad–3 nəfər (Nüsnüs, Vənənd) rayonlarından gələnlər müşahidə olunur (cədvəl 3.20).

Naxçıvan Muxtar Respublikası üzrə ən çox əhalinin Şərur rayonunda (102 min nəfər) məskunlaşmasına baxmayaraq burada "kəfkirvari miqrasiya"nın göstəricisi aşağı səviyyədədir. Şərur rayonu üzrə bu prosesdə iştirak edənlərin sayı 152 nəfərdir, onlardan 142 nəfəri dövlət, 10 nəfəri isə özəl müəssisədə çalışırlar.

Şərur şəhərinə "kəfkirvari miqrasiya" edənlər əsasən buraya yaxın yaşayış məntəqələrindən gələnlərdir. Belə ki, Yengicə-32 nəfər, Düdəngə-22 nəfər, Zeyvə-19 nəfər, Şəhriyar 14 nəfər, Məmməd sabir–10 nəfər və s.-dir. Digər kəndlərdən gələnlər haqqında isə yuxarıdakı cədvəldə məlumat verilmişdir.

Ordubad rayonu ərazisində "kəfkirvari miqrasiya"da iştirak edənlərin sayı 112 nəfərdir. Onlardan 89 nəfəri dövlət, 23 nəfəri isə özəl müəssisədə çalışanlardır. Burada "kəfkirvari miqrasiya"nın istiqaməti əsasən kəndlərdən Ordubad şəhərinədir.

Ordubad şəhərinə gələnlər əsasən Vənənd (27, 7%), Əndəmic (20,5%) və Əylisli (9,8%) kəndlərindəndir.

Şahbuz rayonu üzrə keçirilmiş sorğunun nəticələrinə görə 233 nəfər "kəfkirvari miqrasiya"da iştirak edir ki, onlardan da 216 nəfəri dövlət, 17 nəfəri özəl müəssisədə çalışanlardır.

Burada axının istiqaməti əsasən yaxın kəndlərlə Şahbuz şəhəri arasındadır. Ən çox gələnlər Qarababa (51 nəfər) kəndindəndir. Digər yaşayış məntəqələrindən gələnlərin sayı isə 10-19 nəfər arasında dəyişir.

Babək rayonu üzrə keçirilmiş sorğunun nəticələrinə görə 255 nəfər "kəfkirvari miqrasiya"da iştirak edir. Onlardan 207 nəfəri dövlət, 48 nəfəri isə özəl müəssisədə çalışanlardır. Babək rayonu ərazisində bu prosesin istiqaməti əsasən kəndlərdən və Naxçıvan şəhərindən Babək qəsəbəsinədir.

Buraya gələnlərin 31,4%-i və ya 80 nəfəri Naxçıvan şəhərinin payına düşür. 13,7%-i Nehrəm, 16,5%-i Qoşadizə, 5,5%-i Cəhri və Zeynəddin kəndlərinin payına düşür.

Kəngərli rayonu üzrə 500 nəfər arasında keçirilmiş sorğunun nəticələrinə görə 234 nəfər "kəfkirvari miqrasiya" da iştirak edir. Onlardan 210 nəfəri dövlət, 24 nəfəri isə özəl müəssisədə çalışırlar. Burada "kəfkirvari miqrasiya"nın istiqaməti əsasən kəndlərdən Qıvraq qəsəbəsinədir. Buraya gələnlərin 50%-i Qarabağlar kəndinin payına düşür.

Cədvəldən göründüyü kimi Qıvraq qəsəbəsinə gələnlərin 55 nəfəri Xok, 20 nəfəri Şahtaxtı, 14 nəfəri Yurdçu və s. kəndlərin payına düşür. Digər rayonlardan fərqli olaraq buraya Şərur (4 nəfər) və Naxçıvan şəhərlərindən də (4 nəfər) gələnlər vardır. O cümlədən, Şərur rayonunun bir çox kəndlərindən (Çalxanqala, Oğlanqala və s.) Qıvraq qəsəbəsinə gələnlər vardır (cədvəl 3.20).

Culfa rayonu üzrə keçirilmiş sorğunun nəticələrinə əsasən demək olar ki, (Sədərək rayonu istisna olmaqla) "kəfkirvari miqrasiya"nın göstəricisinə görə bu rayon axırıncı yeri tutur. Bu prosesdə iştirak edənlərin sayı 87



nəfərdir ki, onlardan da 74 nəfəri dövlət, 13 nəfəri isə özəl müəssisədə çalışanlardır. Burada da qanunauyğunluq digər rayonlardakı kimi gözlənilmişdir, yəni miqrasiyanın istiqaməti kəndlərdən Culfa şəhərinədir.

Culfa şəhərinə gələnlərin ən çoxu Yaycı (16,1%) və Camaldın (12,6%) kəndlərindən gələnlərdir.

Sədərək rayonu üzrə 500 nəfər arasında keçirilmiş sorğunun nəticələrinə görə isə burada "kəfkirvari miqrasiya" da iştirak edənlərin sayı 48 nəfərdir. Onlardan 41 nəfəri dövlət, 7 nəfəri isə özəl müəssisədə çalışanlardır. Sədərək rayonunun əhalisi (16 min nəfər) digər rayonların əhalisinə nisbətən az, ərazisi isə kiçikdir. Bu rayonun tərkibinə Heydərabad qəsəbəsi, Sədərək və Qaraağac kəndləri daxildir. Burada "kəfkirvari miqrasiya"nın istiqamətləri rayonun kəndlərindən və Şərur rayonunun Dəmirçi kəndindən Heydərabad qəsəbəsinədir. Gələnlərin 77,2% Sədərək, 10,4%-i Qaraağac və 12,5%- i isə Şərur rayonunun Dəmirçi kəndinin payına düşür.

Apardığımız tədqiqatdan belə nəticəyə gəlmək olar ki, Naxçıvan Muxtar Respublikası üzrə "kəfkirvari miqrasiya" prosesi əsasən istehsal müəsisələrinin (dövlət və özəl) daha çox cəmləşdiyi şəhər və inzibati rayon mərkəzlərində həyata keçirilir. Bu prosesdə iştirak edənlərin əksəriyyəti (1161 nəfər) dövlət müəssisələrində çalışanlardır. Bu prosesdə iştirak edən əhalinin yarıdan çoxu (55,7%) 25–45 yaş qrupuna daxil olan əhalidir. Təhsil səviyyəsinə görə isə orta təhsillilər (56,2%) üstünlük təşkil edir. Cins tərkibinə gəldikdə isə bütün regionlarda olduğu kimi burada da kişilərin (68,6%) üstünlüyü müşahidə olunur. İnzibati rayonlar arasında "kəfkirvari miqrasiya"nın istiqamətinə gəldikdə isə xəritədən də göründüyü kimi əsasən Babək–Naxçıvan şəhəri, Şahbuz–Naxçıvan şəhəri daha qabarıq, intensiv özünü göstərir (bax. şəkil 3.2).



Şəkil 3.2 Naxçıvan Muxtar Respublikasının kəfkirvari miqrasiya xəritəsi (2011-ci il)



Digər rayonlar bu prosesdə nisbətən az iştirak edirlər. Bundan başqa Naxçıvan şəhəri-Babək, Şərur-Kəngərli, Naxçıvan şəhəri-Kəngərli, və Şərur-Sədərək rayonları arasında bu proses müşahidə olunur. Bütün inzibati rayonlarda isə bu proses əsasən şəhər və inzibati rayon mərkəzləri ilə rayon daxili yaşayış məntəqələri arasında müşahidə olunur."Kəfkirvari miqrasiya"nın göstəricisinə gəldikdə isə bu, (Naxçıvan şəhəri istisna olmaqla 361 nəfər) Babək (255 nəfər), Kəngərli (234 nəfər) və Şahbuz (233 nəfər) rayonlarında daha çox müşahidə olunur.

Yuxarıdakı deyilənlərdən belə nəticəyə gəlmək olar ki, Naxçıvan Muxtar Respublikasında əhalinin miqrasiyasının əsas səbəbi sosial-iqtisadi problemlərdir.

Müstəqillik illərində Naxçıvan Muxtar Respublikasında həyata keçirilən islahatlar nəticəsində kolxoz və sovxozların ləğvi, müəssisələrinin fəaliyyətində baş verən durğunluq, qaz və elektrik enerjisi ilə təchizatda mövcud olan çətinliklər ölkə daxilində xüsusilə sosial-iqtisadi miqrasiyaları gücləndirmişdir.

MR-də daxili sosial-iqtisadi miqrasiya axınının istiqaməti əsasən kənd yerlərindən iri şəhərlərə, xüsusilə Bakı şəhərinə yönəlmişdir. Daxili miqrasiyanın xüsusilə sosial-iqtisadi miqrasiyanın uçotunun lazımi səviyyədə aparılmamasına baxmayaraq, hesablamalar bu axının minlərlə əmək qabiliyyətli əhalini əhatə etdiyini əyani sürətdə göstərir. Ölkədaxili sosial-iqtisadi miqrasiyanın intensivləşməsinə təsir edən mühüm amillərdən biri də iri şəhərlərdə (Naxçıvan şəhəri və s.) xüsusilə Bakı şəhərində yaşayış minimumunu təmin etmək üçün müvəqqəti iş yerləri yaratmaq poblemini kənd yerlərindəkinə nisbətən asanlıqla həll edilməsidir. Ölkədaxili iqtisadi motiv üzün-

dən baş verən xaotik miqrasiyanın tənzimlənməsinə və rayon yerlərində əmək qabiliyyətli sakinlərin məşğulluğunu təmin etmək üçün xırda və orta sahibkarlığın, fermer və kəndli təsərrüfatının intensiv inkişafına yerli xammal emalına və yeni müəsisələrin yaradılmasına yönəldilmiş kompleks proqramlar həyata keçirilməli, bu tədbirlərə Beynəlxalq İqtisadi Təşkilat, yerli və xarici maliyyə qrumları fəal sürətdə cəlb olunmalı və beləliklə də kənd əhalisinin məşğulluq probleminin həlli vasitələrindən maksimum istifadə edilməlidir.

Aldığımız nəticələr göstərir ki, NMR-də əhalinin iş yerləri ilə təmin olunmasında problemlər mövcuddur. Buna görə də, bu problemin həlli məqsədi ilə xarici investisiya qoyuluşunu artırmaq lazım olduğunu məqsədə uyğun hesab edirik.

Yerli və gətirmə xammala əsaslanan istər yeni dövlət, istərsə də özəl müəssisələrin yaradılması hesabına əhalinin iş yerlərinə olan tələbatını ödəmək olar. Bu baxımdan Naxçıvan Muxtar Respublikasının inkişafına dair dövlət proqramlarını əsas götürərək onun inkişaf mərhələlərinin müəyyənləşdirilməsini və həyata keçirilməsini zəruri hesab edirik.

Yuxarıda göstərdiyimiz istiqamətlərdə tədbirlər planını həyata keçirməklə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğuliyyət problemi öz həllini taparaq, miqrasiyanın o cümlədən də "kəfkirvari miqrasiya"nın (gündəlik miqrasiya) istiqamətlərində köklü dəyişikliklərin yaranmasına gətirib çıxara bilər.



# IV FƏSİL

# NAXÇIVAN MUXTAR RESPUBLİKASINDA MÜASİR MİQRASİYA SİYASƏTİNİN ƏSAS İSTİQAMƏTLƏRİ

## 4.1. Əhali miqrasiyasının formalaşmasının amilləri

Naxçıvan Muxtar Respublikasında əhalinin miqrasiyasına təsir edən əsas amil iş yerlərinin artımının iş qüvvəsinin artımından geri qalması və blokada şəraitində yaşayan əhalinin enerji və istilik ilə (son illərdə tam təmin olunmuşdur) təmin olunmaması idi. Əhalinin başqa regionlara miqrasiyasının səbəbi həm sosial şəraitin çətinliyi, həm də qazanc üçün iş yerləri ilə təmin olunma tələbatıdır. Buna görə də həmin əhali uzun müddətli olsa da müvvəqəti işləmək üçün digər regionlarda pul qazanıb Naxçıvan Muxtar Respublikasında yaşayan ailəsi üçün göndərməklə regionda məskunlaşmağa müsbət təsir edirlər. NMR özünün iqtisadi və sosial potensialına görə fərqlənən dövlət statusuna malik, blokada şəraitində yaşayan inzibati ərazi və konstitusion respublikadaxili iqtisadi ərazi olmaqla özünəməxsus inkişaf meylləri və qanunauyğunluqları mövcuddur. Azərbaycan Respublikasının tərkib hissəsi kimi NMR–in özünü maliyyələşdirməsi prinsipi blokada ucbatından mümkün deyil. Ona görə də NMR açıq iqtisadiyyat üstünlüklərindən məhrum olsa da, tam müstəqil təsərrüfat fəaliyyəti qurmaq, iqtisadi potensialının yeni tipli təsərrüfat fəaliyyətini təşkil etmək və respublika prizmasında müəyyən sosial–iqtisadi əlaqələr yaratmaq və xarici ölkələrlə özünəməxsus əməkdaşlıq formaları təşkil etməklə idarəetmə obyekti kimi formalaşır və inkişaf edir. NMR–in iqtisadi–sosial inkişaf konsepsiyası

Azərbaycanın iqtisadi–sosial inkişaf konsepsiyasının ərazi üzrə tərkib hissəsi olub, əsas məqsədi Muxtar Respublikanın əhalisinin maddi və mənəvi tələbatını ödəmək, miqrasiyanın qarşısını almaq üçün yerli imkanları və qonşu sərhəd ölkələrinin əlverişli iqtisadi-coğrafi mühitindən istifadə etməklə respublika çərçivəsində ümumi meyllərlə uzlaşmış inkişafa şərait yaratmaqdır. NMR-n iqtisadi–coğrafi şəraiti onun İİR və Türkiyə Respublikası ilə iqtisadi–sosial əlaqələrin bir başa dövlət səviyyəsində təşkili və inkişafı üçün əlverişli şərait vardır.

NMR-nın Azərbaycan Respublikasının digər regionları ilə nəqliyyat əlaqələrinin zəifliyi iqtisadiyyatının inkişafına mənfi təsir göstərir. Belə ki, Naxçıvan Muxtar Respublikasının Azərbaycanla nəqliyyat əlaqələri 1991-ci ildən ancaq hava yolu ilə, 2007-ci ildən etibarən isə İrandan keçməklə, gömrük rejiminə uyğun Bakıya gələn avtomobil nəqliyyatı vasitəsi ilə yük daşıma və sərnişin daşıma prosesi həyata keçirilir. Regionun daxili inzibati rayonları və Naxçıvan-Təbriz maşrutu üzrə qatar nəqliyyatından istifadə olunur.

Muxtar Respublikanın ərazisindən Bakı-İmişli-Culfa-Şərur dəmir yolunun 184 km-i keçir. Bu da respublikada fəaliyyət göstərən ümumi dəmir yolunun 9,0%-ni təşkil edir. MR ərazisində olan dəmir yolunun 63 km-i Babək, 59 km-i Şərur və Kəngərli, 40 km-i Ordubad, 22 km-i isə Culfa rayonunun payına düşür. Erməni işğalçıları tərəfindən bu dəmir yolunun ətrafında yerləşmiş bir sıra rayonların işğal olunması həmin dəmir yolunun bağlanmasına və NMR-in blokadaya düşməsinə səbəb olmuşdur. Ona görə də, MR sərhədləri daxilində dəmir yolu ilə yüklərin daşınması həyata keçirilir. Dəmir yolu nəqliyyatı ilə yük daşınması 16,8 min ton, sərnişin daşınması isə 146



min nəfər olmuşdur (2007-ci ildə). Son illərdə isə sərnişin daşınmasında artmalar, yükdaşımada isə azalmalar müşahidə olunur. NMR-in istər daxili, istərsə də xarici-iqtisadi əlaqələrinin inkişafında birinci yeri avtomobil nəqliyyatı tutur. Azərbaycan Respublikası üzrə ümumi avtomobil yollarının 5,6%-i bu regionun payına düşür. Avtomobil nəqliyyatı rayon mərkəzləri ilə kənd yaşayış məntəqələri arasında əlaqələrin və sosial-iqtisadi inkişafın formalaşmasında və yükdaşınmasında mühüm rol oynayır. Avtomobil yollarının ümumi uzunluğu 2046 km olub, ümumi yolun 50,1%-ni respublika əhəmiyyətli, 49,9%- ni yerli əhəmiyyətli yollar təşkil edir. Burada sərnişin daşınmasının 98,8%-i, yük daşınmasının 99,8%-i avtomobil nəqliyyatının payına düşür. NMR-də yaşayış məskənləri arasında nəqliyyat infrastrukturu da qeyri-bərabər paylanmışdır. Məsələn, Şərur rayonunda əhali vahidinə yük daşınması Şahbuz, Ordubad və Culfa rayonlarının kənd yerlərindən iki dəfə çoxdur. Eyni zamanda hər 100 $km^2$ əraziyə düşən avtomobil yollarının uzunluğuna görə ən yüksək göstərici Şərur rayonunda (33 km), ən aşağı göstərici isə Şahbuz rayonunda (17,8 km) müşahidə edilir. Aparılan təhlillər göstərir ki, respublika üzrə ümumi avtomobil yollarının 22,8% Babək, 31,5% Şərur və Kəngərli, 16,2%-i Ordubad, 14,4%-i Culfa, 14,4%-i Şahbuz rayonunun payına düşür. 2009-cu ildə NMR üzrə hər 100 $km^2$ əraziyə 25,1 km, hər min nəfərə isə 4,9 km avtomobil yolu düşür [46].

Naxçıvan Muxtar Respublikasının iqtisadi əlaqələrinin intensiv inkişafında mövcud yolların örtük quruluşu mühüm əhəmiyyət kəsb edir. İstifadədə olan ümumi avtomobil yollarının 16,3%-i asfalt-beton, 34,9%-i qara

örtüklü, 24,6%-i çınqıl, 24,2%- i isə qrunt yollardan ibarətdir.

Ərazinin və əhalinin nəqliyyatla təmin olunması iqtisadi rayon daxilində mövcud təbii və əmək ehtiyatlarının istehsal dövrüyyəsinə cəlb olunmasına, istehsal sahələrinin yaranmasına və bu zəmin üzərində iqtisadi əlaqələrin formalaşmasına təsir göstərən əsas amillərdən biri kimi qiymətləndirilir.

Ümumiyyətlə, NMR-in kənd yaşayış məntəqələrinin nəqliyyat sistemi o qədər də yaxşı qurulmamışdır. Bir çox rayonlarda (Şahbuz, Culfa və s.) avtomobil yollarının tələblərə cavab verməməsi burada əhalinin məskunlaşmasına mənfi təsir göstərir. Son illər bu sahədə bir sıra quruculuq işlərinin aparılmasına baxmayaraq, bəzi dağ kəndlərində hələ də bu problem qalmaqda davam edir.

MR-də avtomobil yollarının və yol infrastrukturunun inkişaf etdirilməsi, o cümlədən mövcud yolların bazasında beynəlxalq əhəmiyyətli yolların salınması, dəmir yolu infrastrukturunun müasir tələblər səviyyəsinə çatdırılması, qonşu dövlətlərlə sərnişin və yük daşınmaların genişləndirilməsi, nəqliyyat sisteminin təhlükəsizliyinin təmin edilməsi, sərnişin daşınmasında daha səmərəli nəqliyyat növlərinin istifadəsi və digər istiqamətlərdə də işlər həyata keçirilməkdədir.

Naxçıvan Muxtar Respublikasının iqtisadiyyatının çoxsahəli (sənaye və aqrar-sənaye) struktura malik olması onun Azərbaycan Respublikasının ərazisindən təcrid edilmiş coğrafi məkanda yerləşməsi və bununla əlaqədar burada yerli tələbatı müvafiq istehsal sahələri yaratmaq hesabına təmin etmək zərurəti ilə izah olunur.

MR-in sənayesi tarixən Azərbaycan Respublikasının iqtisadiyyatında önəmli yerlərdən birini tutmuşdur.



1970-80-ci illərdə burada istehsal olunan məhsulların xeyli hissəsi xarici ölkələrə göndərilirdi. Lakin 1990-cı ildən (Ermənilərin Azərbaycan torpaqlarına təcavüzü ilə əlaqədar) NMR-in iqtisadiyyatı ağır vəziyyətə düşmüşdür. MR-in düşdüyü iqtisadi çətinlikləri, blokadanın vurduğu ziyanı aradan qaldırmaq üçün 1992-ci ildə Araz çayı üzərində uzunluğu 275 m olan "Ümid körpüsü" tikilib istifadəyə verilməklə qonşu Türkiyə və İranla iqtisadi əlaqələr yaradıldı. İran və Türkiyə Respublikalarının ərazilərindən buraya elektrik xətləri çəkildi. Bütün bu və digər tədbirlər nəticəsində sənayedə inkişaf meyli artaraq, xarici ölkələrlə, xüsusilə İran, Türkiyə Respublikaları və MDB ölkələri ilə ticarət iqtisadi əlaqələri genişlənmişdir. Hər il Muxtar Respublikanın sərhəd keçid məntəqələrində 50 min tondan çox yük dövrüyyəsi qeydə alınır. Hazırda NMR 31 xarici ölkə ilə apardığı ticarət əlaqələri 103,7 milyon ABŞ dollarından çox xarici ticarət dövrüyyəsi yaranmışdır ki, bunun da 61,2%-i idxalın (ərzaq və qeyri ərzaq məhsulları və. s), 38,8%-i isə ixracın (sənaye, kənd təsərrüfatı, ərzaq məhsulları və s.) payına düşür. Azərbaycan Respublikasının digər regionlarından İİR-na və Türkiyəyə gedən əhali NMR-in ərazisindən tranzit keçid kimi (Bakıdan-Naxçıvana, Naxçıvandan-İran və Türkiyəyə) istifadə edirlər. Bütün bunlar regionun sosial-iqtisadi inkişafında və əhalinin məşğulluğu kimi mühüm problemin həllində əsaslı rol oynayır.

Kənd təsərrüfatı regionun iqtisadiyyatının əsasını təşkil edir. Bu sahədə 1996-cı ildən başlayaraq müəyyən dirçəlmə baş versə də, sovet dövründə iqtisadiyyatın aparıcı sahələri olan üzümçülük, tütünçülük, ipəkçilik və s. sahələrdə kəskin geriləmələr baş verdi. Lakin son illər aparılan aqrar islahatlar nəticəsində bir çox təsərrüfat sahə-

ləri yenidən bərpa olunmuş və istehsala cəlb edilmişdir. Əhali əsasən taxılçılıq, tərəvəzçilik, meyvəçilik və heyvandarlıqla məşğul olur.

Ümumiyyətlə, kənd təsərrüfatının inkişaf etdirilməsi kənd təsərrüfatı məhsulları istehsal edən müəssisələrin yaranmasına bu da, öz növbəsində əhalinin işlə təmin olunmasına şərait yaradacaq, əhalinin məskunlaşmasına və bir sıra sosial problemlərin həllinə təsir edəcəkdir.

NMR-də əhalinin və işçi qüvvəsinin artım tempi, yeni iş yerlərinin yaradılması, Azərbaycan Respublikası üzrə orta göstəricidən xeyli aşağıdır. Əhalinin enerji və istilik təminatı adambaşına düşən göstəricilərinə görə Azərbaycan Respublikası üzrə orta göstərici ilə müqaisədə və digər regionlara nisbətən çox aşağı olduğu halda, hazırda bu region enerji və istiliklə 100% təmin olunmuşdur.

NMR-də islahatların başlanması vaxt amili baxımından Azərbaycan Respublikasını qabaqlamışdır. 1992-ci ilin mart ayından NMR-də kolxoz və sovxozların ləğvi və rentabelsiz təsərrüfatların özəlləşdirilməsi haqqında Ali Məclis qərar qəbul etdi. Torpaq islahatı, özəl təsərrüfatların yaradılmasının məhz Naxçıvan xüsusiyyətləri sonrakı illərdə Azərbaycan Respublikası üzrə qəbul olunan islahatlar proqramında region xüsusiyyətləri kimi nəzərə alınmışdır.

ÜDM NMR-də 2013-cü ildə 233 milyon 892 min manat olmuşdur. Ümumi məhsulun 82,6%-i iqtisadiyyatın istehsal sahələrində, o cümlədən 11,3%-i sənayedə, 58,4%-i kənd təsərrüfatında, 11,9%-i tikintidə 17,4%-i xidmət sahələrində, 7,9%-i ticarət və ictimai iaşədə, 2,0%-i digər sosial və xidmət sahələrində yaradılmışdır. ÜDM-un 89%-i, kənd təsərrüfatında istehsalın 97%-i, ticarətin



99,8%-i, sənayenin 82,0%-i, nəqliyyatda göstərilən xidmətlərin 85,0%-i özəl sektorun payına düşür.

Naxçıvan Muxtar Respublikasının geosiyasi mövqeyi onun İran və Türkiyə ilə iqtisadi əlaqələri, həmin regionun konseptual inkişaf istiqamətlərində özünə- məxsus, əlverişli mühit yaradılmasında ciddi iqtisadi çətinliklərlə də üzləşir. Naxçıvan Muxtar Respublikasında yerli ehtiyatların istifadəsi nə qədər ucuz başa gəlirsə, enerji ehtiyatları da bir o qədər baha başa gəlir. Ona görə də xarici iqtisadi əlaqələrin təkmilləşdirilməsi, regionun yerli ehtiyatlarından müştərək istifadə istiqamətləri daha səmərəlidir.

Naxçıvan Muxtar Respublikasının region kimi iqtisadi-sosial inkişafı konsepsiyası, açıq iqtisadi mühit, bazar mühiti şəraitində baş versə də onun imkanları və müasir inkişaf meyllərinin tənzimləmək üçün tamamilə yeni maddi qapalı iqtisadiyyat və ixracat yönlülük üçün özünə-məxsus imkanları olan bir ərazi kimi təsvir olunur. Regionun maraqları baxımından NMR-in sosial-iqtisadi inkişafında əhalinin sosial tələbatlarını ödəmək və dövlətin sosial kontingentlərə verdiyi müavinətlər və sosial müdafiə tədbirləri ilə yanaşı spesifik mexanizmlərin saxlanılması, onun öz dövlət himayəsi altında öz iqtisadi və inkişaf transformasiyasının təşəkkülü vacib şərtdir.

1990-cı illərdə Naxçıvan Muxtar Respublikasının blokada şəraiti, onun təsərrüfat əlaqələrinin qırılması və sosial gərginliklərin daha intensiv şəraiti, o cümlədən yanacaq və enerji qıtlığı, onun nəqliyyat əlaqələrinin kəsilməsi burada miqrasiya proseslərini daha da sürətləndirdi.

Dövlətin iqtisadi və sosial inkişafında rolu bir sıra iqtisadi tədbirlərin keçirilməsi və təşəbbüskarlıq potensialının reallaşması üçün şəraitin yaradılması ilə baş verir.

Bütün sosialist ölkələrində olduğu kimi, ilkin bazar şəraiti yaratmaq üçün atılan addımların əsasını sosial-iqtisadi nəticələri ilə fərqlənən qiymətlərin və xarici iqtisadi əlaqələrin liberallaşdırılması təşkil edir. Qiymətlərin və xarici iqtisadi əlaqələrin liberallaşdırılması yerli istehsalın idxal məhsullarına nisbətən tələbatı azaltdı, yerli istehsal xərcləri, hazır məhsula nisbətən yüksək oldu və müəssisələrin gəlirləri və rentabellik səviyyəsi kəskin aşağı düşməklə məhsulun reallaşması dayandı. 1991-1994-cü illədə qiymətlərin qalxması hesabına infliyasiya səviyyəsi daha da artdı.

Ancaq görülən tədbirlər və dövlətçilik prinsiplərinin ardıcıllığı nəticəsində 1995-ci ildən infliyasiyanın azalması və onun minimuma (1,5%-ə) çatdırılması baş vermişdir.

Sərhədyanı rayonlarda və erməni təcavüzü ilə blokada şəraitində olan NMR-də artıq yerli istehsal həcmi azalmaqla İran və Türkiyədən idxalın hesabına gündəlik tələbat üçün ərzaq və qeyri-ərzaq məhsullarının intensiv axını əhalinin məşğuliyyətində deformasiya yaratmaqla, əhalinin miqrasiyasına, onun Rusiya və Türkiyəyə işlə təmin olunması üçün axınına səbəb olmuşdur.

Azərbaycan Respublikasının 1995-ci ildən iqtisadi sabitləşmə və konsepsiyası öz nəticələrini verməklə, 1996-cı ildən yüksək artım və islahatlar proqramı üçün maddi baza və təşkilati iqtisadi şərait yaratmış oldu. Mülkiyyət münasibətlərinin yaranması və bazar tipli təsərrüfat formalarının inkişafı, özəlləşdirilmənin başlanması onun əhatə dairəsi, xarakteri və sosial iqtisadi nəticələrini tənzimləmək üçün tədbirlərin hazırlanması zəruridir. Özəlləşdirmənin qiymətlərin liberallaşdırılması və xarici iqtisadi əlaqələrin açılmasından gec, yəni 1997-ci ildə başlanması respublikada formalaşan kapitalın xaricə axınına



və respublika bazarında valyuta ilə gətirilən istehlak məhsullarının artımına, bu da son nəticədə əhalinin bu prosesdə iştirak etməyən kontingentlərinin rifahının nisbi templəşməsinə gətirib çıxardı. Adambaşına düşən istehsal səviyyəsi azaldı, əmək haqqı, əhali gəlirləri daha çox əmək haqqı ilə yaşayanların həyat səviyyəsinə təsir etdi. Özəlləşdirmənin forması olan pay bölgüsü maddi əşya formasında öz inkişafını tapmadığı üçün əhalinin çox hissəsinə təşkilatların istehsal bölgüsündə və onun nəticələrinin pay bölgüsündə iştirak payı təmin olunmadı. Əlbətdə, kiçik və orta biznes müəssisələrinin sayı 1998-ci ildən xeyli artsa da, əhalinin səhmdar cəmiyyətlərdə iştirakı az təmin olunmuşdur. Abşeron iqtisadi - coğrafi rayonunda səhmdar cəmiyyətin formasında əhalinin iştirak payı nisbətən təmin olunsa da regionlarda, o cümlədən NMR-də bu proses daha gec baş verir. İşləməyən müəssisələrin çox olması və müəssisələrin tam gücü ilə işləməməsi özəlləşdirmə ilə onun nəticələri arasında parodoks yaratmışdır. Özəlləşdirmə prosesi başlayandan NMR-də 3061 müəssisə və obyekt özəlləşdirilmişdir. O cümlədən onlardan sənaye müəssisəsi-39, nəqliyyat vasitələri-1556, ticarət və iaşə obyektləri-342, məişət xidməti-659, tikinti-150 və s. obyektlər-300, tikintisi başa çatmayan müəssisələr-15 ədəd təşkil etmişdir (2009-cu ilə qədər). NMR-in sosial-iqtisadi inkişafının əsas göstəriciləri (cəd-vəl 4.1), respublikada əhalinin rifahı ilə onun imkanları arasındakı münasibətləri və həmçinin miqrasiya proseslərinin tənzimlənməsi siyasətinin əsas istiqamətlərini müəyyən edir.

Cədvəl 4.1

Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının əsas göstəriciləri

| İllər | 1999 | 2001 | 2003 | 2005 | 2007 | 2009 | 2011 | 2013 |
|---|---|---|---|---|---|---|---|---|
| Əhalinin sayı (min nəfər) | 357,0 | 364,5 | 369,8 | 376,4 | 384,4 | 397,4 | 418,5 | 435,3 |
| Sənaye məhsullarının həcmi faktiki qiymətlərlə mln. man. | 586,5 | 394,1 | 880,1 | 412,0 | 122,6 | 213,7 | 680,9 | 862,8 |
| Əsas kapitala yönəldilən investisiyalar mln.man. | 817,6 | 305,8 | 316,1 | 126,1 | 223,7 | 411,5 | 815,6 | 1037,7 |
| Əsas fondların isstifadəyə verilməsi, mln.man | 798,5 | 185,0 | 104,6 | 128,4 | 181,8 | 341,0 | 592,9 | 1007,7 |
| Kənd təsərrüfatının ümumi məhsulu, mln.man. | 207,6 | 185,8 | 359,1 | 390,1 | 122,4 | 113,4 | 324,7 | 335,9 |
| Pərakəndə əmtəə dövriyyəsi, min. man | 918,4 | 361,4 | 499,4 | 147,9 | 309,9 | 572,0 | 785,1 | 1064,2 |
| məktəbə qədər müəsisələrinin sayı | 105 | 99 | 90 | 75 | 38 | 15 | 15 | 18 |
| Onlarda uşaqların sayı | 5260 | 5207 | 4701 | 4161 | 2312 | 1785 | 2063 | 3004 |
| Ümumi məktəblərin sayı | 221 | 233 | 232 | 228 | 223 | 221 | 222 | 220 |
| Şagirdlərin sayı, min nəfər | 72,4 | 74,0 | 72,2 | 63,6 | 57,3 | 51,8 | 48,0 | 44,7 |
| Həkimlərin sayı, nəfər | 728 | 743 | 723 | 718 | 805 | 851 | 832 | 765 |
| Xəstəxana ların sayı | 55 | 55 | 55 | 47 | 46 | 45 | 44 | 43 |
| Xəstəxana çarpayılarının sayı | 3670 | 3855 | 3880 | 3570 | 3114 | 3024 | 3082 | 3082 |

**Mənbə**: NMR İqtisadi İnkişaf Nazirliyinin məlumatı.



NMR-in maliyyə ehtiyatları yerli büdcənin və mərkəzləşdirilmiş büdcə xərclərinin hesabına formalaşır. Maliyyə-kredit siyasəti mərkəzləşdirilmiş büdcə gəlirləri hesabına sosial-xərclərin kənd təsərrüfatının və sosial müdafiə xərclərinin ayrılması hesabına təmin olunur. Dövlət xərclərinin əsas məqsədi büdcə gəlirlərinin perspektiv artımını təmin etməklə sosial müdafiə və əhalinin miqrasiyasının qarşısının alınmasının sabit və dinamik inkişaf meyllərini təmin edən himayəçilik siyasətidir. Nisbətən ölkənin mərkəzi və digər rayonları ilə təcrid olunmuş NMR-də yaşayan əhali və onun təbii artımı istehlak və xərc strukturunu formalaşdırır.

NMR-in əhalisinin təbii artımı onun məşguliyyəti və yaş tərkibi, yaşayış vasitələri ilə təminat səviyyəsi onun iqtisadi-sosial parametrlərini yaratmaqla miqrasiya proseslərinə bilavasitə təsir edir. Sosial sahələrin iqtisadi dövrüyyədə xüsusi çəkisinə görə üstün yer tutması perspektiv dəyişmələri bilavasitə əhali tələbatı ilə bağlılığını və həmin tələbatın ödənilməsində istehlak seqmentləri üzrə proqnozlaşdırmanın daha geniş istifadəsi metodologiyasını təkmilləşdirməklə baş verir. Sosial müdafiə məqsədləri ilə əhalinin dağ regionlarından axınının qarşısının alınması və dağ regionlarının kompleks inkişafı üçün stimullar yaratmaq, pensiya təminatı və sahibkarlıq üçün əlavə güzəştlərin yaradılması əsas istiqamət olaraq əhəmiyyətlidir.

NMR-də adambaşına düşən bəzi ərzaq məhsullarının istehsalı onun istehlak səviyyəsindən və rasion normativlərindən xeyli aşağıdır. Əgər adambaşına düşən rasional istehlak norması səviyyəsinə istehsalı inkişaf etdirmək dinamikası tənzimlənən obyekt kimi qəbul olunarsa onda

nisbətən məşğulluq problemi və əhalinin miqrasiya həcmi azalar.

NMR-in coğrafi mövqeyi, təbii şəraiti və əsas istehlak quruluşu kənd təsərrüfatı sahələrinin, o cümlədən taxılçılıq və heyvandarlıq məhsullarının inkişafı ilə bağlıdır. NMR-də bu sahələr ənənəvi məşğuliyyət növü olmaqla, emal sahələrini və ixracat strukturunu formalaşdırır. Üzümçülük və heyvandarlıq sahələri blokada şəraitinə qədər təsərrüfat əlaqələrində MR-in iqtisadi rolunu müəyyən edirdi. Müasir şəraitdə bu sahələrin özəlləşdirilməsi daha çox xüsusi vəsaitlər hesabına inkişaf edə bilən təsərrüfat obyektlərinin inkişafına səbəb oldu. NMR-də həmişə intellektual mülkiyyət növü inkişafda olmaqla, yüksək ixtisaslı kadrların Bakı və digər şəhərlərdə məşğuliyyəti ilə miqrasiyası baş vermişdir. Keçid dövrü, blokada şəraiti NMR-də 1991–1993-cü illər ağır iqtisadi mühit, müharibə şəraitində yaşamaq və radikal islahatlar keçirməklə onun mümkün coğrafi təbii potensialından istifadə etmək yolu ilə mümkün olmuşdur. Bu illərdə iqtisadi irəliləyiş üçün yeganə yol Türkiyə və İran Respublikaları ilə iqtisadi və sosial əlaqələri inkişaf etdirməklə NMR–dən miqrasiyanın qarşısını almaq və regionda islahatlar keçirmək çıxış yolu idi. Bazar iqtisadiyyatı şəraitində region bazarı, onun hüdudlarından kənarda reallaşa bilən məhsulların və xarici ölkələrin sahibkar və vətəndaşlarına göstərilən xidmət sferasının genişlənməsi ilə təşkil oluna bilir və perspektiv yüksəliş üçün əlavə kapital və kredit ehtiyatlarına tələbatı doğurur. Son illərdə qeyri–istehsal və xidmət sferasında bank və sığorta sistemində sosial infrastrukturada və əhalinin fərdi mülkiyyətində əhalinin məşğulluğu artır və ÜDM strukturunda onların rolu güclənir.



1999–cu ilə nisbətən 2013–cü ildə sənaye məhsulunun istehsal həcmi 4,1 dəfə, tikintidə əsaslı kapital qoyuluşu 2,5 dəfə, rabitə xidmətinin həcmi 1,4 dəfə artmış, kənd təsərrüfatı sahəsində taxılçılıqda məhsuldarlıq 1,0 dəfə, bostan məhsullarının istehsalı 0,9 dəfə azalaraq, 1999–cu ildə kənd təsərrüfatı məhsullarının istehsalı 207,6 milyon manat olduğu halda 2009–cu ildə 113,4 milyon manat təşkil etmişdir. Yəni 1,8 dəfə azalmışdır. Bütün təsərrüfat subyektləri üzrə 2013–cü ildə 113,3 min ton taxıl istehsal edilmişdir ki, bu da 2009-cu ilə nisbətən 1,1 dəfə çoxdur. Beləliklə, NMR–in ümumi inkişaf dinamikasında artma və azalma templəri və onun bazar tipli struktur dəyişmələri bütün respublika göstəricilərindən əksər hallarda yuxarıdır. NMR–də islahatların intensiv dinamikası onun özəlləşdirmə obyekti olan təsərrüfatların çoxalması ilə izah olunur. NMR bir başa xarici ölkələrlə əmtəə-xidmət mübadiləsi və müştərək ticarət zonaları, yaxud birgə müəssisə təşkilatları ilə region bazarının formalaşmasında xüsusiyyətləri olan res-publikadır. NMR–in təbii sərvətləri dünya bazarına çıxarılan ehtiyatlar olmaqla, gündəlik tələbat və ticarət mübadiləsi üçün əlavə gəlir gətirən sahələrdir. Mineral duz (daş duz) istehsalı və ehtiyatları, təbii daş yataqları, qum, gəc və bir sıra təbii dərman bitkiləri üçün lazım olan otlar xarici ixracat və kapital axını üçün ümumi daxili məhsulun artımında investisiyanın rolunun artırılması amili olaraq çıxış edir. Kənd təsərrüfatının inkişafı istehsal artımının üstünlüyü ilə baş verir. NMR–də meyvə və şəkər çuğunduru ixrac olunma qabiliyyətinə malikdir. Respublikada şəkər çuğundurunun Türkiyə ilə şəkər mübadiləsi həmin sahənin inkişafına səbəb olmuşdur. Aqrar sektorun NMR–də strateji rolu, onun torpaqlarının və keçid təsərrüfatı ilə bağlı olan sahələrin maksimal iqtisadi

dövriyyəyə cəlb edilməsi ilə xüsusi mülkiyyətçilərin, dövlətin və yerli bələdiyyə mülkiyyətçilərinin rolunu, onların əsas ehtiyat potensialını və təsərrüfat fəaliyyətinin əsas istiqamətlərini müəyyən edir. NMR-də təsərrüfat blokunu torpaq sahələri üzrə funksional qruplara bölmək sosial-iqtisadi baxımdan düzgündür. Kənd təsərrüfatı aqrar sektorun aparıcı həlqəsi olmaqla, ehtiyat potensialı, məşğulluğu kəndin sosial inkişafının əsas hissəsidir. NMR üçün şəkər çuğunduru, heyvandarlıq və taxılçılıq, həm bazar, həm də əhalinin gündəlik tələbatının ödənilməsi baxımından aparıcı rol oynayır. Ət və süd məhsullarının emalı, satışı və istehlakı, şəkər tozu və çörək məmulatlarının kompleks inkişafı, ərazi ixtisaslaşmasında öz xüsusi çəkisinə görə əsas rol oynayır. Ailə büdcəsinin istehlak xərclərinin 50–60%-i məhz bu məhsullar üzrə məhdudlaşır. O cümlədən, bu sahələrin inkişafı üçün servis sahələrinin inkişafı regionda məşğulluğun artmasına və əhalinin kənd yerlərində məskunlaşmasına gətirib çıxarır.

Miqrasiyaya təsir edən amillərdən biri də əhalinin məşğulluq səviyyəsidir. NMR-də 90-cı illərdə sosial-iqtisadi inkişafda yaranan problemlər, təsərrüfatda məşğul olanların sayının azalması ilə yanaşı, iqtisadiyyatda məşğul olmayan əmək qabiliyyətli əhalinin, o cümlədən işsizlərin sayının çoxalması, işdən çıxanların sayının işə qəbul olanlardan çox olması və s. əhalinin məşğulluğuna mənfi təsir göstərmişdir.

NMR-də əhalinin məşğulluq vəziyyətini daha aydın təssəvür etmək üçün onun quruluşunun formalaşması xüsusiyyətlərini və qanunauyğunluqlarını, burada baş verən dəyişiklikləri təhlil edək. Əhalinin məşğulluq quruluşunun formalaşmasına əsasən demoqrafik (əhalinin sayı, yaş-cins tərkibi, əhalinin təbii hərəkəti, ömür müddəti, mexaniki



hərəkəti və s.) və sosial-iqtisadi (məhsuldar qüvvələrin inkişaf dərəcəsi və istifadə səviyyəsi, iqtisadiyyatın inkişaf səviyyəsi və quruluşu, əhalinin təhsil səviyyəsi və s.) amillər təsir edir.

Əhalinin məşğulluğu ilk növbədə burada iqtisadiyyatın inkişaf səviyyəsi və quruluşundan, əmək ehtiyatlarının kəmiyyət-keyfiyyət tərkibindən, maddi və qeyri-maddi istehsal sahələrinin düzgün inkişaf etdirilib yerləşdirilməsindən və s. asılıdır.

Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluq səviyyəsi və quruluşunun 2009-cu ildə mövcud vəziyyətini xarakterizə edən məlumatların təhlilindən aydın olur ki, bu ildə MR-də yeni iş yerlərinin açılması və iqtisadiyyatın inkişafı əhalinin məşğulluq səviyyəsinin yüksəlməsinə öz müsbət təsirini göstərmişdir.

NMR üzə məşğul olan əhalinin sayı ümumi əhalinin 53,2%-ni təşkil edir. NMR-də məşğul olan əhalinin 44,4%-i kənd təsərrüfatı ovçuluq və meşə təsərrüfatında, 11,2%-i sənayedə, 10,6%-i tikintidə, 4,9%-i nəqliyyat və rabitədə, 7,1%-i ticarətdə, 9,1%-i elm və təhsildə, 4,0%-i səhiyyə və sosial xidmət və s. sahələrdə çalışırlar (cədvəl 4.2).

Naxçıvan Muxtar Respublikasının inzibati rayonları üzrə əhalinin məşğulluq səviyyəsində müxtəliflik müşahidə olunur. Belə ki, Ordubad (55,1%), Culfa (56,3%), Şərur (54,8%), Kəngərli (59,6%), Sədərək (54,6%) və Şahbuz (56,6%) inzibati rayonlarında məşğulluq səviyyəsi ümumi Muxtar Respublika səviyyəsindən yüksəkdir. Babək rayonu (46,1%) və Naxçıvan şəhərində (44,6%) isə bu göstərici Muxtar Respublika səviyyəsindən aşağıdır (cədvəl 4.2).

Cədvəl 4.2

2009-cu ildə NMR-də əhalinin məşğulluq quruluşu (min nəfər)

| Təsərrüfat sahələri / Rayonlar | Məşğul əhalinin ümumi sayı | Kənd təsərrüfatı, ovçuluq və meşə təsərrüfatı | Sənaye | Tikinti | Nəqliyyat və rabitə | Ticarət və Maliyyə fəaliyyəti | Elm və təhsil | Səhiyyə və sosial xidmət | Dövlət idarəetməsi, mədəniyyət və digər |
|---|---|---|---|---|---|---|---|---|---|
| NMR | 211,3 | 93,9 | 23,7 | 22,6 | 10,3 | 15,7 | 19,2 | 8,5 | 17,4 |
| Naxçıvan ş. | 37,2 | 3,4 | 5,6 | 5,5 | 3,0 | 4,4 | 6,5 | 3,5 | 5,3 |
| Babək | 33,0 | 18,2 | 3,2 | 3,6 | 1,4 | 1,49 | 2,2 | 1,1 | 1,9 |
| Culfa | 23,1 | 11,8 | 3,6 | 1,0 | 1,0 | 1,36 | 2,0 | 0,5 | 1,7 |
| Kəngərli | 16,4 | 8,8 | 2,0 | 2,2 | 0,4 | 0,51 | 0,8 | 0,3 | 1,4 |
| Ordubad | 24,8 | 14,3 | 1,3 | 2,3 | 0,8 | 1,85 | 2,0 | 0,6 | 1,7 |
| Sədərək | 7,7 | 5,1 | 3,1 | 3,5 | 0,8 | 7,82 | 0,3 | 0,1 | 0,6 |
| Şahbuz | 12,9 | 4,7 | 1,5 | 1,5 | 0,5 | 0,68 | 1,7 | 0,7 | 1,5 |
| Şərur | 56,1 | 27,5 | 6,3 | 6,1 | 3,0 | 4,6 | 3,6 | 1,6 | 3,3 |

**Mənbə**:Azərbaycan Respublikası əhalisinin siyahıyaalınması 2009. XIII cild, Bakı, DSK, 2010.

2009-cu ildə NMR-də fəaliyyət göstərən müəssisə və təşkilatlarda məşğul olan əhalinin 20%-i dövlət sektorunun, 80%-isə özəl sektorun payına düşür. Son illər NMR-də bazar yönümlü islahatlar və iqtisadiyyatda struktur dəyişiklikləri nəticəsində məğul əhalinin özəl sektorda payı artmışdır.

Özəl sektorda çalışanların 14,7 min nəfəri fərdi məşğul olan əhalidir ki, bu da iqtisadiyyatda çalışanların 6,9 %-ni təşkil edir [27].

Regionda fərqlənmə özünü təkcə inzibati rayonlar üzrə deyil, həm də şəhər və kənd yerləri üzrə də buruzə verir. Əhalinin iqtisadi fəallığının səviyyəsi şəhər yerlərinə nisbətən kənd yerlərində yüksək olmaqla, müvafiq olaraq 47,7% və 55,4% təşkil etmişdir (cədvəl 3.3). Ən böyük



iqtisadi fəallıq həm şəhər, həm də kənd yerlərində 25-45 yaşda olan əhali arasında müşahidə olunur.

Cədvəl 4.3

NMR-də şəhər və kənd əhalisi arasında məşğulluğun səviyyəsi (min nəfər)

| Ərazi | Məşğul olan əhalinin ümumi sayı | | | Şəhər əhalisi | | | Kənd əhalisi | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | Cəmi | Kişilər | Qadınlar | Cəmi | Kişilər | Qadınlar | Cəmi | Kişilər | Qadınlar |
| NMR | 211,3 | 109,3 | 102,0 | 55,1 | 30,8 | 24,3 | 156,2 | 78,5 | 77,7 |
| Naxçıvan ş. | 37,2 | 21,0 | 16,2 | 32,1 | 18,6 | 13,5 | 5,1 | 2,5 | 2,6 |
| Babək | 33,0 | 16,4 | 16,6 | 1,7 | 0,8 | 0,9 | 31,2 | 15,5 | 15,7 |
| Culfa | 23,0 | 11,9 | 11,1 | 6,4 | 3,5 | 2,9 | 16,7 | 8,5 | 8,2 |
| Kəngərli | 16,4 | 8,2 | 8,2 | 2,8 | 1,6 | 1,2 | 13,6 | 6,6 | 7,0 |
| Ordubad | 24,8 | 13,1 | 11,7 | 5,5 | 3,1 | 2,4 | 19,3 | 10,0 | 9,3 |
| Sədərək | 7,7 | 3,9 | 3,8 | 312 | 156 | 156 | 7,4 | 3,8 | 3,6 |
| Şahbuz | 12,9 | 6,6 | 6,2 | 2,2 | 1,1 | 1,1 | 10,8 | 5,5 | 5,3 |
| Şərur | 56,1 | 28,1 | 28,0 | 4,0 | 2,0 | 2,0 | 52,1 | 26,1 | 26,0 |

**Mənbə**:Azərbaycan Respublikası əhalisinin siyahıyaalınması 209. XIII cild, Bakı, DSK, 2010

Gənclər arasında işsizliyin artması burada əmək bazarında müşahidə olunan əsas problemdir. Bu vəziyyət həm də gənclərin digər regionlara miqrasiyasını sürətləndirən başlıca amillərdən biridir. 1999-cu ildə NMR-də işləməyən iqtisadi fəal əhalinin sayı 11779 nəfərdən 2009-cu ildə 1253 nəfərədək azalmışdır. Onlardan 597 nəfəri kişilərin, 656 nəfəri isə qadınların payına düşür. Bu göstəricilər müvafiq olaraq 1999-cu ildə 6740 nəfər və 5099 nəfər olmuşdur.

1999-cu ildə NMR-də işsizlik statusu alan şəxslərin sayı 5812 nəfər olduğu halda, 2005-ci ildə 7904 nəfər, 2009-cu ildə isə 55 nəfər olmuşdur [41]. 2013-cü ildə bu göstərici müşahidə edilməmişdir.

Bu rəqəmlər onu göstərir ki, son illər burada sosial-iqtisadi inkişafın sürətlənməsi, yeni müəssisə və təşkilatların yaradılması, yeni iş yerlərinin açılması əhalinin məşğulluq səviyyəsinin yüksəlməsinə şərait yaratmışdır.

Azərbaycan Respublikasının məşğulluq strategiyasına (2006-2015-ci illər) uyğun olaraq regionlarda o cümlədən də Naxçıvan Muxtar Respublikasında qeyri-neft sektorunun sürətli inkişafı məqsədi ilə investisiyaların cəlb edilməsi, kənd təsərrüfatı və emal sənayesi məhsullarının istehsalının artırılması üçün lazımı tədbirlərin həyata keçirilməsi nəticəsində əhalinin məşğulluğu təmin olunacaq və işsizlik problemi aradan qaldırılacaqdır [5].

Əhalinin məşğulluğunu təmin etmək məqsədi ilə NMR-də işsizliyin mənfi nəticələrinin aradan qaldırılmasına və işsizlərin sosial müdafiəsi, müəssisə və təşkilatların kadr siyasəti sahəsindəki işinin müvafiq məşğulluq xidməti orqanları ilə birgə aparılmasının təkmilləşdirilməsi, kənd təsərrüfatı, toxuculuq, emal müəssisələri və xidmət sahələrinin inkişafı hesabına yeni iş yerlərinin yaradılması, kəndli (fermer), ailə kəndli təsərrüfatlarının, kooperativlərin, kiçik müəssisələrin inkişaf etdirilməsi məqsədilə regionlarda maliyyə infrastrukturunun yaradılması, aqroservis xidmətlərinin yaradılması və onların müasir texnika ilə təmin edilməsi, toxumçuluq bazasının inkişaf etdirilməsi, kənd yerlərində sosial və komunal infrastrukturun inkişaf etdirilməsi yolu ilə əhalinin, xüsusən də gənclərin miqrasiyasının azaldılması, sahibkarlıq fəaliyyətinin artırılması və kənd təsərrüfatı məhsullarının satışı üzrə marketin şəbəkəsinin yaradılması və s. tədbirlər həyata keçirilir.

Yuxarıda qeyd olunanlardan belə nəticəyə gəlirik ki, Naxçıvan Muxtar Respublikasında miqrasiyaya təsir edən



amillərin sosial-iqtisadi vəziyyət, regionun geosiyasi mövqeyi, blokada şəraitində olması, nəqliyyat əlaqələri, xarici ticarət əlaqələri, yeni iş yerlərinin açılması, təbii sərvətlərdən səmərəli istifadə, kənd təsərrüfat və turizm sahələrinin inkişafının və s. nəzərə alınması zəruridir.

Bütün bunları nəzərə alaraq NMR-in sosial-iqtisadi inkişafı və onun miqrasiya problemlərinin həllinə təsiri baxımından regionun iqtisadi inkişafının və bununla əlaqədar miqrasiya proseslərinə təsir edən amillərin aşağıdakı fərqli və xüsusi cəhətləri mövcuddur:

Əhalinin miqrasiyasının elmi əsaslarla işlənmiş mütərəqqi istiqamətlərindən əlavə, sosial gərginlik və iş yerlərinin olmaması ucbatından dərinləşməsinin iqtisadi yollarla minimuma endirilməsi davam etdirilməlidir;

NMR-in daxili iqtisadi potensialının istehsala və iqtisadi dövrüyyəyə cəlb etməklə respublikaya gətirilən valyuta və maliyyə vəsaitlərinin artırılması zəruridir;

Regionun sərhədyanı ərazilərinin potensialından və xarici iqtisadi əlaqələrin imkanlarından, təbii sərvətlərdən istifadə etməklə kənd təsərrüfatı sahələrinin inkişafı və əmək ehtiyatlarının səmərəli və maksimal istifadəsi təşkil edilməlidir;

Regionda daxili bazarın qorunması və xırda biznes sahibkarlığının inkişaf etdirilməsi, köhnə istehsal sahələrinin bərpası və yeni müəssisələrin yaradılması zəruri hesab olunur;

Naxçıvan Muxtar Respublikasının kənd təsərrüfatı potensialının istifadə edilməsində dövlət himayəçilik siyasətinin və beynəlxalq iqtisadi qrupların imkanlarından istifadə edilməklə kənd yerlərində işsizlik probleminin aradan qaldırılmasına şərait yaradılması məqsədə uyğundur.

Naxçıvan Muxtar Respublikasında sosial inkişaf və əhali rifahı üçün dövlət büdcəsinin prioritet istiqamətlərinin axtarılması ilə yanaşı yeni kompleks dövlət və ərazi proqramlarının tərtibi və istifadə edilməsi zəruridir.

## 4.2. Miqrasiya siyasətinin təkmilləşdirmə istiqamətləri

Azərbaycan Respublikasının inkişafının yeni mərhələsində bütün sahələrdə olduğu kimi miqrasiya prosesləri də köklü dəyişikliklərə məruz qalmışdır. Ölkəmizin inkişafının beynəlxalq miqyasda qəbul edilməsi, ölkə rəhbərliyi tərəfindən təmin edilən investisiya cəlbediciliyi və əhalinin həyat səviyyəsinin yüksəlməsi, optimal siyasi sabitliyin bərqərar olunması onu həm də, miqrantlar üçün cəlbedici regiona çevirmişdir. Bütün bunları və həmçinin qlobal miqrasiya fenomenini dövlətimizin milli inkişafına mümkün, müsbət və mənfi cəhətlərini, sosial–iqtisadi inkişafda miqrasiya faktorundan yüksək səviyyədə faydalanmaq məqsədini hərtərəfli təhlil edərək miqrasiya siyasətinin təkmilləşdirilməsi istiqamətində yeni mahiyyətli konsepsiya formalaşdırıldı.

Müstəqilliyin ilk illərində və həyata keçirilən müstəqil miqrasiya siyasəti dövlətin milli maraqlarına xidmət etməklə, beynəlxalq hüquq normalarının tanınması, dövlətlər arası münasibətlərdə çoxşaxəli əməkdaşlıq müqavilələrinin, sazişlərinin əsasını qoydu. Bu dövrdə ilk dəfə ölkəmiz miqrasiya proseslərinin tənzimlənməsində bərabər hüquqlu subyekt kimi çıxış etdi. Azərbaycanda miqrasiya proseslərinin gərginliyi, müqavilə potensialının tənzimlənməsi ən yüksək səviyyədə həll edildi. Bu illər ərzində Azərbaycanda miqrasiya proseslərinin dinamikası və təkamülündə dəyişikliklərin baş verməsi İEÖ-ə xas yeni meyllərin yaranması müşahidə olunurdu. Məcburi miqrasiya tamamilə dayandırıldı, iqtisadi və sosial amillərlə bağlı miqrasiya prosesləri intensivləşdi. Miqrasiya proseslərinin həm forma, həm motiv, həm də mahiyyət baxımından dəyişməsi başlanğıcını götürdü. Bütövlükdə isə bu mərhələdə miqrasiya siyasətini həyata keçirən vahid dövlət statuslu qrum, mərkəzləşdirilmiş dövlət idarəsi hələlik təsis olunmamışdır. Buna sonrakı illərdə nail olundu.

Azərbaycanda İEÖ-in tarixən formalaşmış miqrasiya siyasəti və təcrübəsinin təhlili, ölkənin sosial-iqtisadi inkişafına və milli maraqlarına əsaslanan konsepsiyaların, dövlət proqramlarının, qanunların qəbul olunmasına və icrasına 2003-cü ildən başlanıldı. Həmin dövrdə miqrasiya sahəsində həyata keçirilən dövlət siyasətinin Azərbaycan tarixində əvvəllər rast gəlinməyən konsepsiyaların qəbul edilməsi, xüsusi dövlət qrumunun yaradılması, dünya standartlarına uyğun peşəkar kadrların yetişdirilməsi, bu proseslərin bütövlükdə ölkənin daxili və xarici fəaliyyəti ilə əlaqələndirilməsi və s. bütün bunlar miqrasiya siyasəti və miqrasiyanın idarə olunmasının yeni mərhələyə keçməsinə şərait yaratdı.

2003-cü ildən Azərbaycanda məcburi miqrant axını olmasa da bütövlükdə Ermənistan-Azərbaycan müharibəsinin ədalətli həllini tapması, soydaşlarımızın tarixi vətənlərinə qayıdışının reallaşdırılması bu sahədə vəziyyəti səciyyələndirən xüsusiyyətlərdən biri olaraq qalır. Lakin əsas məsələ, ölkədə miqrasiya proseslərinin 90-cı illərlə müqaisədə o qədər də asan olmamasıdır.

Miqrasiya siyasəti sahəsində qəbul edilən konsepsiyalar və dövlət proqramlarında Azərbaycan Respublikasının bütün regionlarında, o cümlədən də NMR-də miqra-

siya proseslərinin tənzimlənməsi istiqamətində tədbirlərin həyata keçirilməsi nəzərdə tutulmuşdur.

Bu dövrdə Azərbaycan Respublikasında, həmçinin NMR-də miqrasiya proseslərinə mümkün təsirlər və onların nəticələri barədə aşağıdakıları söyləmək olar.

Miqrasiya reallığı müstəqilliyimizin ilk illərində bütün dünyada və postsovet məkanında baş verən transformasiyalarla əlaqədar olaraq dəyişikliklıyə uğramışdı. Yeni müstəqil dövlətlərin bir çoxunda (MDB məkanında) sabitliyin olmaması, siyasi mübarizə və çəkişmələr, dövlətdaxili və dövlətlərarası münaqişələr yenə də miqrant axınlarının əsas motivini təşkil etməkdə idi; Son illərdə Azərbaycanda sosial-iqtisadi inkişaf səviyyəsinin yüksəlməsi bu regionu xarici ölkələrin əhalisi üçün cəlbedici ölkəyə çevirmişdir; Azərbaycan Respublikasının (o cümlədən NMR-in də) geostrateji mövqeyinə uyğun olaraq, burada müxtəlif istiqamətlərə yönəlmiş tranzit miqrasiyanın arzuolunmaz nəticələrinin qarşısının alınması sahəsində kompleks tədbirlərin həyata keçirilməsinə böyük zərurət mövcud idi; Azərbaycanın qlobal məkana, dünya iqtisadiyyatına inteqrasiyası, transmilli enerji layihələrinə qoşulması xarici əmək miqrasiyasının intensiv mərhələyə keçid almasını şərtləndirmişdir. Bu istiqamətdə ən prioritet məsələ qeyri-leqal işçi qüvvəsi axınının ölkəyə gəlməsinin qarşısını alan tədbirlərin təşkil edilməsi idi; Dünya inkişafının prioritet istiqamətlərinə, qabaqcıl ölkələrin təcrübəsinə uyğun olaraq ölkəyə intelektual-elmi miqrasiyanın cəlb edilməsi, "beyin axını"na qarşı yönəlmiş siyasətin həyata keçirilməsi üçün tədbirlər sisteminin hazırlanması qarşıda duran əsas məsələlərdən biridir; Miqrasiya, inteqrasiya və adaptasiya siyasətini həyata keçirən struktur islahatlarının ardıcıl gerçəkləşdirilməsi davam etdirilməli idi; Müstəqillik tarixində ən böyük problem Ermənistanla müharibənin sülh yolu ilə həllinə nail olmaq, 1 milyondan çox məcburi köçkünün işğaldan azad ediləcək torpaqlara qaytarılmasına nail olmaq bu gün də dövlətin həm bütün sahələrdə, həm də miqrasiyanın idarə olunmasında ən prioritet vəzifələridən biri olaraq qalır; Dünya elm, təhsil və informasiya məkanına inteqrasiya prosesləri ilə əlaqədar olaraq intellektual, təhsil və tələbə miqrasiyasının məqsədyönlü tənzimlənməsi üçün tədbirlərin həyata keçirilməsi davam etdirilir; Bütün bu sadalanan problemlər əsasında miqrasiyanın idarə olunmasının zamanın tələblərinə, regional və qlobal reallığa uyğun yeni siyasətin gerçəkləşdirilməsi istiqamətində yeni layihə və proqramlar hazırlanırdı.

Azərbaycan Respublikasının 2007-ci il 23 may tarixdə qəbul olunmuş "Milli Təhlükəsizlik Konsepsiyası"nda dövlətin miqrasiya siyasəti "Azərbaycan Respublikasının milli təhlükəsizlik siyasətinin əsas istiqamətləri" sırasına daxil edilmişdir. Konsepsiyada qeyd olunur: Son illərin təhlili göstərir ki, respublikada, o cümlədən də NMR-də müşahidə olunan sürətli sosial-iqtisadi inkişaf, energetika və nəqliyyat sahələrində beynəlxalq kominikasiyaların genişlənməsi, eyni zamanda regionun geosiyasi mövqeyi miqrasiya proseslərini intensivləşməsinə gətirib çıxarmışdır. Bu da öz növbəsində, Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafı və milli maraqlara uyğun miqrasiya siyasətinin həyata keçirilməsinin, onun əsasında miqrasiya proseslərinin təkmilləşdirilməsini şərtləndirir [4].

2006-2008-ci illər üçün qəbul olunmuş DMP-da Naxçıvan Muxtar Respublikasında miqrasiya sahəsində dövlət siyasətinin həyata keçirilməsi, qanunvericiliyin beynəlxalq normalara və müasir dövrün tələblərinə uyğun

təkmilləşdirilməsi, sabit sosial-iqtisadi və demoqrafik inkişafın təmin edilməsi, əmək ehtiyatlarından səmərəli istifadə edilməsi, burada əhalinin mütənasib yerləşdirilməsi miqrantların intellektual və əmək potensialından istifadə edilməsi, tənzimlənməyən miqrasiya proseslərinin mənfi təsirinin aradan qaldırılması, qeyri-qanuni miqrasiyanın qarşısının alınması nəzərdə tutulmuşdur.

Miqrasiya proseslərinin və miqrantların cəmiyyətdə artan rolunu nəzərə alaraq, bu sahədə müvafiq dövlət orqanlarının fəaliyyətinin əlaqələndirilməsi məqsədi ilə 19 mart 2007-ci ildə Dövlət Miqrasiya Xidməti yaradılmışdır. Regionlarda miqrasiya proseslərinin lazımi qaydada tənzimlənməsi üçün Dövlət Miqrasiya Xidmətinin iki regional idarəsi Şirvan və Yevlax regional idarələri fəaliyyətə başlamışdır. AR-dan fərqli olaraq Muxtar Respublikada Miqrasiya Xidməti Şöbəsi 2005-ci ildə Daxili İşlər Nazirliyinin nəzdində yaradılmış və 2010-cu ildən etibarən isə DİN-nin tərkibindən ayrılmış və müstəqil dövlət orqanı kimi fəaliyyət göstərməyə başlamışdır.

NMR-də Dövlət Miqrasiya Xidmətinin fəaliyyət istiqamətləri aşağıdakı kimi müəyyənləşdirilib:

-miqrasiya sahəsində vahid dövlət miqrasiya siyasətinin formalaşdırılmasında iştirak edir, bu siyasətin həyata keçirilməsini təmin edir və həmin sahədə aidiyyəti dövlət orqanlarının fəaliyyətini əlaqələndirir;

-öz səlahiyyətləri daxilində miqrasiya proseslərinin idarə edilməsi və tənzimlənməsini həyata keçirir;

-miqrasiya prosesləri üzərində dövlət nəzarətini həyata keçirir;

-immiqrasiya haqqında Azərbaycan Respublikası qanunvericiliyini təmin edir, emiqrasiyanın və daxili miqrasiyanın tənzimlənməsində iştirak edir;



-aidiyyatı dövlət orqanları ilə qarşılıqlı əlaqədə qanunsuz miqrasiyanın qarşısının alınması ilə bağlı tədbirlərin işlənib hazırlanmasında və həyata keçirilməsində iştirak edir;

-Azərbaycan Respublikasının vətəndaşlığı və siyasi sığınacaq verilməsi məsələlərinin baxılmasında iştirak edir;

-qaçqınlar haqqında AR qanunvericiliyinin icrasını təmin edir;

-miqrasiya sahəsində vahid uçot sisteminin tətbiqini həyata keçirir;

-Azərbaycan Respublikasının beynəlxalq müqavilələri ilə tənzimlənən və DMX-nin səlahiyyətinə aid olan məsələlər üzrə respublikanın götürdüyü öhdəliklərin yerinə yetirilməsini təmin edir.

Həmçinin miqrasiya proseslərinin tənzimlənməsi bu sahədə mövcud beynəlxalq təcrübənin öyrənilərək ölkə daxilində tətbiqini, milli qanunvericiliyin beynəlxalq standartlara uyğun təkmilləşdirilməsini, iki və çox tərəfli əsasda beynəlxalq müqavilələrin bağlanmasını, digər ölkələrlə qarşılıqlı şəkildə miqrasiya siyasətinin uzlaşdırılmasını vacib məsələyə çevirir.

Miqrasiya sahəsində kadr hazırlığının təşkili və aidiyyatı dövlət orqanları arasında informasiya mübadiləsinin təmin edilməsi bu vəzifələr sırasına daxil edilir.

Son illərdə bütün regionlarda olduğu kimi NMR-də də daxili miqrasiyanın (o cümlədən də, "gündəlik miqrasiya") rayon və kəndlərdən əhalinin şəhərlərə axınını tənzimləmək, inzibatı rayonların iqtisadi inkişafını sürətləndirmək üçün 11 fevral 2004-cü ildə qəbul olunmuş "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı (2004-2008-ci illər) Dövlət Proqramı" önəmli rol oyna-

maqla, regionlardan Bakıya və digər iri şəhərlərə (Naxçıvan və.s) yüksək axın prosesinin qarşısının alınması iqtisadi siyasətdə mühüm vəzifələrdən biri kimi müəyyənləşdirilmiş, sosial ədalət prinsipinin qorunması baxımından hər bir bölgənin əsaslı inkişafı vacib sayılmışdır. Dövlət Proqramı regiondaxili miqrasiyanın tənzimlənməsi sahəsində mükəmməl konsepsiya olmaqla, sosial-iqtisadi sahələrlə bağlı daxili miqrasiyanın fəsadlarının aradan qaldırılmasına yönəldilmişdir [1].

"Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı dövlət proqramı"na uyğun olaraq Naxçıvan Muxtar Respublikasında iqtisadi və sosial inkişafın təmin olunması üçün investisiya siyasətinin artırılması və daha əlverişli investisiya mühitinin təmin edilməsi məqsədilə bütün investorlar üçün azad rəqabət mühitinin yaradılması, yeni iş yerlərinin yaradılmasını məhdudlaşdıran amillərin aradan qaldırılması və əmək ehtiyatlarından daha dolğun istifadə etməklə səmərəli məşğulluğun təmin edilməsi, regionda mövcud sənaye müəssisələrinin fəaliyyətinin bərpa və yenidən qurulması və yeni müəssisələrin yaradılması (xüsusilə kənd təsərrüfatı məhsullarının emalı müəssisələrinin bər-pasına və ixrac potensialının artırılmasına), nəqliyyat sisteminin səmərəli inkişafının təşkil edilməsi regiondaxili yol-nəqliyyat infrastrukturunun tarazlı inkişafı, şəhər, rayon mərkəzlərində və eləcədə kənd yerlərində su və kanalizasiya sistemlərinin bərpası və yeni xətlərin, qurğuların tikilməsi, bütün yaşayış məntəqələrində yeni müasir standartlara uyğun məktəb binalarının tikilməsi və müvafiq ava-danlıqlarla təmin olunması və s. kimi tədbirlər planının həyata keçirilməsi nəzərdə tutulmuşdur .



NMR-də SSRİ-dövründə fəaliyyət göstərən təsərrüfat obyektlərində məşğul olanların sayı 9,3 min nəfər təşkil edirdi (1988-ci il).

Müstəqilliyin ilk illərində təsərrüfat obyektlərinin fəaliyyətinin dayanması iş yerlərinin bağlanması ilə nəticələndi. Bu da miqrasiya proseslərinin intensivləşməsinə səbəb oldu. 2004-2008 və 2009-2013-cü illərdə Dövlət Proqramları əsasında yaradılmış yeni müəssisə və təşkilatlarda açılmış iş yerləri miqrasiya proseslərinin əvvəlki illərə nisbətən azalmasına şərait yaratmışdır. 2004-2008-ci illərdə Dövlət Proqramı əsasında 37,1 min yeni iş yeri açılmışdır ki, onların 7,6 mini yeni yaradılmış müəssisə və təşkilatların payına düşür (şəkil 4.2).

2009-2013-cü illərdə isə cəmi 20,8 min iş yeri açılmış, onlardan 0,8 mini yeni yaradılmış müəssisə və təşkilatlarda cəmlənmişdir. Gələcəkdə tənəzzülə uğramış təsərrüfat obyektlərinin bərpası, yenilərinin yaradılması və xarici (Türkiyə və İsrail) investsiya hesabına dağ-mədən sənayesinin inkişaf etdirilməsi istiqamətində aparılan işlər burada iqtisadiyyatın inkişafında əsaslı rol oynamaqla, əhalinin məğulluq probleminin həll edilməsi istiqamətində əhəmiyyətli addım olacaqdır. Bütün bunlar isə MR-də əhalinin miqrasiyasının və demoqrafik proseslərin nizamlanmasına müsbət təsirini göstərməkdədir.

2004-2009–cu illərdə Muxtar Respublikanın iqtisadi göstəriciləri 3 dəfədən çox artmışdır. Bu dövr ərzində 184 yeni istehsal və xidmət sahəsi yaradılıb. 40028 yeni iş yerləri açılmışdır ki onun da 25942-i, yaxud 65%-i daimi iş yerləridir.




Şəkil 4.1 Naxçıvan Muxtar Respublikasının iqtisadi inkişaf xəritəsi (2013-cü il)



MR-in bütün yaşayış məntəqələri elektrik və qazla təmin olunmuşdur və su kəmərləri çəkilmişdir. 700-ə yaxın obyektin tikintisi və bərpa olunması həyata keçirilmişdir.

ÜDM istehsalının həcmi 3,5 dəfədən çox artaraq 232 milyon manatdan 796 milyon manata çatmışdır.

Bütün bu infrastruktur lahiyələri regionun sosial-iqtisadi vəziyyətini yaxşılaşdırmaqla miqrasiya proseslərinə də öz müsbət təsirini göstərmişdir.

2006-cı il 25 iyul tarixində qəbul olunmuş "Azərbaycan Respublikasının DMP-ı (2006-2008- ci illər)" üç strateji istiqamətdən ibarət idi:

1. Azərbaycan Respublikasında (o cümlədən NMR-də) miqrasiya proseslərinin xüsusiyyətləri; 2. Miqrasiya sahəsində dövlət siyasətinin əsas istiqamətləri; 3. Beynəlxalq əməkdaşlıq.

Proqramın I hissəsində qeyd olunurdu: miqrasiya sahəsində regionun dövlət siyasətinin müəyyən edilməsi üçün ilk növbədə burada miqrasiya proseslərinin mövcud vəziyyəti nəzərə alınmalıdır.

Miqrasiya proseslərinin təhlili aşağıdakı miqrasiya axınlarını müəyyən etməyə imkan verir: daxili və xarici miqrasiya.

1990-1999-cu illərdə Naxçıvan Muxtar Respublikasında daxili miqrasiya axınlarının əsas səbəbi sosial-iqtisadi amillər olmuşdur. Sosial-iqtisadi miqrasiya prosesində iqtisadi islahatların həyata keçirilməsi, özəlləşdirmə prosesi və mövcud olmuş iqtisadi və sosial səbəblərlə əlaqədar rayonlardan iri şəhərlərə, xüsusilə Bakıya və Abşeron iqtisadi rayonuna köçən əhali iştirak edir. Son illər Naxçıvan Muxtar Respublikasında sosial iqtisadi inkişaf proqramı çərçivəsində görülən tədbirlər miqrantların öz yaşayış yerinə qayıtması üçün şərait yaratmışdır. Daxili

miqrasiya axınlarının tənzimlənməsi ilə bağlı tədbirlər "Azərbaycan Respublikası Regionlarının sosial-iqtisadi inkişafı (2004-2008, 2009-2013-cü illər) Dövlət Proqramlar"ı və 2004-cü ildə "Qaçqınların və məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması və məşğulluğunun artırılması üzrə dövlət proqramın"da təsbit edildiyindən, hazırkı dövlət proqramında əsas diqqət xarici miqrasiya proseslərinin tənzimlənməsinə yönəldilmişdir.

NMR-də xarici miqrasiyada əmək miqrasiyasının xüsusi çəkisi daha çoxdur. Regionun iqtisadiyyatı inkişaf etdikcə, daxili əmək bazasında iştirak edən əcnəbilərin sayı artmaqdadır. MR ərazisində müvafiq qanunvericiliyin tələblərinə uyğun olmadan buraya gələn, qalan və ya işləyən əcnəbilər qeyri–qanuni miqrantlar da vardır.

1990-cı illərin əvvəllərində əmək miqrasiyası Naxçıvan Muxtar Respublikası vətəndaşlarının xarici ölkələrə axını ilə xarakterizə olunurdu, son illərdə isə regiondakı siyasi sabitlik və sosial-iqtisadi inkişaf xaricə miqrasiya axınını azaltmışdır.

Miqrasiya sahəsində dövlət siyasətinin prioritet istiqamətlərinə gəldikdə isə buraya aşağıdakılar aiddir.

Miqrasiya siyasətinin əsas məqsədi regionun milli təhlükəsizliyini və milli maraqlarını qorumaqla miqrasiya axınlarının tənzimlənməsi nəzarətsiz miqrasiya prosesləri neqativ nəticələrin qarşısının alınması, miqrantların öz hüquqlarını həyata keçirmək üçün şəraitin yaradılmasıdır.

Regionda miqrasiya siyasətinin əsas vəzifələrinə aşağıdakılar daxil edilmişdir: Miqrasiya proseslərindən regionun inkişafı üçün səmərəli istifadə olunması; miqrasiya proqramlarının və tədbirlərinin həyata keçirilməsində regionun, cəmiyyətin və insanların mənafelərinə riayyət edilməsi; qeyri-qanuni miqrasiyanın qarşısının alınması;



miqrantların mövcud sosial-iqtisadi vəziyyətə adabtasiyasını sürətləndirən şəraitin yaradılması; miqrantların hüquqlarının müdafiəsidir.

Miqrasiya siyasəti qanunlara riayyət edilməsi və miqrantlar arasında irsi, dini, cinsi mənsubiyyətinə vətəndaşlığına, yaşına, hər hansı sosial qrupa ciddiyyətinə və ya siyasi baxışlarına görə ayrı seçkiliyin yolverilməzliyi prinsipləri əsasında həyata keçirilməlidir. Siyasətin həyata keçirilməsi ciddiyyəti dövlət orqanlarının bu Dövlət Proqramı çərçivəsində aşağıdakı əsas istiqamətlər üzrə fəaliyyəti nəzərdə tutulur:

-miqrasiya proseslərinin proqnozlaşdırılması, sosial-iqtisadi və demoqrafik vəziyyətdə dəyişikliklər nəzərə alınaraq səmərəli miqrasiya siyasətinin formalaşdırılması, miqrasiya sahəsində idarəetmə mexanizminin təkmilləşdirilməsi;

-miqrasiya sahəsində qanunvericiliyin təkmilləşdirilməsi üzrə təkliflərin hazırlanması, qanunlarda olan boşluqların və ziddiyyətlərin aradan qaldırılması, miqrantların və dövlətin qarşılıqlı hüquq və vəzifələrini müəyyən edən hüquqi bazanın yaradılması;

-miqrasiya sahəsində dövlət tərəfindən tənzimlənməsinin səmərəliliyinin artırılması, funksiyaların təkrarlanmasının qarşısının alınması məqsədi ilə müvafiq tədbirlərin həyata keçirilməsi, aidiyyatı dövlət orqanlarının miqrasiya sahəsində fəaliyyətinin əlaqələndirilməsi və s.

Dövlət Proqramının "beynəlxalq əməkdaşlıq" adlanan hissəsi təbii ki, həm dövlətin müvafiq sahədə fəaliyyəti, həm də bizim təhlil etdiyimiz mövzu baxımından diqqəti cəlb edir. Burada qeyd olunur ki, miqrasiya proseslərinin tənzimlənməsi beynəlxalq təcrübənin öyrənilməsini və ondan istifadə olunmasını, region daxilində miq-

rasiya qaydaları beynəlxalq standartlara uyğun təkmilləşdirilməsi, iki və çox tərəfli əsaslarda beynəlxalq müqavilələrin bağlanmasını, digər ölkələrlə qarşılıqlı şəkildə miqrasiya siyasətinin uzlaşdırılmasını şərtləndirir.

Regionda miqrasiya proseslərinin tənzimlənməsinin əsas prinsiplərinə isə aşağıdakılar daxildir:

Bütün miqrantların hüquq və azadlıqlarının beynəlxalq hüquq normaları və prinsipləri gözlənilməklə qanun əsasında müdafiəsi; regionun təhlükəsizliyinin milli maraqlarının qorunmasının təmin edilməsi; miqrantların məcburi aktlardan, ksenofobiyalardan, xüsusilə qadın və uşaqların insan alveri məqsədilə istifadə hallarından müdafiə olunması; müxtəlif kateqoriyalı miqrantların problemlərinin həll edilməsi; "qaçqın" statusu almaq niyyətində olan və sığınacaq axtaran şəxslərə və digər məcburi miqrantlara beynəlxalq təşkilatlar və dövlət tərəfindən maddi və hüquqi yardımların göstərilməsi miqrantların özünü təminat məsələlərinə şəraitin yaradılması və könüllü şəkildə öz ölkələrinə qayıtmalarının və üçüncü ölkəyə getmələrinin təşkili; əmək miqrasiyası proseslərinin tənzimlənməsində regionun sosial-iqtisadi və demoqrafik inkişafının nəzərə alınması və s.

NMR-də elm və təhsil sahəsində dövlət proqramının qarşıya qoyduğu vəzifələr kompleksi də diqqəti cəlb edir. Miqrasiya proseslərinin vəziyyətinin elmi proqnozlaşdırılmasının və monitorinqinin təşkili, xarici ölkələrə qanuni miqrasiya qaydaları haqqında məlumat bülletenlərinin hazırlanması və yayılması, miqrasiya sahəsində kadr hazırlığının təşkili, dövlət orqanları arasında miqrasiya sahəsində informasiya mübadiləsinin təmin edilməsi və s.-dir.



Miqrasiya siyasəti sahəsində əsas fəaliyyət istiqamətlərinə isə aşağıdakılar daxildir: miqrasiya proseslərinə nəzarətin təmin edilməsi, qeyri-leqal miqrasiyanın qarşısının alınması; qeyri-qanuni miqrantların NMR-dən çıxarılması və mənşə dövlətlərinə qaytarılması sahəsində tədbirlər görülməsi; miqrasiya proseslərinin idarə olunmasında iştirak edən müvafiq dövlət orqanlarının fəaliyyətinin digər aidiyyatı dövlət orqanları ilə əlaqələndirilməsi; yoluxucu xəstəliklərin miqrantlar vasitəsi ilə Naxçıvan Muxtar Respublikasına gətirilməsinin və yayılmasının qarşısının alınması üzrə kompleks proqramların hazırlanması və həyata keçirilməsi; regionda "beyin axını"nın, yüksək ixtisaslı mütəxəssislərin köçməsinin qarşısının alınmasına yönəlmiş dövlət tədbirlərinin həyata keçirilməsi; vətəndaşların miqrasiya məsələləri ilə bağlı məlumatlandırılmasını təmin edəcək Miqrasiya İnformasiya Mərkəzinin yaradılması; regionun hər il üçün immiqrasiya, o cümlədən əmək miqrasiyası kvotasının müəyyənləşdirilməsi və s.

Naxçıvan Muxtar Respublikasının DİN qanunsuz miqrasiyanın qarşısının alınması sahəsində bir çox tədbirlər həyata keçirir. Həyata keçirilmiş əməliyyat tədbirləri nəticəsində 2009-cu ildə Miqrasiya Xidmət Şöbəsi tərəfindən NMR-in ərazisində müvafiq icazəsi və ya qeydiyyatı olmayan 112 nəfər əcnəbi saxlanılmışdır. Saxlanılanlardan 25 nəfəri kənara çıxarılmış, 87 nəfəri müvafiq qaydada cərimə edilmişdir. Saxlanılanların əksəriyyətini MDB ölkələrinin vətəndaşları təşkil edir.

Bu sahədə NMR-in DİN tərəfindən zəruri tədbirlərin icrası davam etdirilir, "Azərbaycan Respublikasında İnsan Alverinə Qarşı Mübarizə üzrə Milli fəaliyyət planı"na uyğun olaraq, NMR-in ayrı-ayrı inzibat rayonlarında əhalinin

marifləndirilməsi ilə bağlı tədbirlər davam etdirilməkdədir. Belə ki, MR-in müxtəlif rayonlarında dəyirmi masalar, seminarlar və s. tədbirlər keçirilir.

2004-cü il 6 may tarixli "İnsan alverinə qarşı mübarizə üzrə milli fəaliyyət planı"na uyğun olaraq bu sahədə həyata keçirilən tədbirlərin davamı olaraq, 2009–cu ilin fevral ayında Azərbaycan Respublikasının 2009-2013-cü illər üçün "İnsan alverinə qarşı mübarizə" üzrə yeni milli fəaliyyət planı qəbul edilmişdir.

Naxçıvan Muxtar Respublikasının DİN-nin pasport qeydiyyatı və Miqrasiya Xidməti Şöbəsinin məlumatına görə 2009-cu il ərzində 114 əcnəbi müvəqqəti qeydiyyata alınmış, 148 əcnəbi isə daimi qeydiyyatdadır. NMR-ə gələn əcnəbi və ya vətəndaşlığı olmayan şəxslərin əksəriyyətini MDB ölkələrindən gələn vətəndaşlar təşkil edir. DİN-nin məlumatına görə 2007-ci ildə MR-də əcnəbi miqrantların sayı 300 nəfər, 2006-cı ildə isə cəmi 155 nəfər olmuşdur. Əmək miqrasiyası sahəsində dövlət siyasətinin təkmilləşməsi, bu sahədə beynəlxalq əməkdaşlığın genişləndirilməsi də müasir dövrdə ən mühüm məsələlərdəndir.

Azərbaycan Respublikasının (NMR-in əməkçi miqrantları da daxil olmaqla) əmək miqrasiyası sahəsində ikitərəfli əməkdaşlığını qeyd edərkən ilk növbədə, 8 fevral 2000-ci il tarixli Azərbaycan Respublikası Qanunu ilə təsdiq edilmiş Azərbaycan Respublikası ilə BMT arasında əməkdaşlıq sazişini qeyd etmək lazımdır. Sazişlə BMT-nin Azərbaycanda potensiallarının yaradılması, miqrasiya məsələləri üzrə məsləhət xidmətləri və digər texniki əməkdaşlıq fəaliyyətləri, miqrasiya haqqında informasiya, vətəndaşların və əcnəbilərin miqrasiyası, həmçinin əmək miqrasiyası, qaçqın və məcburi köçkünlərə miqrasiya yardımları, yüksək ixtisaslı kadrların qayıtması və s.



miqrasiya proqramlarının həyata keçiriləcəyi razılaşdırılmışdır. Beləliklə, bu saziş əmək miqrasiyası sahəsində Azərbaycan Respublikasının fəaliyyətinin əsas istiqamətlərini müəyyən edir [33, 210].

Azərbaycan Respublikası ilə Qırğızıstan, Ukrayna və Moldova hökumətləri arasında əməkçi miqrantların sosial müdafiəsi haqqında ikitərəfli saziş imzalanmışdır. Bundan başqa Azərbaycanla Gürcüstan, Türkiyə və Qırğızıstan arasında bağlanan "pensiya təminatı sahəsində əməkdaşlıq haqqında sazişlər"də əməkçi miqrantların sosial hüquqlarının təminatlarına dair mühüm müddəalar öz əksini tapmışdır.

Miqrasiya siyasətinin mühüm istiqamətlərindən biri MR-dən əmək miqrasiyası məqsədi ilə xaricə gedən miqrantların hüquqlarının müdafiəsi, vaxtaşırı xarici dövlətlər tərəfindən həyata keçirilən yeni miqrasiya rejimləri adlanan tədbirlər nəticəsində buraya qayıdan miqrantların problemlərinin tənzimlənməsidir. Məlumdur ki, NMR-dən xarici əmək miqrasiyası məqsədi ilə ən çox Türkiyə Respublikasına, Rusiya Federasiyasına və digər MDB ölkələrinə üz tuturlar.

Son illər Naxçıvan Muxtar Respublikasında aparılan quruculuq işləri, əhalinin sosial təminatının yaxşılaşdırılması, yeni iş yerlərinin açılması əhalinin iş axtarmaq üçün xarici ölkələrə getməsinin qarşısını nisbətən almağa müvəffəq oldu. Ötən illərlə müqaisədə Türkiyə Respublikasına gedənlərin sayı xeyli azalaraq 2005-ci ildə 6 min nəfərdən 2008-ci ildə 4 min nəfərə enmişdir. Bu da NMR-in iqtisadiyatında müşahidə olunan sabit artım tempi, əhalinin həyat səviyyəsinin yüksəldilməsi və səmərəli məşğulluğun təşkili üçün əlverişli şəraitin yaradılması ilə bağlıdır. Bu istiqamətdə aparılan məqsədyönlü siyasətin nəticəsidir ki,

təkcə 2008-ci ildə 7000-ə yaxın iş yerləri açılıb. Onlardan da 4500-ü daimi iş yerləridir. Həmçinin yeni iş yerlərinin açılması, həyat səviyyəsinin getdikcə yüksəlməsi xarici ölkə vətəndaşlarının da diqqətini cəlb etməyə başlamışdır [9].

Azərbaycan Respublikasının bütün regionlarında, həmçinin də NMR-də "beyin axını"nın qarşısının alınması yeni miqrasiya siyasətinin əsas prinsiplərindən birini təşkil edir. Müasir dünyanın İEÖ-nin "selektiv miqrasiya" siyasəti də məhz bu məqsədi daşıyır. İntellektual miqrantlar kateqoriyasına əsasən "transmilli həyat tərzi" xasdır. Bu mexanizmlərlə onların MR-də keyfiyyət baxımından inovasiyalı cəmiyyətin formalaşması üçün cəlb edilməsi mühüm iqtisadi fayda verə bilər.

NMR-də müstəqillik dövründə miqrasiya probleminin tənzimlənməsi sahəsində dövlət siyasətini ümumiləşdirərək aşağıdakı nəticəyə gəlmək olar:

Müstəqilliyin ilk illərində regionda miqrasiya prosesi müəyyən dərəcədə siyasi, milli və etnik xarakter daşıyırdısa, sonrakı illərdə onun başlıca səbəbini iqtisadi motivlər təşkil etmişdir. Əgər 90-cı illərdə əmək miqrasiyası MR vətəndaşlarının xarici ölkələrə axını ilə xarakterizə olunurdusa, hazırkı dövrdə regiondakı sosial-iqtisadi və siyasi inkişaf xaricə miqrasiya axınını nisbətən azaltmışdır.

MR-də sosial iqtisadi inkişafın artım templəri, yeni infrastruktur layihələrin həyata keçirilməsi və s. sahələrdə regionda davamlı sabit irəliləyişin təmin olunması müasir mərhələdə MR-i xarici vətəndaşlar üçün cəlbedici regiona çevirmişdir. Buraya həm tənzimlənən, həm də qanunsuz miqrasiya axınları davam edir. Bu da öz növbəsində yeni problemlərin ortaya çıxmasını şərtləndirir.



Regionda işsizlik probleminin həll edilməsinə qədər əmənkçi miqrantların gəlişi məhdudlaşdırılmalıdır. Çünki, buraya ucuz işçi qüvvəsiin axını sosial-iqtisadi inkişafın məqsədlərinə müvafiq deyil.

Hazırda miqrasiya siyasəti dövlətin və cəmiyyətin diqqət mərkəzində yerləşən prioritet məsələyə çevrilmişdir. Bu isə öz növbəsində sadəcə miqrantların gediş və gəlişinin intensivləşməsi məsələsi deyil, miqrasiyanın idarə olunmasının optimal modelinin seçimi kimi sosial, iqtisadi və siyasi məsələdir.

## İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT

### Azərbaycan dilində


1. Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər). "Azərbaycan" qəz., Bakı, 2004,13 fevral.
2. Azərbaycan Respublikası regionlarının 2009–2013–cü illərdə sosial–iqtisadi inkişafı Dövlət Proqramı. "Respublika" qəz., Bakı, 2009, 16 aprel.
3. Azərbaycan Respublikasının Dövlət Miqrasiya İdarəetmə Konsepsiyası 13 iyul 2004-cü il. Azərbaycan Respublikası qanunvericilik toplusu 2004-cü il № 7, maddə 585.
4. Azərbaycan Respublikası Milli Təhlükəsizlik Konsepsiyası 23 may 2007–ci il. Bakı, 2007.
5. Azərbaycan Respublikası məşğulluq strategiyası (2006-2015-ci illər). 26 oktyabr 2005-ci il. Bakı, 2005.
6. Azərbaycanın regionları. 2004. Bakı, Səda, DSK. 2005, 697s.
7. Azərbaycanın regionları. 2006. Bakı, Səda, DSK. 2007, 713s.
8. Azərbaycanın regionları 2007. Bakı, Səda, DSK. 2008, 709s.
9. Azərbaycanın regionları 2008. Bakı, Səda, DSK. 2009, 659s.
10. Azərbaycanın regionları 2013. Bakı, Səda, DSK. 2014, 768s.
11. Azərbaycanın demoqrafik göstəriciləri -2013. Bakı, Səda, DSK. 2014, 427s.
12. Azərbaycanın demoqrafik göstəriciləri- 2010. Bakı, Səda, DSK. 2011, 454s.
13. Azərbaycan Respublikası əhalisinin siyahıyaalınması





1999. Qadınların nikah vəziyyəti və doğulan uşaqlarının sayı.10 cilddə III. 1 c., Bakı, Səda, DSK. 2000, 620 s.
14. Azərbaycan Respublikası əhalisinin siyahıyaalınması 1999. Qadınların yaşına və doğulan uşaqların sayına görə bölgüsü. 10 cilddə III. 2 c., Bakı, Səda, DSK. 2001, 634 s.
15. Azərbaycan Respublikası əhalisinin siyahıyaalınması 1999. Əhalinin milli tərkibi. 10 cilddə IV c., Bakı, Səda, DSK. 2000, 582 s.
16. Azərbaycan Respublikası əhalisinin siyahıyaalınması 1999. Əhalinin yaşayış üçün gəlir mənbələri.10 cilddə V c., Bakı, Səda, DSK. 2001, 842 s.
17. Azərbaycan Respublikası əhalisinin siyahıyaalınması 1999. Əhalinin iqtisadi aktivlik statusuna görə bölgüsü. 10 cilddə VI c., Bakı, Səda, DSK. 2001, 855 s.
18. Azərbaycan Respublikası əhalisinin siyahıyaalınması 1999. Əhalinin məşğulluq vəziyyəti.10 cilddə VII c., Bakı, Səda, DSK. 2001, 820 s.
19. Azərbaycan Respublikası əhalisinin siyahıyaalınması 2009. Əhalinin sayı yerləşməsi, cins, yaş və nikah vəziyyəti.23 cilddə, I c., Bakı, Səda, DSK. 2010, 629s.
20. Azərbaycan Respublikası əhalisinin siyahıyaalınması 2009. Qadınların yaşı, nikah vəziyyəti, nikaha daxil olduğu yaş, doğduğu və sağ qalan uşaqların sayına görə bölgüsü. 23 cilddə, IV c., Bakı, Səda, DSK. 2010, 863s.
21. Azərbaycan Respublikası əhalisinin siyahıyaalınması 2009. Əhalinin yaşayış üçün gəlir mənbələri. 23 cilddə, VI c., Bakı, Səda, DSK. 2010, 500s.
22. Azərbaycan Respublikası əhalisinin siyahıyaalınması 2009. İqtisadi fəal əhalinin cinsə, yaş tərkibinə və

nikah vəziyyətinə görə bölgüsü. 23 cilddə, VIII c., Bakı, Səda, DSK. 2010, 612s.
23. Azərbaycan Respublikası əhalisinin siyahıyaalınması 2009. İqtisadi fəal əhalinin təhsil səviyyəsinə görə bölgüsü.23 cilddə, IX c., Bakı, Səda, DSK. 2010, 697s.
24. Azərbaycan Respublikası əhalisinin siyahıyaalınması 2009. Məşgul və işləməyən iqtisadi fəal əhalinin cinsə, yaş tərkibinə və nikah vəziyyətinə görə bölgüsü. 23 cilddə, X c., Bakı, Səda, DSK. 2010, 522s.
25. Azərbaycan Respublikası əhalisinin siyahıyaalınması 2009. Məşğul əhalinin təhsil səviyyəsinə görə bölgüsü. 23 cilddə, XI c., Bakı, Səda, DSK. 2010, 697s.
26. Azərbaycan Respublikası əhalisinin siyahıyaalınması 2009. İşləməyən iqtisadi fəal əhalinin təhsil səviyyəsinə görə bölgüsü.23 cilddə, XII c., Bakı, Səda, DSK. 2010, 697s.
27. Azərbaycan Respublikası əhalisinin siyahıyaalınması 2009. Məşğul əhalinin iqtisadiyyatın sahələri üzrə bölgüsü. 23 cilddə, XIII c., Bakı, Səda, DSK. 2010, 725s.
28. Azərbaycan Respublikası əhalisinin siyahıyaalınması 2009. İşləyən əhalinin məşğulluq statusu. 23 cilddə, XIV c., Bakı, Səda, DSK. 2010, 729s.
29. Azərbaycan Respublikası əhalisinin siyahıyaalınması 2009. Əhalinin milli mənsubiyyətinə, yaşına, ana dili və sərbəst danışdığı digər dillərə görə bölgüsü. 23 cilddə, XIX c., Bakı, Səda, DSK. 2010, 779s.
30. Azərbaycan Respublikası əhalisinin siyahıyaalınması 2009. Əhalinin milli mənsubiyyətinə, təhsil səviyyəsinə və nikah vəziyyətinə görə bölgüsü. 23 cilddə, XX c., Bakı, Səda, DSK. 2010, 686s.
31. Azərbaycan Respublikası əhalisinin siyahıyaalınması 2009. Əhalinin doğulduğu yer, vətəndaşlığı, daxili,



xarici miqrasiyası və miqrasiya səbəblərinə görə bölgüsü. 23 cilddə, XXII c., Bakı, Səda, DSK. 2011, 603s.
32. Azərbaycan Respublikası əhalisinin siyahıyaalınması 2009. Ölkə ərazisinin yaş qrupları üzrə daimi yaşayış yerində yaşadığı müddətə görə bölgüsü. 23 cilddə, XXIII c., Bakı, Səda, DSK. 2010, 555s.
33. Abdullayev F.N. Müasir Azərbaycanda miqrasiya siyasəti və beynəlxalq əməkdaşlıq. Bakı, Azərnəşr, 2009, 328s.
34. Babaxanov N.A., Paşayev N.Ə. Təbii fəlakətlərin iqtisadi və sosial coğrafi öyrənilməsi. Bakı, Elm, 2004, 199 s.
35. Eminov Z. N. Azərbaycanın əhalisi. Bakı, Çıraq, 2005, 560 s.
36. Eminov Z. N. Coğrafiya. Bakı, Çıraq, 2005, 656 s.
37. Əyyubov N.H. Əhalinin məskunlaşmasının idarə olunmasının strateji və geosiyasi zəruriliyi // azərbaycan coğrafiya cəmiyyətinin əsərləri XII cild 2008, s. 301-306.
38. Əfəndiyev V.Ə. Urbanizasiya və Azərbaycanın şəhər yaşayış məskənləri. Bakı, Bakı Universiteti, 2002, 395 s.
39. Əfəndiyev V.Ə., Nağıyev S.Q. Əhali coğrafiyası. Bakı, Bakı Universiteti, 2006, 338s.
40. Əfəndiyev V.Ə., Tahirova H.M. Naxçıvan Muxtar Respublikasında "kəfkirvari miqrasiya"nın müasir vəziyyəti // BDU-nin Xəbərləri. Təbiət elmləri seriyası, 2011, № 4, s. 176-185
41. Əmək bazarı statistik məcmuə, Bakı, DSK. 2012, 189 s.
42. Göyçaylı Ş.Y. Əhali coğrafiyası. Bakı, Marif, 1979, 216 s.
43. Hacızadə Ə.M. Azərbaycan SSR əhalisi və onun məskunlaşması. Bakı, 1965, 216s.

44. Həsənov T.G. İqtisadi-coğrafi rayonlaşdırma. Bakı, Bakı Universiteti, 2012, 245s.
45. İsmayılov Ç. N. İqtisadi və sosial coğrafiyanın əsasları. Bakı, Bakı Universiteti, 2010, 324 s.
46. Qasımov E.E. Naxçıvan Muxtar Respublikası iqtisadiyyatının ərazi təşkili və inkişafının coğrafiyası. Bakı, Təhsil, 2011, 192 s.
47. Məmmədov Z.S. Naxçıvanın təbii sərvətləri. Bakı, Azərnəşr, 1993, 44s.
48. Məmmədov Z.S. Regionların iqtisadi inkişaf problemləri. Bakı, Elm, 2007, 465 s.
49. Məmmədov Z.S. XXI əsr: iqtisadi inkşafın nəqliyyat faktoru. Bakı, Azərnəşr 2002, 384s.
50. Mehbalıyev S.S., İskəndərov P.K. Əmək bazarı və əhalinin sosial müdafiəsi. Bakı, Çaşoğlu, 2002, 544s.
51. Mehdiyev R.Ə. Azərbaycan qloballaşma dövrünün tələbləri. Bakı, 2005, 265s.
52. Mehdizadə M.M. İqtisadiyyatın transformasiyası və Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişaf problemləri. Bakı, Elm, 2006, 167 s.
53. Mehrəliyev E.Q. Məhsuldar qüvvələrin regional yerləşmə məsələləri. Bakı, Mütərcim, 2010, 153s.
54. Mehrəliyev E.Q., Əyyubov N.H., Sadıqov M.O. Azərbaycan SSR-də əhalinin məskunlaşması məsələləri. Bakı, Elm, 1988, 191 s.
55. Mirzəyev T.M. Naxçıvan MSSR-in əmək ehtiyatları və onlardan səmərəli istifadə məsələləri. Bakı, Elm, 1983, 102 s.
56. Muradov Ş.M. İnsan potensialı: əsas meyllər, reallıqlar, problemlər. Bakı, Elm, 2004, 660s.



57. Muradov Ş.M. Naxçıvan Muxtar Respublikası əhalisinin dinamikası və quruluşu: Naxçıvan 75. "Elm" qəzeti, Bakı, 1999, 3 sentyabr.
58. Muradov Ş.M. Azərbaycan Respublikası Əhalisinin dinamikası və quruluşu: əsas demoqrafik və etno demoqrafik dəyişikliklər. Bakı, Elm, 2008, 269 s.
59. Muradov Ş.M. Naxçıvan Muxtar Respublikasında demoqrafik inkişafın və demoqrafiya siyasətinin bəzi aktual problemləri. // NMR iqtisadiyyatı XXI əsrin astanasında, Elmi nəzəri konfransın materialları. Bakı, 1998, s. 12-16.
60. Muradov Ş.M. Naxçıvan Muxtar Respublikasının demoqrafik potensialı // AMEA-nın Xəbərləri. İqtisadiyyat seriyası, Bakı, 1999, № 1-4, s.19-24.
61. Muradov Ş.M., Nadirov A.A. və b. Naxçıvan statistika güzgüsündə. Tarixi statistik məcmuə. Bakı, Elm, 1999, 125 s.
62. Nadirov A.A., Nuriyev Ə.X., Muradov Ş.M. Naxçıvanın iqtisadiyyatı XX əsrdə. Bakı, Elm, 2000, 100s.
63. Nadirov A.A. Azərbaycan iqtisadiyyatının daima yüksələn müstəqillik dövrü. Bakı, 2012, 359s.
64. Naxçıvan ensklopediysı. Bakı, AMEA, 2002, 594 s.
65. Naxçıvan Muxtar Respublikası 75. Tarixi statistik məcmuə. Naxçıvan, Əcəmi, 1999,·96s.
66. Naxçıvan Muxtar Respublikası 80. Tarixi statistik məcmuə. Bakı, Sədа, 2004, 212s.
67. Naxçıvan Muxtar Respublikası 85. Azərbaycan Respublikası Ali Məclisi. Naxçıvan, Əcəmi, 2009, 99s.
68. Naxçıvan: ilk yaşayış və şəhərsalma yeri kimi. // 20-24 iyul 2011-ci ildə keçirilmiş simpoziumun materialları. AMEA Naxçıvan bölməsi, NDU. Naxçıvan, Əcəmi, 2012, 398 s.

69. Naxçıvan bu gün: islahatlar, perspektivlər. // 5-6 oktyabr 2007-ci ildə keçirilmiş simpoziumun materialları. AMEA Naxçıvan bölməsi. Naxçıvan, Nurlan, 2008, 548 s.
70. Naxçıvan Muxtar SSR. Bakı, Elm, 1975, 358.
71. Paşayev N.Ə., Əyyubov N.H., Eminov Z.N. Azərbaycan Respublikasının iqtisadi, sosial və siyasi coğrafiyası. Bakı, Çıraq, 2010, 416 s.
72. Rəcəbli H.M. Müstəqillik dövründə respublikada demoqrafik vəziyyət // "Odlar yurdu" Universitetinin elmi əsərləri, 2006, № 17, s-212
73. Sərdarov M.Ə. Azərbaycanda miqrasiya prosesləri. Bakı, Adiloğlu, 2004, 155s.
74. Sərdarov M.Ə. Ölkədə əhali miqrasiyasının idarə olunmasına diqqət artırılır // "Sosial-siyasi problemlər" məqalələr toplusu, X buraxılış, 2004, Bakı, s-417
75. "Şərq qapısı" qəz., Naxçıvan, 2009, 4 iyun.
76. Tahirova H.M. Naxçıvan Muxtar Respublikasında demoqrafik vəziyyətin təhlili // Azərbaycan Coğrafiya Cəmiyyətinin Əsərləri. XIV cild, 2009, s. 248–250
77. Tahirova H.M. Naxçıvan Muxtar Respublikasının əhalisinin məskunlaşmasına təsir edən amillər // Azərbaycan Coğrafiya Cəmiyyətinin BDU Filialının Əsərləri. III cild, Bakı, 2010, s. 365-370
78. Tahirova H.M. Miqrasiya proseslərinin Naxçıvan Muxtar Respublikasının demoqrafik vəziyyətinin tənzimlənməsinə təsiri // BDU-nin Xəbərləri. Təbiət elmləri seriyası, 2011, № 2, s. 173-181
79. Tahirova H.M. Naxçıvan Muxtar Respublikasında miqrasiya proseslərinin formalaşmasına təsir edən amillər // Doktorantların və gənc tədqiqatçıların XVI respublika elmi konfransının materialları. Bakı, 2012, s. 101-104



80. Tahirova H.M. Naxçıvan Muxtar Respublikasında miqrasiya siyasətinin təkmilləşdirmə istiqamətləri // Azərbaycan Coğrafiya Cəmiyyətinin Əsərləri. XVII cild, Bakı, 2012 s. 395-400.
81. Tahirova H.M. Qloballaşma dövründə Azərbaycanda miqrasiya siyasətinin təkmilləşmə istiqamətləri // Qloballaşma və coğrafiya mövzusunda beynəlxalq elmi-praktik konfransın materialları. Bakı, 2012, s. 695-700.
82. Tahirova H.M. Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafı və ekoloji problemləri // Ekologiya təbiət və cəmiyyət problemləri mövzusunda II beynəlxalq elmi konfransın materialları. Bakı, 2012, s. 128-129.
83. Tahirova H.M. Naxçıvan Muxtar Respublikasında şəhər və kənd əhalisinin təbii artım proseslərinin ərazi fərqləri // BDU-nin Xəbərləri. Təbiət elmləri seriyası, 2013, № 1, s. 174-180.
84. Tahirova H.M. Naxçıvan Muxtar Respublikasının respublikalararası miqrasiya proseslərində yeri // Heydər Əliyev və Azərbaycan coğrafiya elminin inkişafı mövzusunda respublika elmi konfransın materialları. Bakı, 2013, s. 218- 221.
85. Yeni iş yerləri. Statistik məcmuə. Bakı. DSK, yanvar 2009, 294s.

**Rus dində**

86. Андерсон Л., Леви Л. Народонаселение окружаницая среди и качество жизни. Москва, 1979, 379 с.
87. Бреев Б.Д. Подвижность населения и трудовые ресурсы. Москва, 1977 6с.

88. Бьюкенен. П. Смерть Запада, Издательство АСТ, 2002, 461с.
89. Бжезинский З. Великая шахматиал доска. Москва,1999, 321 с.
90. Гердер И. Г. Идеи к Философии человечества. М., 1977, 250 с.
91. Геокчайский Ш.Ю. Межрайонная миграция сельского населения Азерб. ССР. Ученые записки, АГУ, серия геолого-геогр. наук, 1974, №3, стр 67-72.
92. Геокчайский Ш.Ю. Сельское расселение и пути его преобразования. Баку, Азернешр, 1986, 140 стр.
93. Глобализация: контуры XXI века. М., 2004, т. 2, 453 с.
94. Гольдин Г.Г. Международная миграсия. Запад и Россия: проблемы миграционной политики. // Сборник: Реформирование Росси и современный мир. М., РАГС, 1988, с. 47
95. Гумилев Л.Н. Этногенез и биосфера Земли. Л., Гидрометеоиздат, 1990,259 с.
96. Демографический энциклопедический словарь. М., 1985, 365с.
97. Зайончковская Ж.А. Миграционная политика // В кн: Проект программы развития Росси до 2010 г. Москва, 2003, с.14
98. Заграница. Газета об эмиграции, работе и учеба зарубежом . 2001, №12
99. Ионцев В.А. Международная миграция населения: теория и историс. Изучения. М., Диалог-МГУ, 1999, с.16
100. Иммиграционная политика западных стран. Под. Ред. Г.Витковской. Международная организация по миграции. Москва., Гендалов, 2002, 501 с.



101. Караханова Т. М. Некоторые вопросы миграции населения в Узбекской ССР. Ташкент, 1974.
102. Китай: Факты и цифры. Пекин: Издательство Синосин, 2000, 188 с.
103. Киреева С.А. Некоторы проблемы миграционной правовой политики. М., 2003, 276 с.
104. Международная миграция населения. Выпуск 5, М., 2000, 309 с.
105. Миграционная подвижность населения в ССР, Москва, 1974, с.
106. Народ население. Энциклопедический словаръ. М., БМЭ, 1994, 231с.
107. Нагиев С.Г. Миграция населения из Азербайджана в Ближнее и Дальнее зарубежье // Вестник БГУ, Серия Естественных наук, 2008, № 3, с. 175-181
108. Переведенцев В. И. Методы изучения миграции населения. Москва, Наука, 1975, 230с.
109. Переведенцев В.И. Права человека и процессы глобализации современного мира. Москва, 2005, 129с.
110. Похлебаева А.В. Понятие миграчии // Журнал международного права и международных отношений. №3, 2005, с. 35
111. Романюк А.И., Термоте М. Демографическое будущее развитых обществ: между детерминизмом и свободой выбора. Л., 1999, 387 с.
112. Современная миграция населения. М., 1993, 168с.
113. Статистика миграции населения, М., 1983, 179с.
114. Социально–политические последствия международной миграции населения // МЭ. и МО. №3, 2001, с. 41

115. Старченко Г.И. Трудовые миграции между Востоком и Западом. М., 1997, 201с.
116. Старченко Г.И. Трудовые миграций между Востоком и Западом. Второй половина XX столетия Москва. Институт Востоковедения РАН, 1999, с. 44
117. Силантьев Г. Лучшая миграционная политика–в странах Персидского Залива. // Регионы. Новости Федерации, 2008, №6, с. 52.
118. Содружество независимых государств в 2009 году статистический ежегодник. М., 2009, 658с.
119. Трудовая миграция СНГ: социальные и экономические эффекты. Под ред. Ж. Зайончковской. М., 2003, с. 26
120. Таирова Х.М. Влияние демографических процессов на миграцию населения Нахчыванской Автономной Республике // Современные гуманитарные исследования. Москва, 2012, № 6, с. 171-175
121. Таирова Х.М Естественное движение населения Нахичыванской Автономной Республики и влияющие на него демографические процессы
122. Умудова Р.И. Роль процесса миграции в социально-экономическом развити г. Баку // Тезиси докладов научн. конференции молодых географов Сибири и Д. Востока. Иркутск, 1981, 0,2 п.л.
123. Флиппов Н.Н., Сурков В. В. Проблемы формирования трудовых ресурсов села. Свердловск, 1972, 107с.
124. Хореев Б.С., Чапек В. Н., Проблемы изучения миграции населения. М., Мыслъ, 1978, 253 с.
125. Холл П. Мировые города. М., 2001, 99 с.



126. Шамильева Л. Л. Моделирование миграцией населения в районе. Москва, 1975.
127. Юнусов А.С. Миграционные процессы в Азербайджане. Баку, Издательство "Адильоглы", 2009, 344 с.

**İngilis dilində**

128. Fukuyama F. The end of History and the Last man N. Y., 1997, 347 p.
129. Hall B. İmmiqration in European Union: problem or solution? // OECD Observer. 2000, № 221, p. 96
130. Hantington S. // Hispanik Challenge. // Foreign Polisy. March-April, 2004, H. Kane. Leaving Home. State of the World. 1995, 343p.
131. International migration policies. INDEB. Econ-social affairs. Population division-NY., UN, 276 p, Free labour World. İCFTU. September, 1995, 194 p.
132. Stalker P. Workers without frontiers. The impact of Globalization on international Miqration. USA, 2000,341 p.
133. www 1990 -1993. nakhchivan. az
134. www dmfanakhchivan.az

## MÜNDƏRİCAT

Giriş .......................................................................................... 4

**I Fəsil. Əhali miqrasiyasının öyrənilməsinin əhəmiyyəti və nəzəri metodoloji əsasları**

1.1. Müasir mərhələdə əhali miqrasiyasının öyrənilməsinin iqtisadi coğrafi metodologiyası ............................ 6

1.2. Əhali miqrasiyasının öyrənilməsinin demoqrafik əsasları ............................................................................ 14

1.3. Regional miqrasiya siyasətinin iqtisadi-coğrafi aspektləri ............................................................................ 24

**II Fəsil. Naxçıvan Muxtar Respublikasının demoqrafik potensialı və onun əsas inkişaf meylləri**

2.1. Əhali sayının dinamikası ................................................ 44

2.2. Əhalinin təbii hərəkəti ..................................................... 68

2.3. Şəhər və kəndlərdə təbii artımın ərazi fərqləri ......... 91

**III Fəsil. Naxçıvan Muxtar Respublikasında müasir miqrasiya proseslərinin ərazi fərqləri**

3.1 Regionun xarici miqrasiya proseslərində iştirakı 110

3.2. Regionda daxili miqrasiyanın əsas istiqamətləri 125

**IV Fəsil. Naxçıvan Muxtar Respublikasında miqrasiya siyasətinin əsas istiqamətləri**

4.1 Əhali miqrasiyasının formalaşmasının amilləri ..................................................................... 155

4.2 Miqrasiya siyasətinin təkmilləşdirmə istiqamətləri ................................................................ 174

**ƏDƏBİYYAT** ............................................................ 192



***Bu iş Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun maliyyə yardımı ilə yerinə yetirilmişdir.***

***Qrant №EİF/GAM-2-2013-2(8)-25/11/2***

Nəşriyyatın direktoru
***Şöhrət Səlimbəyli***

Texniki redaktor
***Mail Xəlilov***

**H.M. TAHİROVA**

**NAXÇIVAN MUXTAR RESPUBLİKASINDA MİQRASİYANIN DEMOQRAFİK PROSESLƏRƏ TƏSİRİNİN İQTİSADİ – COĞRAFİ PROBLEMLƏRİ**

Format: 60x84 16/1
13 ş.ç.v
Tiraj:300

***Kitab hazır depozitivlərdən çap olunub***

Az 2016
1261



*Tahirova Hicran Mirəhməd qızı*
*Coğrafiya üzrə fəlsəfə doktoru*
*Azərbaycan MEA akad. H.Ə.Əliyev*
*adına Coğrafiya institutu*
*"Demoqrafiya və əhali coğrafiyası"*
*şöbəsinin elmi işçisi.*

2006 - cı ildə Bakı Dövlət Universitetinin bakalavr, 2008 - ci ildə magistr pilləsini fərqlənmə diplomu ilə bitirmiş, 2008 - ci ildə Bakı Dövlət Universitetinin doktoranturasına daxil olmuşdur.

2013-cü ildə "Naxçıvan Muxtar Respublikasında miqrasiyanın demoqrafik proseslərə təsirinin Coğrafi İnformasiya Sistemləri texnologiyası ilə tədqiqi" layihəsi ilə Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun Gənc Alim və Mütəxəssislərin 2-ci qrant müsabiqəsinin qalibi olmuşdur. 2014 - cü ildə "Miqrasiyanın demoqrafik proseslərə təsirinin iqtisadi coğrafi problemləri (Naxçıvan Muxtar Respublikasının timsalında)" mövzusunda dissertasiya işi müdafiə etmişdir.

Ölkədə kecirilmiş bir sıra Beynəlxalq və Respublika səviyyəli konfranslarda iştirak etmişdir. 15 dən artıq elmi məqalənin müəllifidir.

"Avropa"